YYSQ – www.yysq.org

www.kitabxana.net

Milli Virtual-Elektron Kitabxananın təqdimatında

"Çağdaş Azərbaycan detektivi": 24 (01 - 2015)

Çingiz Abdullayev

# "Meymun ili"

*(Detektiv roman)*

YYSQ - Milli Virtual-Elektron Kitabxananın e-nəşri

**Bakı - YYSQ – 2015**

2015

**www.kitabxana.net**

**Milli Virtual-Elektron Kitabxananın təqdimatında**

Bu elektron nəşr Yeni Yazarlar və Sənətçilər Qurumunun **"Çağdaş Azərbaycan detektivi"** ədəbi-kulturoloji layihəsi çərçivəsində təqdim edilir.

**Elektron Kitab N 24** (01 - 2015)

**Kulturoloji layihəni maliyyələşdirən qurum:**

**YYSQ - http://www.yysq.org**

**Çingiz Abdullayev**

**"Meymun ili"**

*(Detektiv roman. Azərbaycanca)*

Redaktə və bütün hüquqlar müəllif və tərcüməçi məxsusdur.

Kitab YYSQ tərəfindən e-nəşrə hazırlanıb.

Virtual redaktoru və e-nəşrə hazırlayanı: Aydın Xan (Əbilov), yazar-kulturoloq

YYSQ - Milli Virtual-Elektron Kitabxananın e-nəşri

**Bakı, YYSQ – 2015**

# DİQQƏT

***Müəlliflik hüququ Azərbaycan Respublikasının qanunvericiliyinə və əlaqədar beynəlxalq sənədlərə uyğun qorunur. Müəllifin razılığı olmadan kitabın bütöv halda, yaxud hər hansı bir hissəsinin nəşri, eləcə də elektron informasiya daşıyıcılarında, İnternetdə yayımı yasaqdır. Bu qadağa kitabın elmi mənbə kimi istifadəsinə, araşdırma və tədqiqatlar üçün ədəbiyyat kimi göstərilməsinə şamil olunmur.***



Çingiz Abdullayev

# Meymun ili

*(Roman)*

**Bakı – 2011**

*Tərcümə edəni:* Fidan Vəzir

*Redaktorları:* Zeynəb Əliqızı

Valeh Məhərrəmli

ISBN 978-9952-440-04-1

**© Çingiz Abdullayev, 2011**

YYSQ - Milli Virtual-Elektron Kitabxananın e-nəşri

**Bakı, YYSQ – 2015**

Əgər siz səadət evini qursaydınız, o halda, ən iri otağı gözləmə zalına ayırmalı olardınız.

**Jül Renar**

Bir dəfə, səadət arxasınca qaçarkən, onu elə bir vaxtda tapacaqsınız ki, bu, qoca bir qarının eynəyini axtarmasına bənzəyəcək. Onun kimi başa düşəcəksiniz ki, xoşbəxtliyiniz lap gözünüzün qabağında imiş.

**Bernard Şou**

## Birinci fəsil

«Meymun Zodiak bürcləri arasında ən ziddiyyətli xarakterə malikdir. O, ünsiyyətcildir və hamı ilə yola gedən təəssürat oyadır, ancaq bu yekdillik kifayət qədər aldadıcıdır».

*(Şərq Ulduz falından)*

Cinayət işi yekunlaşmışdı. O, sonuncu səhifəni də oxuyub qurtardıqdan sonra qovluğu örtdü. Bu gün prokuror ittihamnaməni imzalamalıdır və yalnız o vaxt iş məhkəməyə təqdim olunacaq. Adəti üzrə olduğu kimi. O, bu kimi neçə-neçə işləri tamamlamış, ömrü boyunca da bu kimi neçə-neçə təhqiqatlar aparmışdır! Yalnız iki dəfə onun işini yenidən təkrar təhqiqat üçün geri qaytarmışdılar. Hər iki halda, hakimlər müttəhimlər tərəfindən satın alınmışdı və bu, ona çox yaxşı bəlli idi. Ancaq bunu sübuta yetirmək mümkünsüz idi. Hakimlər işdə formal qanun pozuntularını aşkar edərək, cinayət işinin digər hakimin bu işi məhkəməyə çıxarmadan sakitcə bərbad etməsi üçün təkrar təhqiqata qaytarırdılar. Bu kimi müvəffəqiyyətsizliklər isə onu bir qədər də möhkəmləndirir, o, bütün versiyaları daha səylə və daha dəqiqliklə təhqiq edir, bütün faktları təsbit edir və elə bir qüsursuz iş qururdu ki, onu hətta hüquq fakültəsinin tələbələrinə belə nümunə göstərirdilər.

Qırx səkkiz yaşı olmasına baxmayaraq, o, artıq xüsusi cinayət işləri üzrə respublika prokurorluğunun baş müstəntiqi vəzifəsinə təyin olunmuşdu. Onu bu illər ərzində tutduğu vəzifədən kənarlaşdırmaq üçün istənilən imkanlardan istifadə etməklə, artıq iki dəfə idi ki, prokurorluqdan

uzaqlaşdırmışdılar. Lakin hər dəfə də onu yenidən vəzifəsinə qaytarmaq lazım gəlirdi. Müslüm Səfərov çox məşhur bir müstəntiq idi və bu faktı hətta onun prokurorluq sistemində sayı kifayət qədər olan düşmənləri belə etiraf edirdilər. O, heç cür bu sistemə uyğunlaşa bilmirdi. Rüşvət verməyi bacarmır, heç kimdən pul qoparmır və mövcud vəziyyətə məhəl qoymamağa çalışırdı. Bəlkə də elə buna görə rəhbərlik onu sevmir, həmkarları anlamaqda çətinlik çəkir, müttəhimlər isə ona nifrət bəsləyirdilər. O öz işini peşəkarcasına icra edən, ancaq sürü şəklində işləmək iqtidarında olmayan «əcaib adam» idi.

O, ağır bədən xəsarəti alaraq, xəstəxanada bir neçə ay həyatla ölüm arasında qalmışdı və buradan iyirmi ildən artıq işlədiyi prokurorluğa qayıtmışdı. Bəlkə də məhz elə bu vəziyyət onun gələcək taleyinə öz təsirini göstərmiş, bəlkə də pedaqoq-valideynlərinin ailəsində ona verilən tərbiyə onun həyatında öz rolunu oynamışdı. Yalnız prokurorluqda çalışdığı ilk gündən etibarən o özünü çox namuslu və hər vaxt irəlidə gedən müstəntiq kimi göstərmişdi.

Əgər o, bu sistemə uyğunlaşmağı və əvvəlcə Mərkəzi Komitədən, sonra isə Prezident Aparatından olan çoxsaylı məmurlarla ümumi dil tapmağı bacarsaydı, kompromisə getməyə alışsaydı, ola bilsin ki, Müslüm Səfərov artıq çoxdan böyük bir şəhərin prokuroru və ya respublika prokurorunun istintaq üzrə müavini vəzifəsinə təyin edilmiş olardı. Ancaq o, olduğu kimi qalmağa üstünlük vermiş və heç cür dəyişmək niyyətində də deyildi.

İlk dəfə onu işdən doxsan ikinci ilin sonlarında azad etmişdilər. O vaxt Bakıda hakimiyyətə, bu kimi «ideyalı müstəntiqlərin» yeni rejimə gərəkli olmadığını güman edən Xalq

Cəbhəsi Partiyası gəlmişdi. O, yeni hakimiyyətin bəzi fəallarının əlinin olduğu iri miqyaslı oğurluq halının təhqiqatını aparmışdı. Prokuror isə yekun xülasədə dəyişiklik etməyi tələb etməklə, ittihamnaməni imzalamamışdı. Səfərov isə dəyişiklik etməkdən imtina etdi. O vaxt onu dərhal işdən çıxardılar. O, maşınqayırma zavodunda hüquq məsləhətçisi işinə düzəldi və orada altı ay çalışdı. Doxsan üçüncü ilin yay aylarında isə hakimiyyət dəyişdi və onu keçmiş hakimiyyətin artıq yeni olan cinayətlərinin təhqiqatını həyata keçirmək üçün dərhal geri çağırdılar.

Altı aydan sonra onu şəhərdə insanların oğurlanması faktının istintaqına başlayan vaxt artıq ikinci dəfə işdən kənarlaşdıracaqdılar. Onun qəbul etmiş olduğu obyektiv nəticələr bu bədxahlıqları, cinayətləri təşkil edən Daxili İşlər Nazirliyinin yüksək rütbəli məmurlarının törətdiyini sübut edirdi. Bu cür nəticələri isə ona bağışlamadılar. Bununla yanaşı, polisin şübhəli bilinən yüksək rütbəli əməkdaşlarından biri onun rəisinin əmisi oğlu çıxdı. Səfərovu ikinci dəfə işdən çıxardılar və hətta onun barəsində cinayət işi açdılar. İki aydan sonra isə onun rəisini işdən kənarlaşdırdılar və Müslüm Səfərovu əvvəlki yerinə qaytardılar. Artıq bir neçə aydan sonra isə Milli Təhlükəsizlik Nazirliyinin istintaq qrupu Səfərovun nəticələrini təsdiqləyəcək və reketçilik yolu ilə pul qoparmada təqsirli bilinən polis idarəsinin yüksək rütbəli məmurlar dəstəsini həbs edəcək.

Qırx səkkiz yaşının olmasına baxmayaraq, o, artıq general rütbəsi almış gənc həmkarlarından fərqli olaraq, bu rütbəyə layiq görülmədən elə Ədliyyə Nazirliyinin baş müstəntiqi vəzifəsində qaldı. Prokurorluqda onun nə vaxtsa sistemdə işləmiş müstəntiqlərin hamısından səriştəli olduğunu

gözəl anlayırdılar. Hər kəs də ən mürəkkəb və ən qarışıq təhqiqatların məhz Müslüm Səfərova həvalə olunduğunu bilirdi və bəlkə də məhz bu səbəbdən onu sevmirdilər. O, məzəmmətə layiq fərasətsizlərin arasında sanki bir istedad mücəssəməsi idi. Onun vicdanlı və düzgün bir şəxs olması isə nəinki onun həmkarlarını, həm də bütün prokurorluq rəhbərlərini qıcıqlandırırdı.

Üzü adəti üzrə qırxılmış, səliqəli görünüşlü və indiyə qədər bircə dəfə də olsun səhər gimnastikasına xor baxmayan, bəzi hallarda isə hətta məşq zalına belə baş çəkən idmançı Səfərov işi hər kəsdən sonda tərk etsin deyə, ora səhər saat doqquzda gəlirdi. Səksəninci illərin sonlarında o, ailə qursa da, üç ildən sonra boşanmışdı. Hal-hazırda onun qızı artıq tibb universitetinin tələbəsi idi və hərdən atası ilə görüşürdü. Keçmiş həyat yoldaşı isə ikinci dəfə çox müvəffəqiyyətli bir tərzdə neft avadanlıqlarının tədarükü ilə məşğul olan bir iş adamına ərə getmişdi. Tezliklə onların daha iki oğlu dünyaya gəldi. Keçmiş arvadı qızının təminatı üçün ona ilk ərindən çatacaq alimentdən qəzəblə imtina etmişdi. «Onun qəpik-quruşuna qalmamışıq», - deyə o, bir neçə dəfə nifrətlə bəyan etmişdi. Səfərov onun haqlı olduğunu anlayırdı. Onun doxsanıncı illərdə aldığı əmək haqqının dörddə bir hissəsi keçmiş arvadının yaxasındakı bir cüt sancağın dəyərini belə ödəməyə kifayət etməzdi. Yeni əsrin başlanması ilə əlaqədar olaraq, prokurorluqda çalışan əməkdaşların əmək haqqının xeyli artırılmasına baxmayaraq, yenə də onun vəzifəsinə görə aldığı məvacibinin dörddə bir hissəsinin keçmiş arvadının gözündə bir qara qəpik qədər də dəyəri yox idi.

Onlar stadionun yaxınlığında iri üçmərtəbəli imarət tikdirmiş, keçmiş partiya işçisinin şəhərdən kənardakı bağını

almış və hətta Moskvada da bir mənzil əldə etmişdilər. Onun keçmiş həyat yoldaşının ailəsi dörd avtomobilə sahib olduğu halda, Müslüm Səfərov yalnız bu yaxınlarda kreditə götürdüyü «Volqa»da gəzirdi. O, bütün bunlara anlaşılmaz bir etinasızlıqla yanaşırdı. Səfərov buradan hələ səksəninci illərdə köçüb getmiş böyük qardaşından ona qalan ikiotaqlı mənzildə yaşayırdı. Böyük qardaşı özünə yaxşı karyera qurmuşdu, Avropa ölkələrinin birində fövqəladə və səlahiyyətli səfir vəzifəsinə təyin olunmuş və respublika rəhbərliyinin yaxşılar siyahısına düşmüşdü. Bəziləri hətta belə güman edirdilər ki, səfir nə vaxtsa xarici işlər nazirinin müavini vəzifəsinə təyin olunacaq. Onun qardaşı ilə münasibəti kifayət qədər gərgin idi, böyük qardaş bir neçə dəfə kiçik qardaşının işlərində müəyyən kompromislərə getməyə cəhd edərək, onu ağıllandırmağa çalışsa da, Müslüm öz dəyişməz mövqeyində qalmışdı.

Bu gün o, qətldə təqsirli bilinən iki caniyə ittiham irəli sürmək üçün növbəti təhqiqatını tamamlamışdı. Səfərov işi artıq prokurora təhvil vermişdi və bu gün həmişəkindən bir qədər tez getməyə hazırlaşırdı ki, telefon zəng çaldı.

- Müslüm Əzizoviç, - deyə respublika prokurorunun təhqiqata nəzarət edən müavini iltifatla ona müraciət etdi, - siz mənim yanıma gələ bilərsinizmi?

- İndi gələrəm. – Bu dəmdə o, hakimiyyətin heç də hamını korlamadığını düşündü. Respublika prokurorunun müavini bir vaxt onun yanında təcrübə keçmişdi və elə o gündən etibarən də Səfərovun qeyri-adi peşəkarlığı ilə təcrübəsinə olan ehtiramını qoruyub saxlamağı bacarmışdı.

Onun qırx iki yaşı var idi. Karyerasını isə o, hakim partiyalardan olan bir partiya fəalının qızı ilə uğurla evlənməsi

hesabına qurmuşdu. Əvvəlcə onu prokurorluğa işə götürdülər, sonra isə çox tez bir müddət ərzində rayon prokuroru vəzifəsini icra etməyə göndərdilər, şəhərə keçirdilər və qırx iki yaşında respublika prokurorunun müavini vəzifəsinə təyin etdilər. Sabir İbadov gənc olmasına baxmayaraq, Müslüm Səfərov kimi müstəntiqi qiymətləndirəcək qədər düşüncəli və ağıllı adam idi. O, yaşca xeyli böyük olan digər əməkdaşlara «sən» deyə müraciət etdiyi təqdirdə, daim Müslüm Səfərova «siz» deyə müraciət edirdi.

- Hər vaxtınız xeyir, Müslüm Əzizoviç, - deyə İbadov söhbətə başladı. - Mən sizi çox vacib bir işə görə çağırmışam. Rica edirəm, əyləşin. Siz artıq öz istintaqınızı yekunlaşdırmısınızmı?

- Bəli, bircə ittihamnaməni imzalamaq və işi məhkəməyə təqdim etmək qalıb, - deyə Səfərov təsdiqlədi.

- Çox yaxşı. Siz hər vaxt olduğu kimi yaxşı işlədiniz. Hər iki qatili tapıb, onları ifşa etməyi bacardınız. İşi çox yaxşı apardınız, Müslüm Əzizoviç.

- Təşəkkür edirəm.

- Lakin mən sizi buna görə çağırmamışam. Bizdə böyük bir qətl hadisəsi baş verib. Sankt–Peterburqda bizim baş konsulluğun əməkdaşını qətlə yetiriblər. Hal–hazırda Rusiya prokurorluğu öz istintaqını aparır. Şübhəli bilinən şəxslərin arasında isə gənc bir qadın, şəhər meriyasının məsul əməkdaşının qızı var. Onun anası isə Matviyenkonun yanında işləyir. Təsəvvür edirsinizmi? Əlbəttə, belə bir incə məsələni hər yoldan ötənə etibar etmək olmaz. Rusiya tərəfi özü şəxsən bizə əməkdaşlıq təklifi ilə müraciət edib. Biz oraya öz mütəxəssisimizi göndərəcəyik. Əlbəttə, təhqiqatı qanuna əsasən, Rusiya prokurorluğu aparacaq, lakin sizin kimi bir

mütəxəssisin iştirakı da çox faydalı ola bilər. Müslüm Əzizoviç, bu, böyük bir siyasətdir. Bizdə bu yaxınlarda ölkənin yeni prezidentini seçiblər, bu ilin mart ayında isə bir neçə həftədən sonra Rusiya prezidentliyinə təkrarən Vladimir Putini seçəcəklər. Sizə ki Putinin Sankt-Peterburq mənşəli olduğunu məlumdur. Bundan savayı, həmin o gənc qadının anası meriyada hələ Sobçakla Putinin hakimiyyəti dövründən etibarən çalışıb. Xülasə, biz oraya sizi yollamağı qərara almışıq. Xarici İşlər Nazirliyinin nümayəndəsi kimi. Siz elə hadisə yerində nəyin baş verdiyini ayırd edəcəksiniz və mən əminəm ki, konkret natica əldə edəcəksiniz. Lakin nəzərə alın ki, yekun nəticəni siz yalnız mənə məruzə etməlisiniz. Ya da bizim respublika prokuroruna. Başqa heç kimə. Bu, lüzumsuz sərbəstliyə yol verməyin zəruri hesab edildiyi həmin o vəziyyət deyil. Biz həqiqəti aşkar etməliyik, vəssalam. Şimal qonşularımızla da münasibətlərimizə xələl gətirməməliyik. Bu, böyük siyasətdir, Müslüm Əzizoviç. Bizim yeni gənc Prezidentimiz var. Və bizim münasibətlərimizi hal-hazırkı Rusiya prezidentinin vətəni olan Sankt-Peterburqda baş verən həmin o kədərli hadisədən başlamağımız da düzgün olmazdı.

- Meymun ili, - deyə Səfərov dalğın bir halda pıçıldadı.

- Nə? – İbadov onun nə dediyini anlamadı.

- Heç nə. Sadəcə olaraq, mən bir neçə gün bundan əvvəl Meymun ilinin başlandığını xatırladım. Şərq təqvimi heç də hər vaxt Qərb təqvimi ilə uzlaşmır.

- Siz bu kimi ulduz fallarına alüdəsiniz? – deyə respublika prokurorunun müavini sadəlövhlüklə soruşdu. – Mən sizin belə qeyri-ciddi şeylərə inandığınızı güman etmirdim.

- Bilmirəm, - deyə Səfərov dilləndi, - sadəcə, qəribə bir təsadüfdür. Mən özüm ulduz falına görə Meymunam və indiyə qədər yalnız iki dəfə Sankt-Peterburqda və yaxud onu o vaxt necə adlandırırdılar - Leninqradda olmuşam. Hər iki dəfə də Meymun ilində. Mən bu kimi təsadüfün üçüncü dəfə təkrarlanmayacağını düşünürdüm. Lakin deyilənə görə, belə bir ildə nə isə bir karma var. Hər kəsdə düz on iki ildən bir eyni şey təkrarlanır.

- Bəzən həqiqətən də, qəribə təsadüflər olur, - İbadov razılaşdı, - lakin bunu orada baş verən qətlə şamil etmək olmaz. Siz sabah səhər yola düşməlisiniz. Fürsətdən istifadə edib, bizim diplomatımızın Bakıya yola salınmasını da təşkil edərsiniz. Unutmayın ki, siz indi xüsusi cinayət işləri üzrə müstəntiq deyil, XİN-in əməkdaşısınız. Elə edin ki, onlar sizin məhz kim olduğunuzu anlamasınlar. Ancaq zənnimcə, bizim XİN əməkdaşımızın ixtisas etibarilə hüquqşünas olmasında da heç bir qəribəlik yoxdur.

- Bəs mənə sənədlərimi nə vaxt təqdim edəcəklər?

- Sabah səhər bizim konsulluğumuza gedərsiniz. Onlar artıq bu işdən xəbərdardırlar. Sənədlərinizi təhvil alın və yola düşün. Sankt-Peterburqda sizi qarşılayacaqlar. İndi isə gəlin respublika prokurorunun yanına gedək və o da sizə şəxsi göstərişlərini versin. Bu iş prezident aparatının nəzarəti altındadır. Siz isə yalnız hər şeyi dəqiqləşdirməli və yekun nəticəyə gəlməlisiniz. Özünüz üçün. Sonra isə hər şeyi bizə məruzə etməlisiniz. Əgər sizin qənaətinizlə Rusiya prokurorunun qənaəti bir-birilə uzlaşmazsa, o halda da qorxulu bir şey yoxdur. Orada sizin belə məsələlərdən daha yaxşı baş çıxarmağınızı sübuta yetirməklə, mübahisə etməyə ehtiyac yoxdur.

- Mənim anladığım qədər, əgər onlar qətldə hətta ayrı bir şəxsi təqsirli bilərlərsə və onların yanıldığını anlamış olsam da, dediklərini təsdiq etməliyəm? – deyə Səfərov soruşdu.

- Bu qədər qəti olmayın, - deyə İbadov üz-gözünü turşutdu, - mən yalnız sizin sadəcə, peşəkar bir hüquqşünas olduğunuzu unutmamağı və sərbəst surətdə təhqiqatı həyata keçirmək hüququna malik olmadığınızı anlamağınızı rica edirəm. Siz əcnəbi vətəndaşsınız və yalnız bizim rus həmkarlarımızın fəaliyyətinə nəzarət edə bilərsiniz. Öz qənaətinizi isə özünüzə saxlayın. Son nəticədə onların hətta kiməsə qarşı ittiham irəli sürdükləri təqdirdə belə, hamısı Rusiya vətəndaşları olacaqlar. Sizin istənilən təqdirdə, onsuz da bu işə müdaxilə etməyə ixtiyarınız çatmır və müdaxilə də etməməlisiniz.

- İndi mənə sizin nə üçün mənim rəisim olduğunuz məlum oldu, - deyə Səfərov donquldandı, - işi elə bir istiqamətə döndərmisiniz ki, mən qanuna riayət etməyə borcluyam. Həm bizimkinə, həm də ki, Rusiya qanunlarına. Hər bir şəraitə uyğunlaş və ikiüzlü olma, bunun əvəzinə, yalnız qanunun aliliyinə riayət et. Əla.

- Yaxşı ki, biz bir-birimizi başa düşdük, - İbadov gülümsədi, - siz məni elə nadir hallarda tərifləyirsiniz ki. Əvvəllər də, mən sizinlə təcrübə keçəndə, məni nadir hallarda tərifləyərdiniz. Bununla belə, əgər vicdanla etiraf etsəm, mən sizdən çox şey öyrənmişəm. Bizdə deyirlər ki, siz əsil Şerlok Holmssınız, heç kimin diqqət yetirmədiyi incəlikləri görə bilirsiniz.

- Şerlok Holms fərdi xəfiyyə idi və dövlət qulluğunda da deyildi, - deyə Səfərov ona bu faktı saf bir tərzdə xatırlatdı.

- Deməli, sizin işiniz daha yüngüldür, - deyə prokuror müavini onun sözünü havadaca tutdu, - sizin arxanızda bütöv bir dövlət dayanıb. Ezamiyyətinizin siyasi mahiyyətini də unutmayın. Və daha bir məqam, - deyə o, mısmırığını salladı, - iş burasındadır ki, həlak olanın atası Bakıda kifayət qədər məşhur bir insandır. Nazirin birinci müavinidir. Məni anlayırsınızmı? O, artıq Sankt-Peterburqa yola düşüb. Onun qardaşı bizim Milli Təhlükəsizlik Nazirliyimizdə şöbə müdiri vəzifəsində çalışır. Onlar çox mötəbər adamlardır. Siz onları hansısa bir şəkildə sakitləşdirməli və cəsədin vətənə göndərilməsində onlara kömək etməlisiniz.

- Axı övladını itirən atanı necə sakitləşdirmək olar? – deyə Müslüm sanki özlüyündə mühakimə yürütdü. – Bir də nəzərə alın ki, prokurorluq ilkin istintaq başa çatanadək qədər həlak olanın cəsədini bizə verməyəcək. Təsəvvür edirəm, onun doğmaları ilə necə böyük problemlər yaşanacaq.

- Onları elə yerindəcə həll etmək lazımdır. Bu, adi həlak olan deyil, bizim baş konsulluğun əməkdaşıdır. Diplomatdır. Məhz elə buna görə də, biz onun cəsədinin Bakıya ekstradasiya olunmasını təkid edə bilərik.

Səfərov başı ilə razılığını bildirdi. İbadov isə onu respublika prokuroru ilə bilavasitə bağlayan telefonun dəstəyini götürdü.

- İcazənizlə, yanınıza gəlmək olar? – deyə soruşdu. – Bəli, Müslüm Səfərov mənim yanımdadır.

O, dəstəyi asdı və ayağa qalxdı.

- Gedək, - deyə təklif etdi. Onlar otağı tərk edib qəbul otağının yanından ötüb keçərək, dəhlizə çıxanda, İbadov ətrafına boylanaraq, astadan pıçıldadı: - Nəzərə alın ki, mənim hal-hazırda müavin yerim boşdur. Siz artıq çoxdan dövlət

müşaviri olmalı və vəzifəcə yüksəlməli idiniz. Sizin geri qayıtmağınızdan dərhal sonra biz bu məsələni nəzərdən keçirəcəyik. Sizin təcrübənizi nəzərə alsaq, mən sizin namizədliyinizi irəli sürməkdə israrlıyam. Bir qədər cəld olaq.

Səfərov ona cavab vermədi. Sözsüz ki, əgər onu bu vəzifəyə təyin etsələr, heç də pis olmazdı. Lakin o, son dövrlər ərzində artıq daha gənc və daha istedadsız əməkdaşların onu arxada qoymasına əməlli-başlı vərdiş edib. Birinin gərəkli mənşəyi, digərinin – lazımi qohumluq əlaqələri, o birisinin isə iri maliyyə imkanları var idi. O isə onlarla yarışa bilməz və yarışmaq da istəmir. Məhz elə bu səbəbdən də, respublika prokuroru müavininin bu kəlmələri lazımi təəssürat bağışlamadı. Son nəticədə onun üçün elə öz yeri də yaxşıdır. Əgər indi o, təqaüdə çıxarsa, o halda növbəti vəzifə maaşlarının artırılmasından sonra ömrünün sonunadək yeddi yüz və ya səkkiz yüz dollar təqaüd alacaq. Təklikdə ona bundan artığı da lazım deyil.

Onlar sakitcə qəbul otağına keçəndən sonra katibə kabinetin qapısını göstərib, onları içəri buraxdı.

- O, sizi gözləyir, - deyə bildirdi.

İbadov üzünü Səfərova tərəf çevirdi.

- Bircə meymunu yad etməyin, - deyə o, təvəqqe etdi, - siz yəqin ki, zarafat edirdiniz, eləmi?

- Xeyr, - Müslüm dedi, - mən həqiqəti dedim.

## *İkinci fəsil*

«Meymun ilində anadan olanlar adətən, intellektual olurlar. Onlar çox mütaliə edir və çox məlumatlı olurlar. Onlar

yüksək savada malikdirlər və əla hafizəlidirlər, bu isə onlara görünən, oxunan və ya eşidilən ən kiçik detalları belə yadda saxlamaq imkanı bəxş etmiş olur».

(*Şərq Ulduz falından*)

Axşam o, evə adət etdiyindən bir qədər erkən qayıtdı. Dünənki gündən qalmış xörəyi isitmək üçün mətbəxə keçdi. İki–üç gündən bir onun evinə əvvəlcədən alınmış məhsullardan onun üçün xörək bişirən yaşlı qonşu qadın gəlirdi. Onlar öz aralarında bu təqaüdçü qadına ayda əlli dollar ödəyəcəyinə dair razılığa gəlmişdilər. Yaşlı qadın üçün bu, təqaüdə böyük bir əlavə idi, o isə evində zəmanətli isti xörək əldə etmiş olurdu, belə ki, restoranlara getməkdən heç xoşu gəlmirdi.

O, paltarını soyunub, aynaya yaxınlaşdı. Zabitəli və arıq sifəti, sərt və dən düşmüş qısa saçları, düz burnu və dartılmış buxağı vardı. Ona aynadan kifayət qədər qamətli, orta yaşlı bir kişi baxırdı. Onların ailəsindəki kişilər yaşlarına baxmayaraq, hər vaxt qədd-qamətlərini qoruyub saxlamağı bacarırdılar. Onlar hündür qamətli və xırda sümüklü idilər, görünür, onun əcdadları arasında digər Şimali Qafqaz xalqlarının nümayəndələri də olmuşdu. Müslüm adını ona qırx beşinci ilin qış ayında, Pomeraniya döyüşündə həlak olmuş babasının şərəfinə qoymuşdular.

Səfərov mətbəxə keçdi. Şam etmək üçün masa arxasında əyləşdi. Bir qədər düşündükdən sonra isə soyuducudan araq butulkasını çıxardı. O, spirtli içki xoşlamır və ondan çox nadir hallarda istifadə edirdi. Ancaq bu gün içmək qərarına gəldi. Kiçik qədəhi dolduraraq, limon doğradı. Qədəhi birnəfəsə boşaltdı, üz-gözünü turşutdu və bir dilim

limonu ağzına atdı. Sonra isə özünə yemək çəkmək üçün ayağa qalxdı. Artıq masa arxasında əyləşəndən sonra bugünkü söhbəti xatırladı. Deyəsən, İbadov ona həqiqətən də, inanmamışdı. Məgər bu cür təsadüfə inanmaq olarmı? Əgər bu gün səhər kimsə Müslüm Səfərova onun sabah Sankt-Peterburqa uçacağını söyləsəydi, o, bunun sarsaq bir zarafat olduğunu düşünərdi. Və bunun mümkün olacağına belə inanmazdı. Lakin ağlasığmaz hal baş vermişdi. Sabah o, Şimali Palmiraya artıq üçüncü dəfə idi ki, uçacaq. Üçüncü dəfə, deyə Müslüm xatırladı. Əvvəlki iki səfər də bir növ «karmalı» olmuşdu. Onun bundan əvvəlki iki səfəri. Düz iyirmi dörd və on iki il bundan əvvəl. O, gözlərini yumdu. Onun həyatını kökündən dəyişən iki səfər. Yaxud əksinə, bu səfərlər onun həyatının məna tutumunu dərk etməsinə təkan vermiş və onun etiqad etdiyi prinsiplərin özünə bəraət qazanmasına şərait yaratmışdı.

İyirmi dörd il bundan əvvəl. Birinci dəfə o, Leninqrada min doqquz yüz səksəninci ilin yay aylarında düşmüşdü. O vaxt hər şey birinci dəfə idi. Sonra isə doxsan ikinci ilin qış ayı. Bu xatirələr də onu bütün ömrü boyu izləyirdi. Və indi, qəribə təsadüf nəticəsində o, üçüncü səfərdir ki, Sankt-Peterburqa uçur.

Müslüm ayağa qalxaraq, ona iş otağı kimi xidmət göstərən yataq otağına keçdi. Masanın arxasında əyləşdi. Fikrə daldı. Hər şey necə də qəribə alındı. Arasında on iki illik fasilə olan Leninqrad və Sankt-Peterburqa üç səfər. Hər bir səfər də onun hafizəsində özünəməxsus bir şəkildə həkk olunmuşdu. Yoxsa nəsə bənzər bir hadisə baş verəcək? Onun həyatında bunun kimi nə qədər də mühüm hadisələr olub! Orduda xidmət, iki təhlükəli ezamiyyət, ağır yaralanma, iki

fasilə ilə prokurorluqda iyirmi illik xidmət. O, bu müddət ərzində nə qədər təhqiqat aparmış, neçə-neçə təhlükəli cinayətkarı ifşa etmişdi! Bu hekayələrin hər birini iyirmi kəskin süjetli romana sığdırmaq olardı. İndi də üçüncü səfər. Sabahkı uçuşdan əvvəl doyunca yatmaq lazımdır. Həmçinin, köhnə ünvanlar və ya köhnə telefonları xatırlamaq. O, dərin fikrə gedərək, başını silkələdi. Gör bir neçə il keçib. O, əlbəttə, heç nəyi xatırlaya bilməyəcək və heç kimi də tapmayacaq. Ancaq ünvanların qeyd olunduğu masa və ya yerli milis orqanları vasitəsilə də axtarıb tapmağa cəhd göstərmək mümkündür. Bəs o, özünün konkret insanlara qarşı olan marağını necə izah edəcək? Bəlkə kimsə vəfat edib, kimsə ünvanını dəyişib və ya ümumiyyətlə, ölkəni tərk edib. Axı həmin dövrdən etibarən nə qədər hadisələr baş verib.

O, masa arxasında əyləşib olub-keçəni xatırlayırdı. Özünün iki əvvəlki səfərini və bütün həyatını. O, növbəti dəfə saata nəzər yetirəndə məlum oldu ki, artıq dörd saatdır masa arxasında əyləşib. O, məhzun bir tərzdə gülümsədi və dişlərini fırçalayaraq, yatağa yollanmaq üçün ayağa qalxdı. Gecə yuxusunda bir-birinin üzərinə axan qadın surətlərini gördü.

Səhəri gün o, Xarici İşlər Nazirliyinə getdi və sənədləri ilə idarə rəisinin təfərrüatlı təlimatlarını əldə etdi. Vicdanlı məmur görünür, hansısa bir şəkildə Müslümün böyük qardaşının nazirin müavini vəzifəsinə təyin edilməsi nəzərdə tutulan həmin o səfir olduğunu öyrənmişdi və elə buna görə də, onunla olduqca gülərüzlü davrandı. Bəlkə də, o, bunu Səfərovun soyadı ilə atasının adını gördükdən sonra aşkar etmişdi. Hər necə olursa-olsun, DİN-də bütün rəsmiyyətçiliklər kifayət qədər tez həll olundu və Müslüm ezamiyyət vərəqi ilə biletini əldə etmək üçün prokurorluğa

yollandı. Xüsusi cinayət işləri üzrə müstəntiq kimi onun biznes dərəcəli bileti tələb etmək hüququ da vardı, ancaq onun doğma prokurorluğunda qənaət etməyin gərəkli olduğunu fərz edərək, ona ekonom dərəcəsinin biletini təqdim etdilər. Belə xırdalıqlar onu bir o qədər də narahat etmirdi. Onun uçduğu təyyarənin bir dəfə güclü atəş altında Kabul şəhərində yerə enməsindən sonra o, ümumiyyətlə, təyyarə ilə havaya qalxmaqdan ehtiyatlanmır və hətta mümkün burulğanlıq halına belə diqqət yetirmirdi.

Təyyarə dəqiq cədvəl üzrə havaya qalxdı. O, illüminatorun yanında ona yer vermələrini xahiş etdi və demək olar ki, bütün yol boyu yatdı. O, yalnız təyyarənin yerə enməsinin elan olunduğu və sərnişinlərdən qayışlarını bağlamalarını rica etdikləri məqamda yuxudan ayıldı. Aeroportda o, dövlət sərhədindən keçdi. Xoşsifət sərhədçi qadının onun pasportunu öz kompüterindəki hansısa məlumatlarla müqayisə etməsinə qədər təmkinlə gözlədi.

«Mən nə vaxtsa sonradan Sankt-Peterburq olacaq Leninqrada qayıdaraq, bizim iki respublikanı bir-birindən ayıran dövlət sərhədindən keçəcəyimi təsəvvürümə gətirə bilərdimmi?» - deyə Müslüm öz-özünə düşündü. Deyilənə görə, çinlilər hər hansı bir insanı dəyişkən bir aləmə düşməsini arzu etməklə lənətləyirlər. Deyəsən, o da belə bir dəyişkən aləmə düşmüşdü.

Sərhədçi qız ciddi bir tərzdə ona nəzər yetirdi.

– Siz nə üçün qeydiyyat kartını doldurmusunuz? – deyə o, xəbər aldı.

– Təyyarədə mənə Rusiyada əcnəbilərin qeydiyyat əldə etməsi üçün bu kartı doldurmağın gərəkli olduğunu söyləmişdilər, - deyə Müslüm izah etdi.

– Buna heç bir lüzum yoxdur, - deyə qız etiraz etdi, - məgər sizi xəbərdar etməyiblər? Rusiya ilə Azərbaycan arasındakı hökumətlərarası razılaşmaya əsasən, xidməti işləri üzrə ezamiyyətə gələn və diplomatik və ya xidməti pasportlara malik şəxslər bu kimi kartları doldurmurlar. Sizsə, diplomat olduğunuzu qeyd etmisiniz. Pasportunuz da dünənki tarixdə verilib.

– Mən artıq çoxdandır ki, diplomatam, sadəcə olaraq, pasportumu dəyişiblər, - deyə Müslüm pərt bir surətdə qeyd etdi. O, haqlı idi, bax, elə bu cür xırdaçılıqların sayəsində o, adətən, özü də cinayətkarları bu tərzdə ifşa edirdi. İndi isə özü elə ilk nəzarətdə ələ keçmişdi. Daha diqqətli olmaq lazım gələcək.

– Aydındır, - deyə qız başını yırğalamaqla dilləndi. – Pasportunuz isə yenidir. Ümumiyyətlə, siz heç də diplomat deyilsiniz, endokrinoloqsunuz. «Mimino»nu xatırlayırsınızmı?

O, qızın zarafatına məhəl qoymadı.

– Xeyr, - Müslüm dedi, - xatırlamıram.

Qız susmuş halda pasportu Müslümə uzatdı. O, yük şöbəsinin yanından ötərək, gömrükxanadan keçdi. Zala daxil olanda isə onu burada artıq iyirmi beş yaşında bir gənc gözləyirdi. Orta boydan bir qədər hündür qamətli, açıq rənli saçlı, açıq-qonur gözlü və bir qədər yuxarı dartılmış, fındıqburun bir gənc. Gənc ona doğru addımladı.

– Hər vaxtınız xeyir, Müslüm Əzizoviç. Mən sizin baş konsulluqdanam. Sergey Əliyev.

– Çox şadam. Biz hara gedirik?

– Bizi artıq şəhər prokurorluğunda gözləyirlər. Əgər etirazınız yoxdursa, mənə sizi dərhal oraya aparmağı təklif ediblər.

– Etirazım yoxdur. Sizin maşınınız varmı?

– Əlbəttə, var. Bizim maşınımız aeroport binasının qənşərindəki dayanacaqdadır. Gəlin, mən sizi apararam.

Onlar binanı tərk edərək, üzərində qırmızı diplomat nömrəsi olan açıq rəngli «Nissan» avtomobilinə əyləşdilər. Sergey dayanacağın haqqını ödədi və onlar yola çıxdılar.

– Siz bizim konsulluqda çoxdandır işləyirsiniz? – deyə Müslüm soruşdu.

– Artıq ikinci ildir, - Sergey gülümsədi. – Mən əvvəl Minskdə işləyirdim, indi isə məni Sankt-Peterburqa keçiriblər. Amma mən məhz buraya keçirilməyimə görə şadam. Nənəm buralıdır, Pavlovskdandır. Müharibə illərində onu Bakıya təxliyə etmişdilər və orada o, bir geoloqla ailə qurmuşdu. Sonra isə anam dünyaya gəldi. Mənə nənəmin qardaşının şərəfinə Sergey adını verdilər. O, burada Leninqrad blokadası vaxtı həlak olub. Onun o vaxt cəmi altı yaşı var imiş.

– Aydındır, - deyə Müslüm tutuldu, - deməli, sizin damarlarınızdan rus qanı axır? Mən elə belə də düşünürdüm. Siz metisə bənzəyirsiniz.

– Daha doğrusu, kvarterona, - deyə Sergey gülümsədi, - axı mənim yalnız nənəm rusdur, deməli, mən də dörddə bir həddində rusam. Ancaq, babam da sarışın olub, o, Şəkidən idi. Orada isə çoxlu sarışın və yaşıl gözlü adamlar var, hətta çilli kişilərə də təsadüf olunur.

– Sizin əməkdaşınız necə həlak olub? Siz onu tanıyırdınız?

– Əlbəttə, tanıyırdım. Famil İzmaylov. O, burada məndən də əvvəl işləyirdi. Onun otuz iki yaşı var idi.

– O, evli idimi?

– Xeyr, subay idi. O, Kiyevin Beynəlxalq Əlaqələrini bitirmişdi. Sonra isə bizim Almaniyadakı səfirliyimizdə işləmişdi. İngilis və alman dilini səlis bilirdi. Buraya onu üç il bundan əvvəl keçirdilər. Baş konsulun birinci katibi vəzifəsinə. Onun vaxtı sona çatmaq üzrə idi. Deyilənə görə, onun vəzifəsini yüksəltməklə Türkiyəyə göndərmək istəyirmişlər. Bizim səfirin müşaviri qismində.

– Aydındır. Bəs o, işinin öhdəsindən necə gəlirdi?

– Normal, - deyə Sergey çiyinlərini çəkdi, - bizim baş konsulluğumuz kiçikdir. Yalnız beş əməkdaşdan ibarətdir. Mən diplomatları nəzərdə tuturam. Bundan savayı isə bir katibə, kargüzar, xadimə, sürücü və növbətçimiz var. Lakin bizim qadınların hamısı İzmaylova aşiq idilər, o, insanlarda gözəl təəssürat oyatmağı bacarırdı.

– Elə buna görə də, siz onun barəsində heç nə deyə bilmirsiniz?

– Söyləyə bilərəm. O, çox təcrübəli insan idi. Bizim işimizə yaxşı bələd idi.

– Bəs onun şəxsi məziyyətləri?

– Normal idi, - deyə Sergey qarşısına baxaraq təkrar etdi.

– Bu, sizin onu səciyyələndirmək üçün istifadə edə bildiyiniz yeganə kəlmədir? – deyə Müslüm maraqlandı.

– Mən nə söyləyəcəyimi bilmirəm, - Sergey dilləndi, - bizim onunla şəxsi dostluğumuz olmayıb. O, Liqovski prospektində ev kirayələmişdi, yalnız mərkəzdə yaşamağın gərəkli olduğunu zənn edirdi.

– Birinci katibin əmək haqqı ona bu kimi məsrəflərə yol verməyə imkan verirdi? – deyə Müslüm qımışdı.

– Sözsüz ki, imkan vermirdi. Onun atası Bakıda nazir müavini vəzifəsində çalışır. Oğluna da məhz o, kömək edirdi. Dünən axşam onlar buraya gəliblər. Həlak olanın atası ilə əmisi. Onun cəsədini götürmək istəyirlər. Onlar artıq prokurorluqda olublar. Ancaq hələ də müstəntiq onlara heç nə vəd etməyib. Bu gün onlar şəhər prokuroru ilə danışmaq istəyirlər. Siz ki anlayırsınız, onlar onun burada qalmasını istəmirlər.

– Bəs o, necə həlak olub? – deyə Müslüm xəbər aldı.

– O, ayrı bir mənzildə yaşayırdı. Lakin qonşular onun yanına gənc qadının qalxdığını görüblər. O, subay idi və onun yanına tez-tez tanış qadınlar gəlirmiş. Mən bu barədə heç bir şey deyə bilmərəm, amma qonşular bundan xəbərdar idilər. Baxmayaraq ki, o özünü çox sakit aparırmış, heç kim də səs-küydən şikayət etmirdi. Səhər isə İzmaylov işə çıxmadı. Biz ona zəng edirdik, lakin onun mobil telefonu cavab vermirdi. O vaxt biz sürücümüzlə ikilikdə onun evinə yollandıq. Uzun müddət qapının zəngini basdıq, lakin bu da heç bir nəticə vermədi. Bizim vacib işimiz vardı, sənədlərə viza verməli idik, seyfin açarı isə Famildə idi. Belə olan təqdirdə, biz axşam növbətçi çilingəri çağırmalı olduq. Qapını açdıq və onu qətlə yetirilmiş vəziyyətdə aşkar etdik…

– Siz özünüz hadisə yerində olmusunuzmu?

– Bəli. Bizim baş konsulla birlikdə. Dərhal da milis çağırmışıq. Prokurorluğa zəng etmişik…

– Onu necə qətlə yetiriblər?

– Kimsə ona bıçaqla zərbə endirib. Bax buraya, ürək nahiyəsindən bir qədər aşağıya, - Sergey həmin yeri göstərdi, - sonra bizə milisdə dedilər ki, o, qan itkisindən keçinib. Baxmayaraq ki, cəmi bircə zərbə alıb.

– Bəs bıçaq harada idi?

– Onun yanında idi. Görünür, o, bıçağı çəkib çıxara bilib və yanına tullayıb. Müstəntiq belə deyirdi. Bir də... Famil sərxoş imiş və buna görə də, dərhal ölməyib. Spirtli içki keyləşdirici rol oynayıb və elə buna görə də, o, bıçağı dartıb çıxara bilib.

– Bəs bıçaq necə bıçaq olub?

– Adi, - Sergey heyrətləndi.

– Siz məni anlamadınız. Bu, ov bıçağı idi, yoxsa mətbəx bıçağı? Bəlkə daha fərqli bir bıçaq olub?

– Yox, yox. Adi mətbəx bıçağı idi. Yaxşıca itilənmişdi. Mənzili Famil İzmaylova kirayə verən qadın da öz bıçağını tanıyıb.

– Deməli, adi mübahisə düşüb, - Müslüm öz ehtimalını irəli sürdü, - və kimsə bıçağı götürüb, onunla sizin əməkdaşınıza zərbə endirib. Bizim əməkdaşımıza, - deyə o, qeyri-ixtiyari olaraq düzəliş verdi.

– Müstəntiq də eyni şeyi söyləyir, - deyə Sergey onu məlumatlandırdı.

– Həlak olanın düşmənləri ola bilərdimi?

– Bilmirəm. Mən ki sizə onunla elə də yaxından ünsiyyət saxlamadığımı dedim. Lakin onun tanışlardan ibarət böyük əhatə dairəsi olub. Axı o, burada artıq üç il idi ki, işləyirdi.

– Bəs siz özünüz harda yaşayırsınız? – deyə Müslüm qəfildən xəbər aldı.

– Uzaqda yaşayıram, - deyə Sergey bir qədər susduqdan sonra dilləndi. – Mən bu yaxınlarda evlənmişəm. Mənim arvadım və körpə uşağım var. Şəhərin mərkəzində isə qiymətlər od tutub yanır. Məhz elə buna görə də, biz özümüzə

belə bir məsrəfi rəva görmürük… Bizim konsulun katibəsi Albina isə bizdən də uzaqda yaşayır. İşə gecikməmək üçün səhər saat yeddidə yataqdan durmalı olur.

– Deməli, belə çıxır ki, o, evə işdən sonra gəlib və evində ona, ola bilsin ki, bıçaqla zərbə endirən naməlum bir qadın peyda olub? – deyə Müslüm dəqiqləşdirdi.

– Hər halda, bu, hələ ki, prokurorluğun müstəntiqinin yeganə versiyasıdır. Diplomatın həlak olduğunu nəzərə alsaq, təhqiqatı şəhər prokurorluğunun xüsusi cinayət işləri üzrə müstəntiqi Vyaçeslav Yevgenyeviç Melentyevə həvalə ediblər. Bilirsinizmi, bu qətl barəsində artıq şəhərdə də, vilayətdə də pis şayiələr gəzir. Burada minlərlə bizim həmyerlimiz yaşayır. Hamısının da bizim diplomatın ölümündən xəbəri var. Artıq deyirlər ki, bu, siyasi terrordur.

– Burada baş verənləri təsəvvür edirəm, - Müslüm onun dedikləri ilə razılaşdı. – Bəs onun yanına gələn həmin qadın kimdir? Onu artıq tapıblarmı?

– Əlbəttə, tapıblar. O, həmin axşam Famil İzmaylovun yanında olduğunu təkzib etmir. Onun adı Natalya Frolovadır, o, Sankt-Peterburq meriyasının idarə rəisi Radvolinanın qızıdır. Onun anası Putinin özü ilə işləyib, indi isə Valentina Matviyenko ilə əməkdaşlıq edir. Bizimkilər hesab edirlər ki, hətta Frolovanın təqsirini sübuta yetirmək mümkün olsa belə, heç kim ona qarşı rəsmi ittiham irəli sürməyəcək, anası isə onu təmizə çıxarmaq üçün əlindən gələni əsirgəməyəcək.

– Həmin o Frolovanın, həlak olanın mənzilinə gəlməsindən savayı, onun təqsirirkar olmasına dair hər hansı bir dəlil mövcuddurmu?

– Xeyr. Bundan savayı heç bir dəlil yoxdur.

– Onun neçə yaşı var?

– O, tibb institutunun tələbəsidir. Cəmi iyirmi yaşı var.

– Deyirsən, o, iyirmi yaşında ikən belə bir qətli həyata keçirir? – deyə Müslüm inamsız halda soruşdu. - Yaxşı ailədən olan gənc bir qadın. Onun belə bir cinayəti törətməyi qərara alması üçün gör onu hansı bir həddə çatdırmaq lazım imiş? Və o, bundan sonra necə yaşayacaq? Belə bir şok vəziyyəti, hətta gələcək həkim olsa belə, istənilən iyirmi yaşlı qızın öhdəsindən gələcəyi bir iş deyil. Onun evə gəlməsi – bu da hələ dəlil deyil. O, özünün İzmaylovun yanına gəlməsi faktını inkar etmir ki?

– Xeyr. Ancaq o, orada on və ya on beş dəqiqə qaldığını söyləyir. Sonra isə oranı tərk edib.

– Onları bir-birinə nə bağlayırmış? Onlar sadəcə, tanış olublar, yoxsa?

– Bunu bilmirəm.

– Bəs qonşular orada daha heç kimi görməyiblər?

– Görməyiblər. Heç bir şey də eşitməyiblər. Biz tezliklə prokurorluğa çatacağıq.

– Melentyevin neçə yaşı var?

– Əlli və ya ondan da çox. O, ən yaxşı mütəxəssislərdən biri hesab olunur.

Onlar şəhərin mərkəzinə girdilər. Müslüm isə ona tanış olmayan küçələri nəzərdən keçirirdi. Onun bu şəhərdə sonuncu dəfə olmasından sonra bura necə də dəyişib!

– Gözəl şəhərdir, - deyə o, dalğın halda dilləndi.

– Heyrətamizdir, - deyə Sergey onu vəcdlə dəstəklədi, - amma arvadımın xoşuna gəlmir. O, Bakı tatarıdır və burada hər vaxt üşüdücü soyuq olduğunu zənn edir. Mən isə

bəyənirəm. Bəlkə də mənim genlərim özünü büruzə verir, axı mənim nənəm bu yerlərdən olub. O, elə füsunkardır ki. Mən saatlarla bu şəhəri gəzib-dolaşa bilərəm. Burda hələ nə qədər dəbdəbəli muzey var!

– Siz haranı bitirmisiniz? – deyə Müslüm gülümsəyərək, soruşdu.

– Bakı Universitetinin şərqşünaslıq fakültəsini, - deyə Sergey dilləndi. – İngilis və fars dillərini bilirəm.

– Bir də rus dilini. Hal-hazırda bu, hətta sizin nənənizi nəzərə alsaq belə, yenə də əcnəbi dildir, - deyə Səfərov zarafatlaşdı.

– Bizdə rus dilini bütün diplomatlar bilirlər, - deyə Sergey gülümsədi. – Sizə ki bizdə rus ilə türk dilini əcnəbi dil hesab etmədikləri bəllidir. Hələ bir çoxları gürcü ilə erməni dilini də bilir.

– Siz məni inandıra bildiniz. Bizdə diplomat vəzifəsinə yalnız poliqlotlar gedir.

– Bəs nə üçün yalnız diplomat vəzifəsinə? – deyə Sergey təəccübləndi. – Bizim yeni prezidentimiz də bir neçə dili səlis bilir. Ana dilindən savayı, o, rus dilində də səlis danışır. Sizə ki onun MDBƏİ-ni bitirdiyi və hətta orada müəllimlik etdiyi də bəllidir. Bundan savayı o, həmçinin ingilis, fransız və türk dillərini də bilir. Məgər bu pisdir? Şəxsən bu, mənim xoşuma gəlir.

Müslüm başı ilə razılığını bildirdi. Maraqlıdır, görəsən, bu şəhərdə özünün keçmiş tanışlarını tapa biləcəkmi? Ünvan bürosu vasitəsilə axtarmağa cəhd göstərmək lazımdır. Ya da milisin köməyindən istifadə etməli olacaq. Bəlkə kimisə axtarmağa heç bir lüzum yoxdur? Klassiklərdən birinin dediyi kimi, heç bir vaxt xoşbəxt olduğunuz yerə qayıtmaq lazım

deyil. Heç bir vaxt öz keçmişinizə qayıtmayın, əks təqdirdə, çox böyük məyusluqla qarşılaşarsınız. O, fikrə getdi.

– Biz artıq çatmışıq, - deyə Sergey maşını lazımi yerdə salxayaraq, məlumat verdi. – Mən buraxılış vərəqəsini sifariş etmək üçün onlara əvvəlcədən zəng etmişəm.

Müslüm maşından düşdü. Ətrafına boylandı. Onun buraya sonuncu gəlişindən düz iyirmi il keçmişdi. O vaxt o, şəhər prokurorluğuna taksi ilə gəlirdi. Maraqlıdır, görəsən, əməkdaşlar arasında köhnə tanışlardan qalan olubmu? Yoxsa orada artıq yeni simalardır?

– Gedək, - deyə Sergey onu dəvət etdi və onlar ikilikdə şəhər prokurorluğunun binasına yollandılar.

## *Üçüncü fəsil*

«Meymun – Zodiakın digər bürclərinin cazibəsinin təsiri altına düşmür. O, özünün sağlam düşüncəsi və məntiqini tətbiq etməklə istənilən vəziyyətdən çıxa bilər».

*(Şərq Ulduz falından)*

Vyaçeslav Yevgenyeviç Melentyev iri buynuzvari eynəkli, baxışlarının nuru bir qədər sönmüş və üz cizgiləri ağır və kobud olan yaşlı adam idi. Melentyev uzun müddət ölkənin ucqar şimal ərazisində işləmiş və şəhər prokurorluğuna yalnız on il bundan əvvəl keçmişdi. Otuz üç yaşı olsa da, öz yaşından böyük görünürdü. Bəlkə də bunun səbəbi onun xidmətinin xarakterinə görə ən ucqar olan regionlara səfər etmək məcburiyyətində qaldığı bir müddətdə şimalın çox şiddətli küləyi ilə sərt şaxtasının təsirindən sonra

iz buraxmış qırışlardan kəsik-kəsik olmuş bənizində idi. Və ya onun vaxtından əvvəl çallaşması və hazırda altmış yaşlı bir görkəm almasında idi. Yaxud onun yarım ildən sonra pensiyaya çıxmağa hazırlaşmasında və iki nəvəsinin də ona baş çəkəcəyi şəhərdən kənardakı bağ evində məskunlaşmağa bel bağlamaqla, heç bir şeyə təəssüflənməməsi və heç bir şeyi arzulamamasında idi.

– Gününüz xeyir, - deyə o, yenicə təşrif buyurmuş diplomatların əlini sıxmaqla onlarla salamlaşdı. Sergey Əliyev ilə o, artıq tanış idi. Digər şəxsi isə o, ilk dəfə idi ki, görürdü.

– Müslüm Səfərov, - deyə otağa daxil olan şəxs özünü təqdim etdi.

– Buyurun, əyləşin, - deyə Melentyev əli ilə stula işarə etdi. – Müslüm gözəl addır. Altmışıncı illərdə, mənim boya-başa çatdığım Rostovda hər kəsin sizin müğənniniz Müslüm Maqomayevdən ötrü dəli-divanə olduqları vaxt mən hələ balaca oğlan uşağı idim. Anam mənə onun konsertinə bilet almaq üçün düz dörd saat növbədə dayandığını nağıl edirdi.

– Bu müğənni o vaxt çox məşhur idi.

– O, elə indi də məşhurdur, - deyə Melentyev dilləndi, - baxmayaraq ki, artıq qırx ildən çox vaxt keçib və mənim anamın artıq yetmişdən yuxarı yaşı var.

– Məni babamın şərəfinə belə adlandırıblar, - deyə Səfərov məlumat verdi. – Yeri gəlmişkən, Müslüm Maqomayevə də bu adı Azərbaycanda müasir musiqinin banilərindən biri hesab olunan babasının şərəfinə veriblər. Bakıdakı filarmoniya onun məşhur babasının adını daşıyır.

– Çox maraqlıdır, - deyə Melentyev onunla razılaşdı. – Nə isə içəcəksiniz? Çay və ya qəhvə?

– Heç bir şey, - deyə Müslüm dilləndi. O, müstəntiqin xoşagəlməz söhbətə başlamağı hər vəchlə uzatdığını dərk edirdi. O, yanında əyləşmiş Sergey Əliyevə nəzər yetirməklə, sanki ona söhbətə başlamasını təklif etdi.

– Bizim diplomatımız Bakıdan buraya bu işin istintaqı vaxtı yarana biləcək bütün məsələləri yoluna qoymaq üçün gəlib, - deyə Sergey mətləbə keçdi. - Mən həmçinin cəsədin vətənə göndərilməsini də nəzərdə tuturam.

– Bizim dünən həlak olanın qohum-əqrabası ilə çox ağır söhbətimiz olub, - deyə Melentyev ağır-ağır köks ötürdü. – Onun atası ilə əmisi buraya gəliblər. Atası nazirin birinci müavini vəzifəsində çalışır, əmisi isə sizin Milli Təhlükəsizlik Nazirliyinizdə şöbə müdiridir. Onlar təklikdə deyil, FTX-nin bizim vilayət üzrə rəis müavini ilə gəlmişdilər. Mənim dünən hansı bir təzyiqlə üzləşməyimi təsəvvürünüzə belə gətirməzsiniz. Məni hətta şəhər prokurorluğuna da çağırmışdılar. Lakin mən istintaqın başa çatmasına qədər onun cəsədinin ekstradasiya olunmasına izn verə bilmərəm.

– Məgər sizin əlavə ekspertizaya ehtiyacınız ola bilər? – deyə Səfərov dəqiqləşdirdi. – Zənnimcə, pataloqoanatomlar artıq ilk müayinə vaxtı zəruri rəyi təqdim etməli idilər… Biz də diplomatımızın cəsədini geri ala bilərik.

– Bizdə şübhələr meydana çıxıb, - deyə Melentyev etirazını bildirdi. – Siz, yəqin ki, artıq sizin diplomatınızın bıçaq zərbəsindən deyil, böyük qan itkisindən həlak olduğunu eşitmisiniz. Mən onun vaxtlı-vaxtında kömək alması təqdirində sağ qalıb-qalmayacağını dəqiqləşdirmək üçün ikinci ekspertizanı həyata keçirmək istəyirəm.

– Nə üçün?

– Belə olan təqdirdə «qətlə cəhd» maddəsi ilə deyil, insana ağır bədən xəsarətləri yetirilməsi və lazımi köməyin göstərilməməsi maddəsi ilə ittiham irəli sürmək olar. Siz məni anlayırsınızmı? Sizinlə bir neçə peşəkar terminlə danışdığıma görə üzr istəyirəm.

– Mən hər şeyi başa düşürəm, - Müslüm qəmgin surətdə cavab verdi, - mən ixtisasca hüquqşünasam. Ancaq nə üçün siz ittihamı dəyişdirməyi qərara almısınız? Olmaya, sizin artıq konkret olaraq şübhələndiyiniz şəxs peyda olub? Və ya siz hər hansı bir konkret şəxsə qətl ittihamını irəli sürməmək üçün maddəni dəyişdirmək apriorisini həyata keçirmək niyyətindəsiniz?

– Əlbəttə, yox, - deyə Melentyevin əhvalı pozuldu. – Sizin həmyerliləriniz artıq mənim mövqeyimi, anası bizim meriyada məsul vəzifədə çalışan vətəndaş Natalya Frolovaya qarşı ittihamın ehtimal olaraq irəli sürülməsi ilə əlaqələndirib buna bənzər bir vəziyyətə işarə ediblər. Bu isə onların yalnız fərziyyəsidir və məni bağışlayın, çox sarsaq bir fərziyyədir. Qız həqiqətən də, həmin evdə olub, ancaq bu, yenə də onun günahının isbatlanması demək deyildir. Zərbəyə gəldikdə isə mən təkrar ekspertizanın həyata keçirilməsini, həlledici zərbənin məhz qadın tərəfindən yetirilməsi faktına əsaslanmaqla təyin etməyə hazırlaşıram. Zərbə bir o qədər də ağır olmayıb, lakin o həlak olanın arteriya damarını kəsib və böyük qan itkisinə səbəb olub. Belə bir zərbə gənc qadın tərəfindən vurulmuş ola bilər. O, bir o qədər ağır zərbə olmasa da, həlledici olub. Siz məni başa düşürsünüzmü?

– Belə olan təqdirdə, elə Frolova şübhə altına alına bilər, - Müslüm bildirdi. – Axı o, həkim təhsilini alır və böyük qan itkisinə səbəb olmaq üçün zərbənin məhz hansı bir şəkildə

endirilməsinin zəruri olduğundan xəbərdardır. Bunun üçün isə heç də güclü zərbəyə ehtiyac yoxdur, dəqiq zərbə endirmək yetər…

– İndi mən sizin həqiqətən də, hüquqşünas olduğunuza əmin oldum, - deyə Melentyev söylənilənlərlə razılaşdı, - lakin bu da hələ heç nəyi isbat etmir. Zərbə təsadüfən də endirilmiş ola bilər. Sizə ki konkret qərəzli şəxslərin mətbəx bıçağı ilə zərbə endirmədiyi yaxşı məlumdur. Belə olan halda, qatil öz şəxsi silahını və yaxud öz bıçağını özü ilə birlikdə gətirir. Mən hələ qatilin cinayəti törətdikdən sonra silahını özü ilə birlikdə götürməsindən bəhs etmirəm.

– Qatil hadisə yerinə dəfələrlə baş çəkib və məhz nədən istifadə edəcəyini də bilib, - deyə Müslüm həmsöhbətinin səs tonuna uyğun bir şəkildə söhbətinə davam etdi.

– İstənilən halda, mən sabah ikinci ekspertizanın həyata keçirilməsini təklif etmişəm, - deyə müstəntiq davam etdi, - və biz artıq axşam nəticələri əldə etmiş olacağıq. Heç bir gözlənilməz hadisə baş verməzsə, siz artıq birisi gün cəsədin təyyarə ilə aparılması üçün lazımi sənədlərin tərtib olunmasına başlaya bilərsiniz.

– Qorxuram ki, bu onun qohumları üçün həddən artıq uzun bir müddətdir, - Sergey donquldandı. – Bəlkə biz sənədləri tərtib etməyə başlamaqla, cəsədi elə bu gün axşam təhvil alaq?

– Sizin buna macal tapacağınıza əmin deyiləm, - deyə Melentyev quru tərzdə dilləndi, - hazırda günorta saat dörddür. Siz harada qalırsınız? Mən sizə sabah zəng edərəm.

– Mən harada qalacağam? – deyə Müslüm Sergeylə bu məlumatı dəqiqləşdirməyə çalışdı.

– «Oktyabr»da, - deyə Sergey sanki qonağın belə bir mehmanxanada məskunlaşdırıldığına görə xəcalət çəkirmiş kimi, bir qədər pərt tərzdə dilləndi.

– Bu, elə burada, yaxınlıqdadır, - müstəntiq dedi. – Sizə ehtiyacım olarsa, sizi tez axtarıb tapa bilərəm.

– Siz həlak olanın qohumlarının necə bir təlaş içində olduğunu anlamalısınız, - deyə Müslüm xatırlatdı, - bizim adət-ənənəmizə görə, cəsədi torpağa rəhmət duası oxunan gün tapşırmaq lazımdır. İstənilən ekspertizaların həyata keçirilməsi isə yalnız atanın çəkdiyi iztirabı birə-beş artırır.

– Ancaq bu mənim işimdir, - deyə müstəntiq narazılığını bildirdi, - bundan savayı, bizim hələ ki, konkret olaraq şübhələndiyimiz şəxs də mövcud deyil. Biz onun tanışlarından ibarət böyük bir əhatə dairəsinin üzərində iş aparırıq. Frolova da İzmaylovun mənzilində olduğunu inkar etməməsinə baxmayaraq, heç də bu siyahıda birinci deyil.

– Onların arasında hansısa bir münasibət olubmu? – deyə Səfərov soruşdu.

– Çox güman ki, xeyr. Hər halda, Frolova məni həlak olanla yalnız bu yaxınlarda tanış olduğuna inandırıb. Qız onun evinə yalnız iki dəfə gedib. İkinci gəliş məhz həmin o həlledici axşama təsadüf edibmiş. Deyilənə görə, onunla yalnız söhbət etmək xatirinə ora gedibmiş. Onlar nə məşuq, nə də ki, dost olublar.

– İyirmi yaşlı qız naməlum kişinin evinə gecəyarısı onunla yalnız söhbət etmək üçünmü yollanıb? – deyə Müslüm eşitdiklərinə inanmadı.

– Heç də gecəyarısı deyilmiş. Axşam saat səkkiz imiş. Frolova kifayət qədər sərbəst bir qızdır. Yeri gəlmişkən, onu küçədə maşın gözləyirmiş. Onun anasının sürücüsünün idarə etdiyi xidməti maşın. Bu faktın isə onun xeyirinə olduğu göz qabağındadır. Gənc qadının görüşə öz anasının maşınında gəlməsi də ağlasığmazdır, hərgah bu onun intim dostu olsaydı, sürücü ünvanı bilər və qızın məhz kimin yanına getməsindən xəbər tutmuş olardı. Gənclər adətən, özlərini bu cür aparmırlar. Qatilin özünü belə bir sarsaq tərzdə təhlükə altına qoymasından isə ümumiyyətlə, bəhs etməyə dəyməz. O, yuxarı qalxıb, həlak olanla söhbət edənə qədər isə onu maşın aşağıda gözləyibmiş. Avtomobilin nömrəsini isə bütün qonşular yadda saxlayıblar. Qatillər özlərini belə axmaq bir tərzdə aparmırlar. Məşuqlar da həmçinin.

– O vaxt onlar nə barədə söhbət ediblərmiş? – deyə Müslüm soruşdu.

– Qız ora rəfiqəsinin tapşırığı ilə gəldiyini söyləyir. Lakin anasının onu dilə tutması və mənim xahişlərimə rəğmən, onun adını çəkmək istəmir. Bunun ona aid bir sirr olmadığını zənn edir. Hər halda, o, mənzildə olması faktını da gizlətmir. İndi biz onun tanışları versiyasını nəzərdən keçiririk və onlardan hansı birisinin həlak olan diplomatı yaxşı tanıdığını aydınlaşdırmağa çalışırıq.

– Yəni siz keçən bu iki gün ərzində heç bir şeyi aydınlaşdırmağa müvəffəq olmamasınız?

– Hələ ki, yox. Amma biz işləyirik, cənab Səfərov. İstintaq işində möcüzələrə yer yoxdur, burada bütün mümkün versiyaların üzərində yenidən işləmək lazımdır.

«Mən bunu bilirəm», - deyə Müslüm düşündü.

– Belə olan təqdirdə, sabaha qədər gözləyək, - deyə Səfərov ayağa qalxdı, - və nəzərə alın ki, biz sabah axşam cəsədin göndərilməsi üçün onun təhvil verilməsini təkid edəcəyik. Sizin isə bir sutka vaxtınız var.

– Cənab Səfərov, buna biz qərar veririk, - deyə Melentyev etirazını bildirdi, - istintaqa da təzyiq göstərmək lazım deyil. Bizdə buna qarşı hətta cinayət maddəsi də var. Sizdə, Bakıda hər şeyi tanışlıq və öz şəxsi əlaqələriniz vasitəsilə həll etmək mümkündür, burada isə qanun şahdır.

O, sözünü tamamlamağa macal tapmamış telefon zəng çaldı. Melentyev cəld dəstəyi götürdü və məlum oldu ki, zəng edən şəhər prokurorunun özüdür.

- Sizi eşidirəm, Nikolay Alekseyeviç, - deyə Melentyev cəld dilləndi. – Bəli, mən hər şeyi anlayıram. Bu gün mənim yanıma onların xarici işlər nazirliyindən gələn var. Bəli, biz dünən sizinlə bu barədə danışmışıq. Ancaq mən sabah daha bir ekspertizanı həyata keçirməliyəm. Artıq vaxtını təyin ediblər. Bu gün çatdırmaya bilərik. Ekspertlərə xəbərdarlıq etmək lazımdır. Bəli, mən başa düşürəm. Bəli, mən hər şeyi başa düşürəm. Əlbəttə, o, diplomatdır. Amma bizim vaxtımız yoxdur. Bəli, əlbəttə. Baş üstə. Mən hər şeyi başa düşdüm, Nikolay Alekseyeviç. Sözsüz. Elə bu dəqiqə zəng edərəm. Bəli, əlbəttə. Artıq sabah səhər. Anladım. Xudahafiz.

O, prokurorun xəttdən ayrılmasını gözlədi və dəstəyi asdı.

– Deyəsən, sizin həmyerliləriniz artıq prezident aparatına da yol tapıblar, - deyə Melentyev narazı halda dilləndi. – Moskvadan düz bizim meriyamıza və şəhər prokurorluğuna zəng ediblər. Mən həqiqətən sizin nə üçün bu

cür gərəksiz ajiotaj yaratmağınızın səbəbini anlamıram. Xülasə, mən bizim prokurorun sərəncamını aldım. Təkrar ekspertizanı elə günü bu gün keçirəcəyik, sabah isə artıq sənədləri tərtib etməyə başlayarıq.

Səfərov onun hal-hazırda müstəntiqə, elə onun tərəfindən bir dəqiqə əvvəl işlənən kəlmələri xatırlatmağın düzgün olmadığını düşündü. Melentyevin məhzun bir görkəmi vardı.

– Bizim ənənələrimizi də başa düşmək vacibdir, - deyə Müslüm mülayim bir tərzdə vurğuladı, - oğlunu itirən atanın dərdini də, həmçinin.

– Yaxşı, kifayətdir, - deyə Melentyev onun dediklərinə laqeyd yanaşdı, - siz artıq öz istədiyinizə nail oldunuz. Sizə bundan artıq daha nə lazımdır?

– Məni buraya, bizim fəaliyyətimizin bir-birilə uzlaşdırılması üçün yollayıblar, - deyə Səfərov xatırlatdı, - və nə qədər ki, siz istintaqı yekunlaşdırmamısınız, mən Sankt-Peterburqda qalmaq niyyətindəyəm.

– İstintaqa təzyiq göstərmək üçün hər dəqiqəbaşı da öz əlaqələrinizdən istifadə edəcəksiniz? – deyə Melentyev qəzəbli bir tərzdə maraqlandı. – Sizə Cinayət – Prosesual Məcəlləsinin nə olduğu məlumdurmu?

– Bir balaca təsəvvürüm var. Sizə heç bir əks təzyiqdən yararlanmayacağıma da söz verirəm. Mən ki sizə ixtisasca hüquqşünas olduğumu demişəm. Mən buraya sizə yalnız kömək etmək üçün gəlmişəm.

– Biz kənar köməyə ehtiyac duymuruq, - deyə müstəntiq onun sözünü yarımçıq kəsdi. – Ümidvaram ki, siz də bizim istintaqımızın bütün mürəkkəbliyini anlayırsınız. Məni bağışlamağınızı xahiş edirəm, mən işləməliyəm.

Onlar ayağa qalxdılar.

– Xudahafiz. – Melentyev də onlara buraxılış vərəqəsini uzadıb ayağa qalxdı, ancaq onlarla sağollaşarkən əllərini sıxmadı. Onun incidiyi aydın görünürdü. Onlar otaqdan çıxdılar, aşağı düşdülər və binanı tərk etdilər.

«Mən heç ondan soruşmağa da macal tapmadım, - deyə Müslüm məyus halda xatırladı. – Artyom Parmuzinin hazırda harada işlədiyini öyrənmək lazımdır. Deyəsən, bizim on iki il bundan əvvəl birgə işlədiyimiz həmin prokurorun adı elə bu cür idi. O, hələ ki, gənc olmalıdır. O vaxt mənim otuz altı, onun isə bir qədər az yaşı vardı. Otuz iki və ya otuz üç olardı. Maraqlıdır, görəsən, indi Parmuzin harada işləyir?».

– Bir dəqiqə gözləyin, Sergey, - deyə Səfərov ondan xahiş edərək, yenidən binaya qayıtdı. O, öz pasportunu növbətçiyə göstərdi. – Mən elə indicə buranı tərk etmişəm, - deyə o, zabitə xatırlatdı.

– Xatirimdədir. Lakin yenə də yeni buraxılış vərəqəsi lazımdır, - deyə zabit ciddi bir tərzdə bildirdi, - hətta diplomat olsanız da.

– Yox, yox, siz məni başa düşmədiniz. Mən yenidən binaya daxil olmaq niyyətində deyiləm. Mənə sadəcə, Artyom Parmuzinin harada işlədiyini dəqiqləşdirmək lazımdır.

– Burada arayış verilmir, - deyə zabit dilləndi, - üzr istəyirəm.

– Əlbəttə. Mən hər şeyi başa düşürəm. Bəs sizin yanınızdan Vyaçeslav Yevgenyeviç Melentyevə zəng etmək olarmı? Mən elə indicə onun yanından çıxmışam.

– Xeyr. Buradan zəng etmək olmaz. Bağışlayın, bizim öz qanunlarımız var.

Müslüm maşına qayıtdı.

– Sizdə Melentyevin xidməti telefonunun nömrəsi varmı? – deyə o, Sergeydən soruşdu.

– Əlbəttə, var.

– Onu mənə verin, - deyə xahiş etdi.

Sergey ona öz telefonunu uzatdı.

– Birinci nömrə onundur. Düyməciyi basıb, onunla söhbət edə bilərsiniz. Mən ona sizin buraya düşməyinizdən sonra, bizim görüşümüzü təsdiqləmək üçün zəng etmişdim. Öz telefonunuzla zəng etməyinizə də lüzum yoxdur, bu, çox bahadır. Mənim isə telefonum yerli tariflə işləyir.

– Oldu. Təşəkkür edirəm. – O, təkrarən Melentyevin telefon nömrəsini yığdı.

– Eşidirəm, - deyə müstəntiq cavab verdi.

– Sizi yenidən narahat etdiyimə görə üzr istəyirəm, - deyə Müslüm dilləndi. – İş burasındadır ki, mən buraya on iki il bundan əvvəl bir dəfə də gəlmişdim. O vaxt sizin şəhər prokurorluğunuzun əməkdaşı – Artyom Parmuzinlə görüşmüşdüm. O, müstəntiq idi. Siz onun hazırda harada işlədiyini bilirsinizmi?

Cavab olaraq müstəntiqin dərindən köks ötürməsi eşidildi.

– Allo, siz məni eşidirsinizmi? – deyə Səfərov təəccübləndi.

– Müstəntiq Artyom Parmuzin doxsan dördüncü ilin noyabr ayında qətlə yetirilib. Təxminən on il bundan əvvəl, - deyə Melentyev pərt bir tərzdə dilləndi. – Siz daha kiminsə barəsində məlumat almaq istəyirsiniz?

– Xeyr. Lakin bu, necə baş verib? Onu nə üçün öldürüblər?

– O, mütəşəkkil cinayətkarlıq məsələləri ilə məşğul olurdu, - Vyaçeslav Yevgenyeviç izah etdi, - güman ki, kiminsə yolunun üstünə çıxıbmış. O vaxt dövr də çox ağır və mürəkkəb idi. Onu evinə yaxınlaşarkən atəşə tutublar. Əgər bu sizin üçün maraqlıdırsa, onun qatilini tapmadılar.

– Onun gənc arvadı və oğlu var idi, - deyə Müslüm xatırladı,- yox, iki oğlu var idi. Onun həyat yoldaşı ilə iki oğlu var idi. Mən onların evində qonaq olmuşdum.

– Ola bilər. Mən onunla yalnız altı ay işləmişəm və biz kifayət qədər yaxından tanış deyildik. Üzr istəyirəm, mən hazırda çox məşğulam.

– Hə-hə, əlbəttə. Bağışlayın.

O, aparatı Sergeyə qaytardı və avtomobilin salonuna əyləşdi.

– Yenə nəsə olub? – deyə Sergey dəqiqləşdirdi.

– Olub. Bir tanışım barəsində məlumat almaq istədim. Biz onunla doxsan ikinci ildə birlikdə işləmişdik. Sən demə, onu doqquz il bundan əvvəl qətlə yetiriblər. Onun füsunkar arvadı və iki oğlu var. Mən onun artıq çoxdan həlak olduğunu təsəvvürümə belə gətirmirdim.

– Burada, doxsanıncı illərin əvvəllərində tam özbaşınalıq hökm sürürdü, - deyə avtomobili idarə edən Sergey dilləndi. – Mən hələ indiyə qədər də onların ümumiyyətlə, bütün bunlara tab gətirib, necə sağ qaldıqlarını başa düşməkdə çətinlik çəkirəm…

– Bizdə də vəziyyət yaxşı olmayıb, - deyə Səfərov qaşqabaqlı halda vurğuladı.

– Lakin ümumi qarmaqarışıqlıq dövrü sizdə bizdəki qədər çox davam etmədi, - deyə Sergey etirazını bildirdi, - burada isə bütün doxsanıncı illər insanlar üçün əsil sınağa

çevrilmişdi. Ölkənin indiyə qədər qorunub saxlanılması da bir möcüzədir. Əvvəlcə bütün respublikaların ayrılması ilə müşayiət olunan Sovet İttifaqının süquta uğraması, sonra isə həmin o Qaydar islahatları. İndi isə onların öz arsızlığına görə düşünülməmiş və müdhiş olduğunu yazırlar. Canlı adamları isə o vaxt heç hesaba da almırdılar. Hər şey hansısa ölü sxemlər üzrə həyata keçirilirdi. Sonra isə vauçerlərlə olan həmin yalan və həmin o soyğunçu özəlləşmə. «Qara çərşənbə axşamları» və «qara cümələr». Döxsan üçüncü ilin çevriliş cəhdləri. Çeçenistanda iki müharibə. İnsanların küçələrdə, milisin düz gözü önündə qətlə yetirildikləri doxsanıncı illərdəki banditizm azğınlığı. Yeltsinin ağır xəstə olmasına və onun sonradan ayağına yazılan o qədər səs faizi qazanmasına baxmayaraq, onun hərfi mənada prezidentliyə sürüklənməsi ilə müşayiət olunan doxsan altıncı ilin rüsvayçı seçkiləri. Ən nəhayət, avqust defoltu və Rusiyadakı evlərin partladılması. Mən doğrudan da, bəzən rusların dözümünə heyrətlənirəm. Bu, elə bir qeyri-adi xalqdır ki! Yeltsin kimi bir prezidentə tab gətirmək! İstənilən digər ölkədə onu çoxdan qovardılar. Siz mənim ona nə üçün belə nifrət bəslədiyimi bilirsinizmi? Doxsan dördüncü ildə bizim qoşunlarımız Almaniyanı tərk edirdilər. Ola bilsin ki, siz bunu xatırlayırsınız. O vaxt Yeltsin sərxoş olana kimi içmiş və almanların rəsmi məmurlarının qəhqəhəsi altında alman orkestrinə dirijorluq etmişdi. Bax, bunu mən ona heç bir vaxt bağışlamayacağam. Mənim nənəmin Leninqradın mühasirəsi vaxtı dörd qardaşı ilə bacısı həlak olmuşdu. Nənəm həmişə onların necə həlak olduğundan danışırdı. Mənə də onun kiçik qardaşının şərəfinə Sergey adını qoyublar. Onun cəmi altı yaşı vardı və aclıqdan ölmüşdü. Bax, burada, bu şəhərdə. Biz müharibədəki bu qalibiyyəti elə

çətinliklə əldə etmiş və elə məşəqqət çəkmişik ki. Biz hamımımız, təkcə ruslar deyil, bütün sovet adamları. Baxmayaraq ki, rusların payına bu əziyyətdən daha çox düşüb. Yeltsin isə sərxoş halda dirijorluq edirdi.

Sergey məyus halda susdu.

– Bu, siyasətdir, - deyə Müslüm hadisələrdən kənar bir tərzdə dilləndi, - Yeltsinin hərəkətləri həmişə iyrənc və gözlənilməz olmuşdur. Bax elə buna görə də, mən siyasətçiləri sevmirəm.

Sergey ona bir qədər heyrətlə nəzər saldı.

– Məgər biz siyasətlə məşğul olmuruq? – deyə o, soruşdu. – Mənsə bütün bunlarla məhz diplomatların məşğul olduğunu güman edirdim.

«Deyəsən, mən yenə yaxalandım, - deyə Müslüm düşündü, - bir qədər diqqətli olmaq lazımdır».

– Diplomat – heç də siyasətçi deyil, - deyə o, etirazını bildirdi. – Biz yalnız xarici siyasət üzrə müəssisəmizin əməkdaşı qismində çalışırıq. Siyasətçilər isə – prezidentlər, baş nazirlər, nazirlər və deputatlardır. Bizim necə yaşayacağımıza da məhz onlar qərar verirlər. Əfsuslar olsun ki, heç də həmişə düzgün qərar vermirlər. Əksinə. Əksər hallarda onlar öz xeyirlərinə qərar verirlər. Lakin heç də ideal olmayan bu kainat məhz bu cür qurulub, Sergey. Bizim konsulluğa gedək, mən hələ baş konsulla da tanış olmalıyam.

– Bu, düz şəhərin mərkəzindədir, Milyon küçəsində. Ancaq mənə sizin şəhərə yaxşı bələd olduğunuz da məlum oldu.

– Sizin düşündüyünüz kimi də yaxşı bələd deyiləm, - deyə Müslüm etiraz etdi. – İlk dəfə mən buraya iyirmi dörd yaşında gəlmişəm. Bu isə uzaq səksəninci illərdə baş verib.

Sovet İttifaqının Olimpiadanı öz vətənənində qəbul etdiyi dövrdə.

– Mənim o dövrdə cəmi iki yaşım tamam olmuşdu, - deyə Sergey gülümsədi. – Mən bu Olimpiadanı yalnız sənədli filmlərdə görmüşəm. Siz ilk dəfə məhz o vaxt buraya gəlmisiniz?

– Bəli. O vaxt bu şəhərin adı Leninqrad idi…

### *Meymun ili. Leninqrad. İyul, min doqquz yüz səksəninci il*

Müslüm o vaxt Leninqrada üç günlüyə gəlmişdi. Hər şey bu iyul günlərindən çox əvvəl baş vermişdi. Səksəninci illərin əvvəllərində Sovet İttifaqında əllinci-altmışıncı illərdə anadan olmuş çağırışçıların sayının kəskin tərzdə azalması ilə müşayiət olunan müharibənin acınacaqlı nəticələri özünü büruzə verməyə başladı. Axı bunlar Böyük Vətən müharibəsində həlak olmuş atalar nəslinin övladları idi və bu kimi «demoqrafik çala»ya bənzər ikinci dalğa məhz bu dövrə təsadüf etdi. O vaxt presedentsiz bir qərar qəbul olundu – ali tədris müəssisələrini bitirməyə macal vermədən hətta tələbələri belə orduya çağırmağa başladılar. Bir neçə il sonra bu cür metodun nə qədər zərərli olduğunu anlayan hökumət bu qanunu ləğv etdi. Nəticədə isə ölkə artıq minlərlə alim, riyaziyyatçı, bioloq və kibernetiklərdən məhrum oldu. Minlər-lə natamam savadlı əsgər isə təhsilini yarımçıq qoymuş tələbələri əvəz edə bilmədi, onlar orduda xidmət göstərdikdən sonra dərsləri ilə artıq əvvəlki çalışqanlığı nümayiş etdirmir və

ümumiyyətlə, tədrisin qiyabi və axşam formalarına keçməklə, təhsillərini başlı-başına buraxırdılar.

Lakin Müslüm Səfərovun hüquq fakültəsini bitirdiyi yetmiş səkkizinci ildə bu kimi yenilik nəzərə çarpmırdı və bütün tələbələr zabitlərin çağırış siqnalına yalnız hərbi kafedralarda təhsil aldıqdan sonra cəlb olunurdular. Səfərov təqsim nəticəsində o vaxt «poçt qutusu» adlandırılan qapalı tipli müəssisənin hüquq məsləhətçisi vəzifəsinə təyin olundu. Yarım ildən sonra isə onun iki il zabit kimi xidmət göstərməyə borclu olduğunu güman etməklə, onu orduya leytenant kimi çağırdılar. Məhz elə o dövrdə, hərbi xidmətə getməzdən əvvəl, o, dostu Valera ilə birlikdə Leninqrada yollanmağa qərara aldı.

Səfəri Valera nəzərdə tutmuşdu. O, nənəsinin yaşadığı Vilnüsə bir günlüyə baş çəkməli idi. Oradan isə o, Müslümə Leninqrada yollanmağı təklif etdi. Valeranın qohumu Leninqrad mehmanxanalarının birində işləyirdi və onlara mehmanxanada üç günlük «lyüks» yer təşkil edəcəyini vəd etmişdi. Artıq fərqli bir dövrdə anadan olmuş gənclərə keçmiş Sovet İttifaqında mehmanxanalarda, hətta adi ikiyerli otaqlara yerləşməyin müşkül olmasına və sehrli «bron» kəlməsini işlətmədən hər hansı bir mehmanxanada məskunlaşmağın qeyri-mümkün olduğuna inanmaq çox çətin idi. Bəzi hallarda «bron» kəlməsini rüşvət əvəzləsə də, orduya yenicə çağrılmış iki gələcək zabitdə bu qədər pul hardan olaydı? Bundan savayı, bir həftə sonra Olimpiya oyunları başladı və nəinki Moskvada, həmçinin, Sovet İttifaqının digər iri şəhərlərində də bütün mehmanxanalar xüsusi nəzarət altına alınacaqdı.

Onlar əvvəlcə Vilnüsə yollandılar. Uzun illər keçdikdən sonra da Müslüm tez-tez bu səfəri xatırlayırdı. İyul

ayının on ikisində şəhərin mərkəzi dövrəyə alınmışdı və onlar burada məhz nələrin baş verdiyini anlaya bilmirdilər. Valeranın nənəsi isə öz nəvəsi ilə onun yoldaşına böyük bir həvəslə nələrin baş verdiyini izah etdi. Litvaya Moskvadan respublikaya Oktyabr İnqilabı ordenini təqdim edəcək nümayəndə heyəti təşrif buyurmuşdu. Gözlənilməz bir vəziyyətin yaranması səbəbilə isə bu ordeni Sov.İKP MK-nın Siyasi Bürosunun üzvlüyünə namizəd olan, Sov.İKP MK-nın katibi Mixail Sergeyeviç Qorbaçov təqdim edirdi. O, sovet hakimiyyətinin Litvada bərqərar olmasının qırx illiyi şərəfinə parlaq və təsirli bir nitq söylədi. Axı zala toplananlar haradan biləydilər ki, bir neçə il sonra iri bir dövlətin süquta uğraması məhz buradan, Litvadan başlayacaq və artıq buraya bir vaxt gəlmiş Sov.İKP MK-nın katibi Mixail Qorbaçov insanları yenidənqurmanın və onların Sovet İttifaqından ayrılması haqqında siyasi qərarının ləğv olunması zəruriliyinə inandırmağa müvəffəq olmayacaq.

Təntənəli yığıncağın İdarə Heyətində Moskvadan gəlmiş və çıxış edən əziz qonağın arxasında isə arasında yerli kommunist partiyasının rəhbəri və birinci katib vəzifəsinə hələ təyin olunmamış Alqirdas Brazauskasın da olduğu Litva Kommunist Partiyası MK-nin katibləri əyləşmişdilər. Qorbaçov Litvanın son qırx ildə keçdiyi böyük yoldan, onun əldə etdiyi nailiyyətlərdən və onun iqtisadi inkişafından böyük coşqu ilə bəhs edirdi. Onu nəzakətlə alqışlayırdılar. Qorbaçov ordeni təqdim etdikdən sonra öz çıxışından razı bir halda və bir neçə il sonra məhz burada nələrin baş verəcəyindən qəti şübhələnmədən Litvanı tərk etdi. O, növbəti dəfə Litvada olanda onu artıq fərqli bir surətdə qəbul edəcəkdilər. Heç kim yenidənqurma ilə öz nöqteyi-nəzərini ifadə etmək imkanının

məhz ölkənin yeni liderinin tutduğu yol sayəsində meydana gəldiyini də xatırlamayacaq. Qorbaçov, şübhəsiz ki, tarixə islahatçı qismində daxil olmaq istəyirdi. Ancaq özünü, nəinki öz ölkəsini süquta uğradan, həm də insan sivilizasiyasının inkişafını əlli və ya yüz ilə qədər yubadacaq dünyanın müasir siyasi quruculuğunu devirən bir dağıdıcı və məntiqsiz siyasətçi kimi göstərdi.

Müslümlə Valera Vilnüsdə yalnız bir gün qaldılar, növbəti günün səhəri isə digər qatara minib Leninqrada yollanmaq məqsədilə Riqaya getdilər. Bu, hərəsinin iyirmi dörd yaşı tamam olan iki gəncin əyləncəli səfəri idi. Leninqrada onlar səhər tezdən çatdılar. Şəhər onları narın yağışı və buludların arasından görünən günəşi ilə qarşıladı. Vağzaldan onlar birbaşa Valeranın qohumunun onları gözlədiyi «Moskva» mehmanxanasına gəldilər. O, onları pis vəziyyətdə qoymadı və həqiqətən də, cavanları Aleksandr Nevski şərəfinə açılan «lyuks» nömrə ilə təmin etdi. Bir saat ərzində onlar iki ayaqyolusu olan ikiotaqlı iqamətgahı nəzərdən keçirir və uşaq tək şadyanalıq edirdilər.

Lakin bu «lyuks»da ikilikdə zövq almaq hər iki gəncə bədxərclik və sarsaqlıq kimi gəlirdi. Onlar portyenin onlara tövsiyə etdiyi şəhərin ən yaxşı kafelərindən birinə, xanımların axtarışına yollandılar. Lakin burada onlar müvəfəqiyyətsizliklə üzləşdilər, müəssisə bağlı idi. Gənclər üçün nəzərdə tutulmuş digər kafedə isə onlar ümumiyyətlə, əbəs yerə üç saat oturdular. Burada elə bir siqaret dumanı çökmüşdü ki, sıx dumanın içindən nəyi isə seçmək belə qeyri-mümkün idi. Məyus və əldən düşmüş dostlar hansısa bir qəlyanaltıda nahar etdilər və yenidən onlarla birlikdə şam etməyə nəzakətlə razılıq verən, bütün gecəni rəqs edən,

şampan şərabı ilə meyvə sifariş edən, sonra isə onlarla xoş sifətlə sağollaşaraq, yollarına davam edən iki yerli qızı tapana kimi macəra axtarışına çıxdılar. Hər iki gənc qadın yerli idi və cənubdan gələn iki «çuçmek» ilə heç bir yerə getməyə hazırlaşmırdılar. Onlar yalnız vaxtlarını xoş keçirmək niyyətində idilər.

Taqətdən düşmüş və məyus Müslümlə Valera iri otaqlarına qayıtdılar. İndi bu otaq onları yalnız qıcıqlandırırdı. İlk gün və ilk gecə itirilmişdi. Bundan savayı isə onlar bugünkü şam yeməyinə də kifayət qədər çox pul xərcləmişdilər.

Növbəti gün səhər yeməyini yedikdən sonra onlar yenidən «ova» çıxdılar. Otelin özündə də onlarla müəyyən məbləğə vaxt keçirməyə razılıq verən istənilən sayda qadın tapmaq olardı, lakin gənclər heç bir vəchlə bu qədim peşənin nümayəndələri ilə görüşmək istəyində deyildilər. Bu kimi görüşlər üçün isə bu iki gənc qanmazın haqlı olaraq düşündüyü kimi, heç də belə bir iri «lyuks» otaq tutmaq lazım olmazdı. Bunun üçün iki çarpayılı otağa malik olmaq kifayət edərdi. Onlar isə müəyyən təəssürat oyadacaqları qızlarla birlikdə romantik görüş keçirmək istəyirdilər.

Günorta onlar işə - xəstəxanadakı ikinci növbəyə tələsən və axşam onlara mütləq zəng edəcəklərini vəd edən iki gənc qadınla tanış olmağa müvəffəq oldular. Daimi müvəffəqiyyətsizliklərdən təngə gəlmiş Valera isə otelə qayıdaraq, özlərinə mehmanxananın kafesindəcə yoldaş axtarmağı təklif etdi.

– Fahişələrə ilişmiş olmayaq, - deyə Müslüm etirazını bildirdi.

– Onların yalnız pula maraqlandığını müəyyən edən kimi dərhal oranı tərk edərik. Belə xanımlar bizim nəyimizə gərəkdir? Onları istədiyin yerdə tapa bilərsən, - deyə Valera bu fikri rədd etdi.

Uzun illər keçdikdən sonra Müslüm onların bu axtarışını təbəssümlə xatırlayırdı. Onların kifayət qədər vaxtı yox idi, təəssürrat oyatmaq və yerdə qalan günləri şən keçirmək üçün qadınlarla tanış olmaq istəyirdilər. Lakin yarım günlük axtarış da müvəffəqiyyətlə nəticələnmədi. Hansısa bir rəzillik qanununa əsasən, onların heç cür bəxti gətirmək bilmirdi.

Mehmanxananın kafesində isə demək olar ki, bir ins-cins də gözə dəymirdi. Onlar küncdə əyləşərək, özlərinə iki fincan qəhvə sifariş etdilər. Masanın arxasında yalnız iki cütlük əyləşmişdi. Küncdəki masanın arxasında isə bir neçə əcnəbi vətəndaş şam yeməyi yeyirdilər.

– Harayasa getmək lazımdır, - deyə Müslüm təklif etdi, - bu «lyuks»u da təhvil vermək lazımdır. Axı nə üçün biz ona bu qədər pul xərcləyirik? Axmaqlıqdır…

– Mən ömrümdə birinci dəfədir ki, belə bir dağınıq vəziyyətə düşmüşəm, - deyə Valera hiddətləndi, - münasib əzalısını tapa bilmirəm. Təsəvvür edə bilməzsən ki, adama necə ağır gəlir. Sonra orduda iki il bizim bu sarsaqlığımız barədə düşünəcəyik.

– Sanki bizi xidmətə əsgər kimi yollayırlar, - deyə Müslüm etirazını bildirdi, - biz ki zabit olacağıq. Bizim yəqin ki, daha çox boş vaxtımız qalacaq. Ümumiyyətlə, belə təlaşlanmaq da yaramaz. Hətta əgər kiminləsə tanış ola bilmiriksə belə. Bunun əvəzinə biz səninlə bu dəbdəbəli «lyuks»da üç gün, üç gecə keçirəcəyik.

– Axı bu «lyuks» bizim ikimizin nəyinə gərək? – deyə Valera daha da qəzəbləndi.

Kafeyə, barın piştaxtasına yaxınlaşaraq, bir fincan qəhvəni sifariş edən naməlum bir qadın daxil oldu. Onun əynində boz rəngli yaxşı kostyum vardı. Əlində isə kifayət qədər bahalı çanta tutmuşdu.

– Gör bir necə füsunkardır, - deyə Valera naməlum qadına işarə edib heyranlıqla dilləndi, - amma heç bizim kontingentimiz deyil. Belə qadını «lyuks»la heyrətləndirməzsən.

Müslüm qanrıldı. Başını bir balaca kənara çevirən qadını gördü. Onun biçimli əndamı ilə bahalı geyimi də nəzərindən yayınmadı.

– Çox füsunkardır, - deyə o, dostunun söylədikləri ilə razılaşdı, - onun qırx və ya ondan da çox yaşı var. Sən belə qadınları xoşlayırsan?

– Gözəl qadınların hamısı xoşuma gəlir, - deyə Valera əl-qolunu ölçdü, - amma sən haqlısan, o, bizdən yaşlıdır. Ancaq mən elə indicə ona pərəstişkarlıq edərdim. Ay, bir ora bax. Deyəsən, axı bizim kontingentimiz gəlməlidir.

Kafeyə ətrafına yöndəmsiz tərzdə nəzər salan iki gənc qız daxil oldu. Onların iyirmi yaşı olardı. Onlar kafeyə daxil olmağa ürək etmədən, utancaq bir tərzdə ətrafa boylanırdılar. Onların buraya ilk dəfə gəldikləri də hiss olunurdu. Birinin hündür qaməti, bir qədər qalın çənəsi və hörüklü, uzun şabalıdı saçları var idi. Digəri isə orta boydan alçaq və gəlinciyin simasına bənzər gözəl bənizli bir sarısaç idi.

Qızlar qonşu masanın arxasına keçdilər və ofisiantdan onlara iki qab salat ilə limonad gətirməsini xahiş etdilər. Valera isə şadyanalıq edirmiş kimi gülümsədi.

– Yəqin ki, onlar əyalətlidirlər, amma dəqiq fahişə deyillər, - deyə o, qalib tərzdə dilləndi.

Elə bu məqamda kafeyə üç oğlan daxil oldu. Onlar artıq haradasa çoxdozalı spirtli içki qəbul etməyə macal tapdıqlarından çox şən əhval-ruhiyyədə idilər. Onlardan ikisi kifayət qədər dolğun, güclü və qısa saçlı iyirmi yaşlı oğlan idi, üçüncüsü isə irəli çıxmış xirtdəyə və pırtlaşıq saçlara malik olan uzun boylu, o birilərindən bir qədər gənc idi. Lakin aralarında ən dalaşqanı və sırtığı da elə o çıxdı. Əvvəlcə onlar barın piştaxtasına yaxınlaşaraq, pivə istədilər. Ayaq üstə dayanmış qadını görən gəncin könlündən zarafatlaşmaq keçdi.

– Ay, necə də gözəldir… - deyə o, söhbətə başladı.

Qadın ona tərəf çevrilib, nəzərlərini üzünə zillədi. Oğlan gözlənilməzlikdən udqunub susdu. Bu kimi xanımlarla hənəkləşməyin düzgün olmadığını anladı. Ümumiyyətlə, onlara nə isə demək də yaramaz. O vaxt o, pivə bokalını götürüb öz narazılığını kiminsə üzərinə yağdırmaq məqsədilə masanın arxasında əyləşmiş iki qıza diqqət yetirdi. Gözəyarı onların əyalətli olduğunu sezdi. Elə bu səbəbdən də qətiyyətlə onlara yaxınlaşdı. Onun iki yoldaşı da oğlanın arxasınca getdi.

– Qızlar, xoş gördük! – deyə o, masaya yaxınlaşıb, ucadan dedi. – Bura boşdur?

– Tutulub, - deyə hündür qamətli qız çantasını boş stulun üzərinə qoyub dilləndi.

– Mənə isə elə gəlir ki, boşdur. – deyə o, çantanı itələdi və şappıltı ilə qızların yanında oturdu. Digər gənclər də onunla üzbəüz əyləşdilər.

– Siz hardan gəlmisiniz, qızlar? – deyə bu tip onları sorğu-suala tutdu. – Yəqin ki, yerli deyilsiniz, eləmi?

– Biz sizinlə danışmaq belə istəmirik, - deyə ikinci qız özündən çıxdı, - zəhmət olmasa, gedin burdan.

– Çox da özünü dartma, - deyə arsız gənc ucadan dilləndi. –Ola bilsin, siz burada darıxırsınız. Gəlin bizimlə gedək. Biz bağa getməyə hazırlaşırıq. Şənlənərik…

– Biz sizinlə heç bir yerə getmirik, - deyə hörüklü qız etirazını bildirdi. – Ümumiyyətlə, buranı tərk edin. Biz yemək yeyirik.

– Sən bizi qovma, - deyə başçı bərk hirsləndi, - axı sən kimsən? Bəlkə bu restoran sənindir? Ya da sənin kafendir? Bəlkə bu mehmanxana da sənindir? Xülasə, farağat dur. Bəlkə mən heç sənin xoşuna gəlmirəm? İstəyirsən, səni öpüm?

– Açıl başımdan, - deyə qız qışqırdı, - mən səninlə birlikdə oturmaq istəmirəm. Burax məni, biz gedirik.

– Necə də qanmazdır! – deyə piştaxtanın arxasında dayanan qadın ucadan dilləndi. – Bəlkə milis çağırasınız? – deyə o, barmenə təklif etdi. Barmen cəld başını yelləyib, telefonun dəstəyini götürdü.

İlk ayağa qalxan Müslüm oldu. O, hürkmüş hər iki qızın gözlərinin yaşardığını gördü. Və bu, onun söhbətə müdaxilə etməsi üçün yetərli oldu…

– Baş qoşma, - deyə Valera onun qolundan dartdı. – Bunun bizə heç bir dəxli yoxdur. Qoy məsələni özləri ayırd etsinlər.

– Gözlə görüm, - deyə Müslüm bütün kompaniyanın əyləşdiyi masaya yaxınlaşdı. – Uşaqlar, - deyə o, astadan dilləndi, - özünüzü belə ədəbsiz aparmayın. Yaxşı deyil.

– Sən kimsən belə? – deyə başçı heyrətləndi. – Bircə o çatmırdı ki, hansısa bir kötük Piterdə komandirlik edib, bizə özümüzü necə aparmağı göstərsin. İtil burdan, sarsaq.

O, yanında oturmuş qızın əlindən yapışıb, özünə tərəf dartaraq, qızı incitdi. Qız ağrıdan qışqırdı.

– Mən sizə özünüzü normal aparmağı tövsiyə etdim, - deyə Müslüm soyuqqanlılıqla dilləndi, - sənsə əvvəlki kimi ədəbsizlik edirsən.

– Deməli, sən burada qəhrəmansan, - deyə başçı ayağa qalxdı, - deməli, yaxşılıqla söz qanmırsan.

O, yanında əyləşmiş oğlana nəzər saldı. Oğlan onun arxasınca ayağa qalxdı. O, bədəncə Müslümdən cüssəli idi. O, qəfildən Müslümə zərbə endirdi. Zərbə arxadan azğınlıqla böyrəklərinin üstündən vurulmuşdu. Müslüm ağrıdan əyildi və ikinci zərbəni aldı. O, ayaq üstə güclə dayanmışdı.

– Müslüm, - deyə Valera da yerindən dik atıldı.

Hər üç hücumçu bir anlığa geri boylandılar və bu an da kifayət etdi. Hər necə də olsa, Müslüm uzun illər boksla məşğul olmuşdu. O, hücumçunun düz almacıq sümüyünə zərbə endirdi və onu kənara atdı.

– Afərin, - deyə barın piştaxtasının yanında dayanan qadın ucadan səsləndi. Digər müştərilər qorxudan yerlərində donub qalmışdılar. İkinci hücumçu əlindəki beşbarmağı sıxaraq, zərbə endirməyə hazırlaşırdı ki, Müslüm ona tərəf çevrildi və sağ əli ilə ona möhkəm bir zərbə endirdi. Oğlan biçilmiş ot kimi yerə sərildi və beşbarmağı əlindən yerə saldı.

– Öldürəcəyəm səni, - deyə başçı cibindən bıçaq çıxarıb bağırdı.

Barmen qorxmuş halda qışqırdı. Hamı donub qaldı. Başçı qolaylandı. Qızlar isə parlayan bıçağa qorxu içərisində baxırdılar. Müslüm zərbədən özünü qorumaq üçün stuldan yapışdı. Bıçaq oturacağa düşdü. Müslüm stulu kənara ataraq,

hücumçuya daha iki zərbə endirdi. O, döşəməyə sərildi. Kafeyə dərhal üç milis əməkdaşı soxuldu.

– Tərpənməyin! – deyə baş leytenant qışqırdı. – Burada nə baş verir?

– Onlar savaşıblar! – deyə müştərilərdən biri qışqırdı.

– Aydındır, - deyə baş leytenant onlara yaxınlaşaraq, başını yırğaladı. – İçib qızlara görə dava salmısınız. Sənədləriniz…

Müslüm pasportunu çıxardı.

– Bakıdansan, - deyə baş leytenant acı-acı gülümsədi. – Buraya gəlib, bizə öz cənub xarakterini nümayiş etdirməyi qərara almısan. Eyb etməz, kamerada coşqunluğunu soyudarsan… Mənimlə gedəcəksiniz…

– Onların heç bir təqsiri yoxdur, - deyə hündür boylu qız cürətsiz bir tərzdə dilləndi.

– O, bizi müdafiə edirdi, - deyə sarısaç qız da dilə gəldi.

– Siz də bizimlə şahid qismində gedəcəksiniz. Bir buna bax, özünü qəhrəman hesab edir. Bir andaca üç oğlanı yerə sərib…

– Dayanın, baş leytanant, - deyə qadın onlara yaxınlaşaraq, sərt səslə dilləndi, - mən hər şeyi öz gözümlə görmüşəm. Siz çox əbəs yerə bu gəncləri ittiham edirsiniz. Bütün günahlar hücum edənlərdədir. Onlar buraya soxulub, qızlara sataşır və söyüş söyürdülər. Mən hər şeyi öz gözümlə görüb, eşitmişəm. Sizə bu biriləri xuliqanlıqlarına görə həbs etmək lazımdır.

– Siz kimsiniz ki? – deyə baş leytenant qərəzçiliklə soruşdu.

O, çantasını açdı, oradan vəsiqəsini çıxardı və onu zabitə tərəf uzatdı. Zabit vəsiqəni nəzərdən keçirdi, onun sir-sifəti dəyişdi və sənədləri sahibinə qaytarıb dodaqaltı mızıldadı.

– Üzr istəyirəm. Mən hər şeyi anladım. Bunları həbs edirik, - deyə o öz əməkdaşlarına sarı çevrildi. – Sənsə sabah milis şöbəsinə gələrsən, - deyə o, Müslümə ciddiyyətlə bildirdi, - yoldaşını da özünlə gətir.

– Minnətdaram, - deyə Müslüm qadına təşəkkür etdi. Onun gözəlliyi, incə üz cizgələri, tünd rəngli, səliqəli saçları və badamvari yaşıl gözləri Müslümdə xoş təəssürat oyatmışdı.

– Afərin sizə, - deyə o, razılıqla dilləndi, - bizim zəmanəmizdə artıq centlmenlərə rast gəlməzsən. Ətrafımız vecsizlərlə və hətta özünü belə müdafiə etmək iqtidarında olmayan adi kişilərlə doludur. Adınız nədir?

– Müslüm.

– Gözəl addır. Siz Bakıdansınız?

– Bəli, - deyə o, gülümsədi. O vaxt hər kəsə bu adı daşıyanın yalnız Bakıdan olacağı bəlli idi. İri bir dövlət Müslüm Maqomayevi özünə pərəstişgah seçmişdi.

– Sizə uğurlar. – Qadın çevrilərək, çıxışa yollandı.

Sonra Müslüm və Valera kafedə qalan hər iki qızla tanış oldular. Valera bu dəfə heç də yanılmamışdı, onlar Leninqrada Murmanskdan bir neçə günlüyə gəlmişdilər və sabah geri qayıdacaqdılar. Qızların hər ikisi şəhər ətrafında yaşayan tanışlarının yanında qalırdılar. Həmin axşamı və gecəni onlar birlikdə keçirdilər. Müslümün ardıcıl olaraq hər üç hücumçunu necə nokauta yolladığını xatırlayarkən, onlar həm şənlənir, həm də bir qədər məzələnirdilər. O da, Valera da həmin qızlar da hər iki zabitin bir neçə gündən sonra

müharibəyə, Əfqanıstana təyinat alacaqlarından xəbərsiz idilər. Səksəninci ilin on doqquz iyul tarixində Moskvada bir sıra aparıcı ölkələrin sovet qoşunlarının Əfqanıstana soxulması səbəbilə boykot etdikləri iyirmi ikinci Olimpiya oyunları açıq elan olundu.

Həmin axşam isə onların dördü də qayğısız və xoşbəxt idilər. Gələcək həyat isə onlara böyük bir bayram kimi gəlirdi. Müslüm növbəti axşam ilə növbəti gecənin onun həyatında necə bir mühüm əhəmiyyət kəsb edəcəyindən heç şübhələnmirdi də. Heç Valera da iki ay yarımdan sonra onun bölüyünün mühasirəyə düşəcəyini, onun özü isə bu döyüşdə ağır yaralanacağını güman etmirdi. Xeyr, o, Əfqanıstanda həlak olmayacaq, sağ qalacaqdı. Lakin bəzən həyat ölümdən betər olur. Ağır yaralanmadan və kontuziyadan sonra o, hafizəsini itirəcək, keçmişi olmayan bir insana çevriləcəkdi. Və bütün bunlar yetmiş beş gündən sonra baş verəcəkdi.

## *Dördüncü fəsil*

«Onlar ən ziddiyyətli insanlardır. Onların bir çoxu bir tərəfdən öz qətiyyətsizliyi ilə fərqlənir, digər tərəfdən isə daha temperamentli və özündən razı adamlardır. Onlar qərar qəbul edə bilir və sağlam əqli zəkaya malik olurlar».

*(Şərq Ulduz falından)*

Baş konsul otuz beş yaşlı gənc idi. Əvvəlcədən o, özünü heç də adekvat aparmadı. Yəqin ki, ona Sankt-Peterburqa diplomat pasportu örtüyü altında məhz kimin

gələcəyini əvvəlcədən xəbər vermişdilər. Məhz elə bu səbəbdən də o, hər dəqiqəbaşı gülümsəyir, ona müəmmalı bir tərzdə göz vurur və Müslümün ona söylədikləri ilə razılaşırdı və hətta bir dəfə, özünü ələ ala bilməyib, təşrif buyurmuş qonağın aparacağı istintaqda ona kömək etməyə həmişə hazır olduğunu da ağzından qaçırdı. Onun yanında əyləşmiş Sergey isə heyrətlə öz rəhbərinə nəzər saldı.

Lakin çox danışmağa imkan vermədilər. Onların söhbətə başlamasından bir neçə dəqiqə sonra otağa konsulun katibəsi daxil oldu. Bu, qısa saçlı və iyirmi beş yaşlarında hündür bir qız idi. O, baş konsula hal-hazırda onların yanına həlak olmuş diplomatın qohumlarının qalxacağını bildirdi. Konsul dərhal yerindən sıçrayıb durdu və katibəsinə meyvə ilə şirniyyatın düzüldüyü yeni vazanı gətirməsini əmr etdi. Hətta masa arxasında əyləşmiş qonağın qarşısında üzrxahlıq belə etmədən təşrif buyuranların pişvazına çıxdı.

– Gələnlər İzmaylovun əmisi ilə atasıdır, - Sergey izah etdi. – Siz ki onların indi hansı vəziyyətdə olduğunu təsəvvür edirsiniz. Bax, elə ona görə də o, çalışır ki…

– Zənnimcə, o, insanların dərdinə şərik çıxmaq istəyində olduğu üçün deyil, onlardan birinin – nazir müavini, digərinin isə – Milli Təhlükəsizlik Nazirliyinin şöbə rəisi olduğu üçün belə canfəşanlıq edir, - deyə Səfərov soyuqqanlılıqla vurğuladı. – Yenə də bunun mənə heç bir dəxli yoxdur. Əgər o, bu insanlara onların vəzifə mənsubiyyətinə baxmayaraq, həqiqətən də, kömək etmək iqtidarındadırsa, o halda, bu heç də pis iş deyil. Bəs o qız, onun katibəsidir?

– Bizdə Albina müstəqil tərzdə götürülən işçi, çox fərasətli və vəzifəsinin öhdəsindən gələn əməkdaşdır, - deyə

Sergey onu o ki var təriflədi, - lakin tezliklə bizi tərk edəcək. Bu il aspiranturaya qəbul olur.

O, masanın üzərini yığışdırmaq və külqabını təmizləmək üçün otağa daxil oldu.

– Siz burada işləməkdən məmnunsunuzmu? – deyə Müslüm dəqiqləşdirdi.

– Əlbəttə, - deyə o, gülümsədi. – Başqaları hətta mənə qibtə də edirlər. Qənaətbəxş məvacib, əla işçilər. Bizlərdə çoxları yalnız azərbaycanlıya ərə getməyin lazım olduğunu söyləyirlər.

Otağa iki kişi daxil oldu. Onlar heyrətli dərəcədə bir-birinə bənzəyirdilər. Hər ikisi orta boylu, enlikürək, qara və gur saçlı, bir qədər iri sifətli, qara rəngli sıx qaşlı və iri burunlu adamlar idi. Qardaşlar narazı halda qonağa nəzər saldılar.

– Bu, Müslüm Səfərovdur, - deyə onlarla birlikdə otağa daxil olan konsul onu təqdim etdi, - mən sizə onun barəsində danışmışdım. Bu isə bizim həlak olmuş əməkdaşımızın atası Şamil İzmaylov, bu isə əmisi – Eldar İzmaylovdur.

– Xoş gördük, - deyə Müslüm başını yırğaladı və elə bu vaxt qəfildən kiçik qardaş ona tərəf getdi.

– Müslüm Əzizoviç, mən sizi o dəqiqə tanıdım. Hər vaxtınız xeyir. Məgər siz artıq diplomatsınız? Mən həmişə sizi bizim Baş prokurorluğumuzun ən yaxşı əməkdaşlarından biri hesab edirdim…

Araya ağır sükut çökdü.

– Müslüm Əzizoviçi bizə XİN-dən tövsiyə ediblər, - deyə konsul dilləndi və Sergeyə tərəf çevrilərək, astadan nə isə dedi. O, razılıqla başını tərpədib, otağı tərk etdi. – Əyləşin,

– deyə konsul masanın arxasındakı stula işarə etdi. – İş burasındadır ki, biz xüsusi cinayət işləri üzrə müstəntiqin buraya gəldiyini aləmə car çəkmək istəmirik. Qoy onlar cənab Səfərovu XİN-in adi əməkdaşı zənn etsinlər. O, istintaqın gedişatı haqqında özünün səriştəli rəyini bildirə, gərəkli və daha etibarlı nəticələrə gələ bilər.

– Belə də lazımdır, - deyə həlak olanın atası başını yırğaladı. – Gəldiyiniz üçün də təşəkkür edirəm. Sizi buraya göndərməkdə düz eləyiblər.

Albina armudu stəkanlarda ənənəvi çay gətirdi, onları masanın üzərinə düzdü və cəld otağı tərk etdi.

– O, bizim prokurorluğun ən yaxşı müstəntiqidir, - deyə Eldar İzmaylov vəcdlə əlavə etdi. – Sən onun necə ağır işləri təhqiq etdiyini təsəvvürünə belə gətirə bilməzsən. İndi artıq ürəyin sakit ola bilər. Bizim Familə xaincəsinə zərbə endirən həmin o rəzil artıq yaxasını kənara çəkə bilməyəcək. Səfərov onun bizim oğlanı necə qətlə yetirdiyini dəqiqləşdirmək üçün əlindən gələni əsirgəməyəcək.

– Siz kimin barəsində danışırsınız? – deyə Müslüm heç bir şey başa düşmədi.

– Onun yanına gələn həmin o qadın barədə. O, tibb institutunun tələbəsidir. O, elə hesab edir ki, ona bütün bu vəziyyət əl verəcək, çünki anası Sankt-Peterburq meriyasında işləyir. Amma biz bu işi belə qoymayacağıq. Qoy onlar müqəssirləri cəzalandırsınlar…

– Axı siz nə üçün məhz onun təqsirkar olduğunu düşünürsünüz?

– Ondan savayı orada heç kim olmayıb. Bizim oğlan da ehtiyatı əldən verən deyildi və evinə yad adam buraxmazdı. Yəqin ki, onun yanına münasibətlərini aydınlaşdırmaq üçün

gəlibmiş. O, hətta qonşulardan belə çəkinməyib, evə öz anasının xidməti maşınında gəlib. Bizim oğlana da mətbəx bıçağı ilə zərbə endirib. – Eldar İzmaylov qaşlarını çatdı. – Siz ki hər şeyi çox gözəl başa düşürsünüz. Əgər bu, belə bir qətl hadisəsidirsə, deməli, mübahisə və ya ədavətli münasibət zəminində baş verib. Bəlkə də qız ona qəmiş olubmuş və istəyirmiş ki, oğlan onunla evlənsin. İndi hamı özünə varlı oğlan axtarır. O isə yaxşı, təminatlı ailədən olan diplomat idi, şəhərin düz mərkəzində yaşayırdı və burada ev kirayələmişdi. Onun öz şəxsi «Mersedes»i də vardı. Bax, elə ona görə də, qız onun özünə tay olduğunu qərara alıb. Oğlan isə yəqin ki, atasının onun Bakıya qayıtdıqdan sonra burada evləndirmək qərarına gəldiyini analdığından qızdan imtina edib. Belə olan təqdirdə isə qız onu bıçaqla vurub hadisə yerindən qaçmışdır. Halal olsun ona, əsil kişi idi, bıçağı dartıb çıxara bilib, lakin zərbə çox ağır imiş, onu aşkar edənə qədər çoxlu qan itiribmiş. Yazıq uşaq, heç olmasa öləndə çox əziyyət çəkməyib.

Onun yanında əyləşmiş ata dərindən köks ötürsə də, kiçik qardaşının sözünü kəsmədi.

– Biz artıq şəhər prokurorluğu ilə zəngləşmişik, - deyə konsul cəld bir tərzdə əlavə etdi. – Onlar ikinci ekspertizanı elə günü bu gün keçirəcəklər, sabah isə sizin cəsədi təhvil ala bilməyiniz üçün sənədlərin tərtibatına başlayacağıq. Mən bizim əməkdaşımızı sizinlə birgə aeroporta yollayacağam və biz hər şeyi lazımi qaydada qanuniləşdirəcəyik, narahat olmaya bilərsiniz.

– Çox razıyam, - deyə ata başını yırğaladı. – Siz bizim ailəmizə böyük ehtiramla yanaşırsınız. Mən bunu heç bir vaxt unutmayacağam.

– Həmin bu müstəntiq Melentyevin heç nədən başı çıxmır, - deyə onun kiçik qardaşı söhbətə davam etdi, - belə qanmazlar olur. Biz Moskvadakı dostlarımıza müraciət etmək məcburiyyətində qaldıq. Sizə ki prezident aparatı ilə Nazirlər Kabinetində keçmiş MTN ilə FTB-nin nə qədər keçmiş əməkdaşının işlədiyi məlumdur. Lazımi adamları görüb, keçmiş əlaqələrimizi işə saldıq. Bizim heç vaxt unutmadığımız öz çekist qardaşlığımız mövcuddur. Və onlar da buraya, şəhər prokuroru ilə şəhər meriyasına zəng etdilər. Onlar isə müstəntiqə bizi yubatmamaq göstərişi verdilər.

– Bəli, - deyə Müslüm nəzakət xatirinə başını yellədi, - sizi anlayıram.

– Lakin siz cinayət işinin məhkəməyə təqdim olunmasına təkid etməlisiniz, - deyə Eldar İzmaylov söhbətinə davam etdi. – Onun məsuliyyətdən yayınmasına yol vermək olmaz. Qoy əməlinə görə cavab versin. Əks təqdirdə, biz onu özümüz tapıb, cavab verməyə vadar edəcəyik. Heç bir meriya da bizi dayandıra bilməyəcək. Bizim oğlanı öldürmək lazım deyildi. Onun atası, bizim bütün ailəmiz üçün belə bir zərbə nəyə lazım idi?

– Bir dəqiqə, bir dəqiqə, - deyə Səfərov onu dayandırdı, - axı biz məhz onun qatil olduğuna əmin deyilik. Hər şeyi yoxlamaq lazımdır…

– Onsuz da, hər şey gün kimi aydındır. Qız onun yanına axşam gəlib, - deyə o, həmsöhbətinə xatırlatdı, - heç namuslu qız da gecə vaxtı subay oğlanın evinə gedərmi? Onların arasında dava olduğu da aydındır. O, əlinə düşən ilk alətdən istifadə edib. Yəqin Melentyev bunun affekt vəziyyətində baş verdiyini yazacaq. Ola bilər, biz bununla razılaşmağa belə hazırıq. Lakin o, cavab verməlidir.

Gördüyünüz kimi, Müslüm Əzizoviç, mənim də bu istintaqlardan başım çıxır. Baxmayaraq ki, ömrüm boyu təhqiqat ilə deyil, operativ işlə məşğul olmuşam.

– Hələ ki, onun təqsiri sübut olunmayıb, - deyə Müslüm inadkarlıqla etirazını bildirdi, - hər şeyi yoxlamaq lazım gələcək.

– Bir halda ki, yaxşı müstəntiqsiniz, - deyə həlak olanın atası razılığını bildirdi, - o halda, buyurun, yoxlayın. Bizsə sizə yalnız minnətdar olarıq. Sizdə kurator kimdir, İbadovdur? Mən ona zəng edib sizin ezamiyyətinizi artırmağı xahiş edərəm. Burada istədiyiniz qədər qala bilərsiniz, bircə mənə balamın kimin tərəfindən qətlə yetirildiyini söyləyin.

– Sizi anlayıram, - deyə Səfərov bir qədər sarsılmış tərzdə dilləndi.

Qonaqlar çaylarını içərək, ağır-ağır ayağa qalxdılar. Konsul isə onların hər ikisini sənədlərin tərtibatı ilə heç bir problemin meydana çıxmayacağına inandırdı. O, Müslümün varlığını belə unudaraq, yüksək rütbəli qonaqları maşınlarına qədər ötürdü. Sonra isə cəld otağına qayıtdı.

– Üzr istəyirəm, - deyə konsul mızıldandı, - başa düşürsünüz də, onlar belə bir müsibətlə üzləşiblər.

– Əlbəttə, - deyə Səfərov nəzakətlə razılaşdı. – Məni hara təyin ediblər? Mənim üçün mehmanxanada otaq sifariş olunubmu?

– Əlbəttə ki, olunub, - deyə konsul diksindi, - Sergey sizi ora aparar. Mənim telefon nömrəmi də götürün, - konsul öz vizit kartını ona uzatdı, - günün və gecənin hər saatı məni narahat edə bilərsiniz. Onu da nəzərə alın ki, sizin bizim XİN-in xətti ilə ezamiyyətə gəlməniz səbəbindən, siz diplomatik toxunulmazlıq hüququ qazanırsınız. Heç kimin sizi həbs

etməyə və ya yaxalamağa da ixtiyarı çatmır. İstənilən münaqişənin yaranması vaxtı isə siz konsulun çağrılmasını tələb edə bilərsiniz. Məni başa düşürsünüzmü?

– Ümidvaram ki, işi bu həddə çatdırmaram, - deyə Müslüm burnunun altında donquldandı.

– Hər şey ola bilər, - deyə konsul çiyinlərini çəkdi.

Mehmanxanaya gedən yolda Sergey uzun müddət sükutu pozmadı. Nəhayət, Müslüm özünü saxlaya bilmədi:

– Mən sənə «sən» deyə müraciət edə bilərəmmi?

– Əlbəttə, - deyə Sergey başını razılıq əlaməti olaraq tərpətdi.

– Mənə elə gəlir ki, məndən nə barədəsə soruşmaq istəyirsən.

– Bəli, - deyə Sergey başını yırğaladı, - mən artıq hər şeyi başa düşmüşəm. Siz diplomat deyilsiniz?

– Hazırda mən demək olar ki, diplomatam. Lakin peşəmə görə, əlbəttə, diplomat deyiləm. Hər halda, bu barədə heç kimə bir kəlmə də olsun, demək lazım deyil.

– Siz bizim Milli Təhlükəsizlik Nazirliyimizdə çalışırsınız?

– Xeyr. Mən respublika prokurorluğunun xüsusi cinayət işləri üzrə müstəntiqiyəm. Ədliyyə nazirinin baş müşaviri.

– Deməli, polkovniksiniz, - deyə Seygey gülümsədi. – Mənim bu rütbələrdən bir qədər başım çıxır. O halda aydındır. Sizi buraya Melentyevə kömək etmək üçün göndəriblər?

– Mənim ona kömək etməyə və ya istintaqa müdaxilə etməyə ixtiyarım çatmır, - deyə Müslüm xatırlatdı. – Mən yalnız baş verənləri kənardan müşahidə etməli və onun təhqiqatı yanlış apardığını gördüyüm vaxt öz rəyimi

bildirməliyəm. Gəldiyim qənaəti isə mən bilavasitə ona deyil, Bakıdakı rəhbərliyimə bəyan etməliyəm. Orada isə necə münasibət bildirəcəklərinə özləri qərar verəcəklər. İndi hər şeyi anladınmı?

– Anladım, - deyə Sergey başını tərpətdi. – maraqlı peşəniz var. Deməli, siz, eynən komissar Meqre kimi müxtəlif cinayətləri təhqiq edirsiniz.

– Belə də demək olar. Yalnız real həyatda hər şey kitablarda olduğundan da bayağıdır.

– Başa düşürəm, - deyə Sergey başını yırğaladı. – Bəs siz Bakıda bizim ekspert-analitik Dronqo ilə tanışsınızmı? Onun barəsində burada, Sankt-Peterburqda elə əfsanələr gəzib-dolaşır ki.

– Xeyr, tanış deyiləm. Baxmayaraq ki, onun barəsində çox eşitmişəm. Onun işi mənimkindən asandır. O, dövlətin idarəetmə sistemi ilə əlaqəli deyil. Fərdi şəxsdir. Təhqiqatdan imtina da edə, razılaşa da bilər. Bu, onun şəxsi seçimidir. Mən isə öz rəhbərliyimin təlimatını yerinə yetirməyə borclu olan məmuram. Biz hansı mehmanxanaya yollanırıq? Sənin onun adını Melentyevə nə cür söyləməyini nəzərə alsaq, o, şəhərdə heç də ən yaxşı mehmanxana deyil.

– «Oktyabr»a gedirik, - deyə Sergey köks ötürdü. – O, həqiqətən də, ən yaxşılarından deyil, ancaq biz sizə ən yaxşı otağı vermələrini xahiş etmişik. Baxmayaraq ki, kateqoriya etibarilə o, heç də iki-üç ulduzlu oteldən o yana keçməz. Lakin buradakı beşulduzlu otellərdə qiymətlər o qədər bahadır ki, heç bir ezamiyyət haqqı buna bəs etməz.

– Başa düşürəm, - deyə Müslüm gülümsədi. – Bəs «Moskva» mehmanxanası hələ də dururmu?

– Əlbəttə. Lakin çox köhnəlib. Orada tezliklə təmir başlayacaq. Nevski prospektini sona qədər getsəniz, düz onun üzərinə çıxmış olarsınız.

– Təşəkkür edirəm, bunu bilirəm.

– Sabah mən sizin arxanızca gələcəyəm, - deyə Sergey xatırlatdı. – Biz cəsədin vətənə göndərilməsi üçün sənədləri tərtib edəcəyik. Yenidən Melentyevə baş çəkmək lazım gələcək.

– Mütləq, - deyə Müslüm razılaşdı.

Mehmanxanada ona tez bir vaxtda birinci mərtəbədəki otağı verdilər. Onun məskunlaşdığı bu otaqda hündür tavan yeganə məziyyət idi. Zahidsayağı, dağınıqlıq, köhnə, iki qatlanmış mebel, çox kiçik ölçülü vanna otağı, mini-barın belə mövcud olmaması. Sergey bu otelin əbəs yerə tərifini göyə qaldırmışdı. Hətta iki ulduzlu otellər belə bu mehmanxananın vəziyyətinin qiymətləndirilməsi üçün həddən artıq dəbdəbəli fora rolunu oynaya bilərdilər. Lakin Müslüm üçün bunun heç bir əhəmiyyəti yox idi. O, bu uzun gün ərzində əldən düşmüşdü və yatağa tez girməyə hazırlaşırdı. Sabah Melentyevlə çətin bir söhbət aparılacaqdı. Olub-keçənlərdən isə belə bir qənaətə gəlmək olar ki, müstəntiq onun işinə kiminsə müdaxilə edəcəyinə tab gətirməyəcək və bu, çox anlaşılan bir hal idi. Sözsüz ki, gəlmə ilə heç bir məlumatı bölüşməyəcək. Bunsuz isə Müslümün şəhərdə qalması lüzumsuz idi.

O, mehmanxananın restoranında şam etdikdən sonra tezliklə öz nömrəsinə qayıtdı. Duş qəbul edərək, yatağına girmək istəyirdi ki, telefon zəng çaldı. O, təəccüblə aparata nəzər yetirdi. Artıq saat doqquz idi. Belə bir vaxtda kim zəng etmiş ola bilər?

– Eşidirəm, - deyə o, dəstəyi qaldırdı.

– Üzr istəyirəm, - deyə o, tələskən qadın səsi eşitdi, - mənə dedilər ki, siz bu mehmanxanada qalacaqsınız. Mən sizinlə görüşmək istərdim.

– Bağışlayın, - deyə Müslüm deyilənlərdən bir şey anlamadı. – Danışan kimdir?

– Üzr istəyirəm. Siz Bakıdan gəlmisiniz?

– Bəli. Bəs danışan kimdir?

– Mən Natalya Frolovayam. Sizinlə mütləq görüşməliyəm. Məni başa düşürsünüzmü?

– Elə bu dəqiqə?

– Bəli. Bu, çox vacibdir. Mən müstəntiqdən sizin harada qaldığınızı öyrəndim və sizə zəng etməyi qərara aldım.

– Bəs siz indi hardasınız?

– Sizin mehmanxananızın yaxınlığındayam.

– Yaxşı, - deyə o, razılaşdı, - gəlin. Lakin mən yenə də bizim nə barədə söhbət edəcəyimizi bir o qədər də yaxşı anlamıram.

– Siz hər şeyi başa düşəcəksiniz, - deyə qadın tələsik dilləndi, - mən sizə hər şeyi izah edəcəyəm.

– O halda, mən sizi gözləyirəm. – Müslüm dəstəyi asdı.

O, tələbə qızdır və onun iyirmidən az yaşı var – deyə Müslüm bu kəlmələri xatırladı. Gecə vaxtı yad bir kişinin yanına, otelə gəlməyi cürət edirsə, deməli, kifayət qədər cəsur bir qızdır. Onun artıq oteldə bircə dəfə görüşü olmuşdu. O vaxt da təşəbbüs qadın tərəfindən edilmişdi. Lakin Müslüm ondan bir neçə yaş böyük idi. O vaxt vəziyyət də tamamilə fərqli idi. O, səksəninci ilin yay hadisəsini xatırlayaraq,

gözlərini yumdu. Bu, onun həyatında ən yaddaqalan gün olmuşdu…

### *Meymun ili. Leninqrad. Min doqquz yüz səksəninci il*

Ertəsi gün o, rayon milis şöbəsinə yollandı. Onu tanımadığı kapitanın yanına çağırana kimi, dəhlizdə düz qırx dəqiqə gözləməli oldu. Kapitan qıyıq gözlü idi, asiyasayağı sifəti vardı. O, qəzəblə Müslümə nəzər yetirdi.

– Səfərov sənsən? Piterə gəlib mehmanxanada dava-dalaş salırsan? Elə bilirsən ki, sənə istədiyini etməyə icazə verilir?

– Mən dava-dalaş salmamışam, yoldaş kapitan, - Müslüm narazılığını bildirdi. – Mən sadəcə, üç dələduzun incitdiyi iki qızı müdafiə etmək istəyirdim. Lakin onlar bıçaqla mənə hücum etdilər və mən özümü müdafiə etməli oldum.

– Bilirəm, bilirəm. Mənə artıq sənin barədə hər şeyi danışıblar. Müdafiəçiyə bir bax. Sən ixtisasca nəçisən?

– Hüquqşünasam. Bizim universitetin hüquq fakultəsini bitirmişəm.

– Deməli, həmkarıq. Sənsə dava-dalaş salırsan. Hər üçünü də yerə sərmisən. Mən onlarla da söhbət etmişəm. Onlar hətta nəyin baş verdiyini ayırd etməyə belə macal tapmayıblar. Sən boksla məşğul olursan?

– Bəli, mənim birinci dərəcəm var. Lakin hələ ki, idman ustası olmağa çox var.

– Artıq az qalıb. Üç oğlanı birdəfəyə yerə sərmisən. Məgər sən bilmirsən ki, boks ən vahiməli silahdır? Belə səriştə ilə isə insanı asanca öldürmək olar. Boksçular adətən, təmkinli olurlar.

– Mən təmkinli olmağa çalışdım.

– Mənimlə höcətləşmək lazım deyil. Sənin onlara qarşı heç bir iddian yoxdur ki?

– Yox.

– Lap yaxşı. Deməli, bizim də sənə veriləsi heç bir sualımız yoxdur.

– Bəs onlar barəsində nə ölçü götürdünüz?

– Nə ölçü götürməliyəm ki? Bəlkə onlara beş sutka verək? Axı nə üçün? Məgər onları bu cür tərbiyələndirmək mümkündür? Sən onsuz da onların dərsini vermisən. Onlar bir daha həmin mehmanxanaya soxulmazlar. Biz onları azadlığa buraxdıq. Hələ yaxşı ki, onlar qaydasındadırlar, yoxsa mən səni zəruri müdafiə həddini aşdığına görə həbs etməli olardım. Həmkar, belə bir maddəni xatırlayırsanmı?

– Xatırlayıram. Lakin onların sayı üç nəfər idi.

– Sənsə boksçusan. Özü də birinci dərəcəli. Onların hamısı da sərxoş imişlər. Sənsə elə ayıq vəziyyətdə də onların hərəsini bir tərəfə atardın. Onları döymək lazım deyildi. Biri yıxılıb, beyin silkələnməsi ala bilərdi. Səni isə dərhal həbs edərdilər. Heç də hər vaxt yumruğu işə salmaq yaramaz və olmaz. Başa düşdün?

– Bəli, - deyə Müslüm başını tərpətdi və gülümsədi.

– Nəyə gülürsən? – deyə kapitan soruşdu.

– Heç nəyə. Sadəcə, mən yaxşı əhval-ruhiyyədəyəm. Sizə daha bir sual vermək olarmı?

– Olar.

– Dünən bizə havadar çıxan həmin qadın kim idi? Belə hündür qamətli, füsunkar qadın. O, baş leytenanta öz vəsiqəsini təqdim etdi, o isə qadına rəsmi təzim etdi. Olmaya, o da milisdə işləyir?

– İşləmir, - kapitan narazı tərzdə dedi. – Ümumiyyətlə, Allahına şükür et ki, o, orada imiş. Əks təqdirdə, mən səni də həbs etməli olardım. Cənubdan gəlib dava-dalaş salmısan, yerliləri əzişdirmisən. Amma o, nəinki müdaxilə etdi, hələ bizim sənə toxunmamağımız üçün zəng də etdi.

– Bəs o, kimdir?

– Dövlət Təhlükəsizlik Komitəsindəndir, - deyə kapitan şəhadət barmağını yuxarı qaldırdı. – Sən heç indi hansı zəmanənin olduğunu bilirsən? Bir neçə gündən sonra Olimpiya oyunları başlayacaq. Hər yerdə gücləndirilmiş iş rejiminə keçiblər. Bizim orqanlar da, elə onlar da. O isə DTK-nin podpolkovnikidir. Bax belə, oğlan. Bəzən sarsaqların da bəxti gətirir. Sən ola bilsin ki, sarsaq deyilsən, amma onun yaxınlıqda olmasına görə bəxtin gətirib. İndi isə buranı tərk et. Bundan sonra da biz sənin barəndə bir kəlmə də olsun eşitməyək. Sən nə vaxt Leninqradı tərk edirsən?

– Sabah axşam.

– Onda tərk et. Bir də gözümüzə görünmə.

– Hələlik. – O, özünü zəfər çalmış adam tək hiss edərək, otaqdan çıxdı.

Mehmanxanaya iyirmi dəqiqədən sonra qayıtdı. Artıq öz otağına qayıtmaq istəyirdi ki, hollda dünənki naməlum qadını gördü. Onun əynində tünd mavi rəngli kostyum; yubka və bluzka var idi. Gözlərinə qara eynək taxmışdı. Əlində isə kiçik bir çantası vardı. Bu geyimdə o, dünənkindən də ecazkar görünürdü. Dartılmış bluzka ilə dar yubka onun bədəninin

bütün məziyyətlərini üzə çıxarırdı. Dolu sinəsi, açıq-aydın cizgili beli, uzun qıçları və gözəl, qaralmış əlləri ilə adamı heyran edirdi. Görünür, o, idmanla məşğul olur və bədən biçiminə xüsusi diqqət yetirirdi. Müslüm ona yaxınlaşdı və nəzakətlə salamlaşdı.

– Gününüz xeyir.

– Salam. – Qadın gözündəki eynəyi çıxardı. Onun həqiqətən də, füsunkar, yaşıl gözləri var idi. – Salam, Müslüm. Siz artıq milisdən qayıtdınız?

– Bəli. Mən sizə təşəkkür etmək istərdim. Siz müdaxilə etməyə borclu deyildiniz. Minnətdaram.

– Dəyməz. Deməli, sizi artıq buraxdılar?

– Aha, - Müslüm gülümsədi, - lakin xəbərdarlıq etdilər ki, bir daha dava-dalaş salmayım.

– Belə də lazımdır, - qadın gülümsədi. - Bəs siz Bakıda nə ilə məşğul olursunuz?

– Mən ixtisasca hüquqşünasam. Ancaq hazırda məni orduya zabit kimi çağırıblar…

Qadın yerində donub qaldı. Sanki ona hansısa xoşagəlməz bir xəbər söyləmişdi. Ya da nəsə bir nalayiq söz demişdi.

– Sizi nə vaxt çağırıblar?- deyə o, bir qədər titrək səslə soruşdu.

– İki ay bundan əvvəl, - Müslüm şən halda dedi. - Mən sabah buradan gedirəm. Həftənin sonunda isə hərbi komissarlığa əşyalarım ilə birlikdə gəlməliyəm.

– Bəs sizə harada xidmət göstərəcəyinizi deməyiblər?

– Hələ ki, yox. Zənnimcə, məni ixtisasım üzrə xidmətə – hərbi tribunala və ya hərbi prokurorluğa xidmətə göndərəcəklərini düşünmürəm. Yəqin ki, məni hərbi peşə üzrə

hazırladıqları kimi, motoatıcı vzvodun komandiri təyin edərlər. Ümumiyyətlə isə çox mənasızdır, biz özümüzün başlıca ixtisasımız üzrə də işləyə bilərdik.

– Sizə uğurlar, - deyə qadın eynəyini taxıb üzünü yana çevirərək, dilləndi.

– Təşəkkür edirəm. Sizə də həmçinin. – Müslüm qadının əhval- ruhiyyəsində nəzərə çarpan bu kəskin dəyişikliyin məhz nədən yarandığını anlaya bilmədi.

Müslüm liftə yaxınlaşaraq, kabinənin çağırış düyməsini basdı və qəfildən arxada qadının səsini eşitdi.

– Bir dəqiqə, - deyə qadın dilləndi, - siz çoxmu tələsirsiniz?

– Xeyr, - deyə o, çevrildi, - heç yerə tələsmirəm.

– O halda mənimlə gedib, qəhvə içək, - deyə qadın təklif etdi. – Axı dünən siz qəhvənizi sona qədər içə bilmədiniz, Müslüm.

– Nə deyirəm ki, gedək.

Bu dəfə içəridə kifayət qədər canlanma var idi. Almanların böyük bir nümayəndə heyəti səs-küylə beş masanın arxasında əyləşmişdi. Onlar barın piştaxtasına yaxınlaşdılar. Ehtimal ki, qadını üzdən tanıyan barmen dərhal qulluq göstərmək üçün onun yanına qaçdı.

– İki qəhvə, - deyə o, Müslümün yanında, piştaxtanın arxasında əyləşərək, ciddi tərzdə göstəriş verdi. Qadının yubkası bir qədər yuxarı qalxanda, Müslüm özündən asılı olmadan nəzərlərini yayındırsa da, onun gözəl qıçlarını gördü. Müslüm qadına toxunmamaq üçün ondan bir qədər aralı oturdu, sanki bədənindən cərəyan keçəcəyindən ehtiyatlandı. O, fincanı götürüb soruşdu:

– Bəs sizin neçə yaşınız var?

– İyirmi dörd, - Müslüm dedi. Bu məqamda o öz gözündə heç də özünə bənzəri olmayan ədəbsiz bir tərzdə gənc göründü.

Qadın qımışdı.

– Sizə elə gəlir ki, bu, çox azdır? – deyə Müslüm özü üçün belə gözlənilməz tərzdə soruşdu.

– Xeyr, - qadın cavab verdi, - sərbəst qərarlar qəbul edib onları həll etmək üçün kifayəq qədər yetərli bir yaşdır. Siz dünən çox cəsur tərzdə davrandınız. Sizin yerinizdə çoxları özlərini belə aparmazdılar.

– Burada qeyri-adi bir şey yoxdur. Mən bir qədər boksla məşğul olmuşam və buna görə də, onların məni əzişdirəcəyindən qorxmadım.

– Onlardan birinin əlində beşbarmaq, digərində isə bıçaq var idi, - deyə qadın xatırlatdı, - və bu, heç də asan deyildi. Lakin sizə afərin, Müslüm, mən sizə görə çox şadam.

– Bəs siz həqiqətən də, oradai şləyirsiniz… - o, ətrafına boylandı, - özünüz bilirsiniz harda…

– Bəli, - deyə qadın gülümsədi, - işləyirəm. Və bunda heç bir qeyri-adilik görmürəm. Əgər bu sizi maraqlandırırsa, mən Dövlət Təhlükəsizlik Komitəsinin podpolkovnikiyəm.

– Üzr istəyirəm. – O özünü əməlli-başlı pis hiss etdi. Rütbələrdəki fərq kifayət qədər nəzərə çarpırdı. Podpolkovnik rütbəsinə o, orduda qalmağa qərar verərsə və ya milisə işləməyə yollanarsa, on və ya on beş ildən sonra nail ola bilər.

– Siz evlisinizmi? – deyə qadın onun gözlərinin içərisinə baxaraq, soruşdu.

– Xeyr. – O, tamamilə karıxdı. Hətta bir qədər pörtdü də.

Ovcunun içi ilə barın piştaxtasını vurdu.

– Siz hələ pörtməyi də bacarırsınız. Necə də gözəldir. Olmaya siz «lyuks»unuzdakı qızlarla ünsiyyət quranda da pörtürsünüz?

– Hardan bilirsiniz?.. - O, hətta qadından məhz nə soruşmaq istədiyini və ibarəsini nə ilə tamamlayacağını da anlamadı. «Qızlar» və ya «lyuks» barədə. Ancaq istənilən sualın sadədil və sarsaq səslənəcəyini başa düşdü.

– Bəli, - deyə o, başını yellətdi, - mənim üçün sizin bu iki sarsaq qızla haraya yollandığınızı öyrənmək bir o qədər də çətin olmadı. Sizin harada qaldığınızı da, həmçinin. İndi isə onlar yəqin ki, sizi gözləyirlər. Sizsə qəlbinizin dərinliyində məni sizi bax beləcə yubatdığım üçün lənətləyirsiniz.

– Xeyr, - deyə o, qurumuş dodaqları ilə qəfildən etiraz etdi, - xeyr, lənətləmirəm. Mənim üçün hətta maraqlıdır. – O, yenidən bir qədər pörtdü.

– Sizin kobudluğunuzla utancaqlığınızın uzlaşması xoşuma gəlir, - deyə qadın qımışdı. – Maraqlıdır, siz özünüzü hər vaxt belə aparırsınız, yoxsa yalnız mənimlə?

– Heç də hər vaxt yox, - deyə o, boğuq səslə etiraz etdi, - lakin mən hələ dünən sizin necə bir füsunkar qadın olduğunuzu sezmişdim. Siz buraya daxil olan kimi…

– Elə ona görə də, daha gənc qızları «lyuks»unuza aparacağınıza ümid bəsləməklə, onların müdafiəsinə qalxdınız? – qadın sadəlövhlüklə soruşdu. – Məni isə müdafiə etməyə heç səy də göstərmədiniz.

– Sizin müdafiəyə ehtiyacınız yox idi, - deyə etiraz etdi. – Onlar içəriyə daxil olan kimi mən bunu başa düşdüm. Siz yanına heç nədən yaxınlaşmağa cürət edilən kəslərdən deyilsiniz. Həmin alçaqlar da bunu başa düşdülər və ya hiss

etdilər. Sizdə nəsə bir daxili qüvvə var. Sizi müdafiə etməyə lüzum yox idi.

– Maraqlı müşahidədir, - deyə qadın dodaqlarını büzüb gülümsədi, - hətta necə qəbul edəcəyimi də bilmirəm. İltifat kimi yoxsa ki, təhqir kimi. Əgər siz dünən mənə həqiqətən də, diqqət yetirmişdinizsə, bəs nə üçün mənə sizin «lyuks»unuza qalxmağı təklif etmədiniz, bunun əvəzində isə həmin qızlara görə dava saldınız? Susursunuz? Deməyə sözünüz yoxdur?

– Mən sizə yaxınlaşa bilməzdim, - deyə Müslüm astadan etiraf etdi, - və burada sizin məndən yaşca böyük olmağınızın da heç bir mənası yoxdur. Siz sadəcə, yanına yaxınlaşmağa cürət ediləsi qadın deyilsiniz.

– Yəqin ki, bu, mənə toxunmalıdır, - deyə o, fikirli halda dilləndi, - bəlkə də, əksinə, xoş olmalıdır. Bilmirəm. İlk dəfədir ki, gəncin söylədiklərinə necə reaksiya verəcəyimi bilmirəm. Mənim sizdən yaşca böyük olduğumu da söyləməyə lüzum yoxdur. Yalnız on yaş fərqimiz var, cənab Səfərov. Mən otuz dörd yaşındayam. Hələ noyabrda otuz dörd yaşım olacaq. Maraqlıdır, bəs görəsən, siz ulduz falına görə kimsiniz. Gəlin aydınlaşdıraq. Tez coşan, enerjili, sona qədər vuruşmağa hazır olan, sadədil, pörtməyi bacaran. Və hətta öz səhvlərini belə etiraf etməyi arzulamayan. Siz ulduz falına görə Qoç və ya Şirsiniz, elədirmi?

– Mən aprel ayının ortalarında anadan olmuşam, - o dedi. – Hətta bunun ulduz falının hansı bürcü olduğunu belə bilmirəm.

– Qoçdur, - deyə o, gülümsəyərək, başını tərpətdi, - bütün Şərq ulduz fallarının ilk bürcü. Bəs hansı ildənsiniz?

– Əlli altıncı ildən. Deyəsən, Meymun ilidir, mənə kimsə bu barədə deyib.

– Necə də maraqlıdır. – Qadın bir az da yaxına gəldi. – Deməli, bu il Meymun ilidir – və o, sizin ilinizdir. Bu il on iki ildən bir təkrar olur. Hər halda, mən bunu bilməli idim. Axı sizin iyirmi dörd yaşınız var. Deməli, bu, belə də olmalıdır.

– Nə? – deyə Müslüm onun söylədiklərindən heç nə anlamadı.

– Karmalı il. Mənə fikir verməyin. Mənə bu axmaq ulduz falını ilə iki il işlədiyim Fransada öyrədiblər. Bu cəfəngiyyata inanmaq isə mütləq deyil, xüsusən də, ona görə ki, siz komsomolsunuz.

– Mən bir o qədər də inanmıram, - deyə Müslüm etiraf etdi.

– Nahaq yerə, - qadın qəfildən dilləndi, - bəzən həyatda qeyri-adi vəziyyətlər baş verir. Müxtəlif möcüzələr. Deyin görək, siz həyatda hansı möcüzəyə inana bilərsiniz? Bax elə burada, lap indi. Amma bu kifayət qədər real bir möcüzə olmalıdır. Mən, əlbəttə, sizin qurbağaya çevriləcəyinizdən və ya mehmanxana direktoru olmağınızdan danışmıram. Lakin real bir möcüzə. Sizin belə bir arzunuz ola bilərmi?

Müslüm onun ətrinin qoxusunu hiss etdi. Onun dizlərini gördü, lap yaxınlıqdan. Gözlənilmədən nə demək istədiyini dərk etdi və söylədi:

– Bəli, ola bilər. Mən, məsələn, sizin mənimlə birlikdə bizim «lyuks»umuza qalxmağınızı arzulaya bilərəm. O vaxt mən hər kəsi oradan qovardım. – Onun üçün bu sözləri söyləmək o qədər müşkül idi ki, çətinliklə nəfəsini dərdi. Ancaq sonra onları dilə gətirdi.

– Bu, heç də möcüzə deyil, - deyə qadın gülümsəyərək, dilləndi, - lakin sizin «lyüks»unuzdan kimisə

qovmağa ehtiyac yoxdur. Belə ki, o dinlənilir və sizin dostlarınız da heç bir şeydən hali olmamalıdırlar. Ardımca gəlin.

Sonrakı hadisələr sanki yuxuda baş verdi. Müslüm ayağa qalxaraq, qadının arxasınca getdi. Onlar liftə daxil olub, dördüncü mərtəbəyə qalxdılar, qadın cibindən bir açar çıxardı. Onlar uzun müddət dəhliz boyunca irəlilədilər. Sonra isə o, qapını açdı, Müslümü içəri birinci buraxdı, sonra isə otağa daxil olaraq, qapını örtdü və oğlana nəzər yetirdi.

– Ulduz falının iki bürcünün bir-biri ilə toqquşması sayəsində, - deyə qadın anlaşılmaz tərzdə söylədi, - siz sadəcə, Qoç və sadəcə, Meymun deyilsiniz. Belə bir uzlaşmanı qorilla adlandırırlar. Heç bir şeyin qarşısında dayanmayan vəhşi meymun. Göstərin görüm, necə qorillasınız.

Qadın ilk olaraq Müslümə yanaşdı. Sonra oğlan üzərində onun tələbkar əllərini hiss etdi və qadın paltarını soyunaraq, kənara atdı. Müslüm onun geyindiyi corabı ömründə ilk dəfə idi ki, görürdü. Görünür, qadın onu Fransadan seksual təcrübə ilə birgə gətirmişdi. Sonra çarpayıya yıxıldılar.

Bu, onun həyatında ən yaddaqalan gecə idi. Qadının bacardığı və mənimsədiyi bir çox hərəkətləri Müslüm ilk dəfə idi ki, görürdü. Bir çox şeyləri o, ümumiyyətlə, təsəvvürünə belə gətirməzdi. Ona elə gəlirdi ki, o, heç cür sakitləşə bilməyəcək. Qadının üsul və vasitələr ehtiyatı həqiqətən də, böyük təsir bağışlayırdı.

Müslüm vaxtı, onun yoxa çıxmasına görə narahatlıq keçirən Valeranı və hətta onların «lyuks»undakı qızları belə unutmuşdu. O, bu axşam, həyatdakı hər bir şeyi unutmuşdu və

yalnız qadının bədəninin hərəkəti ilə onun ətirinin qeyri-adi qoxusunu duyurdu.

– Sizin adınız nədir? – deyə Müslüm fasilələrin birində soruşdu.

– Sən artıq mənə «Sən» deyə müraciət edə də bilərdin, - deyə qadın gülümsədi.

– Sən… siz… lənət şeytana, alınmır, sənin adın nədir?

– Marina, yox əgər sən mənə atamın adı ilə müraciət etmək istəyirsənsə, Marina Borisovna, - deyə o, gülümsədi.

– Bəs sən qorxmursanmı ki, bizi görüb-eşidə bilərlər? – deyə o, soruşdu.

– Burada eşitməzlər, - deyə o, əminliklə dilləndi, - bu otaq dinlənilmir.

– Sən buna bu qədər əminsən?

– Tam əminəm, - deyə Marina gülümsədi, - hansı otaqların dinlənildiyini dəqiq bilirəm. Baxmayaraq ki, məni yalnız bir müddətliyinə geri çağırıblar. Mən buraya yaxın yerdə yaşayıram, əslində isə əksər hallarda fərqli yerlərdə oluram.

– Sənin maraqlı həyatın var, - Müslüm dalğın halda dilləndi.

– Digərləri ilə müqayisədə ola bilər, - deyə o, razılaşdı. – Yaxşı şeyə tez öyrəşirsən.

– Pisə də?

– Pisə yox. Sən güclüsən və dözümlüsən. Bilirsənmi, mən nə üçün səndən haraya xidmətə göndərildiyini soruşdum?

– Xeyr.

– Hazırda Olimpiada üçün daxili qoşunlar və DİN-in bir çox zabitləri hərəkətə gətiriliblər. Ehtiyatda olan zabitləri isə cənuba yollamaq üçün qüvvədə olan orduya çağırırlar.

– Bizə, Qafqaza? – deyə Müslüm gülümsədi.

– Ondan da uzağa. Çox uzağa. – deyə Marina müəmmalı bir tərzdə dilləndi və onun qulağına bu kəlmələri pıçıldadı: - Əfqanıstana.

– Deyilənə görə, oralar yaman istidir, - deyə Müslüm xatırladı, - mənsə istini bəyənirəm. İstiyə rahatca tab gətirərəm.

– Səfeh, - deyə o, yenidən pıçıltı ilə dilləndi, - orada müharibə gedir…

Müslüm çiyinlərini çəkdi. İyirmi dörd yaşında insana hər şey belə aydın və sadə gəlir. Bundan savayı, yaxınlıqda belə bir qadın olarkən ölüm və müharibə haqda düşünmək də arzuolunmazdır. O, bu gün aralarında çox təcrübəli qadınların da olduğu müxtəlif qadınlarla görüşlərindən daha çox şey öyrənmişdi.

– Olacağa nə çarə, - Müslüm Marinanın ona necə möhkəm sıxıldığını hiss edib düşüncəli bir tərzdə cavab verdi.
– Sənin ərin və ya uşaqların varmı? – deyə o, növbəti fasilə vaxtı soruşdu.

– Bunun bizim bugünkü görüşümüzə heç bir aidiyyəti yoxdur, - qadın sakitcə cavab verdi. – Elə hesab edək ki, mənim heç nəyim yoxdur. Bircə mənim adımdan savayı. Bu da kifayətdir.

– Bəs mən səni necə axtarıb tapa bilərəm?

– Məni axtarmağa lüzum yoxdur, axı sən onsuz da sabah buranı tərk edirsən.

– Mən qalıram, - deyə o, inadkarlıqla dilləndi.

– Axmaqlıqdır, - Marina mühakimə edirmiş kimi, Müslümə baxdı. - Ağlabatan da deyil. Xidmət yerinə yubanma isə fərariliyə bərabər bir şeydir. Sən bütün sonrakı həyatını

məhv etmiş olarsan. Öz gələcək karyeranı da zay edəcəksən. Bəlkə sən gələcəkdə məşhur kriminalçı və ya müstəntiq, prokuror və ya vəkil oldun. Axı sənin burada qalmağın nəyə lazımdır? Onsuz da mən bir daha bu mehmanxanada olmayacağam. Mən bu gün sonuncu dəfədir ki, buraya baş çəkdim. Sənsə məni özün heç bir vəchlə axtarıb tapmayacaqsan. Mən də bir neçə gün sonra buranı tərk edirəm. Bax belə, Müslüm. Bu, bizim ilk və son görüşümüzdür.

Müslüm susurdu. Susur və ona baxırdı. Sonra geri çevrildi. Marina dikəlib, onu özünə tərəf çevirdi.

– Sən məndən incidin?

– Yox, mən çox şad oldum, - deyə Müslüm acıqla dilləndi. – Mən özümü balaca uşaq kimi hiss edirəm.

– Səfeh, - deyə Marina onun başını köksünə sıxdı: - sən elə oğlan uşağısan ki, varsan. Burada yaşın da heç bir əhəmiyyəti yoxdur. Sən tezliklə müharibəyə yollanacaqsan, əsil müharibəyə, Müslüm. Uşaq oyunlarına da həmişəlik son qoyulacaq. Allah sənin canına dəyməsin. Mənsə hardasa Qərbi Avropada yerləşən hansısa bir sakit şəhərə yollanacağam və orada geri çağrılana qədər beş və ya on il yaşayacağam. Mənim heç özümə də hal-hazırda məhz haraya göndəriləcəyim bəlli deyil. Heç bəlli də olmamalıdır. Sən də bunu məndən xəbər almamalısan. Elə buna görə də, mən bu görüşün ilk və son olduğunu dedim. Ola bilsin ki, biz bir daha görüşməyək. Bəlkə də elə bu səbəbdən mən səninlə birgə buraya qalxmağı qərara aldım. Dünən sən mənim xoşuma gəldin. Sən nəyinləsə mənə bir neçə il bundan əvvəl avtomobil qəzasında həlak olan dostumu xatırlatdın. O da güclü, güzəştə

getməyən və cəsur bir şəxs idi. Sizin hətta hansısa bir cəhətdən bir-birinizə zahiri bənzərliyiniz də var.

– Lakin sən mənə özünün Leninqraddakı ünvanını və ya telefon nömrəni də qoya bilərsən, - deyə Müslüm ona doğru çevrildi.

– Lazım deyil, - deyə Marina başını buladı, - axı mən sənə artıq izah etdim. Yaşa dolmaq vaxtı yetişib. Müslüm, bu, artıq böyüklərə xas həyatdır.

Bir neçə saatdan sonra Müslüm tamamilə taqətdən düşmüş və yorulmuş halda yuxuya getdi. Səhər yuxudan oyananda isə Marina artıq onun yanında deyildi. Yalnız balışda, döşəkağı və onun bədənində qadının ətrinin qoxusu qalmışdı. Bir saat sonra isə o, dostunun heç nəyə baxmayaraq, milis tərəfindən həbs olunduğunu zənn edən və qeyri-müəyyənlikdən az qala havalanan Valeranın yanına qayıtdı. O, artıq hər iki qızı ötürməyə və onun dostunun haraya yoxa çıxdığını aydınlaşdırmaq üçün milis ilə qonşu meyitxanaya belə zəng etməyə macal tapmışdı. O vaxt mobil telefonlar yox idi, Müslüm üçün isə bu gecəni qonşu otaqlardan birində keçirdiyini etiraf etmək çox xəcalətli idi.

Həmin gün onlar sonradan Əfqanıstana yollanmaq üçün Leninqradı tərk etdilər. İki ay sonra isə ağır yaralanaraq, kontuziyaya məruz qalan Valera evə qayıdacaq və ömrünün sonuna qədər əvvəlki həyat ilə keçmiş xatirələrdən qopmuş bir tərzdə əlil kürsüsünə məhkum olacaqdı. Müslüm isə özünün ilk yarasını beş aydan sonra alacaq və onu ayağını qanqrenadan xilas etmək üçün hərbi hospitala göndərəcəkdilər. Həkimlər isə demək olar ki, mümkün olmayanı edəcəkdilər. Müslümün ayağını kəsməyəcəklər və o, altı aydan sonra Bakıya qayıdacaqdı. Axsamaqla və əlində əsa

ilə, ancaq sağ – salamat bir vəziyyətdə. Sonra isə o, yenidən artıq Sankt-Peterburq adını daşıyan Leninqrada qayıdacaq. Lakin bu, artıq düz on iki il sonra, artıq fərqli bir dövrdə və fərqli vaxtda baş verəcəkdi…

## *Beşinci fəsil*

«Müstəqil və kifayət qədər hiyləgər olan Meymun ən ağır şəraitlərdən belə can qurtarmağı bacarır. O, təbiəti etibarilə sərbəst və fərdiyyətçidir. Onun boynuna nəyisə zorla qoymaq və ya ona nəyisə təlqin etmək qeyri-mümkündür. O, öz variantlarını şəxsən seçir».

(*Şərq Ulduz falından*)

Müslüm öz qonağını otelin geniş hollunda qarşılamağı qərara aldı. O, nəhayət, qadının nə vaxt gələcəyini səbirsizliklə gözləməyə başladı. Otelə harayasa tələsən iki gənc qız daxil oldu. Müslüm onların gülüş səslərini eşitdi. Sonra isə mehmanxanaya iyirmi beş yaşlarında bir qadın daxil oldu. Müslüm çaş-baş qalmışdı. Qadın tələbə qıza qətiyyən bənzəmirdi və ola bilsin ki, onun daha az yaşı var idi. Sadəcə, əyninə daha bahalı paltar geyinmişdi. Deyəsən, Koka Şanel demişdi ki, kifayət qədər bahalı paltar gənc qızları yaşlı göstərməyə qadirdir. O, hardansa bu cür mülahizə haqda oxumuşdu və onu çox bəyənmişdi. Qadın ətrafına boylanırdı. Qəfildən onun qarşısına gənc bir oğlan çıxdı. Onlar qucaqlaşdılar, öpüşdülər və tələsik addımlarla liftə tərəf

getdilər. Müslüm baxışlarını onların üzərindən yayındırdı. Xeyr, bu qadının heç də iyirmi yaşı yox idi. O, tamamilə digər bir insanı gözləyirdi.

Natalya Frolova otelin hollunda görünən kimi, Müslüm onu dərhal tanıdı. Onun hündür boyu, səmimi üzü, çiyinlərinə qədər tökülən saçları, qonur gözləri və düz qaməti vardı. Əynində açıq rəngli dublyonka ilə boz rəngli yubka var idi. Ayaqlarına isə uzunboğaz çəkmə geyinmişdi, Sankt-Peterburqda fevral ayının sonlarına yaxın adətən, rütubətli hava hökm sürür. Ətrafına təlaşlı bir tərzdə nəzər salan qadın kimisə axtarırdı. Müslüm ona tərəf getdi, lakin yanaşma tərzi ucbatından qadın ona diqqət də yetirmir və sanki kimsə başqa birisini gözləyirdi. Müslüm heyrətləndi, axı onlar görüş barəsində əvvəlcədən razılığa gəlmişdilər.

- Xoş gördük, - deyə o, naməlum qadına yaxınlaşdı.

- Mən öz dostumu gözləyirəm, - deyə qadın ona nəzər belə yetirmədən sözünü kəsdi.

- Üzr istəyirəm, siz Natalya Frolovasınız, eləmi?

- Bəli. Bəs siz kimsiniz?

- Biz sizinlə bu görüş haqda razılığa gəlmişdik, - deyə Müslüm nəyin baş verdiyini anlamadan ona razılaşmanı xatırlatdı, - on beş dəqiqə bundan əvvəl.

- Məgər mən sizinlə söhbət etmişəm? – deyə qadın həmsöhbətinə etimad göstərmədən soruşdu. – Bakıdan gələn sizsiniz?

- Mən sizə öz pasportumu göstərə bilərəm, - deyə Müslüm gülümsədi. – Başa düşmürəm, axı sizi karıxdıran nədir? Sizin üçün düzgün olmayanı nədir?

- Sizin cavanlığınız. Sizin neçə yaşınız var? Siz həddən artıq gənc görünürsünüz. Xeyr, bu, qeyri-mümkündür. Yəqin

ki, mən yanılmışam. Üzr istəyirəm, bu gün müstəntiq Melentyevin yanına gələn siz olmusunuz?

- Vyaçeslav Yevgenyeviçin? Bəli, mən idim. Axı sizi narahat edən nədir?

- Heç bir şey anlamıram, - deyə o, karıxmış halda dilləndi, - axı bu, necə ola bilər? Famil İzmaylovun otuz iki yaşı var idi, sizinsə əllidən artıq yaşınız olmaz. Yəqin siz erkən evlənmisiniz. On səkkiz yaşında? Deyilənə görə, Qafqazda belə qəbul olunub.

- Xeyr, mən kifayət qədər gec evlənmişəm, - o, gülümsədi, - mənim o vaxt otuzdan yuxarı yaşım olardı. Ancaq mən sizin suallarınızın mahiyyətini heç də dərk edə bilmirəm. Mənim evliliyimin Sankt-Peterburqda baş verən qətllə hansı əlaqəsi ola bilər?

- Sizin neçə yaşınız var?

- Qırx səkkiz.

- Deməli, mən yanılmışam, - deyə Frolova məyus halda dilləndi, - deməli, siz heç də onun atası deyilsiniz. Bəlkə siz onun əmisisiniz?

- Deyəsən, mən hər şeyi başa düşdüm. Siz həlak olanların qohumlarını görmək istəyirdiniz. Eləmi?

- Bəli. Melentyev də mənə elə onu söylədi ki, Bakıdan gəlmiş qonşu «Oktyabrsk»a gedəcək. Məhz elə bu səbəbdən də, mən zəng edərək, bu gün burada məskunlaşmış qonaqlardan hansının Bakıdan gəldiyini aydınlaşdırdım.

- Bu kimi məlumatları adətən, mehmanxananın sorğu kitabçasından bildirmirlər, - deyə Müslüm şən bir tərzdə vurğuladı, - siz, yəqin ki, hansısa inzibati mənbələrdən istifadə etmisiniz?

- Ola bilər, - deyə o, ilk dəfə olaraq gülümsədi, - lakin mənə bildirdilər ki, Bakıdan yalnız sizin otağınızda məskunlaşmış Səfərov təşrif buyurub. Mən isə elə zənn etdim ki, siz həlak olanın ya atası, ya da ki, əmisisiniz. Melentyev bu gün həlak olanın atası ilə əmisinin onun qəbulunda olduğunu söyləmişdi. Qonaqlar həlak olanın meyitinin onlara təhvil verilməsini tələb edibmişlər. Elə bu səbəbdəndir ki, mən buraya gəlməyi qət etdim. Mən elə zənn etdim ki, siz onun əmisisiniz və onun atası ilə birlikdə yaşayırsınız.

- Mərhumun atasının soyadı da deyəsən, oğlunun soyadı ilə uyğunluq təşkil etmiş olsun, - deyə Müslüm xatırlatdı, - onun əmisi isə atasının kiçik qardaşıdır. Deməli, onun da eyni soyadı var.

- Bəli, görünür, mən hər şeyi qarışdırmışam. Bu barədə heç düşünməmişəm də. Lakin Melentyev sizin soyadınızı da söylədi və sizin də onun yanına getdiyinizi bildirdi.

- Mən onların uzaq qohumuyam, - deyə Müslüm dərhal cavab verdi, - ancaq onlar elə bir dərdə mübtəla olublar ki, özləri sənədləri tərtib etmək iqtidarında deyillər və buna görə də, məndən təcili buraya gəlməyimi xahiş etdilər. Mən bizim XİN-də işləyirəm və elə buna görə də, mənim üçün bütün meydana çıxan rəsmiyyətçiliyin öhdəsindən gəlmək daha asandır. Siz məni anlayırsınızmı?

- Bəli. Deməli, siz də onların qohumusunuz?

- Sözsüz. Yoxsa buraya gəlməzdim.

- Mənsə sizi gördüm və qərara aldım ki, yanılmışam. Siz onun atası roluna tamamilə yaramırsınız. O deyirdi ki, onlar atası ilə bir-birinə çox bənzəyirlər. Yalnız atasının boyu onun boyundan xeyli alçaqdır. Sizin boyunuz isə çox hündürdür. Həm də gəncsiniz…

- Əgər bu nöqsandırsa, o halda, ötüb keçəcək. Gəlin mənim otağıma qalxaq, biz orada daha ətraflı danışa bilərik.

- Bu münasibdirmi? – Natalya Frolova bir qədər tərəddüdlə soruşdu.

- Narahat olmayın. Mən otaqda tək qalıram. Özümü də əsl cəngavər kimi aparacağıma söz verirəm. Sizin təhlükəsizliyinizi heç kim təhdid etmir.

- Mən bundan qorxmuram, - deyə Natalya cəsarətlə dilləndi. – Gedək. Mən sizinlə danışmalıyam.

- Yeri gəlmişkən, mənim qızım da tələbə-həkimdir, - deyə Müslüm bildirdi. – Gördüyünüz kimi, mən heç də gənc deyiləm.

- Mən elə düşünürdüm ki, sizin qırx, qırx beş yaşınız var, - deyə qadın etiraf etdi. – Deməli, siz yaxşı qalmısınız.

- Təşəkkür edirəm. Mənə heç kim bu cür söz deməmişdi. Əgər siz dərhal mənim otuz iki yaşlı diplomatın atası ola bilməyəcəyimi anlamısınızsa, o halda, bu, başlanğıc üçün heç də pis deyil. Ancaq mən sizin ananızın yerində olsaydım, heç nəyə baxmayaraq, sizi həlak olanın qohumunun yanına buraxmazdım. Xüsusən də, ona görə ki, sizə artıq bu işdə şübhəli bilinən yeganə şəxsin kimliyi barədə məlumat veriblər. Bu, Natalya Frolovadır.

- Məhz elə bu səbəbdən də mən buraya gəlməyi qərara aldım, - deyə qadın düşüncəli tərzdə söylədi, - mən mütləq sizinlə görüşməli və sizə hər şeyi izah etməli idim. Əks təqdirdə, siz buranı heç nəyi aydınlaşdırmadan tərk etməli olacaqsınız. Bu isə düzgün deyil…

Müslüm otağının qapısını açaraq, Natalyanı içəri birinci buraxdı. Qadın içəri keçən kimi, dərhal dublyonkasını çıxardı. Müslüm onu alıb şkafdan asdı. Qadının əynində ona

evdar xanım görünüşü və rahatlıq verən boz rəngli yun pulover var idi. Dublyonkanı Müslümə verib otağa keçən Natalya stulda əyləşdi, onun arxasınca otağa daxil olan Müslüm birbaşa çarpayının üzərində oturdu.

- Eşidirəm sizi.

- İş burasındadır ki, mən sizin qohumunuzu tanıyırdım, - deyə qonaq tələsik bəyan etdi, - həmin axşam da, onun… onun həlak olduğu axşam mən onun evində olmuşam.

- Zənnimcə, bu, hər kəsə məlumdur, - deyə Müslüm vurğuladı. – Siz ora ananızın xidməti avtomobilində gəlmisiniz və sürücü də sizi uzun müddət binanın qənşərində gözləməli olub. Bütün qonşular maşının nömrəsini hafizələrində saxlamağa müvəffəq olublar və bununla da sizi asanlıqla aşkar ediblər.

- Doğrudur. Ancaq mən onu axşam saat doqquzda, onun hələ sağ olduğu vaxt tərk etmişəm. Müstəntiq isə onun saat ona yaxın qətlə yetirildiyini bildirib. Mən həmin ərəfədə artıq evə çatmışdım və maşını da buraxmışdım.

- Çox yaxşı. Əgər siz müstəntiqi də buna inandırmağı bacarsanız, o halda, o, sizi şübhəli bilinən şəxslərin siyahısından çıxarar. Lakin sizin buraya gəlməyinizin səbəbi nədir? Mənə yalnız bu əhvalatı danışmaq üçünmü gəlmisiniz?

- Xeyr, heç də yox. Buranı necə də bərk qızdırırlar, - deyə o, gileyləndi.

- Bu, otelin yeganə üstün cəhətidir, - deyə Müslüm astadan dilləndi, - lakin zənnimcə, burada özünü daha çox asudə hiss edən də müştərilərdən çox, mətbəxböcəkləridir.

Natalya gülümsündü və ətrafına nəzər yetirib bir qədər qısıldı. Gərginlik müəyyən qədər aradan qalxdı, ünsiyyət saxlamaq bir qədər yüngülləşdi.

- Siz nə vaxtdan tanış idiniz? – deyə Səfərov soruşdu.

- Deməк olar ki, yarım il. Biz tez-tez onunla bir yerdə olurduq. İş burasındadır ki, mənim xalamın nəvəsi Vika, yəni Viktoriya ilə Famil bir müddət görüşmüşdülər. Siz məni başa düşürsünüzmü?

- Güman edirəm ki, başa düşürəm, əgər siz «görüşmüşdülər» sözünün altında, əslində, onların dostluq etdiyini nəzərdə tutursunuzsa.

- Onları mən tanış etmişdim. Vika ona dərhal bənd oldu. O, qadına pərəstiş etməyi bacarır, ona təmtəraqlı gül dəstəsi, fransız ətiri bağışlayırdı, bir dəfə isə o, Vikanı iki günlüyə Helsinkiyə göndərdi. O, adi diplomata bənzəmirdi, daha çox iş adamı və ya oliqarx oğlunu xatırladırdı.

- Deməк, bu sizin xalanızın nəvəsinin başını gicəlləndirdi?

- Tikanlı danışmayın, - deyə o, xahiş etdi. – Bəli, Vika onu çox sevirdi, ona vurulmuşdu. Onlar çox uzun müddət görüşdülər. Lakin görüşlərinin, necə deyim… lüzumsuz nəticələrini nəzərə alacaq qədər yetkin idilər. Başa düşürsünüzmü?

Qadın bir qədər pörtdü.

- Onlar özlərini qoruyurdular, - deyə Müslüm onun nə dediyini anladı. Uzun müddət müstəntiq kimi fəaliyyət göstərmək insanı bir qədər abırsız adama çevirir. Natalya qıp-qırmızı qızardı.

- Ola bilər, - deyə Frolova tələsik bir tərzdə razılaşdı. – Lakin üç ay bundan əvvəl onların arasında nə isə baş verdi. Ola bilsin ki, onlar nəyisə nəzərdən qaçırıblar, ehtimal ki, sadəcə olaraq, yanlışlığa yol veriblər, lakin son nəticədə Vika ondan hamilə qaldı.

«Bütün bu qətl hadisəsində bircə bu çatışmırdı», - Müslüm məyus halda düşündü.

- Mən bunu müstəntiqə danışa bilməzdim, - deyə Frolova dilləndi, - heç kimə də mənim axşam Familin mənzilində nə etdiyimi izah edə bilməzdim. Lakin onların mübahisələri Vikanın abort etməsi ilə əlaqədar idi. Təsəvvür edirsinizmi, necə də dəhşətdir? O vaxt mən Familin yanına gedib, hər şeyi ona danışmağı qərara aldım. Mən onunla görüş barədə razılığa gəldim və onun yanına getdim. O isə dərhal hər şeyi anlamaqda çətinlik çəkdi və mənim Vikanı əvəzləmək istədiyimi qət etdi. Hətta məni konyaka qonaq etdi, mənimlə zarafatlaşdı da.

- Konyak artıq masanın üzərində idi? Yoxsa onu hardansa gətirib ora qoydu?

- Şüşə masanın üzərində idi. Yanına da qədəhlər düzülmüşdü. Mən içməkdən imtina etdim, konyakı xoşlamıram, o, çox acıdır. İzmaylov isə mənim içməkdən imtina etdiyimi görcək sadəcə güldü. Ancaq mən Vika haqqında söhbət açanda, onun üzündəki ifadə dərhal dəyişdi, o, tutuldu və Vika barəsində artıq heç nə eşitmək istəmədiyini söylədi. Bax, elə o vaxt mən sanki təbdən çıxdım. Hər şeyi ona açıq-aşkar dedim. Uşaq barəsində də, Vikanın vəziyyəti barədə də. Vika özünə sui-qəsd etməyə belə hazırdır, o isə daş kimi əyləşib, uşaq barəsində heç nə eşitmək istəmədiyini bildirir. Mən ona bütün düşündüklərimi dedim. O, hətta bir balaca qorxdu da, bəlkə də mənə belə gəldi.

- O, uşağın olacağını bilirdi?

- Əlbəttə, bilirdi. Lakin Vikaya abort etməyi tövsiyə edirdi. Kişilər belə deyəndə mən onların hər birini boğmağa hazıram. Deməli, həzz alır, qadınla yatıb durur, nəticələrə görə

cavab vermək lazım gələndə isə dərhal kolluqda gizlənir və deyir ki, özün abort elə. Daha anlamır ki, onun bundan sonra ümumiyyətlə, övladı olmaya da bilər. Bundan sonra qızın ona qəmiş olmaması üçün onu qəsdən məhvə də sürükləyə bilər. Bəs uşaq? Canlı varlığı necə tələf etmək olar? Axı o, hər şeyi görür və anlayır. Bilirsinizmi, bizim Piterdə abort haqqında film nümayiş etdirirdilər. Onu bizim hamımıza - tələbə həkimlərə də onu göstərdilər. Körpə onu bətndən ayırıb, öldürmək istəyəndə ağlayır. O, bütün bunları hiss edir və ağlayır. Mən bunu görəndə, az qaldım havalanım və Familin yanına gedib, hər şeyi danışmağı qərara aldım. Lakin o, məni sonadək dinləmək belə istəmədi. O vaxt mən ona bu davranışının nə cür adlandığını dedim, sonra isə qapını çırparaq, mənzili tərk etdim. Sonra isə maşında uzun müddət hönkür-hönkür ağladım. Hələ yaxşı ki, anamın sürücüsü bütün bunları müstəntiqə danışmayıb, əks təqdirdə o, məhz mənim Famili doğradığımı düşünərdi.

- Elə bu?

- Başqa deyəcəyim yoxdur. Mən sadəcə, Familin qohumları ilə görüşərək, onlara baş verənləri izah etmək istəyirdim. Mən, əlbəttə, onu qətlə yetirməmişəm və onu otaqda tək qoyub çıxıb getmişəm.

- Bəlkə sizdən sonra ora Viktoriyanın özü gəlib və özünün yelbeyin dostu ilə söhbət etməyi qərara alıb? Onların söhbəti mübahisə səviyyəsinədək şişib böyüyə bilərdi. Gənc qadın belə bir vəziyyətdə düşünülməmiş addım atmağa da qadirdir.

- Yox, qatil Vika deyil, - deyə Natalya dərhal bəyan etdi. – O, artıq ikinci həftədir ki, xəstəxanadadır. Əmək haqqının qorunmasına çalışır. Biz onu çətinliklə yola

gətirmişik. Mən bir tərəfdən də Familin yanına ona görə getmişdim ki, Vikanı xəstəxanada yoluxmağa getsin.

- Siz oranı tərk edəndə oğlan sağ-salamat idi?

- Əlbəttə, - deyə Natalya təsdiq etdi. – Mən müstəntiqə də eyni sözləri demişəm. Sadəcə olaraq, Vikanı xəstəxanada rahat buraxmaları üçün ona onun barəsində danışmamışdım. Vikaya da Familin ölümü haqda məlumat verməmişdim. Ona onsuz da çətindir.

- Müstəntiqə həqiqəti söyləmək lazımdır, - deyə Müslüm ibrətamiz bir tərzdə dilləndi.

- Viktoriya ilə onun körpəsinin müstəntiqlə nə əlaqəsi ola bilər ki? – deyə Natalya dərhal soruşdu. – Axı mən onu məhv etmək yox, qorumaq istəyirdim.

- Lakin hal-hazırda siz şübhə altındasınız və əgər siz müstəntiqə həqiqəti söyləməsəniz, o, məhz sizin İzmaylovun mənzilinə son olaraq sizin getməyinizi və ona həlledici zərbə endirdiyinizi düşünəcək.

- Onu saat onda qətlə yetiriblər, - deyə Frolova təkrar etdi, - mənsə bir saat əvvəl artıq evdə idim. Bunu isə artıq müstəntiqin etdiyi kimi sürücünü sorğu-suala tutmaqla asanlıqla aydınlaşdırmaq olar. Axı Viktoriya haqda xəbər tutmaq onun nəyinə gərəkdir?

- Siz isə elə düşündünüz ki, bu əhvalatı həlak olanın qohumlarına danışmağınız daha məqsədəuyğundur?

- Əlbəttə, elə düşündüm. Axı bu, Familin uşağıdır. Təsəvvür edirsinizmi, onlar oğlanlarından belə bir yadigar qaldığını eşitsələr, necə şad olarlar.

- Hal-hazırkı məqamda heç də şad olmayacaqlar, - deyə Müslüm qəmgin halda dilləndi.

- Siz də məni anlamırsınız, - deyə Natalya məyus oldu, - mənsə elə zənn edirdim ki, siz şad olacaqsınız. Körpənin onların övladından yadigar qalması elə yaxşıdır ki. Sevinmək lazımdır, sizsə mənə müstəntiq haqda hansısa ağlasığmaz fərziyyələr söyləyirsiniz.

- Bunlar ağlasığmaz fərziyyələr deyil, Natalya, - deyə o, yorğun bir tərzdə etiraz etdi. – Sizsə artıq uşaq deyilsiniz və bütün mümkün nəticələrdən də baş çıxarmağı bacarmalısınız. O, rəsmən evli deyildi və artıq atalıq faktını da təsdiqləmək mümkün deyil. Doğrudur, DNK ekspertizasını həyata keçirmək olar, lakin bunun üçün uzun müddət tələb olunur, həlak olanın qohumları üçün isə onu tez bir vaxtda dəfn etmək vacibdir. Sonra isə digər səbəblər. O, diplomat idi və Rusiya Federasiyasının da vətəndaşı deyildi. Sizin qohumunuz isə yəqin ki, Rusiya vətəndaşıdır. Bu baxımdan da müxtəlif rəylər ilə təfsirlər meydana çıxa bilər. Mən hələ siz və sizin qohumlarınızın əleyhinə İzmaylovun qətlə yetirilməsi bir yana qalsın, onun təhdid və şantaj edilməsinə görə ittihamın irəli sürülməsindən bəhs etmirəm.

- Mən onu şantaj etməmişəm, - Frolova etiraz etdi, - mən ona sadəcə olaraq, körpədən və onu dəlicəsinə sevən Vikadan imtina edəcəyi təqdirdə alçaqlığa yol veriləcəyini demişəm. Lakin o, buna cavab olaraq yalnız gülümsədi.

- Bax, görürsünüzmü. O, özü sizin xalanız nəvəsi ilə olan münasibətlərini ciddi qəbul etmirmiş. Sizsə bu körpənin həlak olanın qohumları tərəfindən qəbul edilməsini istəyirsiniz. Qorxuram ki, onlar üçün bunu etmək çox çətin olacaq.

- Geridə qalmışlar, - deyə Natalya əlini havada yellətdi, - bu cür hallarda deyildiyi kimi, «dağdan

gələnlərdir». Axı siz nə üçün Familin vəfatından sonra ondan yadigar qalan körpəyə görə sevinmirsiniz? Axı bu, möcüzədir…

- Ata üçün onun oğlunun dirilməsi daha böyük möcüzə olardı. Lakin bu, mümkün deyil. Körpəyə gəldikdə isə zənnimcə, bir müddət keçdikdən sonra, oğul itkisi ilə bağlı ağrı-acının bir qədər soyumasından sonra onlara bu körpə haqda daha incə bir tərzdə danışmaq olar.

- Siz heç nəyi başa düşmədiniz, - deyə Natalya ayağa qalxdı, - Mən elə düşünürdüm ki, siz sevinəcəksiniz və hələ mənə təşəkkür də edəcəksiniz. Bəs sizin Familə necə qohumluğunuz çatır? Ata tərəfdən?

- Xeyr, ana tərəfdən, - deyə o, yalan danışdı.

- Dublyonkamı mənə verin, - deyə o, tələb etdi. – Mən daha sizinlə söhbət etmək istəmirəm.

Müslüm şkafdan dublyonkanı çıxararaq, onu qonağına uzatdı. O, tələsik geyinməyə başladı.

- Sizə kömək edim? - deyə Müslüm soruşdu.

- Köməksiz da keçinərəm, - o, dublyonkanı geyinərək, qəzəblə dedi. – Siz də bacınız oğlu və ya qohumunuz kimi rəhmsiz və daşürəklisiniz. Nə bilim o, sizin nəyinizdir. Siz heç bir şey başa düşmədiniz.

- Bir dəqiqə, - deyə Müslüm  xahiş etdi, - bəs Vikanın atası və ya qardaşı varmı?

Natalya ayaq saxlayaraq, ona tərəf çevrildi.

- Siz elə güman edirsiniz ki, burada sizin «qan intiqamı kimi qanunlarınız» mövcuddur? – deyə Frolova hiddətlə dilləndi. – Vikanın ətrafındakı kişilərdən hansısa biri bu tərzdə qisas almaq qərarına gəlib? Sakit olun, bizdə bu qəbil hallara yol verilmir. Onun atası altı il bundan əvvəl həlak olub, böyük

qardaşı isə Qara dəniz donanmasında xidmət edir. Artıq kapitanın baş köməkçisidir. Bizim ailəmizdə «vendetta» qanunları hökm sürmür, cənab Səfərov.

Natalya yoluna davam etmək istəyirdi ki, Müslüm qətiyyətlə onun qolundan yapışdı.

- Bizdə isə hökm sürür, - deyə hirslə fısıldadı, - sənin səfehcəsinə susmağın isə hər şeyi korlayıb. Həlak olanın atası ilə əmisi onun qətlində səni təqsirli bilirlər və bu cinayətdə də məhz sənə qarşı ittiham irəli sürməklə, səni rahat buraxmayacaqlar. Səfeh və özünə arxayın olan axmaq qız. Sən həqiqətən də, həyatda hər şeyi yoluna qoymaq bacarığına inanırsan? Yəni özünün şəxsən hər şeyi öz yoluna qoyacağına. Digər insanların münasibətini, onların taleyini və həyatını. Olmaya, sən hər şeyin bu qədər asan olduğunu düşünürsən? Melentyevə sən qətl məqamında həmin mənzildə olmadığını bəlkə də sübuta yetirə bilərsən, bəs həlak olanın qohumları qarşısında özünə necə bəraət qazandıracaqsan? Onlar Melentyevin sənin yüksək rütbəli ananın xətrinə və təqsirli bilinən şəxsi, hazırkı məqamda məhz səni ədalət məhkəmə-sindən yayındırmaq naminə bu cinayət işini bağladığını düşünəcəklər. Bundan sonra nələrin baş verəcəyini təsəvvürünə gətirə bilərsənmi? Onlar sənin bütün ailəni təqsirkar zənn edəcəklər. Səni də, lap elə ananı da və heç bir meriya da sizi onların qəzəbindən qoruya bilməyəcək.

- Buraxın, siz məni incidirsiniz, - deyə qadın pıçıldadı.

Müslüm onun qolunu buraxdı. O, otağa qayıdaraq, əynindəki dublyonkanı çıxardı və stulda əyləşdi.

- İndi qolumda qançır olacaq, - deyə o, gileyləndi, - siz qolumu möhkəm sıxdınız.

- Ananın sənin Familin yanına getməyindən və ya mənim yanıma gəlməyindən xəbəri varmı?

- Bunun heç bir əhəmiyyəti yoxdur, - deyə o, pörtdü, - anamın bu işə nə dəxli? Mən artıq həddi-büluğa çatmış qızam. Onu narahat etmək də lazım deyil. Onun bu əhvalatla heç bir əlaqəsi yoxdur.

- Mən sənin hər şeyi anlamağını istəyirəm.

- Mən anladım. – O, ehtiyatla içini çəkdi. – Heç nəyə baxmayaraq, mənim məhz sizin yanınıza gəlməyimdə də bir xeyir var imiş. İndi siz hər şeyi öz qohumlarınıza nağıl edəcəksiniz və onlar həqiqətdən hali olacaqlar. Mənim heç bir təqsirim yoxdur, elə Vika da günahsızdır. Sadəcə, belə bir təsadüflə üzləşməli olmuşuq. Mən onun kim tərəfindən qətlə yetirildiyini və ümumiyyətlə, kimin ona ölüm arzuladığını təsəvvürümə belə gətirmirəm. Mənə bircə o aydındır ki, hər kəsdən çox Vikanın halı yamandır və onun anası bacısı ilə birlikdə Vikaya Familin ölümü haqda məlumatın çatdırılmasının qarşısını almaq üçün oranın dəhlizində növbə çəkirlər.

Müslüm susdu. Əgər Natalyanın söylədikləri həqiqətdirsə, o halda, bu iz onu heç bir yerə gətirib çıxarmayacaq.

- Vikanın dostu ola bilərdimi? Onun hansı vəziyyətdə olduğunu aydınlaşdıraraq, İzmaylovdan qisas almağı qərara alacaq qısqanc bir dostu?

- Onun dostu var idi. Yaxşı dost idi. Lakin onlar artıq çoxdandır ki, ayrılıblar və o, hal–hazırda evlidir. Kiçik yaşlı uşağı var. Bu yaxında onun bir yaşı tamam olub. Elə qəşəng uşaqdır ki.

- Bəs başqa dostları olubmu?

- Yox. Mən ondan qeyrisini tanımıram. Lakin heç o da İzmaylovu qətlə yetirməyi düşünməzdi. O, proqramçıdır, əsl kitab qurdudur. Anlaşılmayacaq dərəcədə darıxdırıcı adamdır. Vika ondan ayrılanda, mən elə sevinmişdim ki. Onlar tamamilə müxtəlif insanlar idilər.

- O halda, İzmaylova ölüm arzulayan kim ola bilər? Bəlkə ən yaxşısı Vika ilə söhbət edək, o, gərək ki, onun bütün tanışlarına bələddir.

- Yox, yox, - deyə Natalya ürkək tərzdə dilləndi, - bircə bunu etməyin. Mən ki sizə onun xəstəxanada dölün qorunması naminə müalicə olunduğunu izah etdim. İstənilən ağır vəziyyət ona və onun körpəsinin inkişafına zərər yetirmiş olardı.

Qapını bərkdən döydülər. Frolova yerində donub qaldı və ürkək baxışlarını Müslümə zillədi.

- Siz kimisə gözləyirsiniz? - deyə o, pıçıltı ilə soruşdu.

- Yox, - deyə o da pıçıltı ilə dilləndi.

Qapını yenidən möhkəm döydülər. Müslüm məhz kimin onun otağına soxulmağa can atdığını aydınlaşdırmaq məqsədilə ayağa durdu.

- Natalya, - deyə gur qadın səsi eşidildi, - sən ordasan? Nə üçün susursan? Zəhmət olmasa, cavab ver.

- Bu, mənim anamdır, - deyə Frolova içini çəkdi.

- Aydındır, - deyə Müslüm başını yırğaladı, - mən də onun yerində olsaydım, belə narahat olardım. Əvvəlcə siz bıçaqlanmış vəziyyətdə aşkar olunmuş insanın evinə qonaq gedirsiniz, bu gün axşam isə onun qohumunun mehmanxana otağına təşrif buyurursunuz. Havalanmağa əsas var. Mən indi qapını açacağam, yoxsa anan qapını sındıracaq.

Müslüm qapını açdı. Qapının astanasında bir qadın dayanmışdı. Onun qırxa yaxın yaşı vardı. O, nə isə soruşmaq üçün ağzını açsa da, onu yenidən qapamalı oldu. Müslüm heyrət və vahimə içərisində geri çəkildi. Onlar sükut içində bir-birinə baxırdılar. Qonağın yanında dayanmış mərtəbə üzrə növbətçi onların nə üçün qəfildən susmalarının səbəbini anlamırdı. Natalya ayağa qalxaraq, onlara yaxınlaşdı.

- Ana, - deyə o, soruşdu, - nə olub?

Ana və qız donub qalmışdılar və bir-birinə baxırdılar. Müslüm bu kimi təsadüflərin olmadığını düşündü. Bu, qeyri-adi, ağlasığmaz, həm də qeyri-mümkün idi. Müslüm hətta bunun bir yuxu olduğunu düşündü. İndi o, yuxudan ayılacaq və hər şey öz yerinə qayıdacaq. Müslüm yenidən özünün Bakıdakı mənzilində peyda olacaq, bu əhvalat isə onun dərhal hafizəsindən siləcəyi ötəri bir röyaya çevriləcək. Lakin qadın düz onun qənşərində dayanmışdı. Kifayət qədər real və canlı idi. Onun bütün bu son on iki il ərzində arzuladığı və uzun fasilədən sonra ilk dəfə rastlaşdığı qadın.

- Xoş gördük, Vera, - deyə o, nəhayət, özünə də yad gələn bir səslə dilləndi.

- Xoş gördük, Müslüm, - deyə qadın cavab verdi və qalan bütün şübhələri qəti bir tərzdə yoxa çıxdı. Bu, Vera idi.

### *Meymun ili. Sankt-Peterburq.*
### *Min doqquz yüz doxsan ikinci il*

Doxsanıncı il Azərbaycana bu ilin yeni il gecəsində insanların atışma səsləri ilə hərbi patrulların qışqırıq sədaları altında təlaşla donub qaldıqları qanlı kabus ilə qədəm qoydu.

Bütün bakılılar üçün ən mürəkkəb il də elə min doqquz yüz doxsanıncı il oldu. Məhz bu il, əvvəlcə təxribatçılar və ekstremistlər tərəfindən təşkil olunmuş erməni talanı ilə müşayiət olunan, sonra isə buraya yeridilən sovet ordusunun şəhərin küçələrində əsl qırğın həyata keçirdikləri qanlı yanvar hadisələri ilə başladı. Doxsanıncı ilin yanvar ayının əvvəllində şəhərdə heç bir hakimiyyət nümayəndəsi qalmamışdı. Paytaxtın küçələrində isə müxalifətin silahlı dəstələri yaradılırdı. Tam xaos və intizamsızlıq şəraitində artıq yanvar ayının əvvəllərində kulminasiya nöqtəsinə çatan erməni talanları baş qaldırdı. Minlərlə bakılı talan və qətllərin qarşısını almağa səy göstərməklə öz qonşu və dostlarının müdafiəsinə qalxırdı. Lakin hətta şəhərin iki milyonluq sakini üçün belə əlli altı qurban kifayət qədər böyük bir göstərici idi. Yanvar ayının ortalarına yaxın özünümüdafiə dəstəsi ilə Xalq Cəbhəsi fəallarının qüvvələri hesabına nisbi qayda-qanun yaratmaq mümkün oldu. Ancaq qayda-qanun yaratmaqla onlar həm də hakimiyyəti ələ almağa çalışdılar. Respublikanın rəsmi rəhbərliyi ilə qarşıdurma isə yanvar ayının on doqquzunda, Bakıya göndərilmiş mərkəzin nümayəndələrinin kömək istəməsi ilə özünün ən yüksək zirvəsinə çatdı. Azərbaycana təcili olaraq Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, MTK rəhbərləri ilə birgə ordu göndərildi. Şəhərə qoşunlar cəlb olundu və minlərlə silahlı əsgər və tanklar bütün mərkəzi küçələr boyunca hərəkət etdilər. Onlar hər yoldan ötən insana atəş açır və ətrafdakı insanları əzib keçirdilər.

Həlak olanlar arasında şəhərin sakinləri olan uşaqlar və qocalar, qadınlar və əlillər, azərbaycanlılar və ermənilər, ruslar və yəhudilər, ləzgilər və gürcülər, bir sözlə, bir neçə millətin nümayəndələri var idi. O vaxt prokurorluqda kimin

əleyhinə və necə cinayət işinin qaldırılacağı və məhz kimlərin cinayət məsuliyyətinə cəlb olunmasının zəruri olduğu bilinmirdi. Siyasi konyuktura konkret məqama uyğun tərzdə diqtə olunurdu və bütün mövcud normalarla qanunları əzirdi.

O dövrlərdə Səfərov artıq prokurorluqda işləyirdi. O, buraya Əfqanıstana ikinci ezamiyyət vaxtı ağır yaralandıqdan sonra, səksən üçüncü ildə düşmüşdü. Mərmi qəlpəsi onun ağ ciyərini zədələmişdi və o, xəstəxanada dörd ay yatmışdı. Bakıya qayıdandan sonra isə o, prokurorluqda işə düzəlmişdi. Doxsanıncı ildə o, iki töhmət alsa da, hər iki cinayət işini məhkəməyə çıxarmaqla, müdiriyyətin xeyirinə hər iki işdən imtina etmədi.

Doxsan birinci ildə Sovet İttifaqı süquta uğradı. Bu il də prokurorluq əməkdaşları üçün heç də asan il olmadı. Ümumiyyətlə, öz vəzifələrini vicdanla yerinə yetirən insanların heç biri üçün asan il olmadı. Əvvəlcə ölkə əhalisinin böyük hissəsinin İttifaqın birliyinin qorunub saxlanılmasına səs verməsi ilə müşayiət olunan mart referendumu, sonra isə Rusiyada Boris Yeltsinin qələbə qazanması ilə nəticələnən iyun seçkiləri baş verdi. Ölkənin qorunub saxlanılması üçün yeganə ümid rolunu oynayan, lakin sonradan tankın tırtılları altında qalıb əzilən üç zavallı gəncin qəhrəman elan edilməsi ilə bitən həmin o küçə tamaşası oldu. FHDK rəhbərlərinin, nəinki zəif liderlər, həmçinin də, səriştəsiz təşkilatçılar olduğu müəyyən edildi.

Dekabr ayında Belovejsk Meşəliyində dövlətin süquta uğraması rəsmən təsdiqləndi. Slavyan dövlətlərinin liderlərindən heç biri bu düşünülməmiş addımları ilə necə qurban verəcəkləri və öz millətlərinin başına nə cür müsibət açacaqlarını belə düşünmədilər. Yalnız xalqların sayəsində hər

şey vaxt keçdikcə öz yerini tapmağa başladı. Belarus lideri demək olar ki, dərhal öz vəzifəsini itirdi, Ukrayna lideri elə ilk seçkilərdə məğlub oldu, rus lideri isə açıq-aşkar surətdə qəsdən təhrif olunmuş nəticələrlə növbəti seçkilərdən qalib çıxsa da, respublikanı iflasa, səfalətə, müharibəyə və tam bərbad olmaya sürükləməklə milyonlarla insan tərəfindən lənətlənərək, siyasi meydanı tərk etdi. Onun xələfi isə dünyada ən iri olan ölkəni demək olar ki, hissə-hissə bir araya gətirməli oldu.

Doxsan ikinci ilin əvvəllərinə yaxın ölkənin süquta uğraması rəsmi tərzdə bəyan olundu. Baltikyanı respublikalar hətta rəsmi olaraq MDB-yə daxil olmadılar. Ora Gürcüstanla Azərbaycan da daxil olmadı. Gürcüstanda vətəndaş müharibəsi başladı və hakimiyyətə Moskvadan geri qayıdan Eduard Şevardnadze gəldi. Azərbaycanda isə hər kəsin əleyhinə iş apardığı Nazirlər Şurasının keçmiş sədri və Azərbaycan Kommunist partiyasının keçmiş birinci katibi Ayaz Mütəllibov möcüzə nəticəsində hakimiyyətdə qalmışdı. Müxalifət, ordu, daxili və xarici qüvvəllər, onun hakimiyyətini tanımayan Heydər Əliyevin başçılıq etdiyi Naxçıvan Muxtar Respublikası, ona tabe olmaqdan imtina edən və ermənilərin məskunlaşdığı Dağlıq Qarabağ vilayəti. Hətta onun baş naziri belə birinci olmağa cəhd göstərməklə Heydər Əliyevin əleyhinə intriqa aparırdı. Onun çoxlu sayda olan mütəffiqləri ilə dostları da öz kapitalları ilə əmlaklarını qoruyub saxlamağa ümid bəsləməklə onu satmağa can atırdılar.

Belə bir mürəkkəb şəraitdə Müslüm Səfərov yenicə adını dəyişmiş Sankt-Peterburqa ezam olunmuşdu. Şəhər rəhbəri olan yerli demokratların lideri – Anatoli Sobçak

şəhərin adının dəyişdirilməsinə dair sürətli və müvəfəqiyyətli əməliyyat keçirmişdi. Leninqradı artıq Vladimir İliçin adı ilə deyil, leninqradlıların dəhşətli blokada vaxtı yol verdikləri hünərləri ilə əlaqələndirirdilər. Lakin Sobçakla onun ardıcıllarına keçmiş olan əlaqəni tamamilə kəsmək daha məqsədəuyğun görünürdü. Ədalət naminə onu da qeyd etmək lazımdır ki, leninqradlıların özləri də özlərini əksər hallarda «piterlilər» adlandırırdılar. Ancaq «Sankt-Peterburq» adı hər kəsə kifayət qədər iddialı və bir qədər uydurulmuş gəldi. Tarix onların bu idealından da öz intiqamını aldı. O, ölkə prezidentliyinə real iddiaçı idi. Lakin əvvəlcə yerli seçkilərdə özünün yaraşıqsız müavininə uduzdu, sonra isə ümumiyyətlə, ölkəni tərk etmək məcburiyyətində qaldı. Bir müddət sonra müavininin ölkədə mütləq hakimiyyətə yiyələnməsi və hazırkı prezidentin xələfinə çevrilməsi vaxt geri qayıtdı. Elə görünürdü ki, tale nəhayət, Sobçakın üzünə gülür. Lakin şöhrət, zəfər, sonra isə enişlə qovulma onun ürəyi üçün həddən artıq güclü təsirə malik oldu. Və o, seçkiqabağı kampaniyanın elə ilk mərhələsində vəfat etdi.

Həmin bu fevral günlərində Səfərov çeçensayağı adlanan saxta avizoların yoxlanılması üçün Sankt-Peterburqa ezam olunmuşdu. Əslində isə bunlar bütün iri dövlət boyunca hətta süquta uğramadan sonra belə tətbiq olunan və xarabalığa çevrilmiş iqtisadiyyata daha irimiqyaslı zərbələr endirən, yaxşıca düşünülmüş maliyyə əməliyyatları idi. Pul köçürmələri isə yalnız havanı göndərmək və qəbul etməklə məşğul olan bankların yerli şöbələri tərəfindən təsdiqlənir-dilər. Lakin böyük məbləğlərin nağd pula çevrilməsindən dərhal sonra xəzinədarlar əksər hallarda yoxa çıxır, bank müdirləri isə heyrətlərini bildirirdilər.

Müslüm qarın içində itib-batan şəhərə gəldi. Həmin ilin qış ayı o qədər soyuq olmasa da, yağıntı adi normadan artıq olmuşdu. Səfərov dərhal şəhər prokurorluğuna yollandı. Orada keçmiş İttifaq respublikalarının dövlət müəssisələri üçün səciyyəvi olan hərc-mərclik hökm sürürdü. Ümumi sərhədlər, ümumi pullar və hətta pasportlar da hələ ki, hər bir ölkənin əmlakı hesab olunurdu. Yalnız bir qədər tez, bir qədər gec hər bir respublika tələsik öz valyutasını, öz sərhədlərini, öz sərhədçilərini və öz gömrükxanasını tətbiq etməyə başlayacaq. O vaxt isə hər şey uydurulmuş və qeyri-ciddi görünürdü. Ancaq saxta avizolara əsaslanmaqla böyük məbləğlər oğurlanırdı. Onu prokurorluğun gənc əməkdaşı olan Artyom Paramuzinlə eyni otağa yerləşdirdilər. O, çox cəsur, gənc və həyatı sevən bir müstəntiq idi. Onun arvadı ikinci uşağa hamilə idi və onlar qız övladının olmasını arzulayırdılar. Ərlə-arvadın artıq beş yaşlı oğlu var idi.

Qonağa «Pribaltika» mehmanxanasında otaq sifariş etdilər. Qiymətlər hələ ki, sovet qiymətləri idi, belə bir qəşəng mehmanxanada yaşamaq üçün də ona kifayət qədər pul verilmişdi. Həmin dövr üçün o, bir qədər dağılmış olsa da, bu əsrarəngiz otelin əvvəlki parıltısı hələ də qorunub saxlanılmışdı. Parmuzin onun ardınca öz «Jiquli»sində gəlirdi. Maşında isə adətən, onun hamilə həyat yoldaşı ilə oğlu olurdu. Oğlunu bağçaya aparırdı, həyat yoldaşı isə institutda müəllim kimi çalışır və doğuşa qədər məzuniyyətə çıxmaq istəmirdi.

Onlar prokurorluğa gələrək, sənədlərlə darıxdırıcı, uzun və ağır iş aparmağa başlayırdılar. Bu yoxlamaların aparılmasında onlara kömək edən DİN bir neçə gənc əməkdaş da ayırmışdı. Belə vəziyyət bir neçə gün davam etdi. Axşamların birində Parmuzin ona «Şvab evi» adlı yeni

açılmış restoranda şam yeməyinə qonaq olmağı təklif etdi. Orada onları əla alman pivəsi ilə donuz ayaqlarına qonaq edəcəklərini vəd etmişdilər. Müslüm donuz ətindən qətiyyətlə imtina etdi, lakin bu, onun heç də dinə itaəti ilə əlaqəli deyildi. Onun orqanizmi sadəcə, bu qədər donuz piyini həzm etməyə qadir deyildi. Bunun əvəzinə isə o, yanında turşu kələmi olan sosis porsiyasını böyük ləzzətlə pivə içə-içə yedi.

Onlar bu restoranda xeyli oturmuşdular ki, burada iki qadın göründü. Onların otuzdan yuxarı yaşı olmazdı. Qadınlar onların yaxınlığındakı masanın arxasında əyləşdilər və Müslüm onların hər ikisini yandan görməyə müvəffəq oldu. Onlardan birinin otuzdan bir qədər çox yaşı olardı. O, füsunkar bir sarısaç qadın idi. Onun iri sümükləri, kifayət qədər dolu bədəni var idi və qabarıq tərzdə boyanmışdı. Şabalıdı saçlı ikinci qadının zahiri görünüşü isə onunla tam ziddiyyət təşkil edirdi. Təmkinli, sakit təbiətli, rəfiqəsini diqqətlə dinləyən adam idi. Bu qadının gözləri Müslümü valeh etdi. Onlarda eyni vaxtda hansısa bir gizli ağrı-acıdan doğan qüssə gizlənmişdi. Qadın çox füsunkar idi, onun gözəl üz cizgiləri, incə dodaqları və gözəl üzü var idi. Onda, həmçinin, hansısa bir müəmma ilə cəzbedici bir ifadə hökm sürürdü. Boz rəngli qeyri-adi gözləri isə ona xüsusi yaraşıq verirdi. O, açıq-aşkar öz qonşusuna baxıb zövq alırdı.

- Sən ondan gözünü çəkə bilmirsən, - deyə Artyom qəhqəhə ilə güldü. – O, həqiqətən də füsunkar qadındır. Lakin mənim üçün Alloçkadan savayı heç bir qadın mövcud deyil. Heç kim, - deyə o, ucadan bildirdi.

- Elə belə də olmalıdır, - deyə Müslüm onunla razılaşdı, - mən də evliyəm və bir qızım da var. Mən sadəcə olaraq, bu gözəl qadına baxıram. Diqqət yetir, o, demək olar

ki, dillənmir və rəfiqəsinə diqqət kəsilib. Demək olar ki, bir kəlmə də olsun danışmır. Deyəsən, onun nə isə bir problemi var.

- İndi hamının problemi var, - Parmuzin dedi.

- Onun nə isə bir dərdi var, - deyə Müslüm qətiyyətlə bildirdi, - onun gözlərinə bax. Həddən artıq ecazkar və çox gənc qadındır, cəmi otuz yaşı olar.

- Çox olar, - deyə Artyom qonşu masaya nəzər yetirərək dilləndi, - onların hər ikisi qoca xaladır. Heç bilirsən, sən kimsən? Sən – gerontofilsən. Sən yaşlı qadınları bəyənirsən, - deyə o, təntənəli tərzdə bəyan etdi və ilk dəfə gülümsədi.

- Mənim artıq otuz altı yaşım var, - deyə Müslüm etiraz etdi, - mən də gənc deyiləm. Onun isə otuzdan yuxarı yaşı olmaz, mən buna görə səninlə mərcləşməyə də hazıram. Onu müşayiət edən qadının yaşı az olar. Ya iyirmi səkkizdir, ya da iyirmi doqquz.

- Bir butulkaya mərcləşək, - deyə Artyom dərhal razılaşdı.

O, ayağa qalxaraq, qonşu masaya yaxınlaşdı. Qalstukunu və pencəyini səliqə-sahmana salaraq, saçına tumar çəkdi.

- Üzr istəyirəm, xanımlar, - deyə Parmuzin təntənəli surətdə söhbətə başladı, - biz sizi masamıza dəvət etmək istərdik. Ürəyinizə pis bir şey gəlməsin. Biz sadəcə, mürəkkəb bir işimizin ilk mərhələsinin yekunlaşmasını bayram edirik. Elə buna görə də, bu gün burada şam etməyi qərara almışıq. Mənim dostum bu yaxında müstəqilliyini əldə edən cənub respublikalarının birindən gəlmiş qonaqdır.

- Boşboğazlıq edirsiniz, - deyə sarısaç qadın narazı halda dilləndi. – Siz özünüz də görürsünüz ki, biz şam edirik və sizinlə tanış olmaq niyyətində deyilik.

İkinci qadın susurdu. O, harayasa kənara baxırdı.

- Yad adama qarşı ədəbsizlik etmək çox asandır, - deyə Artyom incik tərzdə dilləndi, - bizsə sizə açıq ürəklə yanaşırdıq.

- Get dincəl, - deyə sarısaç qadın məsləhət gördü, - bizə də rahat oturmağa imkan ver.

- Yaxşı, - deyə Artyom başını yellədi, - belə olan halda, sonuncu sualımı verib gedirəm. Biz dostumla astroloquq və ulduz falı ilə maraqlanırıq. Mənə ulduz falına görə hansı bürcdən olduğunuzu söyləyin və biz gedək. Vicdanım haqqı, mən bir daha sizin masanıza yaxınlaşmayacağam. Zəhmət olmasa, deyin, axı bu, heç də çətin deyil?

- Astroloqsunuz? – deyə sarısaç qadın gülümsədi, - Mənsə zənn edirdim ki, iş adamısınız. Yaxşı. Mən ulduz falına görə Xərçəng bürcündən və Siçan ilindənəm, rəfiqəm isə… Gözləyin görüm, sən deyəsən, Əjdaha ilində anadan olmusan, eləmi?

- Bəli, - deyə o, təsdiq etdi.

- O isə Əjdaha ilində anadan olub, - deyə sarısaç qadın bildirdi, - bundan artıq isə biz sizə heç bir şey deməyəcəyik. Hətta adımızı da. Şərti şumda kəsərlər . kişinin sözü bir olar. (uqovor doroje deneq). Öz yerinizə qayıda bilərsiniz.

- Təşəkkür edirəm, - deyə Parmuzin onlara minnətdarlığını bildirərək, masasına qayıtdı.

- Sən qalibsən, - deyə o, məyus halda dilləndi, - sarısaç qadın Siçan ilində anadan olub. Deməli, yetmiş ikinci ildəndir.

Mən bunu dəqiq bilirəm, mənim kiçik bacım bu bürc altında doğulub.

- Oxşamır. Ehtimal ki, altmışıncı illərdəndir. Onun hal-hazırda otuz iki yaşı var, - deyə Müslüm qonşu masaya tərəf boylandı.

- Bəs onda o birisinin neçə yaşı olar? Sən sonuncu Əjdaha ilinin nə vaxta təsadüf etdiyini xatırlayırsanmı? Deyəsən, səksən səkkizinci il idi. Bir dəqiqə, mən dəqiq bilirəm ki, iki mininci il Əjdaha ili olacaq. Deməli, ondan on iki il çıxırıq – səksən səkkizinci il. İndi onun neçə yaşı olar? Məlum məsələdir ki, dörd yaşı yoxdur. Əgər o, səksən səkkizinci ildə anadan olubsa. Yox, uyğun gəlmir. On iki il də çıxaq. Yetmiş altıncı il. O halda, onun on altı yaşı olmalıdır. Yox, bu da uyğun gəlmir. On iki il də çıxsaq, o halda altmış dördüncü il alınar. O halda da onun gərək ki, iyirmi səkkiz yaşı olsun. Elədir ki var. Sən uddun. Bir butulka şərab sifariş etməli olacağam.

- Gələn dəfəyə qalsın, - deyə Müslüm comərdliklə təklif etdi.

Bu məqamda zala milis əməkdaşları daxil oldular. Dövr kifayət qədər mürəkkəb idi, kriminal elementlər cana gəlmişdilər, silahı demək olar ki, qanuni olaraq əldə etmək mümkün idi və nəinki avtomat və tapançaları, təyyarə, tank və silah-sursatı da, həmçinin. Kriminal müharibə isə nəinki ölkənin, həmçinin vahid hüquq-mühafizə sisteminin də süquta uğramasına səbəb olmuşdu. Bir pasport vasitəsilə bir yerdən başqa yerə keçməklə və ümumi süqut atmosferindən istifadə etməklə, müxtəlif respublikaları gəzib-dolaşmaq mümkün idi. Milis əməkdaşları hər kəsin sənədlərini yoxlamağa başladılar. Onlar dərhal da biri, yəqin ki, cənublu olan iki yüngülcə kefli

gəncə diqtə yetirdilər. Beləsindən yaxşı pul qoparmaq olardı. Dəstəyə rəhbərlik edən kapitan onlara yaxınlaşaraq, sənədlərini təqdim etmələrini xahiş etdi.

- Əvvəlcə özünüzü təqdim edin, - deyə Parmuzin sərt halda xatırlatdı.

- Mən özümü sənə təqdim edəcəyəm, - deyə kapitan söz verdi, - yalnız mənə sənədlərini göstərdikdən sonra.

- Buyur. – Artyom öz vəsiqəsini çıxardı. Karıxmış kapitan qarşısındakı şəxsin şəhər prokurorluğunun müstəntiqi olduğunu öyrəndi.

- Bəs siz? – deyə o, mexaniki olaraq, Müslümdən soruşdu. – Sizin sənədləriniz var?

- Bu da mənim vəsiqəm, - deyə Müslüm cibindən sənədlərini çıxardı, - tanış ola bilərsiniz. Yeri gəlmişkən, rütbə etibarilə mən sizdən də yüksəyəm, kapitan. Mən kiçik ədliyyə müşaviriyəm ki, bu da mayor rütbəsinə müvafiq gəlir.

- Bağışlayın, - deyə kapitan onun sənədləri ilə diqqətlə tanış olduqdan sonra dilləndi. O, rəsmi təzim edərək, onlardan uzaqlaşdı. Müslüm çevrildi və naməlum qadının ona diqqət yetirdiyini gördü.

«Deyəsən, məndə dejavüdür, - deyə Səfərov düşündü, - hər şey yeni dairə üzrə təkrarlanır. O vaxt məni öz vəsiqəsini milis zabitlərinə təqdim edən və DTK podpolkovniki olan naməlum qadın heyrətləndirmişdi. İndi isə yəqin ki, biz bu xanımlarda eyni təəccüb hissini doğururuq».

Milis əməkdaşları onların qonşuluğunda əyləşmiş qadınların da sənədlərini yoxladılar. Dərhal da qalan qonaqların sənədlərini yoxlamaq üçün onlardan uzaqlaşdılar. Müslüm bir daha geri boylandı. Füsunkar qadın gözlərini düz ona zilləmişdi. Sanki bu hərəkətin insanı necə

əsəbiləşdirdiyindən və qıcıqlandırdığından halı deyildi. O, çevrildi, qadının baxışlarına tab gətirərək, düz onun gözlərinin içinə baxdı. Onun özünə məxsus gözəlliyi var idi. Qərb gözəlliyi ilə Şərq füsunkarlığının qarışığı. İri almacıq sümüyü və iri gözlər, qərbsayağı qaraşınlıq və incə dodaqlar.

- Bu, artıq ədəbsizlikdir, - deyə Artyom pıçıldadı, - sən ondan bir an da olsun gözünü çəkmirsən. Özünü belə aparmaq yaramaz, hətta əgər sən cənublu qonaq olsan belə.

Musiqi eşidildi. Müslüm özünü ayağa qalxmağa məcbur etdi. O, qonşu masaya yaxınlaşaraq, naməlum qadının önündə dayandı.

- İcazənizlə, sizi rəqsə dəvət etmək olarmı? – deyə soruşdu.

Qadın gülümsədi. Bəli, Müslüm tam dəqiqliyi ilə onun gülümsədiyini xatırlayırdı. Onun təbəssümünü hafizəsinə həkk etmişdi. Qadın razılıqla başını tərpətdi və ayağa qalxdı. Müslüm əlini onun belinə qoydu və onlar rəqs etməyə başladılar. Müslümün Vera ilə qeyri-adi tanışlığı məhz bu cür başladı. Deyəsən, o vaxt bütün restoran onların necə rəqs etdiyinə tamaşa edirdi. Kimsə ucadan ən gözəl cütlüyün rəqs etdiyini söylədi. Bütün iştirakçıların eşidəcəyi dərəcədə ucadan söylədi. Bu Müslümü ilhamlandırdı və o, addımlarını bir qədər də yeyinlətdi.

- Siz bizə nə dediklərini eşitdinizmi? – deyə qadın soruşdu.

Müslüm bir daha gülümsəyərək, başını tərpətdi.

- Sizin adınız nədir? – deyə Müslüm soruşdu.

- Vera, - deyə o, cavab verdi, - bəs sizinki nədir?

- Müslüm.

- Gözəl addır. Siz Bakıdansınız?

- Əgər Müslüməmsə, deməli, mütləq Bakıdan olmalıyam? – deyə o, mehribanlıqla soruşdu.

- Onun adı bütün Sovet İttifaqına bəlli idi. Keçmiş İttifaqa, - deyə o, əlavə etdi.

- Mən sizin masanıza diqqət yetirdim, - deyə Müslüm etiraf etdi, - mənə elə gəlir ki, sizin nəsə bir probleminiz var.

Qadın ona nəzər saldı. Onun qeyri–adi boz rəngli gözləri var idi. Müslüm ən həssas nöqtəyə toxunduğunu anladı. Qadın ayaqlarının yerini dəyişərək, bir qədər büdrədi.

- Bu haqda düşünməyə belə dəyməz, - deyə o, bildirdi.

- Alınmır, - deyə o, etiraf etdi, - ancaq hər bir insanın adətən, öz problemləri olur. Siz nə işləyirsiniz? Mən milis əməkdaşlarının sizə rəsmi təzim edərək, sizin masanızdan uzaqlaşdıqlarını gördüm. Siz də milisdənsiniz?

- Xeyr, mən prokurorluqda işləyirəm. Buraya da xidməti ezamiyyətə gəlmişəm.

- Deməli, siz prokurorsunuz?

- Sadəcə, müstəntiqəm. Bu isə mənim dostumdur. O, sizin şəhər prokurorluğunuzda işləyir, - deyə Müslüm Artyoma işarə etdi.

- Sizin dostunuz, zənnimcə, əməlli-başlı dəmdir, - deyə o, yenidən gülümsədi. Onun dişləri gözəl idi. Düz və ağ idi.

- Qorxulu heç bir şey yoxdur. Mən onu evinə apararam, - deyə Müslüm dilləndi. – Bəs sizi kimsə evinizə qədər ötürəcəkmi?

- Əgər siz xidmət göstərmək istəyirsinizsə, buna dəyməz. Mən sükan arxasındayam, - Vera dedi.

- Maşınınız hansıdır?

- Bunun nə əhəmiyyəti var?

- Sadəcə, maraqlıdır.

- Mənim «Pejo»m var. Tünd mavi rəngli «Pejo»dur. Niyə soruşursunuz?

- Mən ki müstəntiqəm, - deyə Müslüm izah etdi, - təhlil etməyi də bacarmalıyam. Siz əla rəqs edirsiniz, çantanız da buradan alınmayıb…

- Mənə onu anam hədiyyə edib. O, çantanı Budapeştdən gətirib.

- Sizin maşınınız. Bizim keçmiş qüdrətli dövlətimizdə özlərinə «Pejo» markalı maşını almağa rəva görən çox adam yox idi…

- Doğrudur, - deyə Vera gülümsədi, - mənim ərim «Xarici Ticarət İttifaqı»nda işləyir və biz bir neçə il xaricdə yaşamışıq…

- Siz ərdəsiniz?

- Bu sizi çoxmu məyus edir?

- Yox, heyrətləndirir. Mən sizin sərbəst olduğunuzu güman edirdim.

Digər musiqi çalındı, lakin onlar bir-birindən ayrılmaq istəmirdilər.

- Bəs siz evlisiniz? – deyə Vera soruşdu.

- Bəli. Mənim qızım var.

- Mənim də qızım var, - deyə o, gülümsədi, - lakin sizin yerinizdə olan kişilərin yüzündən doxsan doqquzu yalan danışmağa üstünlük verərdi.

- Axı nə üçün? – deyə o, soruşdu. – Mən həqiqətən də evliyəm. Lakin mənim nikahım gəmi qəzasına uğramaq üzrədir. Hər halda, mən arvadımla birlikdə artıq rəsmi olaraq boşanma ərizəsi yazmışıq. Bunu da mən səninlə rəqs etdiyim üçün demirəm, bunu, həqiqətən də, belə olduğu üçün söyləyirəm. Lakin bizə VVAQ vasitəsilə boşanmağa da icazə

vermirlər. Bizim həddi-büluğa çatmamış övladımız var və elə buna görə, məhkəmə prosedurunu keçməyimiz lazımdır.

Vera diksindi. Müslümə nəzər yetirərək, dayandı. Müslüm onun necə gərildiyini hiss etdi.

- Gəlin söhbəti tamamlayaq, - deyə Vera xahiş etdi, - və masamıza qayıdaq.

- Mən nəsə səhv söz dedim?

- Yox, yox, hər şey normaldır. Sadəcə, mən öz başıma gələnləri xatırladım. Gəlin yerimizə qayıdaq, Müslüm, bağışlayın, mən, deyəsən, heç də yaxşı partnyor deyiləm.

Müslüm onu masaya qədər ötürdü, sağollaşmazdan əvvəl isə dedi:

- Siz çox əla partnyorsunuz. Minnətdaram.

Müslüm hələ onlardan uzaqlaşmağa macal tapmamışdı ki, Veranın rəfiqəsi xeyli ucadan soruşdu:

- Bu tip sənə qəmiş olmuşdu?

Müslüm qımışdı. Deyəsən, o, heç nəyə baxmayaraq, naməlum qadının xətrinə dəyib. Və ya onda xoşagəlməz xatirələr oyadıb. Müslüm öz masasına qayıtdı.

- Siz nə barədə danışırdınız? – deyə Artyom həvəsə düşərək soruşdu. – Sən ona görüş təyin etdin?

- Yox, - deyə Müslüm dilləndi, - biz sadəcə, rəqs etdik.

- Bəs sən onun adının nə olduğunu və harada yaşadığını da soruşmadın?

- Yox, - deyə Müslüm bir qədər yalan danışmalı oldu, - heç nə soruşmadım.

O, sabah axşam yenidən rastlaşacaqlarını ağlına belə gətirməzdi. Özü də tamamilə fərqli bir şəraitdə.

## Altıncı fəsil

«Meymun həddən artıq ixtiraçıdır və ən mürəkkəb problemləri belə qəribə bir çeviklıklə həll etməyə qadirdir. Lakin bununla yanaşı, əksər hallarda şəxsi işləri onun taleyində də öz əksini tapan bəzi nizam-intizamsızlıqlara məruz qalır».

*(Şərq Ulduz falından)*

Müslüm dayanaraq, gözlərinə inanmadan qadına baxırdı. Qadının əynində mil-mil boz kostyum var idi. Yubka, pencək, ağ bluza, sinəsindəki deputat nişanı, səliqəli daranmış saçları, ustalıqla, az nəzərə çarpan makiyajı ona qəşəng görkəm verirdi. Müslüm gülümsədi. Sonra isə sanki onların arasındakı məkanın genişlənməsinə imkan verərək, ehtiyatla iki addım da geri çəkildi.

- Ana, - deyə Natalya onun arxasından dilləndi, - sən məni necə tapdın?

- Sən mənim katibəmə zəng edib, ondan bu gün Bakıdan «Oktyabr» mehmanxanasına kimin gəldiyini aydınlaşdırmasını xahiş etmisən, - deyə ana Müslümdən nəzərlərin çəkmədən dilləndi. – Bax, elə ona görə də, mən sənin buraya gələcəyini qərara aldım. Sən özbaşına adamsan və ağlına gələni edirsən. Mən sənin sakitləşməyəcəyini və Vika haqda izahat vermək üçün məhz buraya gələcəyini anlamışdım.

- Bağışlayın, Vera Dmitriyevna, - deyə dəhlizdə dayanan növbətçi dilləndi, - mənim buraya təhlükəsizlik xidmətini çağırmağıma lüzum varmı?

- Yox, - deyə qadın ona tərəf çevrildi, - çox sağ olun. Gedə bilərsiniz.

- Zənn edirəm ki, biz özümüz hər şeyi yoluna qoyacağıq.

O, otağa daxil olaraq, qapını arxasınca örtdü və bir daha Müslümə nəzər yetirdi.

- Mən səninlə bu tərzdə qarşılaşacağımı ağlıma belə gətirməzdim, - deyə o, etiraf etdi.

- Bu sənin qızındır? – deyə Müslüm onlara heyrətlə gözlərini zilləyən qıza işarə etdi.

- Hə, - deyə Vera başını tərpətdi.

- Deməli, onun artıq iyirmi yaşı var. O vaxt isə onun cəmi… cəmi səkkiz yaşı var idi.

Vera Dmitriyevna içəri keçərək, stulda əyləşdi. Bayaq qızının oturduğu həmin o stulda. Otağı nəzərdən keçirdi.

- Sənin üçün bundan yaxşısını tapmayıblar? – deyə qadın istehza ilə soruşdu. – Deyəsən, axı sən bu illər ərzində böyüyüb, özünə karyera qura bilməmisən.

- Amma sən Sankt-Peterburq meriyasının idarə rəhbəri ola bilmisən, - deyə Müslüm xatırladı, - demək olar ki, generalsan. Belə bir karyera qurmusan. Yəqin sənin tabeliyində yüzlərlə insan çalışır.

- Qırx iki min nəfər, - Vera dedi. – Mən şəhərin ən iri idarəsinə rəhbərlik edirəm. Bəlkə sənə bu barədə heç nə deməyiblər?

- Deyiblər. Deməli, sən hazırda Radvolinasan? Vera Dmitriyevna Radvolina. Mən heç sənin belə bir soyadının olduğunu güman da etmirdim. Əvvəllər sən Klimenko idin.

- Klimenko mənim birinci ərimin soyadı idi, Radvolina isə – ikinci ərimin soyadıdır.

- Bəs nə üçün qızın Frolovadır?

- Bu, mənim atamın soyadıdır.

- Ana, axı burada nə olub? Siz onunla tanışsınız? – deyə Natalya soruşdu.

- Bu, mənim köhnə tanışımdır, - deyə ana sakitcə dilləndi. – Sən artıq burada demək istədiyini demisən? Hər şeyi demisən? O halda, get maşında otur. Lyoşa səni evə aparacaq. Mən də tezliklə gələcəyəm. Get…

- Ana, o, İzmaylovun qohumudur. Mən ona izah etmək istəyirdim ki…

- Biz evdə danışarıq. Get, - deyə Vera başını bulayaraq, qızının sözünü yarımçıq kəsdi, - get. Mən də tezliklə gələcəyəm.

Natalya Müslümə baxdı.

- Xudahafiz, - deyə astadan dilləndi və arxasınca qapını örtüb otağı tərk etdi.

Müslüm çarpayının üzərində əyləşdi. Qarşısında əyləşmiş qadına nəzər saldı.

- Çox dəyişmişəm? – deyə Vera meydan oxuyurmuş kimi soruşdu. – Yəqin qocalmışam, eləmi?

- Yox, - deyə Müslüm etiraz etdi, - neçə yaşın var? O vaxt iyirmi səkkiz olardı. Deməli, hazırda qırx olar. Sənin cəmi qırx yaşın var. Bunun nəyi qocadır ki? Qocalan mənəm. Mənim hazırda…

- Qırx səkkiz yaşın var, - qadın cəld dedi. – Sən məndən düz səkkiz yaş böyüksən. Sən bütün bu illəri necə yaşamısan, Müslüm?

- Hamı necə, mən də elə, - o, Veraya nəzər salıb dedi, - bəzən sağ qalmaq üçün mübarizə aparmalı olurdum və gördüyün kimi də sağ qalmışam.

- Mənə deyirdilər ki, sən indi diplomatsan. Olmaya, işdən çıxmısan?

- Tamamən yox. – Müslüm yalan danışmaq istəmirdi. Həqiqəti də söyləmək fikrində deyildi.

- Qohum barəsində isə çox yəqin ki, yalan danışmısan, - deyə Vera gülümsədi. – Mənə artıq hər şey məlumdur. Onun atası ilə əmisi «Qrand-otel» də qalırlar. Deyilənə görə, mərhumun atası nazir müavinidir…

- Nazirin birinci müavini…

- Nə isə. İkincisi də sizin DTK-də işləyən böyük «adamlardandır». Eləmi?

- Sənə bütün bunlar hardan məlumdur?

- Mənim öz əlaqələrim var, - Vera gülümsədi. – Sən nə üçün buraya gəlmisən? Bu qətli araşdırmaq üçün? Bircə demə ki, diplomat kimi gəlmisən, onsuz da, inanan deyiləm.

- Bizim diplomatımızı qətlə yetiriblər, - deyə Müslüm xatırlatdı. – Dövlətimiz isə cinayət işi ilə bağlı bütün vəziyyətləri yoxlamaq üçün kimisə buraya göndərməli idi. Xüsusən də, ona görə ki, onun qohumlarına həlak olanın cəsədini təhvil almaqda kömək etmək lazımdır.

- Diplomatsayağı cavab. Elə bu?

- Əgər bacarsam, onda bizim əməkdaşımızın həlak olma şəraitini də aydınlaşdıracağam.

- Artıq mətləbə yaxınlaşırsan, - Vera başını buladı. – Deməli, özün şəxsən hər şeyi yoxlayacaqsan. Eynən o vaxt, doxsan ikinci ildə olduğu kimi.

- Yox. Sənə ki hal-hazırda doxsan ikinci il olmadığı məlumdur. Cinayət işini də sizin xüsusi cinayət işləri üzrə müstəntiqiniz Melentyev aparır. Yeri gəlmişkən, həmin qız

haqqında deyilənlər doğrudur? O, həqiqətən də, sizin qohumunuzdur və həlak olmuş İzmaylovdan uşaq gözləyir?

- Bircə tələsik nəticə çıxarma, - Vera xahiş etdi. – Viktoriya həqiqətən də, mənim qızımın xalası nəvəsidir. Onun anası mənim xalam qızıdır, nənəsi isə anamın doğma bacısıdır. Nataşa ilə Vika elə uşaqlıqdan dostluq edirdilər. Elə buna görə də, Nataşa özünü belə sarsaq bir tərzdə təhlükə altına qoydu. Sizin diplomatınızın evinə yollanıb və mənə də heç nə deməyib. Mənim sonradan bütün bunlardan xəbər tutarkən, nə hisslər keçirdiyimi təsəvvürünə gətir. Qızım ora mənim xidməti maşınımda yollanıb, sürücü onu aşağıda gözləyib və yəqin ki, hər kəs həm meriyanın maşınını, həm də onun nömrəsini yadda saxlayıb. Sizin diplomatınızı isə sonradan qətlə yetiriblər. Ancaq mənim zavallı qızım belə bir şey törədə bilməz. O, bütün ömrü boyu bir milçəyi də incitməyib, mənə inana bilərsən. O, belə bir zalımlığa qadir deyil. Lakin sizin həlak olanın qohumları zənn edirlər ki, əgər qızım yeganə şübhəli bilinən şəxsdirsə, deməli, qatil də elə odur. Sizin konsulunuz da səmimi tərzdə etiraf edib ki, mən istintaqa mane olmağa çalışıram. Cəfəngiyyata bir bax. Mənim qızım nəinki müttəhim, heç şübhəli bilinən şəxs də deyil, sadəcə, şahiddir.

- O deyirdi ki, onun alibisi var.

- Sözsüz ki, var, - deyə Vera bir qədər əsəbi halda dilləndi. – Ümumiyyətlə, mən dəqiq bilirəm ki, o, sizin diplomatınızı qətlə yetirməyə qadir deyil. Axı nə üçün? Bircə ona görə ki, o, onun xalası nəvəsi ilə görüşməkdən imtina edib? Buna görə şillə vurmaq olar, öldürmək isə əsla…

- Natalya deyir ki, mərhumu saat onda qətlə yetiriblər, qızınız isə oraya təqribən doqquzun yarısında gedibmiş…

- Çərənçi, - deyə Vera qəzəblə dilləndi, - bildiyi hər şeyi dilinə gətirir. Bu, istintaq sirridir və mən ondan bu barədə heç kimə bir kəlmə də olsun deməməsini xahiş etmişdim. Sizin gənc oğlanı həqiqətən də, axşam saat ona yaxın qətlə yetiriblər, Natalya isə orada doqquzun yarısı olub. Hər şey çox sadə və anlaşılandır. Ümidvaram ki, sən mənim qızımın bu vəhşi qətldə əli olmamasını təsdiqləyə biləcəksən. Mən əlbəttə, qorxmuram, ancaq həlak olanın valideynlərinin mənim qızım barədə pis fikrə düşmələri mənim üçün xoşagəlməz haldır.

- Mən əlimdən gələni edəcəyəm, - deyə Müslüm söz verdi. – deməli, sən artıq idarə rəisisən. On iki il ərzində belə bir karyera qura bilmisən.

- Bəs nə etməli idim? Əlində bir uşağı olan tənha qadın. Əgər xatırlayırsansa, mən o vaxt birinci ərimdən boşanırdım. Biz məhkəmədə iki dəfə üz-üzə gəlməli olduq. Yad insanların sanki səndən preparat hazırlayan tək sənin keçmişində, şəxsi həyatında qurcalanması necə də təhqiredicidir və insana ağır təsir bağışlayır. Axı sən də o vaxt buna bənzər prosedurdan keçirdin.

- Mənim işim asan idi, - deyə Müslüm etiraf etdi. – Hakim mənim köhnə tanışım idi və o, tezliklə bizi boşadı. Sonra isə mənim keçmiş arvadım iş adamının birinə ərə getdi və alimentdən imtina etdi. Üstəlik, mənim də qızımla görüşməyimə izn vermədi. Belə-belə işlər.

- Bəs sən nə üçün uzun illər ərzində özün haqda xəbər vermirdin? – deyə Vera soruşdu. – Mən elə düşünürdüm ki, sən ya zəng edəcək, ya da gələcəksən. Biz səninlə o vaxt belə danışmışdıq və sən mənə zəng edəcəyinə söz vermişdin. Bəlkə heç bunu da artıq xatırlamırsan?

- Mən Bakıya oradakı respublika prezidentinin istefaya çıxmasından sonra qayıtdım. Ümumi xaos baş qaldırmışdı, parlamentin sədri, tibb institutunun keçmiş rektoru rəhbər olmuşdu. Sonra isə prezident bir günlüyə geri qayıtdı və onu yenidən devirdilər. Hakimiyyətə Xalq Cəbhəsi gəldi. Bizdə nələrin baş verdiyini təsəvvürünə gətir. İki aydan sonra yeni prezident seçdilər. Bir neçə aydan sonra isə məni işdən qovdular. Axı mən sənə necə zəng edə bilərdim? Səninlə nə barədə danışardım? Gələcək üçün hansı planlar və ya perspektivlər qura bilərdim? Mənim heç nəyim yox idi. Nə pulum, nə işim, nə ailəm, nə də ki, mənzilim. Mən valideynlərimin yanında yaşayırdım. Sənə zəng etməyə xəcalət çəkirdim. Bir neçə aydan sonra isə hər şey yoluna düşdü. Məni işimə qaytardılar, respublikada isə hakimiyyətə Heydər Əliyev gəldi. O, üçüncü Prezident seçildi və qayda-qanun yaratmağa başladı. Mənim böyük qardaşım – diplomat qardaşım - prezident aparatının əməkdaşları üçün inşa olunan yeni mənzilə köçməklə mənə öz mənzilini hədiyyə etdi. Bax, o vaxt mən sənə zəng etməyi qərara aldım. Lakin sənin köhnə nömrən uzun müddət cavab vermədi. Sonra isə mənə hansısa bir yaşlı qadın cavab verdi. O, mənə sənin ailə qurduğunu və Stokholma getdiyini söylədi. O vaxt gecikdiyimi anladım.

- Bizim görüşümüzdən iki il sonra, - deyə Vera məlumat verdi. – Mən Stokholma doxsan dördüncü ilin fevral ayında getdim. Səninlə danışan isə bizim qulluqçumuz idi. O deyirdi ki, sən zəng etmisən. Ancaq o vaxt mən artıq şəhərdə deyildim. Sən mənə uzun müddət zəng etməyə hazırlaşmısan. Çox uzun müddət.

- Bizdə müharibə gedirdi, - Müslüm qəmgin halda dedi. – Yay ayında Xalq Cəbhəsi rejiminin süqut etməsinə

gətirib çıxaran qiyam baş qaldırdı, sonra isə bizim qonşularımızın hücumu başladı. Onlar bizim bir neçə rayonumuzu ələ keçirdilər. Mən tez-tez ezamiyyətlərdə olurdum, köçkün və qaçqınları sorğu-suala tuturdum, çadırlarda yatırdım. Biz hər şeyi sənədləşdirməliydik.

- İki il, - deyə Vera xatırlatdı. – Sən mənə uzun müddət zəng etmədin, Müslüm. Mən isə qərara aldım ki, məni sadəcə, unutmusan. Ezamiyyətdə olarkən, adətən, növbəti eşqbazlıq yaşamış qadını unudan tək unutmusan…

- Sənə ki bizim aramızda heç bir eşqbazlığın olmadığı məlum idi.

- O halda, sən hər şeyi kənara qoyaraq, mənə zəng etməli idin, - deyə Vera əsəbi halda dilləndi. – Səncə, mən oturub sənin yolunu gözləməli idim? Bir il, iki il, üç, beş, on il. Nə qədər? Sən mənim o vaxt neçə yaşım olduğunu xatırlayırsanmı? Mən o vaxt hələ uşaq idim. İyirmi səkkiz yaşındaydım. Otuz yaşında isə mənə artıq elə gəlirdi ki, həyatım sona çatmaq üzrədir. Səncə, mən səni axtarmamışam? O dövrlərdə mobil telefon yox idi, lakin mən Paramuzindən sənin respublika prokurorluğundakı nömrəni öyrəndim və təkrar-təkrar zəng etməyə başladım. Mənə isə hər dəfə deyirdilər ki, sən ya ezamiyyətdəsən, ya da, məşğulsan. Sonra isə bildirdilər ki, səni işdən çıxarıblar. Mən isə bu qərara gəldim ki, bütün bunları mənim sənə zəng etməkdən əl çəkməyim üçün qəsdən düzüb-qoşmusan. Bundan sonra zəng etməkdən əl çəkdim.

- Bizdə müharibə idi, - deyə Müslüm təkrarladı.

- Bu sənə bəraət qazandırmır, - deyə Vera sərt tərzdə dilləndi. – İnsanlar hətta müharibə gedəndə də bir-birinə bənd olur və bir-birini axtarıb tapırlar…

- Həm də bir-birini gözləyirlər, - deyə Müslüm əlavə etdi.

- Gözləyirlər, - deyə Vera razılaşdı, - o vaxt ki, həmin insanların onların yanına qayıdacağını dəqiq bilirlər. Mən isə dəqiq bilmirdim. Mən sadəcə, bilmirdim.

- O vaxt sən də ikinci dəfə ailə qurub Stokholma getdin, - deyə Müslüm xatırlatdı. – Sənin intizarın bütünlüklə mükafatlandırıldı.

- Mənimlə bu cür danışmağa cürət etmə. O vaxt nə baş verdiyini xatırla. Hətta çörəyi belə normal olaraq almaq mümkün deyildi. Qiymətlər ceyran belinə qalxmışdı, əmək haqqı dilənçi payını xatırladırdı, mağaza piştaxtaları bomboş idi… Mənim isə barəsində düşünməyə borclu olduğum qızım var idi. Məhz buna görə, mən köhnə dostumun təklifini qəbul etdim və onunla birlikdə Stokholma getdim.

- Onun neçə yaşı var idi?

- Əhəmiyyəti yoxdur. – Vera mısmırığını salladı. – Qırx beş. O, məndən on altı yaş böyük idi. Kirill Radvolin. Əla adam idi. O, Nataşaya atasını əvəz etdi, qızımın mənim soyadım ilə böyüməsinə baxmayaraq. O, həmişə Frolova olub. Radvolin isə çox həssas, nəzakətli və ziyalı insan idi. Doxsan altıncı ildə biz Pitere qayıtdıq. O vaxt mən meriyada işə düzəldim. Bizə o vaxt Vladimir Putin kömək etdi, o, Sobçakın müavini işləyirdi. Bir neçə aydan sonra isə seçkilər keçirildi və bizdə ailəmizə yaxşı bələd olan yeni mer Yakovlev göründü. Mənə isə yeni vəzifə təklif etdilər. Sonra isə növbəti vəzifəni təklif etdilər. Son səkkiz il ərzində mənim düz altı dəfə vəzifəmi artırdılar. Hazırda mən idarə rəisiyəm.

- Bəs sənin ikinci ərinə nə oldu? Sən onun barəsində keçmiş vaxtda danışırsan. Onunla da boşandın?

- O, vəfat etdi. İki il bundan əvvəl. Radvolinin o vaxt cəmi əlli üç yaşı var idi. Genişlənmiş infarkt. Onu xilas etmək mümkün olmadı…

- Bağışla.

- Eybi yoxdur. Mən artıq vərdiş etmişəm. İndi, qırx yaşında mən artıq böyük təcrübə toplamış qadınam. İki dəfə ərdə olmuşam. Hər şeyin belə alınmasına görə də heyifislənirəm. Hər dəfə düşünürdüm ki, son dəfə və ömürlük tənha qalıram…

- Mən heç nə bilmirdim, - deyə Müslüm pıçıldadı, - sənin həyatına da müdaxilə etmək istəmirdim. Zənn edirdim ki, məni artıq çoxdan unutmusan.

- Bəlkə bu cür düşünmək istəmisən? – deyə Vera acı-acı soruşdu. – Bəlkə məhz bu cür yaşamaq sənə daha asan və rahat görünüb. Sən, heç olmasa, ondan sonra bircə dəfə də olsun evlənmisənmi?

- Yox. Mən elə indiyə qədər də subayam. Mənim arvadım, deyəsən, mənim bu kimi «hoqqalara» olan həvəsimi birdəfəlik söndürüb. Mənim işim də, həmçinin, ailə qurmaq üçün mənə macal verməyib.

- Sən əvvəllər olduğu kimi yenə də prokurorluqda işləyirsən?

Müslüm Veraya yalan danışmaq istəmirdi. Hiss edirdi ki, bunu etməməlidir və bacarmır.

- Mən – müstəntiqəm.

- O vaxt olduğu kimi, - deyə Vera qımışdı. – Bir halda ki, sən bütün bu illər ərzində bir pillə də qalxmamısan, görünür, o qədər də yaxşı müstəntiq deyilsən, Müslüm.

- Yəqin ki, - deyə o, razılaşdı. General rütbəsi almaq üçün namizədliyinin irəli sürülməsinin iki dəfə təxirə

salınması, ədliyyə nazirinin baş müşaviri və xüsusi cinayət işləri üzrə müstəntiq olması haqda Veraya məlumat verməyə dəyməzdi. Bütün bunların onsuz da heç bir əhəmiyyəti yoxdur. Vera haqlıdır, tapdığı və zərərsizləşdirdiyi yüzlərlə canini, kömək etdiyi yüzlərlə qurbanı və bu torpaqda onun bacarığı, təcrübəsi və peşəkarlığı sayəsində ömür sürən minlərlə xilas etdiyi insanları nəzərə almasaq, həqiqətən də, heç bir karyera qura bilməmişdi. Bütün bunların onun Vera ilə düz on iki il bundan əvvəl ayrılması və yenidən burada, bu köhnə mehmanxanada üz-üzə gəlməsi ilə müşayiət olunan bu qəmli fakta da heç bir aidiyyəti yox idi.

- Nə üçün susursan? – deyə Vera soruşdu. – Yəni, deməyə ayrı bir sözün yoxdur?

- Yəqin ki, yoxumdur, - deyə Müslüm başını yırğaladı. – Mən həlak olanın qohumlarına sənin qızının həmin mənzilə təsadüfən gəldiyini izah etməyə çalışacağam. Natalya ora öz rəfiqəsi və qohumuna kömək etmək niyyətilə gəlmişdi. Lakin məncə, sən də dərk edirsən ki, başlıca qənaəti müstəntiq Melentyevin özü şəxsən qəbul etməlidir. Sənin qızının qətl hadisəsinə aidiyyətinin olub-olmaması barədə rəyi də məhz o, hər kəsə bəyan edəcək.

- Sən mənə inanmırsan?

- Əlbəttə, inanıram. Lakin sən orada nələrin baş verdiyini necə müəyyən edə bilərsən? Nə üçün sən bu qədər əminsən ki, orada heç bir hadisə baş verməyib? Ehtimal ki, onların arasında qalmaqal yaranıb. Ekspertiza müəyyən edib ki, həlak olan sərxoş imiş. O, sənin qızının ora gəlməsindən əvvəl möhkəmcə içibmiş. Yaxud qızının onun yanına gəldiyi ərəfədə. Natalya gözəl qızdır və mərhum onun gəlişini ayrı cür də yoza bilərdi. Ona görə yox ki, o, pis adam olub. Sadəcə,

cənub ailələrinin ənənələrində gənc qızın axşamçağı təklikdə gənc oğlanın evinə gəlməsi ağlasığan deyil. Hətta əgər qız xəstaxanada yatan qohumuna görə gəlsə belə. Ona telefonla zəng də edə bilərdi…

- Bu cür məsələlər bir zənglə həll olunmur, - deyə Vera sakitcə etiraz etdi.

- Bu halda, Natalya gərək kimisə özü ilə aparaydı, - Müslüm dedi. – Bu təqdirdə, qızın ora nə səbəbə gəldiyini hər kəsə izah etmək daha asan olardı…

- Natalya elə belə də etmişdi, - deyə Vera onun gözünün içinə baxaraq, qəfildən dilləndi.

- Nə? – Müslüm heyrətləndi. – Nə danışırsan?

- Biz ora onunla birlikdə getmişdik, - deyə Vera qətiyyətlə bildirdi, - mən maşında oturub, onun nə vaxt geri qayıdacağını gözləyirdim. O, göz yaşı içində geri qayıtdı və mən mərhumun yanına qalxmağı qərara aldım…

- Qalxdın? – deyə Səfərov eşitdiklərinə inanmaqda çətinlik çəkdi.

- Bəli. Mən onun mənzili tərk etməsindən dərhal sonra yuxarı qalxdım. Məhz buna görə, mən qızımın qatil olmadığına bu qədər əminəm. Mən həmin mənzilə ondan dərhal sonra baş çəkmişəm…

- İlahi, - Müslüm sarsılmış halda pıçıldadı, - bircə bu çatmırdı…

***Meymun ili. Sankt-Peterburq.***
***Min doqquz yüz doxsan ikinci il***

Ertəsi gün Artyom işə qaşqabaqlı gəlmişdi. Onun başı ağrıyırdı. Bundan savayı, dünən ərinin evə gec qayıtmasından xoşu gəlməyən arvadı onun aşının suyunu vermişdi. Üstəlik də içkili olmuşdu. Müslüm təbəssümünü gizlədərək, gənc dostunu kənardan müşahidə edirdi.

- Bir daha sorğu göndərmək lazım olacaq, - deyə o, sənədlərdən birini Artyoma göstərdi.

Dostu razı halda başını tərpətdi.

- Bütün gecəni yuxuma əyləncə məclisimiz girib, - deyə Artyom gözlənilmədən etiraf etdi, - qonşu masanın arxasında oturan həmin o fakturalı sarısaç da, həmçinin. Sənə isə afərin, onun rəfiqəsini rəqsə dəvət etdin. Mənsə belə bir addım atmaq üçün o qədər də gözəl rəqs etmirəm. Mən döşəməyə sərələnəcəyimdən, sarısaçın isə mənim üzərimə yıxılaraq, məni əzəcəyindən ehtiyatlanırdım. Yuxuma da bu kabus girib.

-Mənsə kabus görməmişəm, - deyə Müslüm etiraf etdi, - baxmayaraq ki, hər dəqiqə onun rəfiqəsi barədə düşünürdüm. O, hansısa bir sirri gizlətməyə çalışırdı, mən onun necə əziyyət çəkdiyini sezirdim, ancaq o, pis şey barədə düşünməməyə çalışırdı.

- İndi artıq heyifsilənmək gecdir, - deyə Parmuzin onun söylədiklərinə laqeyd yanaşdı, - onlar getdilər, bizsə onların adlarını belə bilmirik. İndi biz artıq onlarla heç vaxt rastlaşmayacağıq. Bizim çoxmilyonlu şəhərimizdə ilk dəfə gördüyün adamı tapmaq müşkül məsələdir. Onun soyadı və ünvanını bilmədən, harada axtarmağın lazım olduğunu və harada işlədiyini bilmədən, bu, çətin işdir. Müstəntiq üçün əsl tapmacadır, - deyə sənədləri bir-bir nəzərdən keçirərək, gülümsədi.

- Mən onu axtarıb tapa bilərəm, - Müslüm qəfildən dedi, - onun ünvanını və soyadını bilmədən.

- Restorana gedib ofisiantları sorğu-suala tutacaqsan? – deyə Artyom anladı. – Lakin bu, metod deyil. Qızlar ora ilk və son dəfə gəlmiş ola bilərlər. Və daha heç vaxt ora qayıtmayacaqlar. Onları bu cür tapmaq mümkün olmayacaq.

- Mən tapacağam, - deyə Səfərov israrla təkrar etdi, - bu gün axşama qədər axtarıb tapacağam.

- Gəl mərc gələk, - deyə Parmuzin canlandı, - mənim sənə uduzduğum butulkaya. Mərcləşək. Yalnız əvvəlcə de görüm, onu necə tapmaq fikrin var.

- Deduktiv metoddan istifadə etməklə, - deyə Müslüm gülümsədi, - və bizim imkanlarımızdan da, həmçinin. Bizə onun Əjdaha ilində anadan olduğu bəllidir. Bu altmış dördüncü ildir. Biz bilirik ki, qadın ora tünd mavi rəngli «Pejo» ilə gəlib. Zənnimcə, şəhərdə iyirmi səkkiz yaşında olan «Pejo» sahibləri o qədər də çox olmaz. O, ərdədir və onun bir qızı var. Tamamilə yetərli məlumatdır. Hazırda milis vasitəsilə mən bütün mavi «Pejo»ların yiyələrini müəyyən edəcəyəm.

- Əla, - deyə Artyom razılaşdı. – Yaxşı ki, mən səninlə mərcləşməyə macal tapmadım, yoxsa sənə iki butulka uduzardım.

Doxsan ikinci il idi. Rusiyada artıq bir il sonra peyda olacaq bu qədər əcnəbi maşınlara Sankt-Peterburqda hələ ki, rast gəlmək mümkün deyildi. Müslüm telefonun dəstəyini götürdü. Bir neçə dəqiqədən sonra isə o, şəhərdə yalnız on dördü mavi rəngdə olan qırx yeddi «Pejo» avtomobilinin qeydiyyatdan keçdiyini müəyyən etdi. Yarım saatdan sonra isə DİN-in məlumat mərkəzindən daxil olan məlumatın çap

versiyası artıq masanın üzərində idi. Maşın sahibləri arasında altmış dördüncü ildə anadan olmuş Vera Klimenkonun adı da qeyd olunmuşdu. Onun ünvanı ilə telefon nömrəsi də göstərilmişdi. Müslüm qalibanə tərzdə dostuna nəzər saldı, aparatı özünə tərəf çəkdi və nömrəni yığdı və ona artıq tanış olan qadının səsini eşitdi. Sonra dəstəyi yerinə asdı. Artıq heç bir şübhə ola bilməzdi, bu, o idi. Onun mənzili lap yaxınlıqda, Suvorov prospektində yerləşirdi.

Müslüm axşam prokurorluğun binasından çıxdı və onun üçün ayrılmış maşının sürücüsündən onu Suvorov prospektinə aparmasına xahiş etdi. Müslüm ünvanı söylədi və sürücü onu düz binanın qənşərinə çatdırdı. Maşını buraxaraq, binanın ətrafında gəzib-dolaşmağa başladı. Saatın əqrəbi yeddiyə yaxını göstərirdi, lakin tünd mavi rəngli «Pejo» gözə dəymirdi. O, telefon budkasını tapıb zəng vurdu. Ona cavab verən olmadı. Müslüm nömrəni ikinci dəfə yığdı. Yenidən uzun fit səsi eşitdi. Görünür, evdə heç kim yox idi. Yenidən binanın ətrafında gəzişməyi qərara aldı. Soyuq külək onun üzünü qarsırdı. O, yaxalığını qaldırıb bir dövrə vurduqdan sonra buranı tərk etmək qərarına gəldi. Axı Müslüm burada onu bütün ömrü boyu gözləyə bilməz. Elə bu məqamda binaya maşın yaxınlaşdı. Bu, tünd mavi rəngli «Pejo» idi. Qadın avtomobilin salonundan çıxdı. Müslüm maşından bir neçə metr aralıda dayanmışdı. Qadın qapını örtdü, qanrıldı və onu gördü. Onun əynində gözəl gödəkçə, başında isə tülkü dərisindən olan papaq var idi. Əvvəlcə qadın qarşısında dayanan insanın kim olduğunu ayırd edə bilmədi. Onun üst geyimi olsa da, başında papaq yox idi. Müslüm hətta ən soyuq havada belə başına papaq qoymağı xoşlamazdı. Qadın ona

diqqətlə baxdı. Heyrətlə gözlərini qıydı. Sonra isə ona sarı bir addım atdı.

- Bu, sizsiniz? – deyə Vera soruşdu. – Siz məni necə tapa bildiniz? Axı bura necə gəldiniz?

- Siz yəqin ki, müstəntiqlə söhbət etdiyinizi unutmusunuz, - Müslüm gülümsədi. – Hər şey çox sadədir. Mənə sizin adınızla anadan olma tarixiniz məlum idi. Rəfiqəniz sizin Əjdaha ilində anadan olduğunuzu demişdi. Bundan savayı, mən sizin hansı maşında ora gəldiyinizi bilirdim.

- Lakin siz mənim nömrəmi görməmişdiniz, - deyə Vera bir qədər karıxmış tərzdə dilləndi.

- Mənim üçün nömrəni görmək elə də vacib deyildi. Mavi «Pejo» sahiblərindən hansı birinin altmış dördüncü ildə anadan olmuş gənc qadın olduğunu müəyyənləşdirmək üçün sorğu göndərmək kifayət edər.

- Necə də sadədir, - deyə o, razılaşdı, - bəs əgər mən maşını etibarnamə ilə sürsəydim? O isə mənim ərimin adına qeydiyyata alınmış olsaydı necə?

- O halda da bütün məlumatlar DİN-in məlumat mərkəzində qeyd edilmiş olardı, - deyə Müslüm izah etdi, - hər şey həqiqətən də, çox sadədir.

- Siz məni heyrətləndirdiniz, - Vera astadan dedi. – Mən bu cür halın mümkünlüyünü təsəvvürümə də gətirməzdim. Sizin dünən həqiqətən də, məndə xoş təəssürrat oyatmanıza baxmayaraq. Öz səmimiliyiniz ilə.

- Siz də, həmçinin. Baxmayaraq ki, mənimlə heç də tamamilə səmimi olmamısınız. Mən sizə ailə problemlərimdən danışarkən, necə əsəbiləşdiyinizi görürdüm. Özümün gözlənilən məhkəmə boşanmam barədə. Görünür, sizi də buna bənzər prosedur gözləyir. Doğru tapmışam?

- Bəli, - deyə Vera başını razılıq əlaməti ilə yellədi, - mən də ərimdən boşanıram. Mənə elə gəlir ki, siz başqalarının fikirlərini oxumağı bacarırsınız. Bəlkə bu, müstəntiq təcrübəsidir?

- Bilmirəm. Bəlkə harayasa gedək? Mən sizi gözləyənə qədər əməlli-başlı donmuşam.

- Təsəvvür edirəm. Maşına əyləşin. Mən sobanı yandıraram, - deyə Vera təklif etdi, - sonra hara gedəcəyimizi müəyyənləşdirərik.

Müslüm qadını onu çox da dilə tutmağa məcbur etmədi. Maşına əyləşən qadın papağını başından çıxardı, saçlarını silkələdi və ona baxdı.

- Yəni, siz doğrudan da, məni axtarırdınız və evin önündə də məhz məni gözləmisiniz?

- Bəs siz necə düşünürsünüz?

- Bilmirəm. Hətta bu barədə düşünməyə belə qorxuram. Mənim ərim xüsusi nəzakət tərzi ilə fərqlənənlərdən olmayıb. Məni evin qənşərində gözləmək onun heç ağlına da gəlməzdi. – Vera tutuldu.

- Siz boşanırsınız?

- Bəli. Rəsmi olaraq boşanmaya ərizə də vermişik. Biz onunla həddən artıq yaşadıq. Düz yeddi il. Deyilənə görə, yeddi illik müştərək həyatdan sonra xüsusilə güclü böhran halı meydana çıxır və ona qatlaşmağı bacarmaq lazımdır. Siz arvadınızla neçə il birgə ömür sürmüsünüz?

- Altı il, - Müslüm gülümsədi, - natamam altı il. Biz hətta böhranlı müddətə belə yetişməmişik.

- Bizsə yetişmişik, - Vera dalğın halda dedi, - biz onunla birlikdə universitetdə təhsil almışdıq. O, mənə elə parlaq, bilikli və istedadlı görünürdü ki. Yalnız bir müddət

sonra mənə məlum oldu ki, o, dərin düşüncəli insandan çox, ədabaz imiş. Onun bilikliliyi səthi, ziyalılığı isə süni imiş. Akademik Lixaçovun bu barədə söylədikləri sizə bəllidirmi? İnsan istədiyi kimi özünü yalandan kiməsə bənzədə də bilər. Lakin özünü ziyalıya bənzətmək olmaz. Bu, alınmır. Mənim ərimdə də alınmadı. Onu kafedrada saxladılar, o, tezliklə nasmizədlik dissertasiyasını müdafiə etdi, sonra isə xarakterindəki bəzi bəd xüsusiyyətlər özünü büruzə verməyə başladı. Atası ona «Xarici Ticarət Birliyi»ndə işə düzəlməkdə kömək etdi. Hər kəs ora düşmək üçün dəridən-qabıqdan çıxırdı. Biz dərhal xarici ölkəyə ezam olunduq. Orada ərimdə kişilərdə mövcud ola biləcək bütün bəd əlamətlər təzahür etməyə başladı. Tamahkarlıq, paxıllıq, insanlara qarşı etinasız münasibət və açıq-aşkar həyasızlıq. Mən uzun müddət bütün bunlara dözməli oldum. Sonra isə qızımı da götürüb geri qayıtdım. Hazırda biz tək yaşayırıq. Heç bilmirəm nə üçün bütün bunları sizə nağıl edirəm. Bəlkə də ona görə ki, siz dünən mənə öz həyat tarixçənizdən bəhs etmisiniz.

- Heç də belə deyil, - deyə Müslüm cavab verdi, - məndə hər şey daha fərqli olub. Mən Bakıya ağır yaralandıqdan sonra qayıtdım və orada gələcək arvadımla tanış oldum. Mənə elə gəlirdi ki, biz onunla normal ailə qura bilərik. Əlbəttə, bəzi çətinliklər meydana çıxırdı, ancaq o, çətinliklərlə barışmaq istəmirdi. Son illərdə isə bizdə tamamilə fərqli nöqteyi-nəzərlər meydana çıxmağa başladı. Qızımın tərbiyəsinə, bizim sonrakı həyatımıza və bizim münasibətlərimizə dair. O, hesab edirdi ki, mən özümə karyera qurmalıyam. Mənə hansısa bir qəsəbəyə prokuror müavini qismində getməyimi təklif edirdilər. Mən, əlbəttə,

imtina etdim, bu isə onun xoşuna gəlmədi. Bax, beləcə, addımbaaddım biz ayrılmağı qərara aldıq.

- Deməli, «iki tənha» bir-birinə rast gəlib, - deyə Vera qəmgin tərzdə gülümsəyərək, mızıldadı. – Yəqin ki, biz kənardan çox gülməli görünürük.

- Biz hələ indi-indi yaşamağa başlayırıq, - deyə Müslüm etirazını bildirdi, - sizin cəmi iyirmi səkkiz yaşınız var.

- Mən artıq özümü elə qoca hiss edirəm ki, - deyə Vera gileyləndi, - siz heç təsəvvür də edə bilməzsiniz ki, hansı dərəcədə. Mənim həmyaşıdlarım, bizim qrupdan olan qızlar mənə elə gənc görünürlər ki. Bəlkə də vəziyyət öz təsirini göstərib. Mənim baş tutmamış ailə həyatım. Bizim xarici ölkəyə ezam olunmamız da, həmçinin. Orada sürətlə yaşa dolursan. Xüsusən də, kapitalist ölkələrində öz məsuliyyətini daha qabarıq tərzdə hiss edirsən. Amma elə bizdə də hal-hazırda kapitalizmdir.

- Bizə, hələ ki, hansı quruluşda yaşamağımız məlum deyil. Elə sizdə də, - deyə Müslüm etiraz etdi, - mən hələ ki, yalnız ümumi süqut və qarışıqlıq görürəm. Sonra nə baş verəcək – yaşayıb görərik.

Vera gülümsədi.

- Siz yəqin ki, kommunistsiniz?

- Əlbəttə. Əks təqdirdə, məni çoxdan prokurorluqdan sıxışdırıb çıxarardılar. Mən partiyaya da belə lazım olduğu üçün qəbul olmuşdum. Orduda qəbul olmuşdum, yaralandıqdan sonra. Mənə dedilər ki, ərizə yazmaq lazımdır və mən də bütün bunlara əhəmiyyət belə vermədən ərizəmi yazdım. Sonra isə məni tez bir vaxtda prokurorluqda işə qəbul

etdilər, artıq partiya üzvlüyünə namizəd idim. O vaxt yalnız partiyanın köməyi ilə karyera qurmaq mümkün hesab edilirdi.

- Karyera qura bildinizmi?

- Yox. Elə müstəntiq olaraq da qaldım. Bizdə xüsusi cinayət işləri üzrə müstəntiqlər barəsində deyildiyi kimi, «mühüm» müstəntiq olaraq qaldım. Doxsanıncı ilin yanvar ayında isə bizim bütün ideyalı prokurorlarımız partiya biletlərini təslim etməklə, yekdil tərzdə partiya sıralarını tərk etdilər. Bir neçə aydan sonra isə iclas keçirildi və onlar öz partiya biletlərini geri götürdülər. Yenidən partiya üzvü olmağı qərara alıb, biletlərini geri aldılar. Bir ildən sonra isə onlar yenidən biletlərini təhvil verdilər. Keçən ilin avqust hadisələri vaxtı, Moskvada DKFV elan olunduqdan sonra bir çoxları yenidən partiya biletlərini partiya komitəsindən geri almağa can atdılar. Putça iştirakçılarının uduzduğunun məlum olmasından sonra isə bu prinsipial kommunistlər növbəti dəfə biletlərini təhvil verdilər. Mən onlara baxdıqca xəcalət çəkirdim. Bütün bu hadisələrdən sonra onların özlərini necə hiss etdiklərini təsəvvürümə belə gətirə bilmirəm. Mən heç vaxt ideya etibarilə kommunist olmamışam və mənə partiya iclaslarında iştirak etmək də həmişə bir qədər gülməli gəlirdi. Lakin partiya biletimi prinsipial olaraq heç kimə təhvil verməmişdim. Bu, mənim keçmişimdir, ömrümün bir hissəsidir, xalqımın keçmiş tarixidir. Bəlkə mən haqlı deyiləm, necə düşünürsünüz?

- Bilmirəm. Mən hər vaxt bizim partiya komitəsi katiblərinə nifrət bəsləmişəm. Hər kəsə göz yetirib, səlahiyyətli orqanlara həmin bu insanlar barəsində xəbərçilik edirdilər. Demaqoqlar və yaltaqlar. Bəlkə də elə buna görə, hər şey belə alt-üst oldu. Heç kim heç nəyə artıq inanmırdı.

Xüsusilə də, Qərbdə işləyənlər. Onlar bizim mövcudluğumuzla bu ölkələrdəki həyat arasındakı uyğunsuzluğu görürdülər.

- Bizdə sadəcə, siyasi disput mövcuddur, - deyə Müslüm gülümsədi.

Vera şaqqanaq çəkdi. Müslüm bu qeyri-adi baxışlı gənc qadını get-gedə necə də çox bəyəndiyini hiss edirdi.

- Bu gedişlə siz bütün benzininizi maşının isinməsinə sərf edəcəksiniz, - Müslüm xəbərdarlıq etdi. – Bəlkə harayasa gedək? Sizə bu yaxınlıqda restoran və ya kafenin olub-olmadığı gərək ki, məlum olmalıdır.

- Gedək, - deyə Vera razılaşdı, - burada yaxınlıqda kiçik bir restoran var. Orada asta musiqi ifa olunur və yaxşı qəhvəyə qonaq edirlər.

O, maşını kifayət qədər inamla idarə edirdi. Artıq bir neçə dəqiqədən sonra onlar «Qızıl ceyran balası» adlı kiçik kafenin qarşısında dayandılar. O, haqlı idi, burada həqiqətən də kifayət qədər rahat atmosfer hökm sürürdü. Haradansa uzaqdan asta musiqi səsi gəlirdi, müştərilər isə bütün zal boyunca düzülmüş çiçək dibçəklərinin arxasında itib-batırdılar. Onlar üçün küncdəki masanı ayırdılar.

Sonra onlar bir xeyli söhbət etdilər. Müslüm Veraya öz həyatı, iki dəfə yaralanması, prokurorluqdakı işi və son illər ərzində ölkəsində baş verən hadisələr haqqında danışdı. Müslüm Veraya on iki il bundan əvvəl Leninqradda baş verən o hadisəni istisna etməklə, demək olar ki, bütün həyatını nağıl etdi. Vera isə Müslümə öz ezamiyyəti barədə danışdı, özünün Belçika və Almaniya Federativ Respublikası barədə təəssüratlarını onunla bölüşdü. Almaniyanın birləşməsindən sonra Şərqi Berlində necə təsadüfən peyda olmasını, yenidən

vahidliyini əldə etməyə macal tapmış və bir vaxt vahid olan şəhərin iki yarım hissəsinin həyat səviyyəsindəki fərqlərdən necə hürkdüyünü söylədi. Onlara bir-birilə sadəcə olaraq, maraqlı idi. Ofisiant qız qab-qacağı taqqıldadaraq, buranı tərk etməyin vaxtı çatdığını bildirmək üçün narazılıqla bir neçə dəfə onlara yaxınlaşmışdı. Nəhayət, qız özünü saxlaya bilmədi.

- Üzr istəyirəm, - deyə dilləndi, - artıq on ikiyə on dəqiqə işləyir. Bizsə saat on birdə buranı bağlayırıq.

Müslüm heyrət içində saata nəzər saldı. Onlar hətta bu qədər vaxtın necə axıb getdiyini hiss etməmişdilər. O, qəmgin halda qımışdı.

- Deyəsən, biz oturub qalmışıq…

- Bağışlayın. – Müslüm hesabı ödəmək üçün ofisiant qızı yanına çağırdı. – Bəs sizin qızınız indi hardadır, Vera? Siz yəqin ki, onu haradansa götürməlisiniz?

- Narahat olmayın, - deyə Vera dilləndi, - qız hazırda ərimin valideynlərinin yanındadır. Onlar qızıma məftundurlar və əksər hallarda onu öz yanlarında saxlayırlar. Onların yaxşı bir qış bağı var. Mənim ərimin atası vəzifəli məmur olub, o, bu bağı onun hansısa bir valyuta möhtəkirindən müsadirə olunmasından sonra dövlətdən alıb. Onlar hazırda orada yaşayırlar, şəhərdən kənarda. Ərimin anası xəstədir və biz onu təşvişə salmamaq üçün boşanmağımız barəsində bir kəlmə də olsun demirik. Özümüzü elə aparırıq ki, sanki hər şey öz qaydasındadır.

Müslüm hər şeyi dərk edən adamlar tək başını yırğaladı. Onlar küçəyə çıxdılar. Bayırda şimal şəhərlərində qış mövsümündə olduğu kimi, təmiz hava var idi. Parıltılı

gecə qarı, dadlı, soyuq və kəsici hava ilə bədirlənmiş ay. Onlar yenidən avtomobilin salonuna əyləşdilər.

- Sizi hara aparım? – deyə Vera soruşdu. – Siz hansı mehmanxanada qalısınız?

- «Pribaltika»da. Lakin sizin məni aparmağınıza razılıq verə bilmərəm. Ömrüm boyu bu cür iş başıma gəlməyib. Qadının məni yola salması. Biz sizin evinizə gedəcəyik və mən sizi mənzilinizə qədər ötürəcəyəm. Sonra isə taksi saxlayıb, mehmanxanaya yollanacağam.

- Amma bu, düzgün deyil.

- Ola bilər. Lakin unutmayın ki, mən qafqazlı kişiyəm. Bizim isə ədəb-ərkana dair öz təsəvvürlərimiz var. Qadının məni yola salmasına yol vermək olmaz, axı bundan sonra mən özümü ən zavallı adam kimi hiss edərəm.

- Yaxşı, - deyə Vera gülümsədi, - mən sizin ənənələrinizi bəyənirəm.

Onlar yenidən Suvorov prospektinə qayıtdılar. Salonu tərk etdilər. Vera əlini ona uzatdı.

- Mənə elə gəlir ki, sizi artıq uzun müddətdir ki tanıyıram. Artıq uzun illərdir, - deyə Vera etiraf etdi.

- Elə mən də, - deyə Müslüm həyəcanlı bir tərzdə cavab verdi, - bu möcüzəli axşama görə də çox sağ olun.

- Ümidvaram ki, siz nəinki mənim ünvanımı, həm də telefon nömrəmi aydınlaşdıra bilmisiniz, eləmi? – deyə Vera bic-bic soruşdu.

- Elədir, - deyə Müslüm təsdiq etdi.

- Zəng edin və bir daha yoxa çıxmayın, - deyə o, sağollaşmazdan əvvəl bildirdi. – Siz nə vaxt işinizi bitirirsiniz?

- Bir həftədən sonra, - deyə Müslüm bir qədər təəssüf hissi ilə bildirdi, - lakin ola bilsin ki, bir qədər burada yubanım. İşlər həddən artıq çoxdur.

- Bəs sizin dostunuz dünən gecədən sonra özünü necə hiss edir? – deyə Vera xatırladı. – Başı ağrımır ki?

- Özü də necə ağrıyır. Arvadı da aşının suyunu verib. Məhz elə bu səbəbdən o, hazırda ev dustağıdır. Heç bir yerə getmir və heç kəslə də ünsiyyət qurmur.

Onlar gülüşdülər. Müslüm Veranın əlini dodaqlarına yaxınlaşdırdı. Qadının bədənindən xoş ətir qoxusu gəlirdi. O, hardansa oxumuşdu ki, insanlar öz zövqlərini məhz ətirlərə əsasən formalaşdırırlar. Müslüm asta bir tərzdə, böyük bir zövqlə Veranın əlini öpdü.

- Mənə bu qədər vaxt ayırdığınız üçün çox sağ olun.

- Siz də sağ olun. Xudahafiz. – Vera əlini havada yellədi və öz küçə qapısına tərəf getdi. Evə yaxınlaşan vaxt yenidən çevrildi və Müslümə əl elədi.

Müslüm isə bugünkü görüş sevincinin onun qəlbini necə bir qüvvə ilə riqqətə gətirdiyini hiss edərək, küçə boyunca gedirdi. Artıq çoxdandır ki, o, belə bir hiss yaşamırdı. Deyəsən, bu gün o, ömründə ilk dəfə idi ki, zövqləri yüz faiz bir-birinə uyğun gələn insanla rastlaşmışdı. Onların mədəniyyət, incəsənət, tarix və insani münasibətlərə dair eyni nöqteyi-nəzərləri var idi. Eyni zövq və həvəs, eyni məhəbbət və nifrət. O, sanki öz yarısını tapmışdı. Yəni, həyatda belə bir şey mümkündürmü?

Müslüm hətta Neva prospektinə necə çıxdığını belə hiss etmədi və Nevaya tərəf döndü. Bir qədər də getdikdan sonra o, «Moskva» mehmanxanasına yaxınlaşdı. Ayaq saxladı. Otelin par-par yanan pəncərələrinə baxdı. On iki il

bundan əvvəl onun burada bir qadınla bütün ömrü boyu xatırladığı qeyri-adi bir görüşü olmuşdu. O, qadının soyadını belə aydınlaşdıra bilməmişdi. Yox, o, sadəcə olaraq, ona bunu söyləməmişdi. O, sadəcə, onun adını və atasının adını xatırlayırdı. Həmin unudulmaz gecəni. Müslüm gülümsədi. Deyəsən, bu şəhərin atmosferi insanları romantik görüşlərə sövq edir. Və ya onun sadəcə, bəxti gətirib. Otelin yaxınlığında bir neçə boş maşın dayanmışdı. Taksi şəhərdə demək olar ki, gözə dəymirdi, onu isə fərdi maşınlar əvəz etmişdi. Onların hər biri ilə isə sövdələşmək lazım gəlirdi. Lakin bu gecə onun könlündən heç də sövdələşmək keçmirdi. Müslüm avtomobillərdən birinə yaxınlaşdı və qiyməti öyrəndikdən sonra, başını razılıq əlaməti olaraq tərpətdi.

Öz otelinə o, gecə saat ikidə gəldi. Öz mərtəbəsinə qalxdı, qapını açdı və otağa daxil oldu. Bugünkü axşamı xatırlamaqla uzun müddət kürsüdə əyləşdi. Bu axşam bütün ezamiyyət günlərinə görə, ona verilmiş bir mükafat idi. Sonra isə yuyunmağa yollandı. Elə bu məqamda qapını döydülər. Müslüm təəccüblə saata nəzər yetirdi və qapını açmağa tələsdi. Gecə saat ikidə onun qapısını döyən kim olar? O, hətta bunun Vera olduğunu düşünməyə belə cəsarət etmədi. Bunu arzulamağa belə cürət etməzdi. Müslüm bir neçə addım atdı və qapını açdı. Qapının astanasında Vera dayanmışdı.

- Mən düşündüm ki, bu heç də vicdanlı hərəkət deyil, - deyə Vera bir qədər duruxaraq və onun gözlərinin içinə baxaraq dilləndi, - axı siz necə də olsa gəlməsiniz, mənsə yerliyəm. Mən sizi ötürməli idim. Sizin mehmanxanaya necə çatdığınızı aydınlaşdırmaq üçün gəldim…

Onun necə utandığı hiss olunurdu. Müslüm ona heyranlıqla nəzər salaraq, bir addım geri çəkildi. Bunu heç

arzulaya da bilməzdi. Görünür, bu, sadəcə, bir yuxu və ya çin olmuş arzu idi.

- Mən sizi gözləyirdim, - deyə Müslüm əlini Veraya uzadaraq, pıçıldadı.

Vera içəri keçib qapını arxasınca örtdü və papağını başından çıxardı. Müslüm isə Veranı özünə tərəf çəkib qucaqladı.

- Yalnız bir qədər həlim ol, - deyə Vera xahiş etdi, - həm də çox tələbkar olma. Bu, mənim həyatımda ilk dəfədir. Doğru sözümdür. Ərimdən savayı mənim heç vaxt heç kimim olmayıb…

- Bilirəm, - Müslüm onun saçlarının qoxusunu ciyərlərinə çəkib dedi, - mən bunu bilirəm.

## *Yeddinci fəsil*

«Meymun ilindən hər şey, xüsusilə də, qəfil hadisələri gözləmək olar. Hər şey bu ildə baş verə bilər. Siyasətdə dəyişiklik, qiyamlar, inqilablar, barrikadalar. Ətrafda nizam-intizamsızlıq və özbaşınalıq hökm sürür, heç kim darıxmır. Lakin Meymun vaxtında dayanmağı bacarmalıdır, axı onun ili hər vaxt onun özü üçün xüsusi və karmalı olur.

*(Şərq Ulduz falından)*

Müslüm onunla qabaq-qənşər əyləşmiş qadına baxıb eşitdiklərinə inanmaqda çətinlik çəkirdi. Deməli, o, qızının arxasınca mənzilə daxil olub. Bunu gözləməyə dəyərdi. O, Veranın necə cəsur bir xarakterə malik olduğunu xatırlamalı

idi. Vera qızını bu tək kişinin evinə necə buraxa bilərdi, o ki Nataşanın artıq ondan hamilə olan xalası nəvəsini aldatmışdı. Heç bir ana buna yol verməzdi. O da belə etmişdi. Ora qızı ilə birlikdə gedib. Melentyev isə görünür, səfehin biridir. Onların hər ikisinin psixologiyasını dərk etmək lazım idi. Belə bir iri idarəyə artıq qırx yaşında ikən rəhbərlik edən ananı. Axı o, bütün məsuliyyəti öz üzərinə götürməyə və qərarları qəbul edərək, onlara görə cavab verməyə vərdiş etmişdi. Vera qızı ilə birlikdə ora yollanmağa borclu idi. Yuxarı qalxarkən, o, maşının salonunda Nataşanın geri qayıtmasını gözləyirmiş. Sonra isə vəziyyəti öyrənmək qərarına gəlib. Nəhayət, Viktoriya onun xalası qızının qızı idi. O vaxt şəxsən özü Familin yanına qalxıb. Müslüm qeyri-iradi olaraq, onun əllərinə diqqət yetirdi. Deyəsən, o, tennisi xoşladığını deyirdi. Belə ki, onun möhkəm və təlim görmüş əlləri olmalı idi. Beləsi ona qarşı tərbiyəsizlik edən və ya onun qohumları barədə nə isə deməyə çalışan gənci dəqiq və çox sərt bir tərzdə vura bilər. Beləsi istənilən hərəkətə yol verə bilər. Onun sürücüsü ilə işləmək lazım gələcək. Ola bilsin ki, Famil Natalyanın xətrinə dəyib, o, göz yaşı içində aşağı düşüb və elə o məqamda da anası yuxarı qalxıb. Anası Natalyanın geri qayıtdığına əmin olub. Kişilər ümumiyyətlə, özlərini kainatın mərkəzi hesab etməklə özlərindən həddən artıq razı olurlar. Elə bu dəm Vera Familə zərbə endirib…

- Sən hələ uzun müddət dillənməyəcəksən? – deyə Vera soruşdu. – Bəlkə elə qorxmusan ki, bütün bunlara necə reaksiya bildirəcəyini bilmirsən? Sakit ol, mən onu qətlə yetirməmişəm. Mən onu tərk edəndə, o, sağ-salamat idi. Onu məndən əvvəl onun mənzilindən çıxan Nataşa da qətlə yetirə bilməzdi. Mənim sürücüm hər şeyi öz gözü ilə görüb. O,

mənimlə artıq uzun illərdir ki, işləyir və vəziyyəti dərk etdiyini nümayiş etdirməyi qərara alıb. Elə buna görə də, sürücü müstəntiqə yalnız Nataşanın ona baş çəkməsi barədə danışıb. Mən bu işə qarışdırılmamaq üçün şəhərdə kifayət qədər tanınmış şəxsəm. Baxmayaraq ki, sürücüm bütün bunları müstəntiqə danışa bilərdi. Məni hətta şübhəli şəxs kimi də həbsə almaq olmaz, mən deputat olduğum üçün toxunulmazlıq hüququna malikəm.

- Sən nə üçün Nataşadan sonra İzmaylovun yanına qalxmağı qərara almısan? Axı orada nə baş verib?

- Heç nə. Natalya aşağıya həyəcanla və göz yaşı içində düşdü. Sən ki onun necə emosional olduğunu gördün. Ona elə gəlirdi ki, Famil hər şeyi izah etməyə və birlikdə böyüdüyü Viktoriyaya köməkçi olmağa müvəffəq olacaq. Famil isə qızımla ətraflı danışmaq belə istəməyib. Onun necə bir vəziyyətdə olduğunu təsəvvürünə gətirə bilərsənmi? Mən müdaxilə etməyin lazım olduğunu düşündüm və yuxarı qalxdım. Famil hətta gözcüyə belə baxmadan qapını açdı. Zənnimcə, o, məhz Nataşanın onun yanına qayıtdığını güman edibmiş. Məni görüncə isə canına vic-vicə düşdü. Mən ona özünü namuslu aparmağın lazım olduğunu dedim və dərhal da oranı tərk etdim. Tələşlanma, mən orada yalnız iki və ya üç dəqiqə qaldım və dərhal da oranı tərk etdim. Heç nəyə də dəyib-toxunmamışam. Mənim barmaq izlərimi də orada aşkar edə bilməyəcəklər.

- Mən səndən barmaq izləri barədə soruşmadım. Səni kimsə görmüş ola bilər, - deyə Müslüm qaşqabaqlı bir tərzdə bildirdi, - və bu barədə prokurorluğa məlumat da verə bilər. Belə olan halda, necə bir qalmaqalın meydana çıxacağını təsəvvürünə gətirə bilərsənmi? O vaxt bizim baş

konsulluğumuz mütləq bu işə müdaxilə edəcək. Bizim bütün qəzetlərimiz dərhal bu vəhşi hadisə barəsində yazacaqlar. Qətldə ana ilə bala şübhəli bilinir. Bununla yanaşı, ana şəhər meriyasının ən iri idarəsinin rəisi, Valentina Matviyenkonun sağ əlidir. Belə başlıqlar altında çıxan məqalələri təsəvvüründə canlandıra bilirsənmi? Mühərrirlərin öz qohumunuzun təhqir olunmuş namusuna görə necə qisas aldığınızı ifadə edən müfəssəl məqalələri. Qətl hadisəsinin səbəbi məlumdur, şübhəli bilinən şəxslər də göz qabağındadır. Sizin iri planda çəkilmiş şəkilləriniz də üstəlik.

- Mənə onsuz da çətindir, - deyə Vera qaşlarını çatdı, - sən də yaramı təzələmə. Mən sənə bütün bunları bir dostum kimi nağıl etdim. Keçmiş dostum kimi. Sənsə o dəqiqə müstəntiq olduğunu xatırlamaqla, səfehcəsinə ədabazlıq edirsən…

- Digər ölkənin müstəntiqi kimi, - deyə Müslüm acı bir tərzdə xatırlatdı.

- Yaxşı, bəsdir, - deyə o, ayağa qalxdı, - mən sənin yanına bunun məhz sən olduğunu bilmədən gəlmişəm. Mən sadəcə olaraq, gəlmələrin qızımla söhbət etməsini istəmirdim. O, onsuz da özünü yolverilməz tərzdə sərbəst aparıb və nəticədə belə bir cəncələ düşüb. Mən elə o vaxt da onun Famillə söhbət etməsini istəmirdim, ancaq o, məni yola gətirə bildi. Axı onlar rəfiqə idilər və Nataşa Viktoriyaya zənn etdiyi kimi kifayət qədər yaxşı bələd idi. Bu gün isə o, ümumiyyətlə, bu ağlasığmaz hərəkətə yol verdi və sənin yanına gəldi. Hələ yaxşı ki, bu, sən olmusan. Bəlkə sənin əvəzinə burada həlak olanın hansısa bir qohumu olaydı? Onun burada peyda olmasına qadının necə reaksiya verəcəyini təsəvvürünə gətirə bilərsənmi?

- Heç olmazsa, mən səninlə görüşdüm, - Müslüm qapının yan taxtasına dirsəklənərək dedi.

- On iki ildən sonra, - deyə sərt halda xatırlatdı, - on iki ildən sonra, Müslüm. Mənsə çox dəyişmişəm, məgər sən bunu hiss etmirsən? Mən o vaxt sadəlövh və səfeh bir qız idim. Mən mehmanxanaya sənin yanına ilk dəfə gələndə, cəmi iyirmi səkkiz yaşım var idi və sən ərimdən sonra ilk kişim oldun. Mənim üçün belə bir addım atmağın nə qədər ağır olduğunu təsəvvürünə gətirirsənmi? Lakin bu addımı atmağa cürət etdim…

- Qızın da eynən sənə bənzəyir. O da qərarını özü şəxsən qəbul edir və lazım bildiyi kimi hərəkət edir.

- Ümidvaram ki, o, mənim tək belə bir ağılsızlığa yol verməyəcək, - deyə Vera dalğın halda bildirdi. – Bu nəsə bir şeytan azdırması olub. Belə bir vəziyyət insanda yalnız gənc yaşlarına təsadüf edir. Qırx yaşında olan qadında isə bu yenidən təkrarlana bilməz. Xoşbəxtlikdən…

- Sən bütün bunları məni incitmək xatirinə söyləyirsən?

- Mən düşündüklərimi söyləyirəm, - Vera həqiqətən də, dəyişmişdi. Daha sərt, ciddi və tələbkar olmuşdu. Özünə və ətrafdakı insanlara qarşı. – Əgər xatırlayırsansa, sən də o vaxt məni yamanca incitmişdin. Heç nəyi mənə izah etmədən və bir kəlmə də söyləmədən məni tərk etdin. Aeroportdan zəng edərək, nəsə bir anlaşılmaz kəlmələri mızıldadın. Sonra isə mən səni uzun müddət gözləməli oldum.

- Mənim üçün orada baş verənləri sənə izah etmək çox müşkül idi, - deyə o, donquldandı. – Sən heç də hər şeyi anlamazdın. Mənsə hər şeyi sənə izah edə bilməzdim.

- Ola bilər, - deyə qadın başını razılıq əlaməti olaraq yırğaladı. – Yalnız indi mən fərqli vəziyyətlərin də mövcud olduğunu anlayıram. Mən səni günahlandırmıram. Sadəcə, münasibətlərimizdə nələrin olduğunu sənə xatırladıram.

- Bundan sonra nə etməyi düşünürsən? – deyə Müslüm soruşdu.

- Heç nə. Prokurorluğun əsil qatili tapmasını gözləyəcəyəm. Sizin konsulluğun əməkdaşına zərbə endirəni. Ola bilər ki, bu hansısa bir qatil və yaxud İzmaylovun köhnə dostu olub. Mən dəqiq bilmirəm. Onu da nəzərə al ki, bizim ailəmiz hər kəsdən daha çox cəfa çəkib. Gənc qadın xəstəxanadadır və hələ də ona məlum deyil ki, onun dünyaya gəlməmiş körpəsinin atası heç bir vaxt onlarla görüşməyəcək. Siz heç bu barədə düşünmüsünüzmü? Mən əminəm ki, prokurorluğun müstəntiqləri gec və ya tez əsil qatili aşkar edəcəklər.

- Bəs aşkar etməsələr? Sənin qızından savayı orada heç kim olmayıb. Hər halda, hələ ki, fərqli bir məlumat yoxdur…

- Orada mən olmuşam, - deyə Vera səsini qaldırdı. – Və mən şəxsən qızımın təqsirsizliyini təsdiqləməklə, məhkəmədə və ya prokurorluqda ifadə verə bilərəm. Bu, kifayət edər?

- Sən maraqlı tərəfsən. Əks tərəfin vəkili isə səni sadəcə, qızını xilas etməyə cəhd göstərməkdə ittiham edə bilər.

Vera bir anlığa fikrə getdi və dərhal da məsələnin həlli yolunu tapdı. Necə də olsa, onun bu kəmiyyətdə olan insanlar üzərində iş aparmaq təcrübəsi özünü büruzə verdi. Həmçinin, lazımi qərarları qəbul etmək bacarığı.

- Mən tələb edəcəyəm ki, məni yalan detektorunda yoxlasınlar, - deyə Vera bəyan etdi. – Siz də həqiqəti söylədiyimə əmin olacaqsınız. Famili qızım qətlə yetirməyib. Onun hətta belə bir hərəkətə yol verəcəyini düşünmək belə qorxuncdur.

Müslüm sakit tərzdə bəyəndiyi qadına baxırdı. Düz on iki il əvvəl. Həmin vaxtdan xeyli keçirdi. Bəlkə də bu ona elə gəlir?

- Mənə belə baxma, - deyə Vera üzünü yana çevirdi, - sanki sən məni baş verənlərdə təqsirkar hesab edirsən. Heç mən də onu qətlə yetirməmişəm.

Vera saçlarını nizama saldı və Müslümün yanından keçərək, çıxışa doğru getdi. Burada dar, kiçik otaqlar və çox kiçik dəhliz var idi. Vera qapını açaraq, Müslümə tərəf çevrildi:

- Sən bilməlisən ki, nə mən, nə də ki, qızımın heç bir şeydə təqsiri yoxdur. Biz sadəcə, kömək etməyə çalışmışıq. Ona da, elə Viktoriyaya da.

- Gözlə, - deyə Müslüm xahiş etdi, - mən səni bir də nə vaxt görə bilərəm? Söhbət etmək üçün…

- Heç vaxt, - Vera kəskin tərzdə dedi. – Mən sənin yolunu gözləyəndə, söhbət etmək lazım gəlirdi. Səni çox uzun müddət gözlədim, Müslüm. Sənsə mənim hisslərimlə oynamağın, məni tərəddüd və qorxu içində saxlamağın mümkünlüyünü qət etdin. Mən səni uzun müddət gözlədim. Ancaq bu həsrətin sonu olmadı. Bağışla, hər şey artıq keçmişdə qaldı. Salamat qal.

Vera bayıra çıxaraq, qapını çırpdı. Müslüm isə qapının yan taxtasına dirsəklənərək, yerindəcə qaldı. Sonra isə otağa keçərək, çarpayının üzərində əyləşdi. Qəmgin tərzdə gülüm-

sədi. Axı o, nəyə bel bağlayırdı? Onu yenidən görməyə? O, qadını gördü. Ona hər vaxt elə gəlirdi ki, gec və ya tez mütləq Vera ilə üz-üzə gələcək, yenidən onun vücudu ilə saçlarının qoxusunu ciyərlərinə çəkəcək və onun yenidən dodaqları ilə üzünə toxunaraq, onunla həmsöhbət olacaq. Müslüm tez-tez yuxularında onunla söhbət edirdi. Tez-tez onunla ünsiyyətdə olurdu. Məgər o vaxt baş verən hər bir şeyi anlamağa qadir idimi? Bəlkə sadəcə olaraq, anlamaq istəmir, bəlkə də taleyin özü onları sonradan bir-birindən ayırmaq üçün bir neçə günlüyə bir araya gətiribmiş. Bu sualların cavabı Müslümə məlum deyildi.

On iki il bundan əvvəl Vera onun yanına mehman-xanaya gəlmişdi və özü onun otağına ayaq basmışdı. Bu yerinə yetən bir arzu və qeyri-adi bir nurlanma idi. Bu, onun aşiq olduğu qadın idi. Ömründə ilk dəfə aşiq olduğu. Nə öz arvadını, nə də ki, onun görüşdüyü digər qadınları Müslüm heç vaxt sevməmişdi. O, yalnız o vaxt ilk dəfə olaraq, sevginin nə olduğunu anlamışdı. Hətta şəhvətin belə bu qeyri-adi hissi möhkəmləndirən amil olmadığını ilk dəfə olaraq dərk etmişdi. O, Veranı incitməkdən çəkinir, onun gözündə kobud, bacarıqsız və nəzakətsiz görünməkdən ehtiyat edirdi. Müslüm onun saçlarının ucundan ayağının incə pəncəsinə qədər öpüşlərə qərq etməyə hazır olduğu bədəninə astaca toxunurdu. O, sadəcə, həmin məqamda onun üçün bütün məkanı öz varlığı ilə dolduran bu qadının mövcudluğundan zövq alırdı. Bu gecə möcüzəli məhəbbət gecəsi idi. Bütün həyatı boyunca yalnız ondan on yaş böyük olan qadınla keçirdiyi həmin o gecəni xatırlayırdı. İllərin dərinliyində izsiz-soraqsız əriyib gedən həmin qadını. O vaxt Müslümün iyirmi dörd yaşı vardı. Onu orduya çağırmalarına baxmayaraq, bütün həyat ona al-

əlvan görünürdü. Lakin o vaxt yanında olan qadın ondan daha müdrik və təcrübəli idi. Ola bilsin ki, ona danışdığından da artıq şey məlum idi. Bəlkə də qadının ona sadəcə, rəhmi gəlmişdi. Axı ona universitetlərin və institutların hərbi kafedralarından çağırılan motoatıcı vzvodların yeni zabitlərinin haraya göndəriləcəyi bəlli idi. O, Əfqanıstanda əslində, nələrin baş verdiyini də təsəvvürünə gətirirdi.

O vaxt Müslüm qadına inanmamışdı. O, hətta qadının nədən danışdığını da anlamamışdı. Sonra isə yaralanmış və həkimlər onun ayağını xilas etməyə nail olmuşdular və o, ordu sıralarına qayıtmışdı. Müslüm ikinci dəfə ağır yaralanaraq, möcüzə nəticəsində sağ qalmışdı. Bəlkə də o, məhz qadın naminə, «Pribaltika» otelinə onun yanına gəlmiş Vera ilə keçirilən həmin gecə naminə sağ qalmışdı. Öz cənnətini əldə etmək üçün cəhənnəmdən keçib sağ qalmışdı. Anlaşılmaz bir cinas alınır, - deyə Müslüm narazı halda düşündü. Baxmayaraq ki, Əfqanıstanda həqiqətən də, bəzən cəhənnəm yaşanırdı. Həmin gecə isə o, Vera ilə cənnətə düşmüşdü. Bəlkə bu, küfrdür? O da hər bir ayıq-sayıq ağılla düşünən adamlar kimi, insan varlığının ağlabatmaz mahiyyətini dərk etməyin müşkül məsələ olduğunu anlayan aqnostik idi.

Müslüm nəfəsinin daraldığını hiss etdi. Əvvəllər onun heç vaxt ürəyi ağrımazdı. Amma yox, xəstəxanada onda ürək aritmiyası qeyd olunmuşdu, ancaq bunu ağ ciyərini dəlib keçən lənətə gəlmiş qəlpənin təsiri ilə izah edirdilər. İndi yenə də, o vaxtda olduğu kimi, ürəyi yenidən sancmağa başladı.

O, ayağa qalxdı və tələsik əynini geyinərək, otaqdan çıxdı. Pilləkənlərlə aşağı düşərək, küçəyə çıxdı. Ancaq nəfəs almaq çətin idi. O, bir qədər gəzişməyin lazım olduğunu qərara aldı və sağa döndü. Kifayət qədər gec idi, lakin

küçələrdə yenə də insan axını var idi. Bu güləruz və azad insanlar onun doxsan ikinci ildə rastlaşdığı insanlara necə də bənzəmirlər. O vaxt onlar qəmgin və qayğılı idi. Amma bu da tam həqiqət deyil. Bütün müvəqqəti çətinliklərin dəf ediləcəyinə, əldə olunmuş demokratiyanın isə yeni Rusiyanın ayağa qalxmasına kömək etməklə, onun dünyada layiqli yerlərdən birini tutacağına inanan romantiklərə də təsadüf olunurdu. Elə bu «romantiklər» də hər kəsdən daha çox əziyyət çəkməli oldular. Onları aldadır, ələ verir və onlara xəyanət edirdilər. Sovet adamlarının bir neçə nəslinin zəhməti ilə qazanılmış zavodlar, fabriklər, şaxtalar, neft buruqları və hətta təbii sərvətlər belə ilk prezidentin ailəsinə yaxın olan oliqarxların arasında bölüşdürülmüşdü. «Romantiklər» isə heç nəyi, hətta ümid bəslədikləri demokratiyanı belə əldə edə bilmirdilər. Seçkilər qəsdən təhrif olunurdu, jurnalistlər satın alınır və yenidən alınıb-satılırdılar, bununla razılaşmayanlar qətlə yetirilirdi, razılaşanları isə qəzetləri ilə birlikdə topdan satın alırdılar. İnsanları faktiki olaraq, uzun müddət dövlətin idarə olunmasından uzaqlaşdırırdılar.

Lakin bütün bunlar sonradan baş verəcək. Doxsan ikinci ildə isə bəziləri hələ də əldə olunmuş azadlığa bel bağlayırdılar. Müslüm  Artyomun onu ədiblərin hansısa bir iclasında necə daşıdığını xatırlayırdı. Orada yadda qalan Arro soyadı altında yerli yazıçıların seksiyasının rəhbəri çıxış edirdi. O, insanların yeni şəraitdə nə qədər yaxşı yaşayacaqlarını sübuta yetirməyə çalışmaqla, yeni təfəkkür və yenidənqurma barədə necə də ümidlə danışırdı. Bir neçə ildən sonra isə bu rəhbər öz həmkarlarını vətəndəki əlverişli şəraitdə ömür sürməyə buraxaraq Almaniyaya köçəcək.

Riyakarlıq və ikiüzlülük doxsanıncı illərdə normal qəbul olunurdu. Mənəviyyat əlverişlilik və əxlaq isə rasionallıqla əvəzlənmişdi, insanların mənəviyyatı isə bütün mümkün metodlar vasitəsilə məhv edilirdi. Məktəb və institutlarda, qəzet və televiziyalarda isə əldə olunması üçün tətbiq olunan vasitələrdən asılı olmayaraq, pulların sitayiş mənbəyinə çevrilməsi, istənilən yollarla müvəfəqiyyətə nail olmaq bacarığı və istənilən üsullarla məqsədə nail olmaq amili təbliğ edilirdi. Bir klassikin söylədiyi kimi, Tanrı olmayan yerdə hər şeyə yol verilir. Doxsanıncı illərdə fərqli bir şüar elan edilirdi – «Hər şeyə yol verilir və hər şeyi satın almaq mümkündür, hətta Allahı da».

Müslüm həmin dövrün ab-havasını xatırlayırdı. Özünün Vera ilə vidalaşmadan nə üçün belə tez vətənə qayıtdığını da xatırlayırdı. Lakin bunu izah etmək həqiqətən də, mümkünsüz idi. O, mehmanxanaya tərəf döndü. Hər şey necə də təsadüf nəticəsində üst-üstə düşmüşdü. Onu Liqovsk prospektində, düz Moskva vağzalının qənşərində yerləşən mehmanxanada məskunlaşdırmışdılar. Bura isə onun səksəninci illərdə qaldığı «Moskva» mehmanxanası və Veranın doxsan ikinci ildə yaşadığı Suvorov prospektinə yaxındır. Çox ehtimal ki, o, artıq digər bir mənzilə köçüb. Müslüm mehmanxanaya daxil olub pilləkənlərlə yuxarı qalxdı. Dəhliz boyu gedib ağır açarları cibindən çıxardı. Yarımqaranlıq dəhlizə məhzun bir nəzər saldı.

«Bəlkə Vera doğrudan da, haqlıdır, - deyə o, qəfildən düşündü, - mən həyatda heç nəyə nail ola bilməmişəm. Bu toz basmış, mətbəxböcəkləri ilə qaynaşan otaqlar və rəngini itirmiş xalçalarla bəzənmiş bu köhnə mehmanxana həqiqətən də, mənim ömrüm boyu layiq olduğum yerdir. Ya da nə isə

ayrı bir şey var?». Lənət şeytana, deyəsən, o, ilk dəfə ürəyinin necə möhkəm döyündüyünü hiss edirdi. Növbətçidən ona validol verməsini xahiş etmək lazımdır. Yaxşı formada olmaq lazımdır. Sabah səhər o, cinayətin törədildiyi yerə baş çəkəcək, sonra isə Melentyevin yanına gedərək, Vera Dmitriyevna Radvolinanın ünvanı və ya telefon nömrəsini tapmağa cəhd göstərəcək. Ona hər şeyi başa salmağa cəhd göstərəcək. Baxmayaraq ki, bunu həyata keçirmək birinci dəfəkindən də müşkül olacaq. Burada hər şey onun söhbət etmək arzusunda olmasından və ya olmamasından asılı olacaq. İstənilən halda, növbətçidən validol gətirməsini xahiş etmək lazım gələcək - deyə o, qapıya yaxınlaşaraq, düşündü. Birdən dönüb əks tərəfə doğru getdi.

## *Səkkizinci fəsil*

«Meymun məhəbbətdə səadətini tapmır. Kişi ilə qadınların münasibəti qeyri-daimi və ötəri olur. Ehtiraslı Meymunlar asanlıqla yeni əyləncələr tapır, ancaq tezliklə doyub, yeni məhəbbət axtarışına çıxırlar. Təəssüf ki, əksər hallarda bu axtarışlar heç bir nəticə vermir».

*(Şərq Ulduz falından)*

Səhər onun arxasınca yarım saatdan sonra gələcəyini vəd edən Sergey zəng etdi. O, bir qədər təngnəfəs və həyəcanlı idi.

- Dünən axşam Bakıdan zəng vurublar, - deyə o, məlumat verdi. – Sizi belə bir mehmanxanada yerləşdirdiyimiz üçün bizi məzəmmət etdilər. Baş konsul and

içir ki, sizin böyük qardaşınız barədə heç nə bilmirmiş. O, sizdən şəxsən üzr istəməyi düşünür və elə günü bu gün sizi başqa bir mehmanxanaya köçürəcəyini vəd edir.

- Mən elə buranı da xoşlayıram, - deyə Müslüm çiyinlərini çəkdi. – Çox rahat mehmanxanadadır. Şəhərin düz mərkəzindədir.

- Biz mərkəzdə başqa birisini də taparıq, - deyə Sergey vəd etdi. – O, məni də sizin qardaşınızdan xəbər tutmadığım üçün danlayıb. Deyilənlərə görə, onu tezliklə geri çağıracaq və bizim nazirin müavini vəzifəsinə təyin edəcəklər.

- Ola bilər, - deyə Müslüm biganə bir tərzdə vurğuladı. – Ancaq mən böyük qardaşımın vəzifəyə təyin olunmasının bu hadisəyə nə aidiyyəti olduğunu o qədər anlamıram. Məgər biz onun vəzifəyə təyin olunmasından sonra Famil İzmaylovu dirildə biləcəyik? Yoxsa mən digər mehmanxanada əsil qatili daha asanlıqla tapacağam? Səfeh və gülməli fərziyyədir. Konsula isə deyin ki, boş-boşuna əlləşməsin. Mən «Oktyabr»-da qalacağam, bura mənim üçün daha rahatdır.

- O, elə biləcək ki, siz incimisiniz, - deyə Sergey etirazını bildirdi, - mən ona yaxşı bələdəm. O, bütün gecəni mənə zəng edib. Hər dəqiqəbaşı da sizin həmin bu mehmanxanaya münasibətinizin necə olduğunu və bu barədə nə söylədiyinizi soruşub. Mən onu sakitləşdirməyə çalışırdım, ancaq o, çox mütəəssir olmuşdu.

- Bəs mənim böyük qardaşım xarici işlər naziri vəzifəsinə təyin olunsa, onda konsul məni qarşılamaq üçün şəxsən aeroporta yollanacaq? – deyə Müslüm zarafat etdi. – Necə də gülməlidir. Xatırlayırsanmı, «Ağıldan bəla» əsərində Molçalinin Çatskiyə hər kəslə xoş davranmağı öyrətdiyi belə bir ifadə var. O deyir: «Dalandarın köpəyinin üzünə xoş bax

ki, dalandar da sənə iltifat göstərsin». Mən həmişə qardaşıma xoş olsun deyə kiminsə mənim qulluğumda durmaq istədiyi məqamlarda bu ifadəni xatırlayıram. Azərbaycanlılarda da belə bir məsəl var; «Yiyəsinə bax, itinə hörmət elə». Bax, elə buna görə də, mən belə bir köpək olmağı arzulamıram. Mənə şəxsi məziyyətlərimə görə hörmət edilməsini istəyirəm.

- Dünya əzəldən belə qurulub, - deyə Sergey düşüncəli tərzdə cavab verdi. – Siz bizim ənənələrimizə də bələdsiniz. Hər kəsin öz qohumu və tanışı var. Tanışların qohumları, qohumların da tanışları. Hər kəsi yadda saxlamaq, onlara hörmət etmək və onları sevmək lazımdır.

- Belə bir mühakimə irəli sürmək üçün sən hələ çox gəncsən, - deyə Müslüm mənfi fikir söylədi. – Dünən təkrar ekspertiza həyata keçiriblərmi?

- Yəqin ki, keçiriblər, amma biz bunu dəqiq bilmirik. Səhər şəhər prokurorluğundan zəng edib, cəsədin aparılması ilə bağlı sənədlərin tərtibatına başlamağa icazə veriblər. İzmaylovun atası və əmisi səhər erkəndən artıq oradadırlar, sənədlərin tərtib olunması ilə məşğul olurlar. Bizim baş konsulumuz da onları müşayiət edir.

- O halda, gəl əvvəlcə Liqovsk prospektinə yollanaq. Mənə həlak olan Familin yaşadığı binanı göstər. Ora necə daxil olmağın mümkünlüyünü yoxlamaq istəyirəm.

- Mənzil möhürlənib, - deyə Sergey qorxuya düşdü, - bizi də ora buraxmazlar. Bəlkə biz ümumiyyətlə, ora getməyək?

- Yox. Mən hər şeyi nəzərdən keçirməliyəm. Bəs onun şəxsi əşyaları hardadır? Prokurorluğun onun əşyalarını konsulluğun əməkdaşlarının iştirakı olmadan gözdən keçirməyə ixtiyarı çatmır.

- Artıq orada axtarış aparıblar. Mən də orada olmuşam.

- Bəs onun şəxsi əşyaları?

- Hamısını qohumları götürüb.

- Bununla belə, mən orada olmalıyam. Yaxşısı budur, gəl əvvəlcə Melentyevə zəng edək və ondan təkrar yoxlamanın aparılması üçün icazə alaq. Ya özü şəxsən ora gəlsin, ya da öz əməkdaşlarını ora yollasın. Zənnimcə, o, bizim təklifimizi rədd etməz, başa düşməlidir ki, həlak olanın bütün əşyalarını götürmək lazımdır.

- Özünüz zəng edin, - Sergey öz telefonunu ona uzatdı, - və onunla razılığa gəlməyə çalışın.

Müslüm müstəntiqin telefon nömrəsini yığa-yığa saatına baxdı. On birə iyirmi dəqiqə işləyirdi. Melentyev dərhal cavab verdi.

- Sabahınız xeyir, Vyaçeslav Yevgenyeviç, - deyə Müslüm söhbətə başladı. – Sizi yenidən narahat etdiyim üçün üzr istəyirəm. Danışan Müslüm Səfərovdur, biz dünən sizinlə görüşmüşük.

- Xatirimdədir, - deyə Melentyev narazı halda dilləndi, - sizə yenə nə lazımdır? Mən artıq həlak olanın cəsədinin təhvil verilməsinə razılıq vermişəm. Bu gün sənədlər tərtib olunacaq və onun doğmaları əzizlərinin cəsədini vətənə aparmaq imkanında olacaqlar. Bundan başqa sizə heç bir kömək edə bilmərəm.

- Edə bilərsiniz, - Müslüm etiraz etdi. – Onun keçmiş mənzilində bəzi əşyaları qalıb. İstintaq üçün heç bir maraq kəsb etməyən əşyaları.

- Hansı əşyalar? – deyə müstəntiq diqqətini topladı. – Biz artıq hər şeyi yoxlayıb siyahıya almışıq.

- Xırda-para əşyalar, - deyə Müslüm yalan dedi. – Məsələn, babası tərəfindən hədiyyə olunan alışqan. O, çox qədim əşyadır və ailədə bir tilsimbənd kimi qorunub saxlanılırdı. Ya da bibisinin ona göndərdiyi köhnə şərf. Bax, bu kimi xırda-para şeylərdir. Onlar sizin üçün əhəmiyyətsiz ola bilər, amma doğmaları üçün onları geri almaq xoş olardı…

- Mən orada hansısa bir alışqan və şərfin olduğunu xatırlamıram. Dünən səhər onun atası ilə əmisi oranı gözdən keçiriblər. Nə üçün onlar mənə bu barədə bir kəlmə də olsa deməyiblər?

- Sizə ki onların necə bir vəziyyətdə olduqları bəllidir. Məgər onlar bu əşyalar haqda söhbət sala bilərdilərmi?

- Aydındır, - deyə Melentyev donquldandı. – Baxmayaraq ki, mənzilə ikinci səfəriniz heç də ürəyimcə deyil, ancaq orada hansısa bir bəzək əşyası qalıbsa, götürə bilərsiniz. Mən ora öz əməkdaşımızı göndərəcəyəm. Davidyanı. O, qapını açacaq və siz mənzili gözdən keçirənə qədər sizi gözləyəcək. Amma yox… lənət şeytana, mən hər dəfə unuduram. Davidyanı ora göndərmək olmaz…

- Niyə olmaz? – deyə Müslüm soruşdu.

- O, ermənidir. Əgər mən onu ora göndərsəm, sonra sizin konsulluq Davidyanın bu istintaqda iştirakının əleyhinə qəti etirazını bildirər. Mən bir dəfə bir osetini gürcü diplomatının yanına göndərəndə, eyni vəziyyətlə üzləşmişəm. Onlar dərhal məndən şikayət yazdılar. Məlum oldu ki, o, Rusiya vətəndaşıdır, amma onun bütün qohumları Cənubi Osetiyada yaşayır.

- Biz şikayət məktubu yazmayacağıq, - deyə Müslüm nəfəsini dərdi, - Axı Davidyan özü şəxsən istintaqı aparmır.

İstintaqa görə bilavasitə olaraq siz, Vyaçeslav Yevgenyeviç cavab verirsiniz.

- Yenə də məsləhət deyil. Bu cür hallarda sığortalanmaq yaxşıdır. Sizin sülh bağlayıb, savaşa son qoyana qədər.

- Məlumatlarınız yanlışdır, - deyə Müslüm özünü saxlayaraq dilləndi. – Biz artıq on ildən çoxdur ki, savaşmırıq. Sadəcə olaraq, Azərbaycan öz torpaqlarının geri qaytarılmasını tələb edir.

- Elə mən də onu deyirəm. Yenə də münasibətləri aydınlaşdırmağa başlayacaqsınız. Bircə bu çatmırdı. Sonra isə ümumiyyətlə, Piterdəki erməni diasporunun azərbaycanlı diplomatı qətlə yetirdiklərini bildirəcəklər. Lazım deyil. Mən Kirşanini göndərərəm. O, bir saata ora çatacaq. Ora gedə bilərsiniz. Mən açarları verərəm.

Müslüm aparatı gənc ortağına qaytardı.

- Bədbəxt adamlarıq, - deyə o, dalğın halda bildirdi, - keçmiş sovet vətəndaşlarının hamısı. Son iyirmi ilin siyasəti, riyakarlığı və arsızlığı ilə korlananlar. Qonşularımızla uzun sürən müharibə ilə birgə.

- O, nə dedi ki? – deyə Sergey heç bir şey anlamadı.

- Əvvəl öz əməkdaşı Davidyanı göndərmək istəyirdi, lakin sonra qərara aldı ki, bu, çox təhlükəlidir. Odur ki, Kirşanini göndərmək qərarına gəldi. Belə-belə işlər.

- Haqlı qərardır, - Sergey gözlənilmədən dedi, - əks təqdirdə, bizim diaspor dərhal etiraz edərdi. Elə çıxır ki, azərbaycanlı diplomatın qətlinə dair cinayət işini erməni müstəntiqə həvalə ediblər. Təsəvvür edirsinizmi, necə bir qalmaqal yarana bilərdi?

- Bu işi aparan müstəntiq Melentyevin özüdür, - deyə Müslüm xatırlatdı, - Davidyan isə – onun əməkdaşlarından biridir. O, bu cinayət işinin istintaqında prosessual fiqur kimi çıxış etmir.

- Bununla belə, lazım deyil, - deyə Sergey israrla təkrarladı, - burada belə bir siyasət var. Biz də Moskvadakı səfirimizdən dəqiq göstəriş almışıq.

- O halda, hər şey aydındır, - deyə Müslüm razılaşdı, - bir halda ki, göstəriş var, deməli, onu yerinə yetirmək lazımdır. Gəlin Liqovska gedək, mən binanın ətrafında dolaşıb, onun içəri həyətini nəzərdən keçirəcəyəm. Kirşanin gələnə qədər orada gəzişmək istəyirəm.

- Gedək, - deyə Sergey razılaşdı.

Onlar binaya on beş dəqiqədən sonra yaxınlaşdılar. Bu, hələ iyirminci əsrin əvvəllərində inşa olunmuş qədim altı-mərtəbəli imarət idi. Müslüm binanın ətrafına dolandı. İçəri həyətdə qonşuların pəncərələri burada dayanmış maşınlara tərəf açılırdı. Burada maşın saxlayıb, kiminsə diqqətini cəlb etməmək müşkül məsələ idi. O, həyəti dolanaraq, küçəyə çıxdı. Burada da maşın saxlamaq yaxşı deyildi. Qarşıda iri mağaza vardı, oradan isə kimlərin maşınının binanın yaxınlığında dayandığını görmək asandır. O, yenidən həyətə girdi. Buradan binaya qalxmaq olar. Lakin bu «dal qapı»dır. Ön qapı isə küçədəndir. O, küçə qapısından içəriyə daxil olub, İzmaylovun bir vaxt yaşadığı üçüncü mərtəbəyə qalxdı. Mənzilin «dal qapısı» yox idi. O yerli ölçülərə görə köhnə binada yerləşən ən qənaətbəxş üçotaqlı mənzil idi. Lakin buraya yeganə giriş pilləkəndən idi.

Kirşanin vaxtında gəlib çatdı. O, qırmızımtıl sifətli və hətta əllərinə qədər kürən tükləri olan otuz beş yaşlı kişi idi.

O, qapını açdı, möhürü qopardı və qonaqlarına mənzilə daxil olmalarına icazə verdi. Müslüm astanaya ayaq basdı və ətrafa boylandı. Hündür tavanlar, prospektə açılan pəncərələr. Yəqin ki, belə bir mənzil İzmaylovun atasına çox baha başa gəlmişdi. O, mənzilin qəribə planına diqqət yetirdi. Mənzilin sağ tərəfində mətbəxlə iş otağı, sol tərəfində isə arxasında yataq otağının yerləşdiyi qonaq otağı var idi. Bütün bunlarla yanaşı, yataq otağı kabinetlə birləşmişdi. İki tərəfi açıq olan bir dairə alınırdı. Yəni hər bir otağa iki müxtəlif tərəfdən daxil olmaq mümkün idi. Müslüm vicdanla hər bir şkafın içərisinə diqqət yetirərək, bütün otaqları dolaşdı. Kirşanin səbrlə onun arxasınca gedirdi. Müslüm qonaq otağındakı pəncərələrə yanaşdı və buradan aşağı baxdı. Buradan da həmçinin, binaya daxil olmaq istəyənləri görmək mümkündür.

- Onu harada tapıblar? – deyə Sergeydən soruşdu. O, qonaq otağının döşəməsinə işarə etdi. – Deməli, qatil mətbəxə qədər qaçmalı, oradan bıçağı götürməli və geri qayıtmalı idi, Müslüm fərz etdi, - yaxud bıçaq artıq burada imiş. İki mətbəx bıçağı. Onun qonaq otağında nə işi var? Yox, qatil mütləq mətbəxə qaçıb, oradan geri qayıdıbmış. Ya da ora kabinetdən və yataq otağından keçib gəlibmiş. Lakin nə səbəbə bu qədər uzaq məsafə qət edib?

- Bilmirəm, - Sergey dedi, - mən heç özüm də bir şey başa düşmürəm.

- Bəlkə onlar tanış imişlər, - deyə Kirşanin söhbətə qarışdı. – Mənzilin sahibi yataq otağına yollanarkən onun qatili mətbəxə daxil olmağa macal tapıb və onlar ikisi də geri qayıdanda qatil ona zərbə endirib. Bizim prokurorluqda belə zənn edirlər. Belə daha məntiqəuyğundur, vətəndaş diplomat-lar.

- Yəqin ki, siz haqlısınız, - deyə Müslüm nəzakətlə razılaşdı, - amma o vaxt növbəti sual meydana çıxır. Nə üçün qatil bizim diplomatımıza zərbə endirib? Evdə hansısa bir əşya itibmi?

- Heç nə itməyib, - deyə Kirşanin cavab verdi, - biz hər şeyi yoxlamışıq. Mənzildə nəğd pulla dörd min dollar, həlak olanın pencəyinin cibində isə iyirmi min rubl var imiş. Pulları götürməyiblər.

- Onun şkafında iyirmi min dollar dəyərində üzük var idi, - deyə Sergey əlavə etdi. – Saat da bahalı olub. Qızıl «Roleks». Ancaq o, yataq otağında, dolabda olub. Saatı götürən olmayıb.

- Qarət olmayıb, - deyə Kirşanin razılaşdı, - bu ya intiqamdır, ya da hanısa bir qadın ondan bərk inciyib. Başqa hal ola bilməz. – Bu vaxt o «q» hərfini şimali Qafqaz və Ukraynaya yaxın olan əyalətlərdə olduğu kimi tamamilə tələffüz etmədi. Məhz elə bu səbəbdən də onda «xarət» və «başxa» alındı. Bir qədər gülməli idi.

- Amma biz yenə də onun alışqanını tapa bilmədik, - deyə Müslüm süni tərzdə köksünü ötürdü, ancaq hamı ətrafı diqqətlə yoxlamışdı.

- Baxalı imiş? – deyə Kirşanin canlandı.

- Yox, əşşi. Adi köhnə alışqan idi. Qiyməti də qəpik-quruş idi. Sadəcə olaraq, babası bağışlamışdı. Bir xatirə kimi saxlamaq istəyirdik.

- Bəlkə çamadanda imiş? – deyə Kirşanin öz ehtimalını irəli sürdü.

- Hansı çamadanda? – Müslüm anlamadı.

- Onun yataq otağında iki çamadanı var, - deyə Kirşanin izah etdi, - onu qohumları götürdü. Hələ dünən səhər. Bəlkə elə orada olub. Biz yoxlamamışdıq.

- Siz çamadanda nələrin olduğunu görmüşdünüzmü? – deyə Müslüm dərhal dəqiqləşdirdi.

- Əlbəttə, görmüşük, - deyə Kirşanin hətta bir qədər incidi də. – Orada onun şəxsi əşyaları var idi, hər cür camaşır, bağlamalarda yeni köynəklər, qalstuklar və corablar. Piterə o, özü ilə bolluca müxtəlif disklər gətirmişdi. Bolluca.

- O, xüsusilə, «Rollinq stounz»u yaman xoşlayırdı, - deyə Sergey xatırladı, - və yetmişinci illərin ən müxtəlif musiqi qruplarının lent yazılarını. Əksər hallarda hətta konsulluğa gətirib dinləmək üçün bizə verirdi. Yalnız bizim konsul musiqini sevmir və qulaq asmır. Elə bu səbəbdən də, Famil həmin diskləri işə gətirməkdən çəkinirdi.

- Düz iş görüb, - deyə Müslüm razılıq əlaməti olaraq başını tərpətdi. – Deməli, aydındır. Alışqanı həlak olanın doğmaları çamadanda aparıblar. Əvəzolunmaz köməyinizə görə də sizə minnətdaram, yoldaş Kirşanin.

- O, əlini prokurorluğun əməkdaşına uzatdı. O isə gülümsədi.

- Siz əbəs yerə belə həyəcanlanırsınız, - deyə Kirşanin əminliklə söylədi, - burada heç nə itə bilməzdi. Hər bir əşya doğmalarına təhvil verilib. Biz sizin alışqanınızı tapsaq, dərhal sizə bu barədə məlumat verərik. Bizdə hər şey ciddi uçota alınır, heç nə də itmir.

- Şübhə də etmirəm, - deyə Müslüm onun əlini hərarətlə sıxdı.

Onlar artıq pilləkənlərə çatanda Sergey astaca qonaqdan soruşdu:

- Mən hələ də sizin bu alışqan əhvalatını niyə uydurduğunuzu anlamadım. Bu məkanı gözdən keçirmək nə səbəbə sizin üçün bu qədər zəruri idi?

- Hər şeyi öz gözümlə görmək üçün, - deyə Müslüm izah etdi. – Mənim üçün orada məhz nəyin baş verdiyini görmək və dərk etmək çox vacib idi. İş burasındadır ki, otaqların yerləşmə tərzi Natalya Frolovanın qətldə iştirakını kifayət qədər problemə çevirmiş olur.

- Niyə?

- O, qonaqlarını qonaq otağında qəbul edirdi, - deyə Müslüm izah etdi, - və yəqin ki, elə oradaca öz qonaqları ilə söhbət edirdi. Bunu aydınlaşdırmaq mümkündür. Lakin o vaxt belə bir qənaətə gəlmək olar ki, onunla söhbət vaxtı Natalya dəhlizdən keçərək mətbəxə qaçıb, sonra əlində bıçaqla geri qayıdaraq, Famili öldürüb. O isə hətta qaçmağa və ya özünü müdafiə etməyə cəhd belə göstərmədən sakitcə durub bıçaqlanacağını gözləyib. Həqiqətə bənzəyirmi?

- Yox, bənzəmir. Famil sakit dayanan insanlardan deyildi. Mən onu az da olsa, tanıyırdım. Famil onun arxasınca mətbəxə qaçardı.

- Doğrudur. O vaxt Natalya onu elə oradaca vurardı. Həlak olanın boyu nə qədər olub? Öz atasından hündür idimi?

- Xeyli hündür və kifayət qədər də dolğun bədən quruluşuna malik idi.

- Çəkisi səksən kiloqram olardı, - deyə Müslüm razılıqla başını tərpətdi. – Buradan isə belə bir qənaətə gəlmək olar ki, Natalya onu mətbəxdə qətlə yetirə və sonra da heç bir iz qoymadan qonaq otağına qədər sürükləyə bilməzdi. Bu vaxt Natalya döşəməni qana bulamamaq üçün köksündəki bıçaqla

qucağında gətirməli idi. Ancaq bundan sonra bıçağı onun köksündən çıxara bilərdi. Bu, mümkündürmü?

- Heç vaxt, - deyə Sergey dərhal dilləndi.

- Deməli, biz əbəs yerə bura gəlmişik, - deyə Müslüm yekun vurdu. – İndi maşın məsələsinə toxunaq. Kiminsə minik vasitəsilə gəldiyini hər kəs, piyada gələnləri isə çox az adam görə bilərdi. Axı giriş qapısına aparan iki yol var – küçədən və həyətdən. Lakin maşın binanın qənşərində dayanarsa, ona dərhal diqqət yetirmiş olarlar.

- Məndə elə bir təəssürat oyanır ki, siz Natalya Frolovanı təmizə çıxarmaq üçün əlinizdən gələni əsirgəmirsiniz, - deyə Sergey vurğuladı, - sanki siz onun vəkilisiniz.

- Mən ki sənə artıq müstəntiq olduğumu demişəm. Məhz elə bu səbəbdən də, həqiqəti müəyyən etməliyəm. Təqsirsiz insanı ittiham etməklə, həqiqəti müəyyən etmək qeyri-mümkündür. Mənə ehtimal olunan şübhəli bilinən şəxsi yox, əsl qatili tapmaq lazımdır. Bundan savayı, keçən gecə ərzində beynimdən onun alibisini yüz faiz təsdiq edən digər məlumatlar keçib getmişdi.

- Hansı məlumatlar? – deyə Sergey onun dediklərindən heç bir şey başa düşmədi.

- Bu, mənim sirrimdir. İndi isə sənin bizim konsulluqda fəaliyyət göstərdiyin müddət ərzində ən mürəkkəb bir tapşırığın olacaq. Mənə Natalya Frolovanın anası Vera Dmitriyevna Radvolinanın şəxsi telefon nömrəsini öyrənmək lazım gələcək.

- Siz onun harada işlədiyini bilirsinizmi? – deyə Sergey dərhal soruşdu. – Bu, əməli olaraq mümkün deyil.

Matviyenkonun özünə şəxsən zəng etmək kimi bir şeydir. O, hətta bizimlə söhbət etmək belə istəməz.

- İstəyəcək, - deyə Müslüm əminliklə qeyd etdi, - sən bircə mənə onun şəxsi telefon nömrəsini tap.

### *Meymun ili. Sankt-Peterburq.*
### *Min doqquz yüz doxsan ikinci il*

Qadın Müslümün otağında səhərə qədər qaldı. Səhər isə duş qəbul edərək, vanna otağından çıxanda kişi tərəfə baxmağa belə cəhd göstərmədi. Cidd-cəhdlə ünsiyyətdən yayınaraq, hətta əynini də vanna otağında geyindi. Müslüm onun düşdüyü vəziyyəti anlayırdı. Vera dünənki məyusluqdan doğan hərəkətinə görə xəcalət çəkirdi. Qadın Müslümün dərrakəsində namuslu qadını namussuz qadından ayıran hansısa bir həddi aşmışdı.

Qadına belə bir həddi aşmaq hər vaxt çox müşküldür. Öz arzularında Vera bəzən özünə sərbəstlik verə bilər, həyatda isə onların əksəriyyəti heç vaxt nə həqiqi məhəbbəti, nə də həqiqi hissləri yaşamırlar. Gənc yaşlarında ailə qurarkən onlar öz vəziyyətləri ilə barışaraq, ikinci kişinin onların mənəvi dincliyini darmadağın edəcəyini düşünürlər. Əslində, bu, belə də olur. Kişilər planlaşdırılmamış eşqbazlıq və ya kənarda baş verəcək mümkün əlaqələrə həqiqətən də, asanlıqla alüdə olurlar. Qadın isə daha məqsədyönlü, daha mütəşəkkil və daha sabit varlıqdır. Bəlkə də elə bu səbəbdəndir ki, təbiətin özü müdrikanə bir tərzdə onu özünütənzimləmə mexanizmi ilə təchiz etmişdir, bu vaxt istənilən maya erkəklərdən ən yaxşısını seçməli olur, onun reproduktiv inkişafa dair

imkanları isə müvəqqəti çərçivə ilə daha səlis tərzdə məhdudlaşdırılmışdır. Kişi üçün istənilən görüş, hətta aşiq olmuş kişilər üçün də sadəcə, xoş bir məşğuliyyətdir. Qadın üçün isə bu, həyatın özüdür. Şəhvət kişilər üçün sadəcə, həzz almaqdır. Qadınlar üçün isə o, həzzdən də üstün bir amildir. Bəlkə də elə buna görə, qadınlar belə möhkəm sevmək qabiliyyətinə malikdirlər. Qadın üçün hər şey, hətta baş da qəlbdir. Kişi üçün isə hər şey, hətta qəlb də başdır.

Vera tələsik xudahafizləşdi və Müslümə mehmanxananın dayanacağında saxladığı maşına qədər də onu ötürməyi qadağan edərək, otaqdan güllə kimi çıxdı. Həmin səhər Müslüm işə əla əhval-ruhiyyədə gəldi. Artyom şübhə ilə ona baxdı.

- Sən sanki işıq saçırsan, - deyə Parmuzin qeyd etdi. – Dünən səndə nə baş verib?

- Heç nə. Öz otağımda yatırdım və göz dustağı olan həmkarımın qəmgin aqibəti barədə düşünürdüm, - deyə Müslüm gülümsədi.

- Hələ sən zarafat elə, - deyə Artyom narazı halda donquldandı, - arvadım ümumiyyətlə, məni bir daha heç yerə baraxmayacağını deyir. Səninlə birgə. O, güman edir ki, bütün qafqazlılar əyyaş və arvadbazdırlar. Deyir ki, siz öz vətəninizdə şərabı çəlləklərlə içirsiniz və sən içməkdə bizimkilərdən istənilən şəxsi geridə qoyarsan.

- Bu, doğru deyil, - deyə Müslüm gülümsədi, - biz şərabı çəlləklərlə içmirik, səni də heç vaxt içməkdə üstələyə bilmərəm…

- Yaxşı, yaxşı, - deyə Parmuzin əlini havada yellədi, - sən bu gün bizi saat on birdə şəhər prokurorunun müavininin gözləyəcəyini unutmamısan ki? Bizim yoxlamalarımızın ilkin

nəticələrini öyrənmək istəyir. Mən milisə zəng etmişəm, onlar da bizə öz materiallarını göndərəcəklər. Heç bilmirəm SƏDM-i (Sosialist Əmlakını Dağıdanlarla Mübarizə İdarəsi) hansı axmaq bağladı? Məlumdur ki, istənilən cəmiyyətdə hər vaxt ən ağır hesab edilən iqtisadi cinayətlər baş vermiş olacaq, belə ki, onlar cəmiyyətlə dövlətə ziyan vururlar. Quruluşun da necə adlanmasının – sosialist, kapitalist və ya imperialist olmasının da heç bir əhəmiyyəti yoxdur. Əgər oğrular varsa, o halda, onları axtarıb tapan və cəzalandıran şəxslər də olmalıdır. Qoy bölmələr iqtisadi cinayətlərlə mübarizə bölmələri adlandırılsınlar. Bu bölmələri bağlayıblar və yalnız indi bu qədər vaxt itkisindən sonra onları yenidən təsis edəcəklər.

- Gəl məlumatlarımızı gözdən keçirək, - deyə Müslüm təklif etdi.

Müslüm bütün günü ancaq Vera barəsində düşünür, ona necə zəng edəcəyini və onunla yeni görüş haqda necə razılığa gələcəyini təsəvvüründə canlandırırdı. Günorta, artıq prokurorun məruzəsindən sonra Müslüm özünü saxlaya bilməyib, Veranın telefon nömrəsini yığdı. Cavabında uzun fit səsi eşidildi. Sonra bütün gün ərzində o, bir neçə dəfə telefon nömrəsini yığdı. Lakin Veranın telefonu yenə də cavab vermədi. Axşam isə bütün bunlara tab gətirməyərək, qadının yaşadığı binaya tərəf getdi. Veranın maşını ətrafda gözə dəymirdi. O, uzun müddət, çox uzun müddət gözləməli oldu. İki saatdan çox. Ancaq maşın binaya yaxınlaşmadı. O, mehmanxanaya taqətdən düşmüş və məyus halda qayıtdı və yenidən fasiləsiz olaraq ona zəng etdi. Telefona cavab verən olmadı.

Müslüm telefonun diskini gecə saat ikiyə qədər fırlatdı. Lakin zəngləri cavabsız qaldı. Ertəsi gün o, Veraya

səhər saat səkkizdə zəng etdi. Yenə də eyni vəziyyət. O, işə gələrək, dərhal milislə əlaqə yaratdı və onlardan altmış dördüncü ildə doğulmuş Vera Klimenkonun bütün ünvanları ilə bağlı məlumatlarını aydınlaşdırmağı xahiş etdi. Müslüm hövsələsizlik göstərərək, hətta zəruri məlumatları əldə etmək üçün məlumat mərkəzinə yollanmağa belə hazır idi. O, bir dəfə də mərkəzə zəng edərək, bunun təcili sorğu olduğunu dəqiqləşdirdi. Həmin gün Müslüm diqqətini cəmləşdirə bilmədi, normal olaraq nə mütaliə, nə söhbət edə bildi, nə də sənədləri nəzərdən keçirə bildi. Hətta Parmuzin də ortağının fikrinin nə səbəbə dağınıq olduğunu anlamasa da onda baş verən dəyişikliyi sezdi.

Cavab iki saat yarımdan sonra gəldi. Vera Klimenko Podolsk küçəsində qeydiyyatda olan Nikolay Klimenko adlı şəxsdə ərdə idi. Veranın Suvorov prospektində yerləşən öz ünvanından və Podolsk küçəsində yerləşən ərinin ünvanından savayı ayrı mənzilinin olması haqda bir məlumat əldə etmək mümkün olmadı. Müslüm zərblə telefonun dəstəyini yerinə asdı. Deyəsən, Müslüm Veranın harada olduğunu ərindən xəb-ər almaq üçün hətta Podolsk küçəsinə belə yollanmağa hazır idi. O, hiss edirdi ki, dəli olmaq dərəcəsinə çatıb. Günorta, nahar yeməyi üçün fasiləyə çıxarkən, hər kəsin yeməkxanaya yollandığı bir məqamda, o, yenidən telefon aparatını özünə tərəf çəkdi və mexaniki olaraq, Veranın telefon nömrəsini yığdı və onun səsini eşitdi.

- Salam, - səbirsizliyini və sevincini gizlədən Müslüm dilləndi, - mən artıq iki gündür ki, səni axtarıram. Sən haradasan?

- Heç harda, - Vera dedi, - mən bütün günü evdə olmu-şam.

- Necə yəni, evdə olmusan? – Müslüm çaşqın halda soruşdu. – Mən artıq iki gündür ki, sənə zəng edirəm. Səhər və axşam, gecə və gündüz. Dünən də iki saat sizin binanızın qarşısında dolaşıb qalmışam. Lakin sənin maşının gözümə dəyməyib.

- Maşının hissələrindən biri sıradan çıxıb və mən onu profilaktoriyaya təhvil vermişəm, - deyə Vera izah etdi. – Mən sənin zəng etdiyini eşidirdim. Dünən gecə yarısında da. Bu gün səhər erkəndən də…

- Bəs nə üçün dəstəyi qaldırmırdın? Niyə cavab vermirdin?

- Bilmirəm. Heç özüm də bilmirəm, Müslüm. Yəqin ki, utanıram. Axı mən heç vaxt ağlıma da gətirməzdim ki, belə bir xətaya yol verə bilərəm. Mənə elə gəlirdi ki, bu, qeyri-mümkündür. Axı mən rəsmi olaraq nikahdayam. Özünü əxlaqsız qadın kimi hiss etmək necə də iyrəncdir. Yəqin belə bir hərəkətə yol verdiyim üçün ağlımı itirmişəm. Gecə yarısı bir sutkadan artıq tanımadığım yad kişinin yanına mehmanxanaya gəlmişəm. Bütün gecəni də onunla keçirmişəm. Mən hətta bu cür addım atmağa qadir olduğumu da təsəvvürümə gətirməzdim.

- Sən nə danışırsan? – deyə o, qorxuya düşdü. – Əxlaqsız qadın nədir? Sənin artıq ərin yoxdur, siz artıq boşanma ərizəsi vermisiniz.

- Yenə də xoşagəlməz haldır. Həm də mən evli kişi ilə görüşmüşəm. Xülasə, sənin üçün mənim özümü necə hiss etdiyimi dərk etmək çətindir. Mən sənin gözünün içinə baxmağa belə utanırdım… özümə də həmçinin… Yəni, sən bunu başa düşmürsən?

- Heç bir pis hadisə baş verməyib, - deyə Müslüm onu sakitləşdirməyə çalışdı, - özünə belə əziyyət verməyə də ehtiyac yoxdur.

- Bilmirəm. Bu, mənim həyatımda ilk dəfə idi ki, baş verirdi və elə bu səbəbdən də, mənə bütün bunlar belə qeyri-adi gəlir. Mən sanki öz-özümə xəyanət etmişəm. Heç bilmirəm, bunu sənə necə izah edim.

- Buna görə telefonun dəstəyini qaldırmırdın?

- Bəli. Mən dərk edirdim ki, bu, sənsən, ancaq səninlə necə danışacağımı bilmirdim. Bizim bundan sonra ümumiyyətlə, görüşməyimizə lüzum yoxdur. Mən dünənki gecəyə görə xəcalət çəkirəm.

- Mən indi sənin yanına gəlirəm, - deyə Müslüm qərara aldı, - sən də bu səfeh söhbətə son qoy.

- Yox, - deyə Vera qorxdu, - lazım deyil. Xahiş edirəm, gəlmə. Sən mənim vəziyyətimi başa düşməlisən.

- Məni gözlə və heç bir yerə getmə. – O, dəstəyi asaraq, Artyoma adi vaxtdan daha erkən işdən ayrılacağını bildirmək üçün yemək otağına tərəf götürüldü.

Yoldan keçən ilk maşını saxlayaraq, onu Suvorov prospektinə aparmasını xahiş etdi. Veranın yaşadığı binanın giriş qapısına daxil olanda isə ondan mənzilin nömrəsini soruşmadığını xatırladı. Lakin aşağıda sakinlərin siyahısı qeyd olunmuşdu. Müslüm barmağını onların üzərində gəzdirdi və bütün soyadları nəzərdən keçirdi. Onların arasında Klimenko soyadı yox idi. O, qəzəbdən bağırmağa belə hazır idi. Bu məqamda giriş qapısından içəriyə əlində çörək bağlaması olan qoca qadın daxil oldu. Onu görən Müslüm dərhal üzərinə şığıdı.

- Üzr istəyirəm, - deyə o, naməlum qadına yaxınlaşdı, - siz Vera Klimenkonun hansı mənzildə yaşadığını bilirsiniz? O, bu binada yaşayır, ancaq nədənsə soyadı sakinlərin soyadları arasında yoxdur.

- Siz kimsiniz? – deyə bəsirətli qoca qarı ona şübhə ilə baxaraq soruşdu. – Axı nə üçün onunla maraqlanırsınız?

- Mənə onu tapmağı və bir məktubu təqdim etməyi həvalə ediblər, - deyə Müslüm yalana əl atdı.

- Kim həvalə edibsə, qoy o da onun dəqiq ünvanını göstərsin, - hər şeydən şübhələnən qarı pilləkənləri qalxa-qalxa dedi.

- Dayanın, - deyə Müslüm vəsiqəsini çıxardı, - mən prokurorluqdanam. Təcili olaraq Vera Klimenko ilə görüşməliyəm.

- Bunu əvvəlcədən demək lazım idi, - deyə qarı qımışdı, - əvəzinə məktub haqda müxtəlif nağıllar uydururlar. Mən sənin işgüzar kişi olduğunu, özünün də harayasa tələsdiyini dərhal hiss etdim. Görünüş etibarilə də rəsmi adama oxşayırsan. O, ərinin soyadına görə Klimenkodur. Özü isə dördüncü mərtəbədə, iyirmi birinci mənzildə yaşayır. Buradan qalxa bilərsən.

- Təşəkkür edirəm. – Müslüm bir neçə pilləkəni tullanıb keçərək, yuxarı qalxdı.

Veranın qapısının önündə ayaq saxlayaraq, nəfəsini dərdi və qapının zəngini basdı. Sonra isə bir neçə saniyə ərzində qapının arxasından hansısa səsin gələcəyini gözlədi. Vera onunla üz-üzə gəlməmək üçün evi tərk etmiş də ola bilərdi, yaxud ona cavab verməyə bilərdi. Ancaq əvvəlcə onun iti addım səsi eşidildi, sonra isə qapı açıldı. Müslüm gözucu baxmaqla onun necə həyəcan keçirdiyini sezdi. Gözünün

altında qara dairələr, uzanmış sifət. O öz xəyanətini onun təsəvvürünə gətirəcəyindən də ağır keçirirdi.

- Sən nə üçün gəldin? – deyə Vera onu mənzilə buraxmadan soruşdu.

- Səni görmək üçün, - Müslüm pıçıldadı.

- Gördün?

- Yox. Məni mənzilə burax.

- Bircə bu çatmırdı. Yeri gəlmişkən, bu, mənim valideynlərimin mənzilidir. Səni buraya buraxmağımı istəyirsən?

- Sən tək yaşayırsan?

- Hal-hazırda təkəm. Anam ezamiyyətdədir, ərim isə bizim köhnə mənzilimizdə yaşayır. Nə üçün gəlmisən? Mən ki səndən gəlməməyini xahiş etmişdim.

Cavab vermək əvəzinə Müslüm içəri keçib qapını arxasınca bağladı. Vera geri çəkildi.

- Get burdan, - deyə xahiş etdi.

- Yox, - Müslüm ona tərəf getdi.

- Get! – deyə Vera qışqırdı. – Mən milis çağıracağam.

- Çağır, - deyə Müslüm onun çiyinlərindən yapışaraq gülümsədi.

- Get burdan, - deyə Vera inildədi, - mən bu cür bacarmıram. Xəcalət çəkirəm, özümü rahat hiss etmirəm, bu, mümkün olan iş deyil.

Müslüm artıq onun üzünü və boynunu öpüşlərə qərq edərək, dediklərini eşitmirdi. Vera başını aşağı əyərək, asta səslə ona etirazını bildirirdi. Sonra Müslüm onu qolları arasına alaraq, divana doğru apardı. Müslüm hətta yataq otağının harada olduğunu ayırd edə bilmədi və onu axtarmaq belə istəmədi. Artıq Vera müqavimət göstərmirdi. Son yarım il idi

ki, o, əri ilə birlikdə yaşamırdı, bu isə qadın üçün kifayət qədər güclü bir sınaq idi. Bu dəfə o özünü daha sərbəst hiss edir, artıq ondan qorxmur və özünün çılpaq vəziyyətindən utanmırdı. Onların həzz alma mərhələsi ən yüksək həddə çatanda Vera qəfildən ağlamağa başladı. O, hətta dayanmağa belə cəhd göstərdi, lakin qadın qışqırdı ki, Müslüm gördüyü işi davam etdirsin. Bu göz yaşlarının sevinc göz yaşları olduğu məlum oldu.

Bir saatdan sonra onlar artıq bir-birinə qısılaraq, ensiz divanda yanbayan uzanmışdılar. Vera başını onun sinəsinə qoymuşdu.

- Sən dəlisən, - deyə qadın əminliklə söylədi. – Məgər belə davranmaq olar? Bəs səni işdən necə buraxıblar?

- Mən qaçdım, - deyə Müslüm gülümsədi, - məni üzürsüz yerə qaçmağıma görə işdən çıxaracaqlar.

- Onların yerində olsaydım, mən də elə bu cür edərdim. Gecələr yatmayan və bütün günü mənə zəng vurandan da yaxşı işçi çıxar.

- Nə üçün dəstəyi götürmürdün?

- Qorxurdum.

- Nədən?

- Özümdən.

- Səni anlamıram.

- İstəyirsən ki, sənə hər bir şeyi deyim. - deyə Vera gözlərini yumdu, - amma unutma ki, mənim cəmi iyirmi səkkiz yaşım var.

- Amma sən on altı yaşında qız kimi danışırsan.

- Mənim əslində, on altı yaşım var. Mən həyatın intim cəhətlərinə bələd deyildim. Tələbə olarkən, gələcək ərimlə görüşürdüm. O da tələbə idi. Əvvəlcə öpüşürdük, sonra isə

kinoya gedirdik. Bunun necə olduğunu yəqin ki, özün anlayırsan. İlk görüş o qədər də təəssürat oyatmamışdı. Biz həddən artıq təcrübəsiz idik. Məni başa düşürsən?

- Bir o qədər də yox.

- Axı nə üçün siz kişilər bu qədər səfeh olursunuz, - deyə Vera məyus halda dilləndi, - yəni, doğrudan başa düşmürsən? Biz təcrübəsiz və sadəlövh tələbələr idik. Xüsusi seksual təcrübəyə malik olmayan tələbələr. O da, mən də. Ancaq mən kifayət qədər tez anladım ki, hamiləyəm. Bizim görüşlərimizdən bir neçə ay sonra. Başa düşürsənmi? Sonra mən ona ərə gedib doğdum. Bizim heç vaxt səninlə olduğu tək münasibətlərimiz və görüşlərimiz olmayıb. Məni anlayırsanmı?

- Yox.

- Səfeh, - deyə o, şən halda gülümsədi, - sənə hər şeyi mütləq təfərrüatı ilə başa salmaq lazımdır. Hələ adını təcrübəli qoca kişi qoymusan.

- Mənim cəmi otuz altı yaşım var.

- Dəhşətdir. Qırx yaşına çatmağa sənin cəmi dörd ilin qalıb. Mənim qırx yaşım olanda, özümü qoca qarı kimi hiss edəcəyəm.

- Amma sən mənə heç nəyi izah etmədin.

- Axı səni daha necə başa salım? Mən məsum qız uşağı idim. O, mənim ilk kişim və qızımın atası olub. Biz, əlbəttə, bir-birimizi sevirdik. Lakin bizdə şiddətli emosiya olmayıb. İndi başa düşdün?

- Yenə də yox.

Vera yumruğu ilə onun qarnını döyəclədi.

- Vicdansız. Hər şeyi başa düşürsən, amma özünü o yerə qoymursan.

- Düz sözümdür, heç nə başa düşmürəm. Sən nədən qorxurdun, ərinin və sizin əvvəlki görüşlərinizin bu məsələyə nə dəxli? Mən həqiqətən də, başa düşmürəm.

- Mən heç vaxt bu cür zövq məqamı yaşamamışam, - deyə Vera özünü bu kəlmələri söyləməyə vadar etdi və qıpqırmızı qızararaq, başını aşağı saldı, - indi başa düşdünmü? Mən bu hissdən, bu qəribə vəziyyətdən qorxurdum. Sanki nə isə hardasa içimdə tüğyan edir, sonra isə partlayır. Elə bir qeyri-adi hissdir ki. Bizim «Pribaltika»dakı ilk görüşümüzdən sonra. Məgər sən heç nə hiss etmədin? Mən bizim ilk gecəmizdə iki dəfə bu hissi keçirdim. Az qala havalanacaqdım. Mən güman edirdim ki, bu, məndə sadəcə, ola bilməz və mən belə bir duyğuya qadir deyiləm. Bu gün isə bu təkrarlandı. İndi sən məni anlayırsan?

- Bu, normal haldır, - deyə Müslüm ehtiyatla dilləndi, - və burada heç bir qəribə şey yoxdur.

- Dəyərli mülahizələrinizə görə çox sağ olun, - deyə Vera kinayə ilə söylədi. – Bu, sənin mənə deyəcəyin yeganə kəlmədir?

- Mən səni çox sevirəm, - deyə Müslüm nəfəsini dərdi. – Sadəcə, belə vəziyyətdə deməyə söz tapmıram. Sən mənim çox xoşuma gəlirsən. Mən düşünürdüm ki, səni görməsəm, ağlımı itirərəm. Mən sənin qoxunu, gözlərini, təbəssümünü və saçlarını xatırlayırdım. Mən hətta səni axtarıb tapmaq üçün ərinin yanına getməyə belə hazır idim.

- Tam xoşbəxtlik üçün bircə bu çatmır, - deyə Vera gülümsədi.

- Mən heç bir vaxt buranı tərk etməyəcəyəm, - deyə Müslüm qəfildən dilləndi, - mənim hələ bir həftəlik işim var. Əşyalarımı götürüb, sənin evində məskunlaşacağam.

- Mən səni buraxmayacağam. Tezliklə anam qayıdacaq və səni bizim ailəvi divanımızda aşkar edəcək. Yox, belə yaramaz. Yaxşısı budur ki, sənin yanına köçüm. Axı sənin iki-adamlıq otağın var və sənin yanında qalmağım çox münasibdir. Sən Bakıya qayıdana qədər.

- Biz birlikdə qayıdacağıq, - deyə Müslüm təklif etdi.

- Bu, baş tutan sevda deyil, - deyə Vera etiraz etdi, - mənim işim, ailəm, qızım var. Özüm də hələ ərimdən rəsmi boşanmamışam.

- O halda, mən sənin boşanmağını gözləyəcəyəm. Onda biz birlikdə bizə gedəcəyik. Sən qızını götürərsən və biz üçlükdə gedərik. Bakıda isə mən sənin qızını öz qızımla tanış edərəm.

- Unutma ki, siz indi xarici dövlətsiniz. Mən də əcnəbi olacağam. Sizdə rusca danışırlar?

- Əsassız fikirdir, - Müslüm qımışdı, - bizim şəhərimizdə rus dilini anlamayan bircə nəfər də olsun tapmazsan. Sadəcə olaraq, beləlari yoxdur.

- Heç vaxt sizin şəhərinizdə olmamışam, - deyə Vera fikirli halda dilləndi.

- Bizim şəhərimizdə, - deyə Müslüm ehtiyatla onun saçlarını öpə-öpə dedi, - mən səni valideynlərimlə tanış edəcəyəm.

- Amma əvvəlcə mən boşanmalıyam, - deyə Vera xatırlatdı.

- Biz hər bir işə lazımi qaydada əməl edəcəyik, - deyə Müslüm vəd etdi, - sadəcə, mənimlə əlaqə saxla. Yoxsa, ağlımı itirərəm. Bu gün axşam isə sən mənim yanıma – mehmanxanaya köçəcəksən. Hünərin var, gəlmə.

- Artıq etiraz etmək gecdir, - deyə Vera yalandan ah çəkdi, - itaət etməli olacağam. Axı sən cənublusan, deməli, Şərq müstəbidisən. Mən isə sənin hərəmxananda üçüncü və ya dördüncü arvad olacağam.

- Yeganəm olacaqsan, - deyə Müslüm onu özünə tərəf çəkdi.

Onlar bunun son görüş olduğunu təsəvvürlərinə belə gətirməzdilər. Onlar hələ ki, artıq bir neçə saat sonra onun təcili olaraq, şəhəri tərk etmək məcburiyyətində qalacağını bilmirdilər. O anda xoşbəxt idilər və bu günün necə başa çatacağından xəbərsiz idilər.

## *Doqquzuncu fəsil*

«Ola bilsin ki, Meymun ən çevik oyunbazdır. Əjdaha ilə münasibətində o, hər vaxt olduğu tək məyus olacaq, lakin bunu insanlar arasında büruzə verməməyə çalışacaq. O, Əjdaha ilində anadan olan insanlarla yaxşı ünsiyyətdə ola bilər. Meymunlar Əjdahaya öz hiylələri ilə təcrübələrini töhfə edə bilərlər, əvəzində isə onların qüdrətindən faydalanmağa can atarlar».

*(Şərq Ulduz falından)*

Sergey demək olar ki, qeyri-mümkün olanı etmişdi. O, bütün kanallarını işə salmaqla, Müslümə təntənəli tərzdə təqdim etdiyi Vera Dmitriyevnanın şəxsi telefonunu tapdı. Müslüm əl telefonunu çıxararaq, dərhal onun telefon nömrəsini yığdı. Zənglərə cavab verən olmadı.

– Təkrar biliyin anasıdır, - deyə Müslüm xatırladı. – Bir qədər sonra zəng etmək lazım olacaq. Yəqin ki, onun əl telefonunun nömrəsini tapmaq lazımdır, - deyə o, gülümsədi, - o halda dəstəyi qaldırar.

– Hazırda onlar fasilədədirlər, - deyə Sergey saata baxdı, - yaxşı olar ki, yarım saatdan sonra zəng edək.

– Onda gəl nahar edək, - Müslüm təklif etdi, - yarım saatdan sonra zəng edərik.

Onlar kiçik bir kafedə yemək yedilər, sonra Müslüm yenidən Veranın telefon nömrəsini yığdı və onun səsini eşitdi.

– Eşidirəm.

– Xoş gördük, Vera Dmitriyevna, - Müslüm onunla salamlaşdı.

– Danışan kimdir?

– Müslüm Səfərov. Mən Bakıdan gəlmişəm…

Müslüm donub qalmışdı. Bu, onların söhbətlərində ən həlledici məqam idi. Vera dərhal dəstəyi yerinə asa və söhbətə son qoya bilərdi. Ancaq qadın donub yerində qaldı, bir neçə saniyə susdu və yalnız bundan sonra soruşdu:

– Sizə nə lazımdır?

– Sizinlə təcili görüşmək istəyirəm.

– Bu, mümkün deyil. Mən məşğulam…

– Bəlkə mən qəbulunuza yazılım? – deyə Müslüm qəzəblə soruşdu. – Söhbətin sənin qızına birbaşa aidiyyəti var.

– Sizi anlayıram, - görünür, onun iş otağında başqa adamlar da vardı, - yaxşı. Gəlin belə edək. Axşama yaxın zəng edin və ola bilsin ki, sizin üçün vaxt ayıraram…

– Səninlə təcili danışmalıyıq, - deyə Müslüm etiraz etdi, - yanına gələ bilərəm.

– Yox, - deyə Vera kəskin cavab verdi, - gəlin başqa üsula əl ataq. Mən iki saatdan sonra Moyka bölgəsinin «Yusupov» restoranda olacağam. Orada xarici ölkə nümayəndələrlə görüş olacaq. Nəzərə alın ki, qəbul vaxtım az olacaq. Lakin siz ora axşam saat beş radələrində gələ bilərsiniz. Sizin üçün vaxt ayıraram.

– Təşəkkür edirəm. – Müslüm telefonu bağlayıb cibinə qoydu.

– Görüş barədə razılığa gəldik, - deyə o, Sergeyə məlumat verdi. – İndi isə mən yenidən Melentyevə zəng etməliyəm. Telefonunu mənə ver. Deyəsən, mən axırda səni müflis edəcəyəm.

– Bizdə yerli tarif var və bütün danışıqları da konsulluq ödəyir, - deyə Sergey telefonunu ona verdi.

– Vyaçeslav Yevgenyeviç, günortanız xeyir, - deyə Müslüm söhbətə başladı.

– Bu, yenə də sizsiniz? – deyə Melentyev narazı halda soruşdu. – Sizə yenə nə lazımdır? Siz artıq həlak olanın mənzilini gözdən keçirmisiniz və məndə olan məlumata görə, orada axtardığınızı tapmamısınız. Daha nə lazımdır?

– Xatırlayırsınızsa, mən sizdən on il bundan əvvəl həlak olmuş müstəntiq Artyom Parmuzin haqqında soruşmuşdum.

– Bəli, xatırlayıram.

– Mənə onun ailəsinin ünvanı lazımdır. Mən onun arvadına və uşaqlarına baş çəkmək istərdim. Onun iki uşağı qalıb, onları yoluxmaq lazımdır.

Melentyev susurdu.

– Siz onunla bu qədər yaxın dostluq etmisiniz? – deyə Melentyev nəhayət, dəqiqləşdirdi.

– Biz hətta onunla birlikdə işləmişik, - deyə Müslüm yalan danışmadı, - elə bu səbəbdən də, mən sizdən kömək istəməyi qərara aldım.

– Yaxşı, - deyə müstəntiq dərhal razılaşdı, - mən mütləq sizə kömək edərəm. Telefon nömrənizi qoyun, indi zəng edərəm. Bizdə onun ev ünvanı olmalıdır. Bu yaxınlarda şəhər prokuroru onlara xatirə hədiyyəsi təqdim edib. Mən elə indilərdə sizə zəng edərəm.

O, Sergeyin telefon nömrəsini öyrəndi və müstəntiqə diktə etdi.

– O, indilərdə zəng edəcək, - deyə Müslüm bildirdi, - saat beşdə isə biz Moyka bölgəsinə gəlməli olacağıq. O ətrafda «Yusupov» restoranı olduğunu bilirsənmi?

– Əlbəttə, - deyə Sergey gülümsədi.

– Necə də qəribədir, restoranı qatilin şərəfinə adlandırıblar, - deyə Müslüm dalğın halda qeyd etdi. – Demək olar ki, yüz il keçib, bu şəhərdə isə əvvəllər olduğu kimi, Rasputini nifrətlə xatırlayırlar. Restorana da onun qatilinin şərəfinə ad veriblər. İnsanın hafizəsi necə də paradoksaldır.

– Rasputin çar rejimində olan bütün pisliklərin mücəssəməsi idi, - deyə Sergey vurğuladı. – Nikolaya xor baxırdılar, onun arvadın isə nifrət bəsləyirdilər. Rasputin isə onların əlbiri hesab olunurdu. Lakin Rusiyada çar hakimiyyəti – hər vaxt istənilən hakimiyyət tək bir qədər Tanrının bəxş etdiyi hakimiyyət olub. Rasputin, sadə təbəqədən olan keçmiş mujik isə insanlarda nifrət hissi oyadırdı. Hər kəsdə. Mən tarixə məftunam, bu, o qədər maraqlıdır ki, baxmayaraq ki, mən şərqşünaslıq fakültəsini bitirmişəm.

Telefon zəng çaldı. Sergey zəng edənin nömrəsinə nəzər yetirdi və dərhal aparatı öz yanında əyləşmiş Səfərova verdi.

– Onlar şəhərdən kənarda, Kolpində yaşayırlar, - deyə Melentyev məlumat verdi, - həyat yoldaşının həlak olmasından dərhal sonra ora köçüblər.

– Aydındır, - deyə Müslüm tutuldu. – Onlar əvvəllər hardasa şəhərin mərkəzində yaşayırdılar. Bəlkə onlar mənzili satıb, ora köçmək məcburiyyətində qalıblar. Şəhər mərkəzindən çoxmu uzaqdadır?

– Kifayət qədər uzaqdadır. Lakin hər şey düşündüyünüz kimi də pis deyil. Ona işə düzəlməkdə kömək ediblər. O, hazırda məktəb müdiri vəzifəsində çalışır, iki oğlu da həmin məktəbdə təhsil alır. Dövlət də ona ailə başçısının vəfatı ilə əlaqədar təqaüd ödəyir.

– Siz onların ünvanını və telefon nömrəsini mənə verə bilərsinizmi? – Müslüm soruşdu.

– Əlbəttə. – Melentyev ünvan və telefon nömrəsini ona diktə etdi. Sonra isə özünü saxlaya bilməyərək, əlavə etdi: - Siz onlara baş çəkmək istəməkdə yaxşı iş görürsünüz. Onlar üçün yəqin ki, onların atası ilə işləyən bir şəxsin onlara baş çəkməsi xoş olacaq. Sizin bundan savayı ayrı istəyiniz varmı?

– Yox. Lakin mən sizin diqqətinizi həlak olanın mənzilindəki otaqların yerləşmə vəziyyətinə yönəltmək istərdim. Oranın özünəməxsus dairəvi sistemi var.

– Görmüşəm, - Vyaçeslav Yevgenyeviç dedi, - nə olsun ki?

– Çünki mənzilə bir giriş var, - deyə Müslüm xatırlatdı. – Bu, o deməkdir ki, qatil evə daxil olarkən bu və ya digər tərzdə qonaq otağına keçməli imiş, əgər bu şəxs

əlbəttə, aşpaz qadın olubsa. Axı mətbəx qonaq otağından əks istiqamətdə yerləşir. Ora da ya yataq otağından istifadə etməklə iş otağından, ya da qonaq otağından ötüb keçməklə daxil olmaq mümkün idi.

– Bunların hamısını bilirəm. Nə səbəbə bunu mənə deyirsiniz?

– Qatil Natalya Frolova ola bilməz, - Müslüm bildirdi. – O, qonaq otağına daxil olmuş, dərhal da oradan qaçaraq çıxmışdır. O, qonaq otağına digər girişdən keçmək üçün mətbəx vasitəsilə buraya daxil ola bilməzdi. Lakin kimsə məhz bu çıxışdan istifadə edə bilər.

– O halda, deyin görək, - o, kimdir? – deyə Melentyev dərhal soruşdu. – Mücərrəd mülahizələr yürütmək çox asandır. Baxmayaraq ki, sizin versiyanız həqiqətən də, diqqətəlayiqdir. Mən də bu barədə düşünmüşəm. Lakin heç kim Frolovanı qətldə günahlandırmır. Yalnız sizin diplomatınızın qohumları mənim onu qorumağa çalışdığımı zənn edirlər. Əslində isə mən məhz konkret faktlara istinad edirəm.

– Bəlkə orada ondan savayı daha kimsə olub?

– Hələ ki, biz bunu aydınlaşdıra bilməmişik, - deyə Melentyev cavab verdi, - lakin biz işləyirik.

– Liqovsk prospektində bir neçə kamera quraşdırılıb, - deyə Müslüm xatırlatdı, - onların lent yazılarını da yoxlamaq lazımdır.

– Biz artıq onu yoxlayırıq, - deyə Vyaçeslav Yevgenyeviç quru tərzdə məlumat verdi, - Ancaq biz kimin hansı mənzilə qalxdığını necə müəyyən edək? Giriş qapısından içəriyə daxil olan insanın məhz kimin yanına getdiyini necə müəyyən etmək olar? Nəzərə alın ki, oranın iki

giriş qapısı olub. İkincisi həyət tərəfdəndir. Natalya Frolova da anasının maşınından düşərək, binaya məhz həmin yolla daxil olub. Həyətdə isə heç bir kamera olmamışdır. Birinci mərtəbədə yaşayan ayıq-sayıq qonşunu istisna etmək şərtilə.

– Mütləq axtarmaq lazımdır, - Müslüm sakitləşmək bilmirdi.

– Biz də elə bununla məşğuluq, - deyə Melentyev yekun rəyini bildirdi. – Xudahafiz, cənab Səfərov.

– Xudahafiz. – O, telefonu Sergeyə qaytardı. – Kolpin buradan çoxmu uzaqdadır? – deyə Müslüm dəqiqləşdirdi.

– Yarım saata yüz faiz çata bilmərik, - deyə Sergey saata baxdı. – Ora gedib geri qayıdacağıq, hələ siz orada bir qədər yubana da bilərsiniz.

– O halda, sabah səhər gedərik, - deyə Müslüm qərara aldı, - indi isə bizim konsulluğa gedək.

– Niyə? Bizim baş konsulumuz aeroporta yollanıb. O, sənədlərin tərtibatı ilə şəxsən məşğul olur.

– Buna şübhə etməyə belə dəyməz, - Müslüm donquldandı, - gedək. Mən bizim konsulluğun digər əməkdaşları ilə də söhbət etmək istəyirəm. Mənim üçün Famil İzmaylovun necə bir insan olduğunu aydınlaşdırmaq vacibdir, onun mümkün əhatə dairəsini, maraqlarını və meyillərini də həmçinin. Mənim üçün həmin həlledici gecədə onun mənzilində kimin peyda olmasının mümkün olduğunu anlamaq lazımdır.

– Gedək, - deyə Sergey razılaşdı. – Lakin orada konsulun katibəsi, xadimə və bizim digər attaşemizdən savayı heç kim olmayacaq. Onlardan savayı heç kim yoxdur.

– Tamamilə kifayətdir, - Müslüm qərara aldı. – Mən onlarla söhbətləşəcəyəm və həlak olanın necə bir insan

olduğunu anlamağa çalışacağam. Mənim üçün onların müşahidələri ilə mülahizələrinin mühüm əhəmiyyəti var. Mən səndən həlak olanı bir neçə kəlmə ilə xarakterizə etməni xahiş etsəydim, sən onu necə vəsf edərdin? Əvvəlcə düşün. Onun qətlə yetirilməsinə görə də güzəştə getmə. Mən buraya qohum kimi deyil, müstəntiq kimi gəlmişəm.

– İltifatsız, - Sergey bir qədər düşünüb dedi, - bir qədər səthi, zövqlü, gözəl qadınların arasında olmağı və bahalı restoranlara getməyi sevərdi. Doğrudur, onun belə bir həyat sürmək üçün kifayət qədər pulu vardı.

– Bəs sonra?

– Kifayət qədər abırsız idi, baxmayaraq ki, abırsızlığın ən yüksək həddi ağılın da ən yüksək həddə olmasını tələb edir, onun barəsində isə bunu demək olmazdı. Qadınlar tərəfindən bəyənilməkdən zövq alırdı, özünü onlara yaxşı tərəfdən təqdim etməyi bacarırdı, işinə qarşı bir o qədər də vicdanla yanaşmırdı, daha doğrusu, işini vicdanla yerinə yetirməkdən çox karyera qurmaq barəsində düşünürdü. Qorxuram ki, bir o qədər də xoş portret yaranmır. Lakin siz özünüz «güzəştə getməməyi» xahiş etdiniz. Ümumilikdə isə o, bir elə də pis oğlan deyildi. Kifayət qədər əhlikef idi, hər kəsə borc verirdi, lazım olanda kömək edirdi, kiməsə xəstəxana və ya dərmanlarla kömək lazım gəldikdə, Bakıya zəng edirdi. Mən məxsusən onun bütün məziyyətlərini sadaladım. Həm yaxşı, həm də pis məziyyətlərini. Amma pis məziyyətləri o qədər də çox olmayıb. Normal oğlan idi, bir qədər ərköyün və qərarsız idi. Qəribə heç bir şey yoxdur, hal-hazırda gənclərin əksəriyyəti bu cürdür.

– Hər halda, gedib söhbət etmək lazımdır, - deyə Müslüm dərindən nəfəs aldı, - bəlkə mən yeni bir şey öyrənə bildim.

Onlar konsulluğa on beş dəqiqəyə gəldilər. Dərhal da aydınlaşdırdılar ki, xadimə artıq konsulluğun binasını tərk edib. Orada Albina ilə attaşe qalmışdı. O, dərhal Albinanın əyləşdiyi qəbul otağına keçdi.

– Bizim qonağımız sizinlə söhbət etmək istəyir, - deyə Sergey Müslümə işarə edərək bildirdi.

– Söhbət etmək istəyir? – deyə o, heyrətləndi. – Mənimlə?

Onun qısa saçları var idi, əynində isə dar yubka və açıq rəngli bluza var idi. O, qonağa nəzər yetirdi.

– Çay istəyirsinizmi?

– Xeyr, - Müslüm dedi, - siz həlak olanı yaxşı tanıyırdınız?

O, qaşlarını çatdı. Görünür, bu sualla onların hər birinə artıq neçənci dəfə idi ki, müraciət edirdilər.

– Biz bir yerdə işləmişik, - deyə o, məlumat verdi. – Kollektivimiz o qədər də böyük deyil və biz hamımız bir-birimizi tanıyırdıq.

– O, necə bir gənc olub? Siz onu xarakterizə edə bilərsinizmi?

– Yaxşı oğlan idi, - deyə Albina dilləndi, - heç kimə zərəri dəyməyib. Hər kəsə kömək etməyə çalışırdı. Onun çoxlu qadın pərəstişkarı olub, - deyə Albina bir qədər düşünərək əlavə etdi.

– Bunu başa düşürəm. O, işdə necə idi?

– Yaxşı işləyirdi, lakin bizim aramızda çox cüzi ümumi maraqlar olub. Mən konsulun katibəsi, o isə onun

birinci katibi idi. Lakin biz ünsiyyət saxlayanda, o, mənə çox səmimi və cəsur insan təəssüratı bağışlayırdı.

– Necə güman edirsiniz, onu kim bıçaqlaya bilərdi?

– Bilmirəm, - deyə Albina dilləndi. – Mən, hətta bu faciə barəsində düşünməməyə çalışıram, əks təqdirdə, normal işləmək belə mümkün olmayacaq.

– Onun yanına Frolova soyadlı bir nəfər gəlibmiş. Siz onu tanıyırdınız?

– Az tanıyırdım. Bir dəfə onlar mərhumun ad gününü qeyd etdiyi restorana gəlmişdilər. Natalya və qohumu Viktoriya. Ancaq mənim xoşuma gəlmədilər.

– Nə üçün?

– İzah etmək çətindir. Bir qədər işvəkar və bir qədər kompleksli idilər. Xüsusilə, Natalya. Yeri gəlmişkən, burada təəccüblü bir şey yoxdur. Zənnimcə, oradakıların hamısı belədir, bu, axmaq irsiyyətlə bağlıdır.

– O, sizə Viktoriya ilə hansı münasibətdə olduğunu deyibmi?

– Xeyr, deməyib. Heç kim ondan bu barədə soruşmamışdı. O, artıq yaşa dolmuş adam idi və kiminlə dostluq edəcəyinə, kiminlə ülfət quracağına da özü qərar verməli idi.

– Onun iş otağı konsulun iş otağının qənşərində yerləşir. Ona qadınlar tez-tez zəng edirdilər? Siz bu barədə bir şey eşitmisinizmi?

– Tez-tez zəng edirdilər, - deyə Albina təsdiqlədi, - o, qadınlar tərəfindən bəyənilirdi. Gənc, subay, zəngin və sərbəst idi. Daha nə lazımdır? Qızlar hətta ona həyasızcasına deyirdilər ki, bir çox bu cür azərbaycanlı dostlara malik olmaq lazımdır. Mən bu cür sözləri eşidəndə hiddətlənirdim.

– Əgər ona evindən pulları belə götürmədən bıçaqla zərbə endiriblərsə, deməli, kiməsə ondan nə isə daha artıq bir şey lazım imiş, - deyə Müslüm donquldandı. – Siz necə güman edirsiniz?

– Bilmirəm. Mən onun pullarını saymamışam. Bu mənim işim deyil.

– Attaşenizi çağırın, - deyə Müslüm izn verdi və Sergey konsulluğun digər işçisini çağırmaq üçün ayağa qalxdı.

Attaşe sanki qapının arxasında gözləyirmiş kimi dərhal göründü. Bu, saçları tam qırxılmış yekəbaş və dolu bədənli gənc idi. Onun qısa ayaqları və qısa qolları var idi. Attaşe qəbul otağına daxil olub dərindən nəfəsini dərdi və otağın bir küncündə əyləşdi. Albinanın bu diplomata necə nifrət hissi ilə baxdığı da Müslümün diqqətindən yayınmadı. Görünür, Müslüm onda hansısa başqa bir hiss oyatmışdı. İlk təəssürat doğru oldu. Attaşe praktiki olaraq bircə sualı belə cavablandırmadı. Nə müsbət, nə də mənfi cəhətdən. O, hər dəfə fır-fır fırlanır, yaxasını kənara çəkir, ümumi kəlmələrin arxasında gizlənməyə çalışır və həlak olan barədə bir kəlmə də olsun danışmırdı.

- Siz əsl diplomatsınız, - deyə Müslüm təsəllivericilikdən uzaq olan qənaət hasil etdi. - Əməkdaşlığa görə sizə minnətdaram.

Attaşe otağı tərk edən kimi Albina nifrətlə çımxırdı.

– Bu tip onsuz da sizə heç nə deməyəcək. O öz kölgəsindən qorxanlardandır. Bircə onu düşünür ki, tezliklə burada işini tamamlayıb, yenidən xarici işlər nazirliyində adi klerk vəzifəsində işləyəcəyi Bakıya köçürülsün. Lakin mən elə

güman edirəm ki, o, hər vaxt riyakarlıq edir. Özünü və öz emosiyalarını daim nəzarət altında saxlamağa çalışır.

– Bütün həqiqi diplomatlar hər vaxt özlərini ələ almağa bacarıblar, - deyə Müslüm saata baxıb ibrətverici bir tərzdə dilləndi. Müəyyən edilmiş vaxta yarım saat qalmışdı.

– Bizim hələ kargüzarımız da var, - deyə Sergey məlumat verdi, - ancaq o, məzuniyyətdədir.

– Onun anası xəstədir və o, bir həftəlik məzuniyyətə çıxıb, - deyə Albina məlumat verdi. – Qadın buradan uzaqda, şəhərdən kənarda yaşayır. Ora gedib geri qayıtması onun üçün çətinlik törədir.

– Bəs sizin attaşeniz harada yaşayır? – deyə Müslüm maraqlandı.

– O da uzaqda yaşayır, - Albina gülümsədi. – Bizlərdən yalnız İzmaylov şəhərin mərkəzində qalırdı. Bizim baş konsulumuz da yaxında yaşayır. Qalanları isə səhərlər buraya metro, avtobus və maşınlarda gəlirlər. Şəhərin mərkəzində yaşamaq adama çox baha başa gəlir.

– Albina xalası ilə birlikdə yaşayır, - deyə Sergey əlavə etdi, - onun üçün də buraya gəlmək çətindir. Əvvəllər çox vaxt rəfiqəsigildə qalırdı, hazırda ailə quran Albina sadəcə, gedib-gəlmək məcburiyyətində qalıb. Bura gəlmək üçün yarım saat sərf etməyə məcburdur. Hətta mən maşında ola-ola bir saatdan çox vaxt sərf edirəm. Neynəmək olar, məsafə çoxdur.

– Başa düşürəm, - Müslüm dedi, - bu, bütün iri şəhərlərin problemidir.

Müslüm Sergeylə birlikdə dəhlizdə dayanan attaşeni görüb qəbul otağından çıxdılar. Müslüm ona tərəf çevrildi.

– Siz yenə də uzun müddət birlikdə çalışdığınız insanı xarakterizə etmək üçün bir söz də olsa, tapmadınız. Yəni sizin deyəcəyiniz söz yoxdur?

Attaşe qəmgin tərzdə içini çəkdi. Onun xırda gözləri o yan-bu yana qaçışmağa başladı. Bir qədər düşündükdən sonra nəhayət, bu ifadələri işlətdi:

- O, füsunkar qadınları və qəşəng restoranları xoşlardı. – Ancaq dərhal həlak olan barədə bu cür ifadə işlətməklə həddən artıq cəsarət nümayiş etdirdiyini düşünüb dərhal dilləndi: - O, heç vaxt iş vaxtı öz imkanlarından sui-istifadə etməyib.

– Buna şübhə etmirəm, - deyə Müslüm kinayə ilə dilləndi. – O, sizin baş konsuluğun sadəcə, bir nümunəvi əməkdaşı olub.

Onlar maşına əyləşəndə Sergey üzr istəyirmiş kimi dilləndi:

– Siz onları da anlamağa çalışmalısınız. Albina könüllü bir muzdludur, onun üçün hər şey əhəmiyyətsizdir. Onun yerli vətəndaşlığı var, bizim diplomatlar isə evə qayıtmaq barədə düşünürlər. Hər kəsin öz ailəsi, övladları və valideynləri var. Hər kəs layiq olduğu mövqeni tutmaq və daha çox pul qazanmaq barədə düşünür. Onlardan birinin sizinlə söhbəti vaxtı ehtiyatı əldən verdiyini və ya həmin şəxsin prokurorluqda sorğu-suala tutulması vaxtı həddən artıq açıq-saçıqlığa yol verdiyini bilsələr, elə o an onun karyerasının üstündən dərhal yağlı qələmlə bir xətt çəkilmiş olar.

– Lakin mən sizə kömək etmək üçün gəlmişəm, - deyə Müslüm məyus halda vurğuladı.

– Dəxli yoxdur. Onlar gərəksiz dedi-qodu ilə istənilən səhvə yol verməkdən ehtiyat edirlər və beləliklə də, tədricən təşəbbüsü əldən vermiş olurlar. Ancaq hər yerdə belədir. Bizdə deyirlər ki, diplomatlar minerlərdən də pisdirlər. Onlar havaya qalxmazdan əvvəl, heç olmazsa, bircə dəfə səhv etmək hüququna malikdirlər, diplomatların isə heç bir səhvə belə yol verməyə ixtiyarları çatmır.

– Paraşütçülər kimi, - deyə Müslüm qımışdı.

Onlar Moykaya yollananda, saatların əqrəbi təqribən beşi göstərirdi. Restoranı çox asanlıqla tapdılar. Orada hələ ki, bir kimsə gözə dəymirdi, lakin ofisiantlar həqiqətən də, meriya əməkdaşları ilə əcnəbi nümayəndələrin görüşünü gözlədiklərini təsdiqlədilər.

Bir neçə dəqiqədən sonra restorana dörd avtomobil yaxınlaşdı. Əcnəbi qonaqlar maşınlardan düşdülər. Uca səslə söylənilən alman nitqi səsləndi. Qonaqlar restorana ucadan danışa-danışa, bir-birini itələyə-itələyə və gülüşə-gülüşə növbə ilə təşrif buyururdular. Müslüm təmkinlə bütün qonaqların öz yerlərində yerləşməsini gözlədi. Vera da onlarla birlikdə idi. O, birinci avtomobillə gəlmişdi və hər kəsdən birinci olaraq vəziyyəti qiymətləndirmək və zəruri tapşırıqları vermək üçün restoranın zalına daxil oldu.

Müslüm restorana girəndə qonaqlar yerlərini tutarkən, Vera dərhal onu başını yelləməklə qarşıladı. O, ayağa qalxaraq, Müslümlə birlikdə kiçik dəhlizə çıxdı. Veranın əynində boz kostyum, ayağında isə gözəl yarımboğaz çəkmə var idi. Əlvan rəngli şərf səliqəsiz bir tərzdə boynuna dolanmışdı, lakin bu səliqəsizliyin özündə də nəsə bir zəriflik vardı.

– Nə olub? – deyə Vera soruşdu.

– Heç nə. Mən sadəcə, sizə həlak olanın mənzilinə baxış keçirməyim barədə məlumat vermək istəyirdim.

– Sən mənə «siz» deyə müraciət etməyi qərara almısan?

– Siz böyük rəis olmusunuz. Cürətim çatmır ki…

– Bəsdir əzilib-büzüldün. Sən orada nə görmüsən?

– Yəqin ki, Nataşa İzmaylovu qətlə yetirə bilməzdi. Bunun üçün əvvəlcə oradan mətbəx bıçağını gətirmək üçün mətbəxə daxil olmaq lazım gələrdi. Sən təsəvvüründə əvvəlcə mətbəxə keçərək, oradan bıçağı götürən, sonra isə mənzilin sahibi ilə hesablaşmaq üçün qonaq otağına yollanan qızı canlandıra bilərsənmi?

– Mən yox. Amma müstəntiq canlandıra bilər.

– O, sənin zənn etdiyin kimi də səfeh deyil. Yoxlamanı davam etdirmək lazım gələcək. İndi isə mən nə üçün səninlə belə təcili bir tərzdə görüşmək istədiyimi izah edəcəyəm. Sən onun mənzilinə nə vaxt qalxdığını və sənin onunla olan söhbətinin məhz qonaq otağında olub-olmadığını dəqiq xatırlaya bilərsənmi?

– Əlbəttə. Biz harada söhbət etməli idik ki? - o, əsəbi halda soruşdu, - daha yataq otağına da keçməli deyildik ki. Mətbəxə də, həmçinin.

– Onunla nə barədə danışdığını bütün təfərrüatı ilə xatırlaya bilərsənmi?

– Mən ona özünü pis apardığınızı dedim. Nataşanın onun yanına sırf Viktoriyaya kömək etmək üçün gəldiyini dedim. Onun sabah səhər hazırda xəstəxanada yatan və bətnində onun övladını gəzdirən qadına baş çəkməyə borclu olduğunu dedim. O, dərhal qışqıra-qışqıra həmin bu uşağın atasının məhz kim olduğunu hələ sübuta yetirməyin vacib

olduğunu söylədi. Necə də rəzil bir davranışdır. Mən ona DNT ekspertizası keçirəcəyimizi bildirdim və bu, onu əməlli-başlı hiddətləndirdi. O halda, mən sadəcə, çevrilərək, mənzili tərk etdim.

– Elə bu?

– Bəli. Elə bu.

– İndi isə xatırlamağa çalış. Sən qonaq otağına daxil olanda, yataq otağına aparan qapı bağlı idimi? Bəlkə açıq idi? Bütün bunları təfərrüatı ilə xatırlamağa çalış.

– Açıq idi, - deyə Vera əminliklə dilləndi. – Mən hələ döşənməmiş çarpayını gördüm və onun necə bir pinti olduğunu düşündüm. Lakin o, qapıya yaxınlaşdı və onu örtdü. Nə üçün soruşursan?

– Mən bunu dəqiq bilməli idim.

– Bundan başqa daha heç bir sualın yoxdur ki?

– Mən hələ sənin qızınla da danışmalıyam. Sən mənə onun telefon nömrəsini verə bilərsən?

Vera tərəddüd edərək susurdu. Sonra isə soruşdu:

– Sən onun başına pis bir hadisənin gəlməyəcəyini mənə vəd edə bilərsənmi? Həm də onun telefon nömrəsini kənar şəxslərdən heç kimə verməyəcəksən.

– Sən öz rəis otağında yavaş-yavaş ağlını itirirsən, - deyə Müslüm qərəzsiz bir tərzdə bəyan etdi. – Yəni sən doğrudan da, elə düşünürsənmi ki, mən sənin qızına hansı tərzdə zərər yetirə bilərəm? Hətta bunu ağlıma da gətirə bilərəm. Mən sizi sadəcə, müdafiə etmək istəyirəm. Bizim diplomatımızın da kim tərəfindən qətlə yetirildiyini aydınlaşdırmaq istəyirəm.

– Əgər bu iki məsələ bir-birilə ziddiyyət təşkil edərsə? – deyə Vera soruşdu.

– Deməli, mən insanlardan baş çıxarmıram. Ya da ikilikdə zavallı diplomatı qətlə yetirmisiniz, indi isə hər kəsi aldatmağa çalışırsınız.

– Sarsaqlama. Qızın telefon nömrəsini yaz və nəzərə də al ki, mən sənin hər bir hərəkətini nəzarət altında saxlayacağam. Bir dəfə sən məni artıq incitmisən. Çox incitmisən, Müslüm. Ümidvaram ki, qızımla bu cür davranışın alınmayacaq.

– Çox səfeh mülahizələr irəli sürürsən. Sənin qızının bu işə nə dəxli? Mən yalnız ondan işin xeyirinə bəzi təfərrüatları aydınlaşdırmaq istəyirəm.

– Özün bilərsən. – O, bir qədər də düşündü və qızının telefon nömrəsini diktə etdi.

– Sən məni artıq rahat buraxa bilərsən? – deyə Vera narazı halda soruşdu. – Sən ki qonaqların məni gözlədiyini görürsən. Bir yığın əcnəbi nümayəndə. Mənim yanıma indilər-də daha bir nəfər gəlməlidir. Görüşə. Mən sənə bu qədər uzun vaxt ayıra bilmərəm.

– Bağışla. Nə vaxtsa biz bir-birimizə daha çox vaxt ayırmaq iqtidarında idik.

– Bu, çoxdan olub, Müslüm, tamamilə fərqli bir dövrdə. Mən sadəlövh və hər kəsə inanan bir səfeh idim. Hazırda isə hər şey daha fərqlidir. Mənim sentimental xatirələrlə yaşamağa vaxtım yoxdur. Bağışla.

– Biz səninlə görüşə bilərikmi?

– Heç bir vaxt, - deyə Vera qətiyyətlə bildirdi, - lüzum da yoxdur.

– Sənin həyatında kimsə var?

– Mənasız sualdır. Səndə kişi xudpəsəndliyi özünü büruzə verir. Yəni, sən doğrudan da, elə güman edirsən ki,

mən dərhal sənin boynuna atılmalıyam? Bax, beləcə, adi bir tərzdə, on iki ildən sonra.

– Sən hələ də mənim elə bir şəraitin önündə aciz olduğumu anlamamısan…

– Çoxdan anlamışam. Lakin mən də təqsirsizəm. Deməli, teleyin hökmü belə imiş. Bizim öhdəmizə isə onu yenidən yazmaq düşməz.

– Mən sənə zəng edəcəyəm, - deyə Müslüm onun getməyə hazırlaşdığını görən kimi səsini qaldırdı.

– Mən öz şəxsi telefon nömrəmi dəyişməli olacağam, - deyə Vera dalğın halda dilləndi, - və sənin buranı tərk etməyini gözləməli olacağam. Bizim aramızda heç bir şey ola bilməz. Heç bir şey də olmayıb. Heç nə olmayacaq. O vaxt baş verənlər isə sadəcə, bir yuxu idi. Ötəri və buna görə də hafizələrdən demək olar ki, silinmiş bir yuxu. Bizim real həyatımız isə tamamilə fərqlidir. Sən məni onsuz da yubatmısan. Bağışla. Hələlik.

Vera cəld addımlarla ondan uzaqlaşdı. O isə dəhlizdə sanki rüsvay edilmiş bir insan tək qaldı. Onun hansı vəziyyətdə olduğunu sezən ofisiantlar Müslümü dirsəkləri ilə itələyərək, qəsdən yanından ötüb keçirdilər. Müslüm uzun müddət onun arxasınca baxdı. Sonra isə yavaş-yavaş çevrilərək, çıxışa doğru yönəldi. Natalyaya zəng edib, onunla danışmaq, sonra isə buranı tərk etmək üçün əşyalarını toplamaq lazımdır. Üçüncü səfər heç də uğurlu olmadı.

Restoranın çıxışında o, əynində qəşəng mavi palto, başında isə üzünü görünməz edən iri zadəgansayağı şlyapa olan bir xanıma yol vermək üçün qapıdan bir qədər aralanmalı oldu. Qadın onun yanından ötüb keçərkən, Müslüm ona çox yaxşı tanış olan ətrin qoxusunu duydu. Bu, tanış olmayan ətir

də ola bilərdi. Müslüm dayandı. Bir vaxt o, bu köhnə ətirin qoxusunu bəyənmişdi. Bir vaxt o, bu cür ətirin qoxusunu qadın bədəninin qoxusu ilə birlikdə ciyərlərinə çəkmişdi və bu ətir onun yaddaşına həkk olunmuşdu. Lakin bu, ola bilməzdi. Müslüm yanından ötüb keçən qadına nəzər salıb ayaq saxladı. Onun sifətini gördü. Gözlərinə diqqət yetirdi və ona tabe olmayan dodaqları ilə bu kəlmələri pıçıldadı:

– Üzr istəyirəm…

Qadın onun dediklərini eşitmədi. Müslüm daha iki addım atdı.

– Bağışlayın, - deyə o, qadının ayaq saxlayacağına və ona tərəf çevriləcəyinə ümid bəsləmədən astadan dilləndi. Axı həyatda o qədər təsadüflər olur ki. Müxtəlif insanların da eyni ətirdən istifadə etmələri mümkündür. Ancaq qadın onun səsini eşitdi və… ayaq saxladı.

Qadın üzünü ona tərəf çevirdi. Yalnız bir anlığa. Lakin bu, Müslümün onu tanıması üçün yetərli idi. Bu, heç bir vəchlə mümkün ola bilməzdi, ancaq möcüzə baş vermişdi. İyirmi dörd ildən sonra «Yusupov» restoranında, o, səksəninci ilin iyul ayının səhəri «Moskva» mehmanxanasında ayrıldığı qadın ilə rastlaşmışdı. Qadın zərrə qədər də olsa, dəyişməmişdi. Sadəcə, sifəti bir qədər tutqunlaşmışdı. Ola bilsin, günəşin təsiri altında qaralmışdı. Bəlkə də bu, onun üzündəki qırışları ört-basdır edən tonal kremin təsiri idi. Gözləri də əvvəlki parlaqlığını itirmişdi. Qadın da ona baxır və gördüklərinə inana bilmirdi. Əlbəttə, o dəyişmişdi. Qartlaşmış, qocalmışdı, beli əyilmiş, başındakı tüklər seyrəlmişdi. Lakin buna baxmayaraq, o, yenə də həminki Müslüm Səfərov idi. Onu hətta gözü ətrafındakı qırışlara və

burun pərlərindən ağzına qədər uzanan iki dərin qırışa diqqət yetirmədən belə tanımaq mümkün idi.

Qadın ətrafına boylandı. O, sanki gözlərinə inanmırdı. Heç Müslüm də bu möcüzəyə inanmırdı.

– Bu, sənsən?  - deyə qadın sakit səslə soruşdu. – Axı sən buraya haradan gəlib çıxdın? Uzun illərdən sonra…

Müslüm ona buraya təsadüfən gəldiyini demək istədi, nəyisə izah etməyə çalışdı,  lakin kəlmələr onun boğazında düyünlənib qaldı. O, bircə kəlmə də olsun deyə bilmədi. Tale isə sanki Müslümə daha böyük sınaq hazırlamışdı. O, hansısa sözü ifadə etməyə cəhd göstərərkən, mızıldana bildi və bu vaxt Vera dəhlizdə göründü. Müslümü görən kimi də, qaşlarını çatdı. Müslümün hələ də buranı tərk etməməsi Veranın xoşuna gəlməmişdi. Müslüm isə naməlum qadınla görüşdən sarsılmışdı. Ancaq Veranın dilindən çıxan növbəti ifadələr onun üçün daha böyük şok və sınaq təsiri bağışladı:

– Ana, sən təyin olunan vaxtdan bir qədər tez gəlmisən…

## *Meymun ili. Sankt-Peterburq.*
## *Min doqquz yüz doxsan ikinci il*

Müslüm işə günorta saat dörddə qayıtdı. O, qanadlanmağa hazır olan bir xoşbəxt təəssürat oyadırdı və buna görə də, onun şəhər prokuroru müavininin qəbuluna getməsini deyən qaşqabaqlı növbətçiyə də diqqət yetirmədi.

«Yəqin ki, bugünkü hesabatla əlaqədardır», - deyə Müslüm şən bir tərzdə düşündü. O, hələ də orada, onun

mənzilində, Veranın yanında idi. Vera qəti bir tərzdə söz vermişdi ki, bu gün Müslümün yanına gələcək və onun «Pribaltika» mehmanxanasındakı otağında qalacaq. Tək bir bu fikrə görə, o, uşaq kimi dəhlizdə atılıb-düşməyə və var qüvvəsi ilə bağırmağa hazır idi.

Onun Artyomla birlikdə işlədiyi iş otağına qaxanda yolda dəstənin əməkdaşlarından biri ilə üzləşdi.

– Xoş gördük, Müslüm Əzizoviç, - deyə əməkdaş nədənsə nəzərlərini yayındıraraq, nəzakətlə bu kəlmələri söylədi.

– Gününüz xeyir, Stepan Anatolyeviç, - deyə Müslüm onu salamladı. – İşlər necədir? Yoxlamanı bu həftə ərzində sona çatdıra biləcəyikmi? Bundan sonra bütün balansı yoxlamaq və ən yaxşısı dövlət bankından maliyyə ekspertlərini yoxlamaya cəlb etmək lazım gələcək.

– Bilmirəm, - deyə prokuror köməkçisi nəsə qeyri-müəyyən dilləndi. – Biz əlbəttə, lazım gələrsə, bütün sənədləri sizə göndərməyə çalışarıq.

– Siz nə danışırsınız? – deyə Müslüm heyrətləndi. – necə yəni, «çalışarıq» və «sizə göndərərik»? Hara göndərirsiniz və nə üçün? Mən buraya təhqiqatı tamamlamaq üçün gəlmişəm və nə üçün siz «lazım gələrsə» deyirsiniz. Əlbəttə, lazımdır. Bu, bizim hamımıza lazımdır. Bu fırıldaq hər iki respublikanın iqtisadiyyatına zərər vurur. Sizə nə olub, Stepan Anatolyeviç? Nə üçün belə qəribə sözlər söyləyirsiniz?

– Bəs siz heç nə eşitməmisiniz?

– Yox. Nə eşitməli idim ki?

– O halda, sizə hər şeyi mənim iştirakım olmadan söyləyəcəklər, - deyə Stepan Anatolyeviç tələsik dilləndi və Müslümdən uzaqlaşdı.

«Nə baş verir? – deyə Müslüm düşündü. – Bəlkə məni işdən üç saat ayrılmağıma görə kənarlaşdırıblar? Bəlkə Moskvada ümumiyyətlə, prokurorluq idarəsini ləğv etməyi qərar alıblar? İndi elə bir pis zəmanədə yaşayırıq ki, istənilən hal baş verə bilər».

Müslüm iş otağına daxil oldu. Artyom onu görüncə, başını qaldıraraq, sanki öz ortağının üzünə baxmaqdan xəcalət çəkirmiş kimi, nəzərlərini tez də onun üzərindən yayındırdı.

– Səni axtarırdılar, - deyə qısaca məlumat verdi, - təcili olaraq şəhər prokurorunun müavininin yanına çağırırlar. Prokuror müavini qayıdan kimi, yanına getməyini xahiş etdi.

– Sən ona nə demisən?

– Dedim ki, sən banka yoxlama aparmaq üçün getmisən. Ondan artıq nə deyə bilərdim ki?

– O, məni yanına bizim hesabatımıza görə çağırır?

– Yox. Bakıdan təcili teleqram alınıb.

– Hansı teleqram? Nə baş verir? Mənim burada olmadığım bu bir neçə saat ərzində nə baş verib? Nə üçün Stepan Anatolyeviç mənimlə hansısa anlaşılmaz ibarələrlə danışır?

– Məgər sənin xəbərin yoxdur?

– Sən mənə normal tərzdə nələrin baş verdiyini izah edə bilərsənmi?

– Sən bu son iki gün ərzində harada olmusan? Heç televizora baxıb, qəzet oxumursan?

– Televizora? Mən onu heç öz otağımda belə işə salmıram. Nə olub?

– Sizin Azərbaycanda hərbi əməliyyatlar bərpa olunub. Dağlıq Qarabağda yerləşdirilmiş keçmiş sovet alayının iki batalyonu sizin şəhəriniz Xicalıya hücum edib.

– Xocalıya, - deyə o, Artyomun ifadəsinə düzəliş verdi.

– Xocalıya, - deyə o, razılaşdı. – Şəhər demək olar ki, tamamilə yandırılıb. Əhalinin bir qismi məhv edilib, bir qismi həlak olub, bir qismi isə əsir düşüb. Dünyanın bütün məlumat kompaniyaları ancaq bu barədə danışırlar. Bakıda təlatüm baş qaldırıb. Müxalifət parlamenti mühasirəyə alıb və prezidentin təcili istefaya çıxmasını tələb edir. Yarım saat əvvəl isə sizin prezidentinizin istefaya çıxması barədə məlumat verildi.

– Ola bilməz, - deyə Müslüm karıxmış halda dilləndi.

– Ola bilər, - deyə Artyom başını yırğaladı. – Televizoru işə sal və özün son xəbərləri dinlə. Sizin prokurorluqdan bizə təcili teleqram gəlib. Sənin təhqiqata son verərək, təcili Bakıya qayıtmağını tələb edirlər.

– Lakin biz demək olar ki, işi tamamlamaq üzrəyik. İki-üç günlük işimiz qalıb. Axı sənə bizim bu işə nə qədər əmək sərf etdiyimiz məlumdur.

– Görünür, bu, artıq heç kim üçün lazım deyil, Müslüm, - deyə Artyom qəmgin halda bildirdi. O, ayağa qalxaraq, ortağına yaxınlaşdı. – Mən sənə nə söyləyəcəyimi bilmirəm. Belə bir vəziyyətdə hansı kəlmələri söyləməyin lazım olduğunu bilmirəm. Bircə onu bilirəm ki, sizdə əsil faciə yaşanır. Biz yəqin ki, hələ uzun müddət bu cəncəldən can qurtara bilməyəcəyik.

Müslüm öz masasına yaxınlaşaraq, stula çökdü. «Təsəvvür edirəm, Bakıda nələr baş verir», - deyə o, dəhşət içində düşündü. Görəsən, valideynlərinin halı necədir, qızı ilə arvadı neyləyir? Buradan ümumiyyətlə, ora zəng etmək mümkün deyil. Əlaqə yaratmaq üçün saatlarla gözləməli olursan. Əlbəttə, o, təcili geri qayıtmalıdır və aydın məsələdir

ki, onun bütün bu yoxlamalarının hal-hazırda heç bir kəs üçün əhəmiyyəti yoxdur. Prezidentin istefaya çıxdığı, dövlətin məhvə məruz qaldığı, müharibənin getdiyi və minlərlə insanın həlak olduğu bir dövrdə hansısa bir iqtisadi cinayət və ya saxta avizolar artıq kimin üçün maraq kəsb edə bilər?

– Mən, hətta nə edəcəyimi də bilmirəm, - deyə Müslüm dostuna nəzər yetirməklə etiraf etdi, - sadəcə, təsəvvür etmirəm. Bir tərəfdən, əlbəttə, bizim işimizi sona çatdırmaq və Bakıya konkret materiallarla qayıtmaq lazımdır, digər tərəfdən isə onlar yəqin ki, haqlıdırlar. Mənim yerim hal-hazırda ordadır.

– Yaxşı olar ki, risk etməyəsən. Düşün və sənə verilən göstərişlərə uyğun hərəkət et, - deyə Artyom məsləhət gördü. – Əks təqdirdə, yeni hakimiyyətin gözündən düşərsən. Yəqin ki, prezidentin yenisi ilə əvəzlənməsindən sonra yeni baş prokuror təyin edəcəklər və o, təmizlik işlərinə başlaya bilər. Deməli, «qapazaltı» adam axtaracaq. Belə bir «qapazaltı» olmamaq üçün də ehtiyatlı olmaq lazımdır.

– Hazırda hər birimiz «qapazaltı» kimi bir şeyik, - deyə Müslüm qəzəblə bildirdi.

– Bilirsən, ağlıma nə fikir gəldi? – deyə Artyom canlandı. – Əgər öz vətənində qala bilmirsənsə, bizim yanımıza qayıt. Biz səni həmişə qəbul etməyə hazırıq. Sən əla müstəntiq və yaxşı yoldaşsan, Müslüm. Amerika filmlərində adətən deyildiyi kimi, mənim üçün səninlə işləmək böyük şərəf idi, cənab Səfərov. – O, əlini Müslümə uzatdı.

Bu, mükafatdan da dəyərli sözlər idi. Müslüm hər şeyi başa düşdü. O, dostunun əlini sıxdı. Və şəhər prokurorunun müavininin yanına getmək məqsədilə tez-tələsik otağı tərk etdi. Prokuror müavini dərhal onu qəbul etdi. Respublika

prokurorunun onun təcili olaraq geri qayıtması tələbini öz imzası ilə təsdiqlədiyi teleqramı ucadan ona oxudu. Sanki Müslümü iki xalqın dostluq münasibətində olmaq zəruriyyətinə inandırmaqla rus-Azərbaycan əlaqələri barədə uzun-uzadı danışdı. Ona işində müvəffəqiyyət və xoşbəxtlik arzu etdi. Müslümün Sankt-Peterburqda apardığı işə görə Bakıya minnətdarlıq məktubu yazacağını vəd etdi. Sonda isə bildirdi ki, onun üçün bilet artıq alınıb və o, axşam saat yeddidə təyyarə ilə yola düşür.

Əlbəttə, prokuror bütün bu vədlərini Müslümün iş otağını tərk etməsindən bir neçə dəqiqə sonra unutdu. Heç biri, hətta bu haqda düşünmək belə istəmirdi. Prokuror müavini bu məqamda özü üçün müşkül olan bir məsələni həll etməyə çalışırdı – öz yerini necə qoruyub saxlasın ki, ixtisardan yayına bilsin.

– Mən elə günü bu gün uçmalıyam? – deyə Səfərov eşitdiklərinə inanmadı.

– Əlbəttə, - deyə həmsöhbəti başını buladı. – Siz artıq bu gün mütləq orada olmalısınız. Təsəvvür edirəm, indi sizdə necə ağır bir vəziyyət hökm sürür. Yəqin eşitmisiniz, sizin prezidentiniz artıq istefaya çıxıb.

– Eşitmişəm, - Müslüm özünü itirmiş halda dedi.

– Maşın sizi gözləyir. Bizim əməkdaşımız gərəksiz təxribatlardan yayınmaq naminə özü sizi aeroporta qədər yola salacaq, - deyə şəhər prokurorunun müavini vurğuladı. – Mehmanxanaya gedib öz əşyalarınızı götürə bilərsiniz. Xudahafiz.

O, tam cidiyyətlə Səfərovun əlini sıxdı və önündəki kağızları nəzərdən keçirməyə başladı. Müslüm karıxmış halda otağı tərk etdi. Artyomun yanına qayıdaraq, o, bir neçə dəfə

Veranın telefon nömrəsini yığdı. Ancaq ona cavab verən olmadı. O, qəzəblə dəstəyi asdı. Maşın onu aşağıda gözləyirdi. Mehmanxanaya gedən yolda Müslüm saata baxır və Veranın evdə olması üçün dua edirdi. O, otağa qalxa-qalxa yenidən qadına zəng etdi. Ancaq telefona cavab verən olmadı. Yır-yığışa isə az vaxt sərf olundu. Otağını tərk etməzdən əvvəl Müslüm yenidən telefon nömrəsini yığdı. Və yenidən uzun-uzadı fit səsinə qulaq asdı.

Müslüm aeroportda tələsik qeydiyyatdan keçdi və onu müşayiət edən prokurorluğun əməkdaşı ilə sağollaşdı və telefon budkasının üzərinə şığıyaraq, artıq ona itaət etməyən barmaqları ilə Veranın telefon nömrəsini yığdı. O, həyəcandan əllərinin necə titrədiyini hiss edirdi. Nəhayət, Veranın səsini eşitdi.

– Mənəm, - deyə Müslüm tələsik dilləndi. – Aeroportdan zəng edirəm.

– Mən artıq sənin səsini eşitməyə vərdiş etmişəm, - deyə o, şən bir tərzdə söylədi. – Sən ora kimisə qarşılamaq üçün getmisən?

– Xeyr. – Müslüm yola düşmə xəbərini söyləməyin bu qədər müşkül olduğunu təsəvvürünə belə gətirmirdi.

– Sənin orada nə işin var? – deyə Vera soruşdu. – Nə üçün aeroporta getmisən? Olmaya hansısa bir mafioz yaxalayırsınız?

– Yox. Mən yola düşürəm. – Müslüm nəfəsini dərdi.

– Nə? – O, bu kəlmələrlə qadına necə dözülməz fiziki ağrı yaşatdığını hiss etdi. – Necə yəni, yola düşürsən? Elə bu dəqiqə?

– Bəli. Elə bu dəqiqə. Mən prokurorluğa getdim və mənə Bakıdan geri qayıtmaq barədə sərəncamın verildiyi

teleqramı təqdim etdilər. Mən artıq aeroportdayam, allo, sən məni eşidirsənmi?

– Yaxşı yol, - deyə o, ölgün bir səslə dilləndi. – Mən zənn edirdim ki, sən heç olmasa, mənimlə sağollaşmaq qərarına gələcəksən.

– Dayan, - Müslüm elə qışqırdı ki, bir neçə adam ona tərəf boylandı, - dayan, dəstəyi asma! Mən sənə hər şeyi izah edərəm.

– Bir halda ki, sən gedirsən, mənə nəyi izah etmək istəyirsən?

– Bir dəqiqə gözlə. Bizdə Bakıda faciə baş verir. Yenidən müharibə başlayıb. Bizim Dağlıq Qarabağdakı şəhərimizi yandırıblar. Prezidentimiz istefaya çıxıb. Şəhərə çaxnaşma düşüb…

– Bunun bizə nə dəxli? – deyə Vera soruşdu. – Sənə, ya da mənə?

– Başa düşmürsən? – deyə o, məyus halda qışqırdı. – Mən xüsusi cinayət işləri üzrə müstəntiqəm. Mən vətənimə qayıtmağa, işimə qayıtmağa borcluyam. Yəni, sən heç nə başa düşmürsən?..

– Mən sizin prezidentinizin istefaya çıxmasına görə həyəcan keçirməliyəm? – deyə Vera soruşdu. – Bəlkə sənin məni atmağına görə sevinməliyəm?

– Mən səni atmıram, - deyə o, yorğun halda ah çəkdi, - sadəcə, belə alındı. Axı sən nə üçün başa düşmək istəmirsən? Orada müharibə gedir…

– Yəni sən sadəcə, mənə baş çəkib, mənimlə vidalaşa bilməzdin?

– Mən sənə zəng edirdim. Amma telefon cavab vermirdi.

– Mən artıq bir saatdır ki, evə qayıtmışam. Sən bu bir saat ərzində zəng edə bilərdin.

– Biz maşında aeroporta gedirdik. Mən maşından zəng edə bilməzdim. Sonra isə aeroportda biletimi və yükümü siyahıya aldırırdım.

– Sənin hər şeyə hazır cavabın var. Bu, bir o qədər də vacib deyil, Müslüm. Ən başlıcası və məyusedici hal odur ki, sən gedirsən, mənsə tək qalıram. Bu hal bizim bugünkü görüşümüzdən dərhal sonra baş verir…

– Mən qayıdacağam, - deyə Müslüm vəd etdi. Həmin məqamda o, bu sözlərə həqiqətən də, səmimiyyətlə inanırdı. – Mən mütləq geri qayıdacağam və bizim şəhərimizə gedəcəyik. Üçlükdə, sənin qızınla.

– Müharibənin getdiyi bir yerə? – deyə Vera istehza ilə soruşdu. – Bilirsən nə var, mən onu bombalar və mərmilər altında böyütmək niyyətində deyiləm.

– Sən heç nə başa düşmədin, - deyə Müslüm astaca dilləndi, - sən sadəcə, heç nəyi başa düşmürsən.

– Ümidvaram ki, sən yenə də mənə zəng edəcəksən, - deyə o, vidalaşarkən bu sözləri söylədi. – Nə vaxt yola düşürsən?

– Elə indi.

– Yaxşı yol, - deyə o, ikinci dəfə öz arzusunu bildirdi. – Ümid edirəm ki, mənim telefon nömrəmi sən hələ də xatırlayırsan. İmkanın olsa, zəng et.

– Mütləq zəng edərəm. Xudahafiz.

O, yenə də nəsə əlavə etmək istədi. Veranı necə sevdiyini söyləmək istədi. Lakin onun yanında artıq uzun söhbətindən öz narazılığını ifadə edən ailə cütlüyü dayanmışdı. Müslüm heç bir söz demədi.

– Xudahafiz, - deyə Vera dilləndi və ilk olaraq dəstəyi asdı.

Axı Müslüm hardan biləydi ki, Vera dəstəyi asan kimi, döşəməyə çökmüş və ağlamağa başlamışdı. Axı Müslüm hardan biləydi ki, bütün gecə onun göz yaşı qurumaq bilməmişdi. Bakıya çatan kimi dərhal ona zəng edəcəyinə əmin idi.

Lakin respublikada baş verən hadisələr onun bütün planlarını alt-üst etdi. İki respublika – Azərbaycanla Ermənistan qarşıdurmasında hər iki xalq böyük itki vermişdi. Xüsusilə də, dinc əhali arasında çoxlu sayda qurbanlar olmuşdu. May ayında keçmiş prezident yenidən hakimiyyəti geri qaytarmaq üçün bir sıra cəhdlər həyata keçirdi. O, hakimiyyətdə yalnız bir sutka qala bildi və növbəti gün yenidən Prezident Sarayını tərk etməli oldu. Hərbi qarşıdurma isə davam edirdi. Respublikadakı hakimiyyəti Xalq Cəbhəsi ələ aldı.

Müslüm həmişə Veranı xatırlayırdı. Ona zəng etməyin lazım olduğunu düşünürdü. Bəzən o, Veraya zəng edir və uzun-uzadı fit səsini dinləməli olurdu. Rabitə qənaətbəxş deyildi, Müslüm Sankt-Peterburqla calaşdırılmasını saatlarla gözləməli olurdu. Şəhərdə elektrik, işıq və qazda fasilələr yaşanırdı. Onun boşanma prosesi məhkəmədə sona çatmışdı. Keçmiş arvadı ondan aliment almaqdan imtina etmişdi. Boşadığı arvadının varlı bir biznesmen dostu vardı. Sonra onu prokurorluq orqanından kənarlaşdırdılar. Daha sonra bir çevriliş də baş verdi, daha bir çevriliş cəhdi, daha bir qiyam həyata keçirildi, yanıb külə dönmüş şəhər və kəndlər, qaçqın və köçkünlər, təhlükəli ezamiyyətlərə göndərilmələr və yenidən onun işinə bərpa olunması. Nəhayət, Veraya zəng

etməyə macal tapanda isə məlum oldu ki, o, ailə qurub və harayasa köçüb.

Müslüm həmin anda bunun məhz belə olacağının gözlənildiyini düşündü. O, artıq bu cür həmin həyata vərdiş etmişdi. Qərb mağazalarına, Qərbin rahat həyat tərzinə, onların daha tox və təminatlı olmasına. Onun üçün doxsanıncı illərin əvvəllərində belə bir sarsıntının yaşandığı bir şəhərə gəlməsi çox müşkül məsələ idi. Ona belə bir həyat çox çətin və narahat görünürdü. Müslüm tədricən sakitləşməyə başladı. Ayrılıq ağrısı hələ də ondan get-gedə uzaqlaşan xatirələrində yaşayırdı. O, bir daha Vera ilə qarşılaşmayacağına inanırdı. Heç bir vaxt onun başına nələrin gəldiyini və Veranın ikinci dəfə kiminlə ailə qurduğunu bilməyəcək.

Müslümün Leninqrad və Sankt-Peterburqa qeyri-adi səfərləri öz mahiyyətləri etibarilə həyatının ən parlaq xatirəsinə çevrildi. Hətta onun iki dəfə yaralandığı Əfqanıstan da. Onun evliliyi və qızının dünyaya gəlməsi, prokurorluqdakı iyirmi illik işi belə onda bu qədər iz buraxmamışdı. Şimal paytaxtına iki qeyri-adi səfər. Səksəninci ilin yay ayında «Moskva» mehmanxanasında naməlum qadınla və doxsan ikinci ilin qış ayında Vera Klimenko ilə görüş. Hər iki görüş onun üçün karmalı olan həmin illərə – onun iyirmi dörd və otuz altı yaşının tamam olduğu illərə təsadüf etmişdi. Bəlkə də elə buna görə, onun yenidən Sankt-Peterburqa yollanmasının lazım olduğunun bildirildiyi vaxt bu qədər heyrətlənmişdi. Bəlkə də o, buna görə, buraya belə bir həvəslə gəlmişdi. Üçüncü görüş baş tuta bilməzdi, bunun üçün o, əvvəlki həyatının təsiri altında kifayət qədər dağınıq vəziyyətə düşmüşdü. Lakin üçüncü görüş baş tuta da bilərdi, axı iki min dördüncü il onun üçün yenə də karmalı idi. Elə buna görə də,

o, Sankt-Peterburqa mümkün möcüzənin baş verəcəyi inamı ilə uçurdu. Müslüm Vera ilə rastlaşanda da möcüzə baş vermişdi. Ancaq o, hətta təsəvvürünə belə gətirməzdi ki, həyatda daha mümkünsüz təsadüflər də baş verə bilər.

## *Onuncu fəsil*

«Meymun ili və İt bürcü altında doğulan insanlar arasında bəzi münasibətlərin qurulması mümkündür. Lakin bu münasibətlər çox ötəridir və sabit xarakterə malik deyildir. Münasibətlərdəki problematikliyin səbəbi həm də onların hər ikisinin abırsız olması ilə bağlıdır. Buna görə də, onlar bir-birinə qarşı olan münasibətlərdə heç vaxt boş illüziyalara qapılmırlar».

*(Şərq Ulduz falından)*

Onlar bir-birinə baxır və burada nələrin baş verdiyini başa düşmürdülər. Bu vəziyyətdən heç nə anlamayan isə ilk növbədə Vera Dmitriyevna Radvolina idi. O, hər ikisinin arasında dayanmışdı və gah anasını, gah da Müslümü süzürdü.

– Nə olub ki? – deyə soruşdu. – Nə üçün belə donub qalmısınız? Məgər siz tanışsınız? Nə baş verib?

Müslüm sanki döşəməyə mıxlanmış kimi dayınmışdı. Bu məqamda hətta binada ildırım vursa və ya onların önündə qanadlı mələk peyda olsaydı belə, bu, onu Veranın söylədiyi son kəlmələrdən daha az heyrətləndirərdi. O, «ana» dedi. Hal-hazırda onun qarşısında belə bir gözəl paltoda və qəşəng şlyapada dayanan qadın onun uzaq səksəninci ilin yay ayında görüşdüyü həmin qadın idi. Yanında dayanmış Vera isə onun

qızı və onun doxsan ikinci ilin qış ayında aşiq olduğu həmin qadın idi. Bütün bunlar onun beynində bir-birinə qarışmışdı.

– Bu sizsiniz? – deyə Müslüm Veranın anasına müraciət etdi. – Marina Borisovna, yəni bu, doğrudanmı sizsiniz? Gör bir nə qədər vaxt ötüb.

– İyirmi dörd il, - deyə Marina Borisovna dərhal dilləndi, - bizim görüşümüz, əgər xatırlayırsınızsa, Moskvada Olimpiadanın keçirildiyi ildə baş vermişdi. Düz iyirmi dörd il bundan əvvəl.

– Ana, bu kimdir? – deyə Vera Dmitriyevna soruşdu. – Sən mənə nəsə bir şey izah edə bilərsən?

– Bu, mənim sənə barəsində danışdığım həmin o kişidir, - deyə ana Müslümə nəzər yetirərək, məsələyə aydınlıq gətirdi, - Əfqanıstana təyinat almalı olan həmin o gənc zabit. Biz onunla səksəninci ilin yay ayında «Moskva» mehmanxanasında görüşmüşdük.

– Axı sən deyirdin ki, o, həlak olub, - deyə Vera Dmitriyevna titrək səslə dilləndi. – Mən sənin dediyin sözləri yaxşı xatırlayıram.

– Mən onun barəsində məlumat toplamağa çalışmışdım, - deyə ana dilləndi. – Mənə onun ağır yaralanaraq, hospitalda dünyasını dəyişdiyini söylədilər. Mən hətta rəsmi bildiriş də almışdım…

– Bu, ayrı Səfərov idi. Rostov-Dondan olan Qriqori Səfərov, - deyə Müslüm izah etdi. – Onun ölüm xəbəri bizə göndərilmişdi, mənim məktubumu isə onun doğmalarına göndərmişdilər. Sonra səhvlərini düzəltdilər və harada hansı Səfərovun olduğunu müəyyən etdilər.

– Sən heç vaxt onun adını mənə demirdin, - Vera pərt halda qeyd etdi.

– Nə üçün deməliydim? – deyə ana soruşdu. – O, yalnız mənim hafizəmdə yaşayırdı. Mən onun həlak olduğuna əmin idim.

– O isə dirildi və iyirmi dörd il sonra yenidən bizim yanımıza qayıtdı, - deyə Vera əsəbi halda vurğuladı. – Əgər sən o vaxt mənə onun adını desəydin, ola bilsin ki, bizim aramızda intim əlaqə baş veməzdi.

– Nə danışırsan? – deyə anası ona tərəf çevrildi. – Bu, sənin görüşdüyün və Bakıdan gəlmiş həmin o kişidir?

– Bəli, - deyə Vera amansızcasına bildirdi, - özüdür ki, var. Əgər sən mənə onun adını desəydin, çox ehtimal ki, hər şey ayrı cür olardı…

– Axı heç sən də mənə onun adını deməmişdin, - deyə ana etirazını bildirdi. – Mənsə düşünürdüm ki, kifayət qədər gəncdir. Lakin bu, necə ola bilər? O vaxt neçə yaşı vardı?

– Mən onunla görüşəndə mənim artıq iyirmi səkkiz yaşım, onun isə otuz altı yaşı var idi, - deyə Vera tələsik dilləndi. – Deməli, sənin o vaxt qırx altı yaşın var imiş. Sən onunla görüşəndə isə sən… otuz dörd yaşında idin, ana, sən mənim indiki yaşımdan altı yaş gənc idin. Və sən, - deyə o, Müslümə müraciət etdi, - sən isə… mənim anamla yatmısan. Bütün bu hadisələrdən sonra isə hələ bir mənimlə də görüşməyə cürət etmisən.

– Mən onun sənin anan olduğunu bilmirdim, - deyə Müslüm özünü hansısa bir sarsaq məzhəkənin iştirakçısı yerinə qoyaraq dilləndi. – Mənim o vaxt iyirmi dörd yaşım var idi, - deyə Müslüm xatırlatdı, - səninlə görüşəndə isə artıq otuz altı yaşım vardı. Həmin il mənim öz ilim idi. Meymun ili.

– İndi o, yenidən buraya gəlib, - deyə Vera dəhşətə gəldi, - üçüncü dəfə, ana. İlk görüşdüyü adam da Nataşa olub.

– O, Nataşa ilə də yatmağa macal tapıb? – deyə daha abırsız olan ana soruşdu.

– Sən nə daşınırsan, ana! – Vera səsini qaldırdı. – Bu cür hadisəni necə gümanına gətirə bilirsən?

– Axı sən onunla yatmısan, - deyə ana israrla qızına xatılatdı, - sən mənə öz sarsıntıların, onu necə bəyəndiyin barədə danışırdın. O vaxt biz onun geri qayıtmasını və ya zəng etməsini gözləyirdik.

– Amma gözləməklə də heç nəyə nail olmadıq, - deyə Vera anasının səs tonuna uyğun tərzdə dilləndi. – O, indi yanımızdadır və biz səninlə onun nə vaxt, kiminlə görüşdüyünü ayırd etmək naminə sarsaq bir deyişmə ilə məşğuluq. O, həmişə bizim ailəmizdə peyda olan Əbədi Cuhud kimi bir şeydir. Əsrin dörddə bir ili ərzində…

– Mən onun həlak olduğunu zənn edirdim, - deyə ana asta səslə təkrarladı, - elə bu səbəbdən də, sənə onun adını açıqlamırdım. Sən mənə Bakıdan gəlmiş bir gəncə vurulduğunu deyəndə isə bunun bir alın yazısı olduğunu düşündüm. Məndə heç nə alınmamışdı, deməli, növbəti cəhd sənin tərəfindən həyata keçirilməli idi.

– Səndə alınıbmış, - Vera acı-acı dedi, - hətta kifayət qədər yaxşı alınıbmış. Mənsə onun geri qayıtması ilə hər şeydən məhrum oldum. Oturub, onun telefon zənglərini gözləyirdim. Hər şey necə də mənasızdır. Bəlkə də sənin mənə nağıl etdiyin Bakıdan olan həmin o naməlum leytenantla görüşün barədə hekayənin təsiri altında bu insana alüdə olmağı özümə rəva bilmişəm.

– Dünyanın bütün günahlarını üstümə yıxma, - deyə ana etiraz etdi, - heç kim hadisənin məhz bu cür alınacağını ağlına belə gətirməzdi.

– Ancaq bu, baş verdi! – deyə Vera səsini qaldırdı. – Sən hazırda məni nə vəziyyətə saldığını təsəvvürünə gətirə bilərsənmi? Gör necə də axmaq vəziyyətdəyəm.

– Belə şişirtmək lazım deyil, - deyə ana bildirdi, - heç bir qeyri-adi hadisə baş verməyib. Yaxşısı budur, gəl sakitləşək və sonradan necə davranacağımıza qərar verək…

– Sonradan o, Nataşaya, sənin nəvənə, mənimsə qızıma zəng edəcək, - deyə Vera əsəbi halda bildirdi. – Sonra isə nə desən ola bilər. Bizim ailəmizdə, görünür, bu tipə qarşı genetik bir meyil var. Ana, gəl bu xoşagəlməz söhbəti tamamlayaq. Mən nə edəcəyimi belə bilmirəm. Bilmirəm, nə deyim. Yaxşı olar ki, mən qonaqlarımın yanına qayıdım, sizinlə birlikdə burada qalmaq mənim üçün çətindir.

O, çevrildi və dabanlarını yerə vura-vura böyük zala keçdi. Ana uzun müddət onun arxasınca baxa-baxa qaldı, sonra isə yenidən nəzərlərini Müslümə zillədi.

– Mən sənin sağ qaldığına həqiqətən də, sevinirəm, - Marina etiraf etdi, - sanki sən ölülərin arasından sağ-salamat çıxmısan. Bu, qeyri-adi bir şeydir. Necəsən, Müslüm? Bütün bu illər ərzində harada idin?

– Döyüşürdüm. İşləyirdim. Sonra yenidən döyüşdüm və yenidən işlədim. Doxsan ikinci ildə buraya bir daha qayıtdım və sənin qızınla tanış oldum. Vera sənin ezamiyyətdə olduğunu deyirdi.

– Doğrudur. Mən şəhərdə deyildim.

– Sənə şəxsi sualla müraciət edə bilərəmmi?

– Əlbəttə, - Marina Borisovna gülümsədi. – Mənim ki səndən heç bir sirrim yoxdur.

– Sənin neçə yaşın var? Məhz indiki məqamlarda neçə yaşındasan? Mənim hesablamalarıma görə, altmışa yaxın yaşın olmalıdır.

– Şişirtmə, - deyə qadın gülümsədi, - bu cür yaş söhbəti həmişə insana pis təsir bağışlayır, ələlxüsus da, mən yaşda olan insana. Cəmi əlli səkkiz yaşım var, Müslüm. Elə bilirdim ki, birlikdə keçirdiyimiz o yeganə gecənin xatirəsi kimi hafizənə həkk olunacağam. Lakin sən heç nəyi anlamadın. On iki il sonra ona bənzər bir «hoqqa»nı qızımla yenidən təkrarladın. Mənim qızıma - ürəyi soyuq və adamayovuşmaz qızıma rast gəldin. Onu uzun-uzadı gediş-gəlişlərinlə bezdirərək, ürəyinə girdin. Harada yaşadığını öyrəndin, öz avtomobilini harada saxladığını və kiminlə ünsiyyətdə olduğunu aydınlaşdırmağa çalışdın. O vaxt imkanların geniş idi, sən o vaxt artıq xüsusi cinayət işləri üzrə müstəntiq idin.

– Haqqımda hər şey bilirsən.

– O vaxt qızım mənə hər şeyi danışmışdı. Sən öz varlığını ona xatırlatdıqca mən onun əzab çəkdiyini və iztirablara sinə gərdiyini görürdüm. Ancaq sən ona zəng etmədin. İki ildən sonra isə o, Radvolinə ərə gedib, Stokholma köçdü. Məhz mənim israrımla ərə getdi.

– Sən həmişə qətiyyətli davranışınla fərqlənmisən…

– Kinayə ilə danışma. Mən lazım bildiyimi etdim. O, ailə qurub, İsveçə getdi. O vaxt bu, şəhəri tərk etmək, yoxsulluqdan və bizim postsovet viranəliyindən yaxa qurtarmaq üçün ələ düşən yeganə imkan idi. Sonra isə onlar geri qayıtdılar və qızım kifayət qədər tez bir vaxtda Sankt-Peterburqdakı meriyada karyerasını qurmağa müvəffəq oldu.

Zənnimcə, Stokholm ezamiyyəti bu baxımdan onun dadına çatmışdı.

– Bir də sənin əlaqələrin, - deyə Müslüm istehza ilə dilləndi.

– Bir də mənim əlaqələrim, - deyə Marina Borisovna razılaşdı. – Lakin istənilən halda, mən onun təslim olmamasına və uzun həyat sınaqlarına məruz qaldıqdan sonra bizim meriyadakı belə bir idarənin rəhbəri vəzifəsinə təyin olunmasına görə, onunla fəxr edirəm. Mən bununla fəxr edirəm, Müslüm.

– Səncə, Vera bütün bu sınaqlardan keçməli idi? – deyə Müslüm hiddətləndi. – Vera ona görə dul qalıb ki, əri ondan on beş yaş böyük olub.

– Ona rəhm etmək sənin öhdənə düşmür, - deyə Marina Borisovna onun sözünü kəsdi, - sənin öhdənə düşmür, Müslüm. Sən onun həyatını bərbad etmək üçün əlindən gələni etdin. Vera o vaxt birinci həyat yoldaşı ilə ayrılmalı oldu, baxmayaraq ki, bir qədər də səbr edə bilərdi. Əri Veranı boşamaq istəmirdi, lakin ayrılmaqda təkid edirdi. İndi mən onun məhz səninlə görüşdən sonra inadla ayrılmaq istədiyini anlayıram.

– Məni incitmək üçün qəsdən bu sözləri söyləyirsən?

– Xeyr. Mənim hafizəmdə bizim görüşümüz barədə ən yaxşı xatirələr yaşayır. Mən bir qadın kimi sənə həmişə minnətdar olacağam. Sən o vaxt məndə özümə inam aşıladın. O vaxt məhrum olduğum tarazlığı əldə etməyimə kömək etdin. Mənə elə gəlirdi ki, əgər mən sənin tək namuslu, cəsur və səmimi bir gənclə görüşsəm, çox şeyi anlamış olaram və daxilən də dəyişərəm. Elə belə də alındı. Sən mənə o vaxt çox kömək etdin. Sən heç təsəvvür də edə bilməzsən necə. Səninlə

keçirdiyim o gecədən sonra mən daha məqsədli, daha qətiyyətli və daha səbatlı bir şəxsə çevrildim. Mən özümə, öz qüvvəmə və öz imkanlarıma inanmağa başladım. Buna görə mən sənə minnətdaram… Ancaq bir ana kimi… Sən mənim qızımı incitmisən. Lakin onu da bilirəm ki, o, məhz bunun sayəsində bu gün gördüyün adama çevrilib. Çətinliklərə sinə gərməyi bacarıb, sınaqlardan üzüağ çıxıb, onun üçün zəruri olan sərtliyi, hətta deyərdim, qəddarlığı əldə edib. Ancaq sən onun qəlbini qırmısan, bu cür şeyləri isə analar adətən, bağışlamırlar…

– Məndən nə istəyirsən?

– Nə üçün sən yenidən buraya gəldin? Olmaya, artıq iki dəfə baş vermiş hadisənin təkrarlanacağını güman edirsən? Lakin Nataşa mənimlə Vera kimi deyil. O, tamamilə fərqli bir insandır… Elə sənin özün də onun üçün həddən artıq qocasan…

– Sərsəm fikirlər bildirirsən. Mən buraya bir müstəntiq kimi, bizim diplomatımızın kimin tərəfindən qətlə yetirildiyini aydınlaşdırmaq üçün gəlmişəm. Ora sonuncu baş çəkən də sənin nəvən, Nataşa olub. Mən artıq iki gündür ki, onu xilas etmək və eyni vaxtda həmvətənlərimin qəzəbinə gəlməməsi üçün əlimdən gələni edirəm. Sənsə elə güman edirsən ki, mən yalnız sənin nəvənlə yatmaq istəyirəm.

– Nataşa ora getmiş olan sonuncu adam olmayıb, - deyə Marina dərhal dilləndi, - axı sənə onun heç də sonuncu adam olmadığı məlumdur…

– Hə, mənə sənin qızın hər şeyi nağıl edib. Onlar ora birlikdə gediblər. Əvvəlcə Nataşa yuxarı qalxıb, o, geri qayıdandan sonra yuxarı Vera qalxıb. Təsəvvür edirəm, o,

necə qəzəblənib, axı Nataşa anasının yanına göz yaşları içində qayıdıbmış.

– Sənə hər şey bəllidir? Görünür, sizdə belə bir sabit ənənə mövcuddur, - deyə Marina əsəbi halda dilləndi, - bizim şəhərimizə gəlib bizim qadınlarla görüşmək. Mənim bacımın nəvəsi ondan hamilə qalmışdı və Nataşa da ona hər şeyi izah etmək üçün ora gedibmiş.

– Bu cür hallarda ən yaxşısı iki şəxsin münasibətinə müdaxilə etməməkdir, - Müslüm dedi.

– Qız xəstəxanada yatırdı və özü mərhumla söhbət etmək üçün yanına getmək iqtidarında deyildi. Yəni, sən həqiqətən də, heç nə anlamırsan? Nataşa onunla birlikdə böyümüşdü, onunla rəfiqəlik edirdi, onu demək olar ki, doğma bacısı hesab edirdi. Nataşa ora həmin gəncin başına bir qədər ağıl qoymaq ümidi ilə gedibmiş. Bundan sonra isə faktiki olaraq, onu mənzilindən qovub. Vera yuxarı qalxaraq, mərhuma ağzına gələni deyib. Bu sözləri Nataşa ona heç bir vaxt söyləyə bilməzdi.

– Mən təqribən elə bu cür də düşündüm.

– Amma Vera onu qətlə yetirməyib, - deyə Marina Borisovna dərhal əlavə etdi, - əgər sən bu barədə də düşünmüsənsə. O, şəhərdə həddən artıq məşhur adamdır. Deputat, idarə rəisi. Bir sözlə, Vera onu öldürməyib.

– Müstəntiq Vera Dmitriyevnanın o mənzildə olmasından xəbərsizdir, - deyə Müslüm qaşqabaqlı bir tərzdə dilləndi, - o, hətta bundan şübhələnmir də. Lakin müstəntiq bunu öyrənə də bilər və o vaxt Veranın heç bir alibisi olmayacaq.

– İstənilən halda, onda mərhumu qətlə yetirməməyi barədə təkzibedilməz alibi olacaq, - deyə Marina qətiyyətlə bildirdi. – Buna sənin qətiyyən şübhən olmasın.

– Nə üçün bu qədər əminsən?

– Mən nə dediyimi bilirəm. Sən harada qalırsan?

– «Oktyabr»da.

– Pis mehmanxanadır, - Marina Borisovna narazı halda dedi, - baxmayaraq ki, bizim Suvorov prospektindəki köhnə evimizə yaxındır…

Müslüm qəfildən Marinanın uzaq səksəninci illərdə söylədiyi kəlmələri xatırladı. Marina hansı otaqların qulaqcıqlar vasitəsilə dinlənildiyini dəqiq bildiyini söyləmiş və əlavə etmişdi: «Məni yalnız bir müddətliyinə geri çağırıblar. Mən buraya yaxın yerdə yaşayıram, əslində isə əksər hallarda müxtəlif yerlərdə oluram». Marina o vaxt yaxınlıqda yaşadığını demişdi, lakin sonra, doxsan ikinci ildə Müslüm bu sözləri nədənsə heç xatırlamamışdı. Onun Marina Borisovna ilə görüşü hansısa bir qeyri-real yuxu, prinsip etibarilə baş verməsi mümkün olmayan və deməli, prinsip etibarı ilə baş verməmiş bir hadisə idi. Lakin o, Veranı həqiqətən də bəyənmişdi. Müslüm onu o dərəcədə bəyənmişdi ki, hətta Veranı özü ilə istənilən yerə aparmağa belə hazır idi. Veranı özü ilə Bakıya aparmağa hazır idi.

– Olmaya, sən yenə mənim otağıma gəlmək istəyirsən? – deyə Müslüm soruşdu.

– Yenə də özünü saxlaya bilməyib, mənə iyrənc sözlər dedin, - deyə Marina donquldandı. – Əgər mən səndən on il böyüyəmsə, bu heç də mənim qoca qarı olmağım mənasını vermir. Almaniyada məndən yaşca on iki il böyük olan dostum olub…

– Sən get-gedə daha da təkmilləşirsən, - deyə Müslüm kinayəsiz dilləndi.

– Yenə də acı ifadələr? Mən sənə həqiqəti söyləyirəm. Əlbəttə, sənin yanına mehmanxanaya gəlməyəcəyəm. Sən artıq mənim idealım deyilsən. Qocalmısan, hüznlü bir deyingənə çevrilmisən, səndə hətta bir balaca dazlıq da əmələ gəlib. Yox, mən səni bu vəziyyətdə demək olar ki, bəyənmirəm. Yalnız keçmişimdə olan xoş bir xatirə kimisən.

– Amma sən yaxşı qalmısan. Çox yaxşı. Heç elə bil iyirmi dörd il keçməyib.

– Cərrahiyyə möcüzə yaradır, xüsusən də, alman cərrahiyyəsi, - deyə Marina gülümsədi. – Bütün bunlar artıq həqiqi deyil, heç olmayacaq da.

– Sən mənə bunu söyləməyə də bilərdin.

– Axı nə üçün? Mən ki yaşımı gizlətmirəm. Mənim üçün hazırda ömür sürdüyüm kimi yaşamaq çox rahat və qənaətbəxşdir.

– Bəs sənin qızın üçün?

– Bu, onun şəxsi seçimidir. Hər halda, mən hesab edirəm ki, ona belə bir parlaq karyera qurmaqda kömək edə bilmişəm. Qadın üçün isə bu, heç də pis deyil.

– Qadın üçün ailə səadəti daha mühümdür. İstənilən qadın üçün, Marina. Bu sənə hər kəsdən daha yaxşı bəlli olmalıdır.

– Mənimlə bu barədə danışmağa belə cürət etmə. O, səni elə bir məhəbbətlə sevirdi ki, sənin yolunu gözləyirdi. Sənsə onun qəlbini qırdın. Gəl yaxşısı budur, bu söhbəti bitirək, əks təqdirdə, mən də özümü saxlaya bilməyib, sənə bir yığın çirkin sözlər söyləyərəm.

– Mən bizim bu cür görüşəcəyimizi heç düşünməzdim.

– Mənsə düşünməyə borcluyam. Sən indi ya otelə qayıdacaqsan, ya da şam yeməyi yeyəcəksən. Mənsə Veranı necə sakitləşdiricəyimi düşünməliyəm. Təsəvvür edirsənmi, bu onun üçün necə bir sarsıntı olub – onun anasının dostunun kim olduğunu öyrənmək. Belə zərbələri sakit qarşılamaq asan deyil.

– Biz səninlə görüşəndə o, hələ məktəbdə oxuyurmuş…

– Bəli, - deyə Marina razılaşdı, - bu həqiqətən də belədir. Onun o vaxt on altı yaşı vardı. Lakin bu, qızımın vəziyyətini yüngülləşdirməyə kifayət etməz. Bir də unutma, hazırda onu daha çox qızının təhlükəsizliyi problemi narahat edir. Vera öz qızının təqsirsiz olduğunu müstəntiqə sübut etməkdən daha çox onu sənin həmvətənlərinin təqibindən və qisasından qorumalıdır. Bu isə iki müxtəlif vəzifədir, Müslüm. İstənilən halda, sən istintaqı nə qədər tez tamamlayarsansa, bir o qədər də tez buranı tərk edərsən. Biz də əmin olarıq ki, bizim Nataşa üçün təhlükə sovuşub.

– Mən ona kömək etməyə çalışaram, - deyə Müslüm bildirdi, - lakin mən sənin qızının da həmin o həlledici zərbəni ona yetirmədiyinə dəqiq əmin olmalıyam.

– Sən buna tamamilə əmin ola bilərsən, - deyə Marina Borisovna bir qədər müəmmalı tərzdə dilləndi və restoranın zalına daxil olmaq üçün arxasını ona çevirdi.

– Dayan, - deyə Müslüm onu ayaq saxlamağa məcbur etdi, - nə üçün sən bu qədər əminsən?

– Mən nə dediyimi bilirəm, - deyə Marina qətiyyətlə bildirdi. – Həmin mənzilə sonuncu baş çəkən mənim qızım olmayıb. Bu, heç mənim nəvəm də olmayıb. Sizin diploma-

tınızın yanına sonuncu gedən kəs mən olmuşam. Onun yarısında. Belə bir variant səni qane edirmi?

Müslüm onun bu kəlmələrindən sarsıldı. Anbaan vəziyyət daha da kəskinləşir. Deməli, həlak olanın mənzilinə bu ailənin hər üç nəslinin nümayəndəsi gedbmiş. Əvvəlcə nəvə, sonra qız, sonda da ana. Hər bir növbəti gedişdən sonra Famil İzmaylovun sağ qalma şansı da bir o qədər azalıb.

– Məni yalnız həqiqət qane edir, - deyə Müslüm nəfəsini dərdi, - həqiqətdən savayı heç bir şey…

## *On birinci fəsil*

«Meymun bürcü atlında anadan olanlar istənilən sahədə müvəffəqiyyətə nail ola bilərlər. Kommersiya, sənaye, biznes və elm sahəsində. Onlar xüsusilə də, ali savada malik olduqları təqdirdə, istənilən işin qulpundan yapışmağa və istənilən bəşəri fəaliyyətdə inkişaf etməyə qadirdirlər».

*(Şərq Ulduz falından)*

Marina Borisovna qızının dəhlizə çıxacağından ehtiyat edərək, bayaq Veranın arxasında gözdən itdiyi qapıya nəzər saldı.

– Mən müstəntiqlərin ora yollanacaqlarını bilirdim, - Marina cəld dedi, - elə bu səbəbdən də, onlara heç bir şey demədim. Özüm üçün Almaniyadan gətirdiyim xüsusi maşınım var. Gümüşü «Opel»im. Gözdən yayınmaq və Liqovsk prospektinin kameralarına düşməmək üçün də xüsusi səriştəyə malikəm. Həlak olan şəxsin həyətində keçid qapısı var. Mən maşınımı qonşu küçədə saxladım, həyətlərin içindən

keçdim və Veranın maşını oradan uzaqlaşanda evə girdim. Nəvəm Nataşa ilə birlikdə həmin bu abırsız gəncin yanına getmişdi. Mən maşının həmin məkandan uzaqlaşmasını gözlədim və yalnız bundan sonra yuxarı qalxdım.

Müslüm Marina Borisovnanın sözünü yarımçıq kəsməməyə çalışaraq, diqqətlə qulaq asırdı.

– Mən Familin yanına qalxdım və uzun müddət qapısının zəngini basdım. O, nədənsə qapını açmırdı. Mən onun necə qışqırdığını eşitdim. Yəqin ki, ona kimsə zəng vurubmuş. Sonra nəsə başqa bir səs eşitdim, sanki kimsə ona atəş açmışdı. Mən onun özünə sui-qəsd edəcəyini ağlıma da gətirmədim. Lakin o, nəhayət, qapını açdı və narazı halda mənim kim olduğumu soruşdu. Mən təcili söhbət etməyimizin gərəkli olduğunu izah etdim. Təsəvvür edə bilərsənmi, bu abırsız mənim gəlişimi sabaha qədər təxirə salmağın mümkün olub-olmadığını soruşdu. Mən qətiyyətlə bildirdim ki, olmaz və onun mənzilinə daxil oldum.

– Bu məqamdan etibarən hər şeyi daha təfərrüatı ilə danış, - deyə Müslüm xahiş etdi, - bu, mənim üçün çox vacibdir.

– Orada qeyri-adi heç nə yox idi. O, əsəbilik həddində idi. Mən onun Natalya və Vera ilə olan ağır söhbətdən sonra əsəb keçirdiyini anladım. Mən qonaq otağına keçdim və stulda əyləşdim.

Söhbət edərkən, onun cib dəsmalını əlinə alması məni heyrətləndirdi. O, yataq otağının qapısına yaxınlaşdı, onu açmağa cəhd göstərdi, ancaq heç bir şey alınmadı. O vaxt o, üzr istədi, dəhlizə çıxdı, oradan isə yenə də harayasa keçdi və bir dəqiqə sonra qapını digər tərəfdən açaraq, yataq otağından qonaq otağına daxil oldu. Mən onun mənzilinin bütün

otaqlardan ikitərəfli çıxışa malik olduğunu anladım. Lakin mətbəxlə iş otağı bir tərəfdə, qonaq otağı ilə yataq otağı isə digər tərəfdə yerləşmişdi. Yataq otağı ilə iş otağı arasında isə keçid var idi.

– Doğrudur, - deyə Müslüm dilləndi, - mən orada hər şeyi nəzərdən keçirmişəm. Sənə isə hər şeyi belə tez hesabladığına görə afərin. Köhnə təcrübənin nəticəsidir?

– Bu qədər ucadan danışma, - deyə Marina Borisovna xahiş etdi. – Mən hazırda Sankt-Peterburq universitetinin müəlliməsiyəm. Hüquq fakültəsindən dərs deyirəm. Yeri gəlmişkən, kriminalistika kafedrasının dosentiyəm.

– Sənin təcrübəli mütəxəssis olmağın məndə zərrə də olsa şübhə doğurmur. Sənin səlahiyyətli orqanlarda keçdiyin təcrübəni də nəzərə alıram.

– Bəsdir, zarafat etdin. Mən Famillə özünü heç də yaxşı aparmadığını izah etdim. Mən söhbətə başlarkən, deyəsən, o, yaman təəccüblənmişdi. Sonra isə ucadan gülməyə başladı. Bilmirəm, bəlkə də o, bu vaxt bir balaca özündə deyildi. Mən hətta ona bir vaxt azərbaycanlı dostumun olduğunu və ona sizlərin adətən, necə alicənab və etibarlı olduğunuzu dedim. Əlbəttə, ona sənin barəndə danışmırdım. Ancaq o, deyilənlərdən heç bir şey anlamadı. Ona heç bir şeyi sübuta yetirmək iqtidarında olmadığımı dərk edib, ayağa qalxdım və onun mənzilini tərk etdim. Pilləkənlərlə aşağı düşdüm və heç kimin gözünə görünməmək üçün həyətlərin içindən keçərək, oradan uzaqlaşdım.

– Bu, nə vaxt baş verib?

– Təqribən saat onun yarısında. Bəlkə də bir qədər gec, o vaxt «Zaman» verilişi sona çatmaq üzrə idi. Ona on və ya on beş dəqiqə qalmışdı.

– Aydındır.

– Sənin həmyerlilərin onun Nataşanın qətlə yetirildiyini zənn edirlər? Amma bu, çox sarsaq bir fikirdir. O, gənc qızdır, onun cəmi iyirmi yaşı var və tibb institutunun tələbəsidir.

– Zərbəni də haraya və necə endirməyin lazım olduğunu bilən qızdır, - deyə Müslüm xatırlatdı.

– Elə demə. O, hələ uşaqdır. Sadədil və sadəlövhdür. Nataşa öz xalası nəvəsinə havadar çıxmaq üçün ora getmişdi. O, öldürə bilməzdi, Müslüm, sən bunu başa düşməlisən.

Müslüm və Marinanın qarşısına onlara narazı halda nəzər yetirən ofisiant çıxdı. Onlar söhbət edərək, nə restorana daxil olur, nə də ki, dəhlizi tərk edirdilər. Nəhayət, Müslüm əlini qadına tərəf uzatdı və onlar birlikdə küçəyə çıxdılar. Axşamçağı hava çox sakit və sabit idi. Baxmayaraq ki, kifayət qədər şaxta var idi. Müslüm üzünü qadına tərəf çevirdi.

– Əvvəla, ondan başlayaq ki, mən sizin hər kəlmənizə inanmağa borclu deyiləm, Marina Borisovna, - deyə Müslüm rəhmsiz tərzdə mətləbə keçdi. – Fərz edək, yalnız fərz edək ki, mən o həlledici zərbənin məhz sənin nəvən tərəfindən vurulduğunu deyirəm. O halda, İzmaylovun mənzilində peyda olan ana bu səhnənin şahidi olub. Bəlkə də o, hətta bıçağı yaradan dartıb çıxarmaqda nəvəsinə kömək edib, lakin sonradan bunun heç bir fayda verməyəcəyini anlayan qadın, mənzilə Natalyanın oranı tərk etməsindən dərhal sonra daxil olduğunu bəyan etməklə, qızını alibi ilə təmin etməyi qərara alıb.

– Sənin çox eybəcər və qorxunc fantaziyan var, - deyə Marina nifrət hissi ilə bəyan etdi. – Bu cür qəribəliklərlə necə işləyə bilirsən?

– Davam edək, - deyə Müslüm təklif etdi. – Əgər hər şey mənim fərz etdiyim kimidirsə, o halda, sən ora ağır yaralının döşəməyə sərələndiyi bir məqamda qalxmısan. Sən bu səhnəni görmüsən və ona kömək etməməyi qərara almısan. Sadəcə olaraq, qapını arxanca bağlayıb, oranı tərk etmisən. Hadisələrin bu kimi gediş variantına həm müstəntiq, həm də mənim həmyerlilərim inana bilərlər. Bu baxımdan mənim sənin ağır və qızının da mürəkkəb xarakterinə yaxşı bələd olmağımı da nəzərə almağın lazımdır.

– Hər dəqiqəbaşı sənin həm ana, həm də bala ilə görüşdüyünü vurğulamağa ehtiyac yoxdur, - deyə Marina xahiş etdi, - bu, hətta şərəfsiz bir hərəkətdir. Axı sənin özünə də yaxşı məlumdur ki, nə mən, nə də Vera sənin əslində, kim olduğunu hansısa bir möcüzə nəticəsində aydınlaşdırsaydıq, səninlə heç bir vəchlə görüşməzdik.

– Yaxşı ki, heç olmasa indi dediniz. İyirmi dörd ildən sonra.

– İnciməyə dəyməz. Mən həqiqəti söyləyirəm. Natalya heç kimi qətlə yetirməyib. Vera da heç kimi bıçaqlamayıb. Bütün bunlar bizim ailəmizə xas xüsusiyyət deyil.

– Nə dedin? – deyə Müslüm səksəndi.

– Heç nə. Mən sadəcə, bizim sənə göründüyü kimi, heç də əxlaqsız olmadığımızı bildirirəm.

– Siz heç bir vaxt mənə əxlaqsız qadın kimi görünməmisiniz, - deyə Müslüm qəmgin tərzdə etirazını bildirdi. – Səninlə görüşümdən sonra mən də fərqli bir insana çevrildim. Demək olar ki, sən məni əsil kişiyə çevirdin. Səninlə rastlaşana qədər mən hətta bizim orqanizmimizdə necə zəngin bir imkanların gizləndiyini təsəvvürümə gətirmirdim. Veraya gəldikdə isə… Bu, sadəcə, bir görüş

deyildi. İnan mənə. Mən o vaxt sadəcə, bütün ömrüm boyu axtardığım qadını tapdığımı hiss etmişdim…

– Onu atmaq üçün tapmışdın, - deyə o, dərhal əlavə etdi.

– Yox. Yox, yox. Əlbəttə, yox. Mən hər şeyin məhz bu cür alınacağını ağlıma belə gətirmirdim. Mən hətta bunu güman belə etmirdim. Lakin onun məni gözləmək üçün nə gücü, nə də ki, ağlı çatdı.

– Belə deməyə cürət etmə. Vera çox əzab çəkirdi…

– Elə möhkəm əzab çəkirdi ki, imkanlı adama ərə getdi. Bəlkə o, həmin Radvolinə o dərəcədə aşiq olmuşdu ki, dekabrist tək onun arxasınca Sibirə… pardon, İsveçə qədər getməyə hazır olub. Əslində, sən mənə onun necə əzab çəkdiyini söyləməyə cürət etmə. Mən onsuz da sənə inanmayacağam.

– Səninlə söhbət etmək mümkün deyil, - deyə Marina məyus halda dilləndi. – Yaman dəyişmisən. Əvvəllər bu cür güzəştsiz və qəddar deyildin.

– Əvəllər mən gənc oğlin idim, hazırda isə yaşa dolmağa başlayan kişiyəm. Mənim artıq əlliyə yaxın yaşım var, Marina Borisovna, ümidvaram ki, siz hələ də mənim neçə yaşda olduğumu xatırlayırsınız?

– Cəmi qırx səkkiz yaşdasan, - deyə Marina etiraz etdi, - yaşının da üzərinə iki yaş artırma. Hələ qocalmağa imkanın olacaq. İnan, bu, heç də sənə kənardan göründüyü tək xoş deyil.

– Mən sənin nəvənlə görüşüb söhbət etməliyəm, - Müslüm dedi. – Bu, mənim üçün əhəmiyyətlidir.

– Heç vaxt, - deyə Marina Müslümün sözünü yarımçıq kəsdi, - mən onu evdə bağlı qapı arxasında saxlayaram. Bircə

bu çatmırdı. Bəlkə sən ona nənəsi və anası ilə necə görüş-düyünü də danışasan? Təsəvvür edirəm, Nataşa sənin barəndə nə düşünər. Bu artıq heç Edip kompleksi də deyil, hansısa anlaşılmaz pozğunluqdur.

– Belə olan təqdirdə, müstəntiq məhz sənin nəvənə qarşı ittiham irəli sürmüş olacaq. Ona Natalyanın mənzilə anasının girməsindən sonra tam alibiyə malik olması da bəlli olmayacaq.

– Lakin hər şey məhz bu cür də olub, - deyə Marina pıçıldadı.

– Sən də bu tamaşada iştirak etmiş ola bilərsən. Sən kifayət qədər möhkəm zərbəyə maliksən, axı sən nə vaxtsa, demək olar ki, peşəkarcasına tennislə məşğul olmusan. Xəstə-xanada yatan qız isə sənin bacının nəvəsidir. Qisas almaq üçün kifayət qədər real səbəbdir.

– Mən gedirəm, - deyə Marina hiddətləndi, - səni dinləmək belə istəmirəm. Mən restorana qayıtmalıyam. Orada məni Almaniya və Avstriya nümayəndələri gözləyir. Mən on-larla  da görüşməliyəm.

– Qızının meriyada işə düzəlməsində sənin əlin olub? - Müslüm hər şeyi dərk edirmiş kimi bildirdi. – Əvvəlcə sıravi əməkdaş olub, sonra isə sən onu xidməti pilləyə doğru itələmisən.

– Niyə bu qənaətə gəldin?

– Universitet, - deyə Səfərov izah etdi. – Axı orada Rusiyanın ikinci prezidenti işləyib. Bundan əvvəl isə o da sənin kimi kifayət qədər səlahiyyətli orqanlarda çalışıbmış. O cümlədən də, Almaniyada. O, deyəsən, Drezdendə mühafizə dəstəsində işləyirmiş. Sən onu meriyada işə düzəltmisən, sonra isə məsul vəzifələrə irəli çəkmisən, indiki prezident

təyin olunanda isə sənin qızın dərhal yeni təyinat alıb. Gülüncdür.

– Prezident hər kəsdən daha çox işləyib. Beş nəfərin əvəzinə tər töküb. Bu səbəbdən də, o, bu vəzifəni tutmağa layiq idi. Mən onun növbəti seçkilərdə qubernator kimi namizədliyinin irəli sürüldüyünü görsəm, heç də təəccüblənmərəm. Bu post onundur. Elə o da bu posta layiqdir.

– Əgər o, həmin dövrə qədər meriyada işləməyə davam edərsə və onun karyerasının üzərindən yağlı bir qələmlə xətt çəkilməzsə.

– Nə demək istəyirsən?

– Natalya ora anasının xidməti maşınında gəlibmiş. Heç kim Veranı onun həlak olan İzmaylovun yanına qalxdığını görməyib. Lakin onun maşınını bir çoxları yadda saxlayıb. Bu faktı da sənin qızının xeyirinə istifadə etməyəcəklər. Özünü dəvəquşu kimi aparıb, başını qumun içində gizlətməyə də dəyməz. Bu, sadəcə, alınmayacaq. Bütün qəzetlər gec və ya tez bizim diplomatımızın başına gələnlərdən və Radvolinanın qızının həmin ünvana hansı maşında gəldiyindən xəbər tutacaqlar.

– Bizim ailəmizdən istədiyin nədir?

– Sabah səhər mən Kolpinoya gedəcəyəm, günorta isə Natalyanı mehmanxanada gözləyəcəyəm. Nəzərə al ki, bu, çox ehtimal ki, sizin sonuncu şansınızdır. Mən sizin ailənizə səmimi qəlbdən kömək etmək istəyirəm. Heç olmasa, sənə və sənin qızına qarşı olan minnətdarlıq hissinin əlaməti kimi.

– Bunu xatırlatmağa dəyməz, - Marina dedi. – Sən Veranın hansı vəziyyətə düşdüyünü gördün?  Mən onu başa düşürəm. Kişi ilə görüşmək, onunla ülfət yaratmaq, hətta ona

aşiq olmaq, sonra isə onun sənin ananla yatdığını bilmək. Adam bütün bunlardan havalana bilər.

– Mən ona heç bir şey danışmamışam, - Müslüm xatırlatdı, - eşq məcaralarınızdan əldə etdiyiniz hisslərinizi də bir-birinizlə bölüşən siz olmusunuz. Eşq məcaralarınızın başlıca mənbəyinin eyni şəxs olmasında da müqəssir yoxdur. Hər halda, mən hər kəsdən daha az müqəssirəm.

– O, sabah sənin yanına gələr, - deyə Marina Borisovna başını yellədi, - lakin onu da nəzərə al ki, Nataşa sənin yanına onu qaldığın otelin yanında gözləyəcək anasının maşınında gələcək.

– Sənin nəvəni məmuniyyətlə hardasa daha fərqli bir məkanda qəbul edərdim. Məsələn, bizim konsulluqda. Ancaq onun orada necə qarşılanacağını təsəvvürünə gətirirsənmi? Həlak olan diplomatın qohumlarının cəsədi bu gün vətənə yola salacaqlarından isə danışmağa dəyməz. Onlar hazırda elə bir vəziyyətdədirlər ki, sizin üçün ən yaxşısı indi onların gözünə görünməməkdir. Zənnimcə, sən məni anladın.

– Yaxşı, - deyə Marina razılaşdı, - sabah Natalya sənə baş çəkər. Bir də, sənə son iyirmi dörd il ərzində demək istədiyim bir söz var. Sən mənim həyatımda ən yaxşı və məzəli bir macəra olmusan. Xudahafiz.

Marina çevrilərək, restorana daxil oldu. Müslüm nəzərlərini çırpılaraq bağlanan qapıya tuşlayaraq, sanki nə edəcəyini qərara alıb, uzun müddət yerindəcə donub qaldı. Sergey axşamdan xeyli keçmiş onu mehmanxanaya apardı. Get-gedə artan yorğunluğunu hiss edən Müslüm duş qəbul edərək, yatağa yollandı.

Həmin gecə Müslüm dəhşətli yuxu gördü. Vücudlar bir-birinə qarışır və bir-birindən ayrılırdılar. Bu yeganə

vücudun iki siması var idi: Marina və Vera. Ana və bala. O, bir neçə dəfə yuxudan soyuq tər içində oyandı. Buna bənzər xəyallar onda dəhşət hissi oyadırdı. Səhərə qədər yataqda vurnuxan Müslüm dünən aeroportda sənədlərin tərtibatının necə getdiyini aydınlaşdırmaq üçün Sergeyə zəng etdi.

– Onlar hər şeyi özləri etdilər, - deyə Sergey qısaca məlumat verdi, - bizimköməyimizə isə heç ehtiyac da qalmadı. Familin atası xeyli pul xərclədi və bütün sənədləri qaydasına salmağa müvəffəq oldu. Dünən axşam onlar cəsədi Bakıya yolladılar. Bizim baş konsul şadyanalıq edir. Bizim üzərimizə düşən ən mühüm bir problemi həll etmək mümkün oldu.

– Konsula de ki, bu gün axşam mən onun yanına gələcəyəm, - deyə Müslüm vəd etdi. – Sənsə mənim yanıma gəl və biz Artyomun həyat yoldaşı ilə onun iki oğlunu görmək üçün Kolpinoya yollanaq.

– Mən artıq konsula bu barədə məruzə etmişəm. O, sizin şəhəri tərk etməyinizə icazə verib.

Bir saatdan sonra Müslüm və Sergey artıq avtomobilin salonunda əyləşmiş və Kolpinoya yollanırdılar. Yol kifayət qədər səliqəli idi, avtomobil tıxaclarına təsadüf olunmurdu və onlar kifayət qədər tez lazımi məktəbə yetişdilər. Müslüm yolda iri bir gül dəstəsi və iki qutu şokoladlı peçenye aldı. Məktəb yetərli qədər böyük və dördmərtəbəli idi. Binanın girişində ayıq-sayıq bir qarı növbə çəkirdi. Bütün gələnləri üzdən tanıyan və hər bir valideyni şagirdin adı ilə xatırlayan növbətçi. Heç bir dilətutmalar, heç bir sənədlər və hətta xüsusi cinayət işləri üzrə müstəntiqin prokurorluqdan alınmış vəsiqəsi də onların dadına çatmadı. Onlar uzun müddət növbətçidən onları məktəbin direktorunun yanına buraxmasını

xahiş etdilər və sonda ayıq-sayıq qadın onları lazımi otağa qədər ötürməyi öz öhdəsinə götürən tədris hissə müdirini çağırmalı oldu.

Məktəbin direktoru Alla Savelyevna Parmuzina bu vəzifəyə namizədlik dissertasiyasını müdafiə etdiyi pedaqoji institutdan keçmişdi. O, ərinin Sankt-Peterburqda qətlə yetirilməsindən bir il sonra buraya təyin olunaraq, artıq səkkiz ildən artıq idi ki, çalışırdı. Əvvəl yaşadığı mənzildə hər şey, hər cüzi şey ona ərini xatırladırdı.

Kolpinoda onlar üçün onun iki oğlu ilə birlikdə məskunlaşdığı iri üçotaqlı mənzil ayırmışdılar. Uşaqlar buranı bəyənirdilər, onlar onun işlədiyi məktəbdə təhsil alırdılar. Böyük oğlu artıq onuncu sinifdə, kiçiyi isə dördüncü sinifdə oxuyurdu. O, qonaqları ehtiyatla qəbul etdi, belə ki, növbətçi qadın ona artıq zəng edərək, məktəbə «prokurorların» gəldiyini xəbər verməyə macal tapmışdı. Parmuzina onların evində bir neçə dəfə qonaq olmuş və onun əri ilə uzaq doxsan ikinci ildə cütlük şəklində işləmiş Müslüm Səfərovu qarşısında görəndə necə də heyrətləndi. Alla Savelyevna hətta ağladı da.

Sonra onlar çay içə-içə Artyomu xatırladılar. O, iftixarla oğlanlarının rəsmini ona göstərir və onların nailiyyətlərindən bəhs edirdi. Xüsusilə da, böyük oğlu onu yamanca sevindirirdi, o, idmanla ciddi məşğul olur və ölkənin üzgüçülük üzrə gənclərin yığma komandasına daxil olmuşdu. Kiçik oğlu demək olar ki, atasını xatırlamırdı, böyük oğlu isə atasını xatırlamaqla yastığı qucaqlayaraq, göz yaşı axıdırdı. Lakin Alla Savelyevna bu barədə qonaqlara nağıl etmədi. Ancaq Müslüm Parmuzinlərin böyük oğlunu onun yanına çağırmalarını xahiş etdi. Oğlan bir neçə dəqiqədən sonra onun

qarşısında göründü. Oleq boylu-buxunlu oğlan idi, yaxşı qaməti vardı, üzgüçülərə xas tərzdə döş qəfəsi yaxşı inkişaf etmişdi. Yeniyetmə atasına bənzəyirdi. Oğlanın otağa daxil olması vaxtı Müslümün hətta tükləri də ürpəşdi.

– Siz məni çağırmısınızmı, Alla Savelyevna? – deyə o, anasına «siz» deyə müraciət edərək, soruşdu.

Onlar əvvəlcədən övlada qarşı heç bir güzəştin olmayacağına dair razılığa gəlmişdilər və ana onlar üçün məktəbdə yalnız tədris müəssisəsinin direktoru idi.

– Bizim qonağımız Bakıdan gəlib, - deyə Alla Savelyevna Müslümə işarə etdi. – O, Azərbaycan prokurorluğunun xüsusi cinayət işləri üzrə müstəntiqi Müslüm Səfərovdur. O, səninlə görüşmək istəyir. İyirmi il əvvəl atanla birlikdə işləyib.

Oğlan çevrilərək, qonağa baxdı. Onun baxışları Artyomun baxışlarını xatırladırdı. Müslüm qəhərləndiyini hiss etdi və boyu onunkuna çatan oğlana yaxınlaşaraq, çiyinlərini qucaqladı və onu öpdü.

– Sən necə də atana bənzəyirsən, - Müslüm dedi.

– Siz mənim atamı tanıyırdınız? – deyə Oleq soruşdu.

– Mən onunla birgə işləmişəm, - Müslüm dedi.

Qəfildən Müslümün ağlına bir fikir gəldi. O, məktəbin direktoruna tərəf çevrildi.

– Oğlunuzun sinfinə keçməyimizə etiraz etməzsiniz ki? – deyə soruşdu.

– Axı nə üçün? – məktəb direktoru başa düşmədi. – Ona demək istədiklərinizi mənim iş otağımda da deyə bilərsiniz.

– Xeyr, - deyə Müslüm inadla israr etdi, - mən bu kəlmələri sinifdə, onun yoldaşlarının yanında söyləməliyəm.

Xahiş edirəm, etiraz etməyin. Biz bu qədər uzun yol qət etmişik.

– Yaxşı, - deyə Parmuzina yaşlı dərs hissə müdirinə nəzər yetirərək razılaşdı, - biz hamımız birlikdə onun sinfinə gedərik. Oleq, sən sinfə qayıda bilərsən. Biz də sənin arxanca gəlirik.

– Mən sizin nə düşündüyünüzü anlamıram, - deyə Müslüm Oleqin təhsil aldığı sinfə dördlükdə, təhsil hissə müdiri və Sergeylə birlikdə daxil olarkən mızıldandı. Uşaqlar qonaqlarla salamlaşırmış kimi ayağa qalxdılar. Ədəbiyyat müəlliməsi ürkək bir tərzdə yerindəcə donub qaldı. O, məktəb direktoru ilə təhsil hissə müdirinin naməlum qonaqlarla qəfil-dən sinfə təşrif buyurmasının nə ilə əlaqədar olduğunu başa düşmürdü. Alla Savelyevna bir kəlmə də olsun ifadə etmədi, onun əvəzinə isə tarix müəllimi olan tədris hissə müdirinin danışmasına izn verdi. O, sinfin mərkəzinə keçdi.

– Əyləşin, uşaqlar, - deyə dərs hissə müdiri onların oturmalarına icazə verdi. – Bu gün bizə prokurorluğun əmək-daşları qonaq gəliblər. Mən sizlərə xüsusi cinayət işləri üzrə müstəntiq Müslüm Səfərovu təqdim etmək istərdim. O özü şəxsən sizin sinfə daxil olmaq istəyini bildirib. Gəlin ona söz verək.

Müslüm birinci partaya yaxınlaşdı. Yeniyetmələrin otuz cüt diqqətli və tələbkar baxışları ona zillənmişdi. Oğlanlar və qızlar diqqətlə ona baxırdılar. Üçüncü partanın arxasında isə Oleq Parmuzin əyləşmişdi.

– Mən sizə demək istəyirəm ki, - deyə Müslüm söhbətə başladı, - siz məktəbi bitirdikdən sonra artıq bir çox şeyləri bilmiş olacaqsınız. Sizdən kimsə təhsilini davam etdirməyi qərara alacaq, kimsə işləməyə gedəcək, bəzi uşaqlar

isə yəqin ki, hərbi xidmətə yollanacaqlar. Lakin siz harada olursunuzsa-olun, bir şeyi unutmamalısınız ki, çəkdiyiniz zəhməti və həyatınızı orduda və donanmada, milisdə və prokurorluqda, gömrükdə və sərhədyanı qərargahda - bunları çox sadalamaq olar - yəni hər yerdə qoruyan insanlar var. Onların hər biri sizin qanuni maraqlarınızın, hüquq və azadlıqlarınızın keşiyində durur. Ən mühüm rol isə Rusiyada qanuna nəzarətin ən ali orqanı olan prokurorluğa məxsusdur. Mən sizin yanınıza əsil qəhrəman barədə - Oleq Parmuzinin atası – mənim dostum və ortağım Artyom Parmuzin barədə danışmaq üçün gəlmişəm.

Müslüm uşaqları bu qədər maraqlandıracağını təsəvvürünə belə gətirmirdi. Ədəbiyyat müəlliməsi tez-tez burnunu silirdi. O, gözündən axan yaşdan xəcalət çəkərək, cib dəsmalını əlində tutmuşdu. Məktəb direktoru bir neçə dəfə gözündən axan sevinc yaşlarını sildi. Dərs-hissə müdiri isə qaşqabaqlı və sükut içində dayanmışdı. Müslüm isə söhbətini davam etdirməkdə idi. O, qızların Oleqə zillənən heyranlıqla, oğlanların isə qibtə hissi ilə dolu baxışlarını sezirdi. Bu cür də olmalıdır. Ona görə yox ki, onun anası məktəb direktorudur. O, öz vətəninə görə canını vəzifə başında fəda etmiş bir vətəndaşın oğludur. Oğlunun gələcəyi naminə.

Bu məqamda Müslüm onun öhdəsinə həlak olmuş Artyom tərəfindən həvalə olunmuş hansısa bir vəzifəni yerinə yetirdiyini zənn edirdi.

O, söhbətini tamamladı. Oleqin əyləşdiyi partaya yaxınlaşdı. Oğlan nəzərlərini ona dikib ayağa qalxdı.

– Mənim üçün sənin atan kimi peşəkar və cəsur bir vətəndaşla birgə işləmək böyük şərəf idi, - deyə Müslüm

bildirdi. – Heç bir vaxt atanın necə şücaətli insan olduğunu unutma və onun soyadını daşımağa layiq ol.

– Olacağam, - yeniyetmə ciddi tərzdə dedi.

Müslüm əlini ona tərəf uzatdı və əlini möhkəm sıxdı. Ədəbiyyat müəllimәsi artıq göz yaşlarını gizlətmədən hönkür-hönkür ağlayırdı. Alla Savelyevna isə sürətlə sinif otağından çıxdı. Yalnız yaşlı dərs hissə müdiri dişlərini bir-birinə sıxaraq, onların yanında dayanmaqda idi.

Maşın geri qayıdanda Sergey irəliyə baxaraq, uzun müddət susmaqda idi. Sonra isə qəfildən dilə gəldi:

– Görünür, həyatda çox zülüm çəkməli olmusunuz. Belə nöqteyi-nəzərlərlə yaşamaq isə həmişə müşkül olub…

Müslüm bir kəlmə də danışmadan çiyinlərini çəkdi.

– Siz bu gün mühüm bir iş gördünüz, - deyə Sergey həyəcanla dilləndi. – Siz otuz yeniyetməyə öz etiqadınızı aşıladınız. Onlar artıq heç vaxt ayrı cür ola bilməyəcəklər. Bu, sadəcə olaraq, onlarda alınmayacaq. Onlar hər vaxt sizin onlara verdiyiniz bu ibrət dərsini əbədi olaraq hafizələrinə həkk etdirəcəklər.

– Mən sadəcə, ədaləti bərpa etdim, - deyə Müslüm etiraz etdi. – Oğlan artıq on ildir ki, atasız böyüyür, onun atası alçaqlar və quldurlar tərəfindən qətlə yetirilib. Qoy bu uşaqlar bilsinlər ki, xeyirin də yumruğu olmalıdır, dünyada hələ çox əclaflar var. Lakin ən əsası, onların Artyom Parmuzinin hansı ideallar və prinsiplər uğrunda həlak olmasını dərk etmələridir. Qoy onlar bu ədaləti daim hiss etsinlər. Onun naminə mübarizə aparmağı bacarsınlar. Yalnız o vaxt bizim kimilərin yanında otuz nəfər çox adam olacaq. Bunun xətrinə Kolpinoya getməyə dəyərdi.

– Siz ki filosofsunuz, - deyə Sergey dalğın halda bildirdi.

– Artıq filosof olmağa başlayıram, - deyə Müslüm gülümsədi. – Yəqin ki, tezliklə ixtisasımı müəllim kimi davam etdirməli olacağam. Qoca yaşlarımda uşaqlarla ünsiyyət quracağam. Sən demə, bu, çox əyləndirici peşə imiş. Bütün cəmiyyətin sağlam olması üçün də faydalıdır. Elə deyilmi?

## *On ikinci fəsil*

«Meymun ilində bu bürc altında anadan olanlar yüngül narahatçılıq, təşviş və həyəcan hissi keçirməyə başlayırlar. Lakin onlar tədricən daxili harmoniya əldə etməyə başlayırlar. Əgər baş verən hadisələrə kənardan baxılsaydı, o halda, Meymunlar ətraflarındakı qələbəliyin onları yalnız əyləndirdiyi müşahidə edilərdi».

*(Şərq Ulduz falından)*

Natalya onun yanına günorta saat üçdə gəldi. Müslüm onu otağına aparmaq üçün qarşısına çıxanda Natalya hollda sükut içində başını məyus halda aşağı salaraq əyləşmişdi. Növbətçi qadın narazı halda başını yellədi. Yəqin ki, ona gənc qızın cənubdan gəlib burada məskunlaşmış qonağın yanına gəlməsi yumşaq desək, çox qəribə görünürdü. Lakin Müslüm növbətçi qadının məqsədli tərzdə köks ötürməsinə diqqət belə yetirmədi. O, Natalyanı öz otağına gətirdi. Natalya Müslümü onu maraqlandıran məsələlərdən danışmaq üçün yenidən əvvəlki yerində oturdu.

– Sən Familə əvvəlcədən onun yanına gələcəyini bildirmişdinmi? – deyə Müslüm dəqiqləşdirdi.

– Xeyr. Biz anamla birlikdə xəstəxanada idik və oradan da Familin yanına getməyi qərara aldıq. O, hətta Vikaya zəng də etmirdi. Mən anamı evdə qoydum və Liqovskiyə Familin yanına yollandım.

– Yalan başlayır, - deyə Müslüm sərt bir tərzdə onun ağzından vurdu, - mənə yalnız həqiqət lazımdır. Siz dərhal İzmaylovun yanına ananla birlikdə yollandınız.

– Bu sizə haradan məlumdur? – deyə qız heyrətləndi.

– Mənə hər şey məlumdur, - deyə Müslüm onun sözünü yarımçıq kəsdi, - ardını danış.

– Sizə bu barədə bizim sürücü nağıl edib? Lyoşa?

– Heç bir əsas olmadan adamlardan şübhələnməyə dəyməz. Bu barədə mənə sənin anan danışıb.

– Aydındır. Olar, mən sizə dərhal bir sualla müraciət edim?

– Bir sualla olar. De görüm.

– O, sizin məşuqəniz olub?

– Kimi deyirsən?

– Anamı.

– Niyə belə düşünürsən?

– Dünən axşam anamla nənəmin söhbətini eşitmişəm. Ucadan qışqırırdılar. Onlar heç vaxt bir-biri ilə mübahisə etməmiş və bir-birinin üstünə qışqırmamışlar. Dünən isə hər ikisi ucadan qışqırırdılar. Mən onların dediklərini eşitdim. Elə çıxır ki, həm anam, həm də nənəm sizin məşuqəniz olub.

– Bu, heç də belə deyil, - deyə Müslüm ağız-burnunu büzüşdürdü. – Daha doğrusu, heç də belə deyil. Mənim sənin nənənlə kifayət qədər maraqlı, sadəcə olaraq, vurulduğum

ananla isə çox maraqlı münasibətim olub. Səni belə bir cavab qane edirmi?

– Xeyr, qane etmir. Siz heç nəyi izah etmədiniz.

– Ayrı bir izahım olmayacaq. İzahatı yaxınlarından tələb edərsən. İndi isə gəl söhbətimizə davam edək. Deməli, Familin sənin onun evinə gələcəyindən xəbəri olmayıb. Düzdür?

– Elədir. Axı siz mənə niyə belə sərsəm suallar verirsiniz?

– Böyüklərə qarşı hörmətsizlik etmək yaramaz, - deyə Müslüm narazı halda dilləndi. – Əgər belə bir sual verirəmsə, deməli, səbəb var. Beləliklə, sən ora gəlib, yuxarı qalxmısan. Qapını döymüsən. O, qapını dərhal açmışdı?

– Xeyr, dərhal açmadı. Mən uzun müddət qapı arxasında gözləməli oldum. Nəhayət, o, qapını açdı və məni qonaq otağına dəvət etdi.

– Bəs yataq otağının qapısı bağlı idimi?

– Mən onun yataq otağının harada olduğunu bilmirəm.

– Qonaq otağının düz arxasındadır, - deyə Müslüm izah etdi. – İndi isə xatırlamağa çalış. Qapı bağlı idimi və ya sən arxanda açıq qapı və yataq otağı görmüsən?

– Yox, mən heç nə görməmişəm. Otağın qapısı bağlı idi.

– Sən onunla bundan əvvəl bir neçə dəfə də görüşmüsən. Familin adətən, necə danışdığını xatırlamağa çalış.

– Gur səslə danışardı, onun normal, xoş səsi vardı. Ancaq həmin gün o, əvvəlkilərdən fərqli olaraq, asta danışırdı.

– Buna əminsənmi?

– Bəli. Mən hətta heyrətlənərək, ondan səsinə nə olduğunu soruşdum. Famil bir qədər soyuqladığını bildirdi.

– Bəs sonra nə oldu?

– Heç nə. Biz onunla söhbət etdik, ancaq mən onun məni dinləmək və Vikanın yanına getmək istəmədiyini anladım. Elə buna görə də, aşağı düşdüm.

– Sonra sənin anan yuxarı qalxdı?

– Sizə bunu kim deyib? O, ümumiyyətlə, maşında olmayıb.

– Aydındır. Anan yuxarıdan tez qayıtdı, yoxsa gec?

– Mən bunu deməyəcəyəm, - deyə Natalya israrla təkrar etdi. – Anam orada olmayıb.

– Fərz edək ki, olmayıb. Lakin sənə ananın arxasınca nənənin də ora qalxdığı məlumdurmu?

– Axmaq fərziyyədir. Bizlərdən heç kim orada olmayıb və qohumlarımdan heç biri İzmaylovu bıçaqlaya bilməzdi. Bu, mümkün deyil.

– Ancaq kimsə Famili bıçaqlayıb, - Müslüm fikirli halda dedi.

– Siz mənim sualıma cavab vermədiniz, - deyə Natalya səbrlə xatırlatdı. – Siz mənim anamın və nənəmin məşuqu olmusunuz? Bu, doğrudur?

– Mən sənin sualını cavablandırdım. Sənə maksimal tərzdə vicdanla səmimi cavab verdim. Mən sənin nənənin məşuqu olmamışam. Bizim aramızda təsadüfi tanışlıq olub. Biz heç bir-birimizi əməlli-başlı tanımamışıq. Onun o vaxt otuz dörd, mənim isə iyirmi dörd yaşım olub. Sonra biz ayrıldıq və daha heç bir vaxt görüşmədik.

– Bəs o vaxt mənim anam harada idi?

– Zənnimcə, şəhərdə olub. Onun o vaxt on altı yaşı vardı. O, hələ məktəbdə oxuyurdu.

– Siz onunla o vaxt tanış olmusunuz?

– Əlbəttə, yox. Vera o vaxt balaca qız uşağı idi. Biz onunla düz on iki il əvvəl tanış olmuşuq.

– Həm də aşiq-məşuq olmusunuz?

– Axı sən nə üçün bu kəlmədə ilişib qalmısan? Biz sadəcə, bir-birimizi tapmışdıq. Sənin anan o dövrdə atandan boşanmaq ərəfəsində idi. Mənsə öz arvadımdan boşanırdım.

– Bəs mən harda idim? Nə üçün mən sizi xatırlamıram?

– Sənin o vaxt cəmi səkkiz yaşın var idi və nənənlə babanın yanında bağda qalırdın. Mənə sərsəm suallar vermə.

– Bu suallar heç də sərsəm deyil, - deyə Natalya təkidlə etiraz etdi. – Siz nə vaxtsa sizin ailənizin iki nəslinin növbə ilə aşiq olduğu bir insanla rastlaşmağın nə olduğunu təsəvvürünüzə gətirə bilərsinizmi? Mən beləsini görmüşəm. Mənim üçün maraqlıdır – onlar sizi məhz hansı məziyyətlərinizə görə seçiblər? Anam həddən artıq tələbkar qadındır, demək olar ki, qeyri-adi insandır. Onun tərəfindən bəyənilmək üçün mələk olmaq lazımdır. Əsil mələk. Nənəm isə ümumiyyətlə, dəmir-beton qarışığı kimi möhkəm bir şeydir. Siz buna necə nail olmusunuz?

– Mən betonu sındırıb, mələk olmuşam, - deyə Müslüm zarafat etdi. – Bəsdir, bu mövzuda danışdıq. Sən də çox əbəs yerə onların söhbətinə qulaq asmısan.

– Onlar elə ucadan qışqırırdılar ki, dediklərini dinləməmək mümkün deyildi. Həm də onlar bir-birini çox ağır bir tərzdə günahlandırırdılar.

– Bu, adama bir qədər hərarət gətirir, - deyə Müslüm gülümsədi, - lakin yenə də gəl bu təhlükəli və xətalı söhbətə son qoyaq. Mən heç bir vaxt onların məşuqu olmamışam. Sırf sənin üçün təkrar etməyə hazıram, mənim sənin nənənlə ötəri münasibətim olub. Sən bütün bunları başa düşmək üçün kifayət qədər böyümüsən. Sənin ananı isə mən sevirdim. Hətta səni övladlığa götürərək, sizi özümlə birlikdə Bakıya aparmağa da hazır idim.

– Mən sizinlə getməyə razılıq verməzdim, - deyə o, dərhal dilləndi.

– Bax, görürsənmi. Bax, elə bu axmaq problemlərin nəticəsi olaraq, bizdə heç nə alınmadı.

– Maraqlıdır, - deyə Natalya fikirli halda qeyd etdi, - bəlkə bunu sınaqdan keçirməyə dəyər.

– Nəyi sınaqdan keçirirsən? – Müslüm diksindi. – Nə danışırsan?

– Əgər mən bu dəqiqə burada soyunsam, siz məni öz ağuşunuza alarsınızmı? Nəzərə alın ki, bunu mən sizə özüm şəxsən təklif edirəm.

– Əgər sən bu cəfəngiyyatı davam etsən, - deyə Müslüm hiddətləndi, - mən bu dəqiqə səni burdan qovacağam. Ya da yaxşıca şapalaqlayacağam. Ən yaxşısı, yumşaq yerinə kəmər ilişdirməkdir. Mən ki səninlə yaşıd qızımın olduğunu demişəm. Sənsə mənə bu cür axmaq təkliflər edirsən.

– Mən ailəmdə nələrin baş verdiyini anlamaq istəyirəm. Axı nə üçün onlar sizinlə bu qədər səmimi olublar? Nə üçün hər ikisi sizə mərhumun yanına getmələri barədə məlumat veriblər? Nənəm hətta mənə bu barədə bir kəlmə də olsun danışmayıb. Təkcə anama demişdi. Sizə isə bu barədə məlumat verib. Elə o dəqiqə. Anam da özünü çox şübhəli

aparır. O, mənə sərt bir tərzdə xəbərdarlıq etmişdi ki, həmin həlledici gecədə mənim yanımda salonda kimin oturduğunu heç kimə və heç vaxt deməyim. Ancaq özü hər şeyi sizə deyib. Bilmək istəyirəm – nə üçün? Onlar qəlblərini kənar şəxslərə açan adam deyillər. Deməli, onlar sizi heç də kənar şəxs hesab etmirlər.

– Yəqin ki, yox, - deyə Müslüm onunla razılaşdı, - lakin bütün bunlar heç nəyi dəyişdirmək iqtidarında deyil. Bizim münasibətlər tamamilə fərqli bir səviyyədə olub. Əgər sən belə düşünürsənsə, o halda, bu heç də ucuz eşqbazlıq olmayıb. Tamamilə fərqli bir hiss idi. Mən ümumiyyətlə, güman edirdim ki, sənin ananın qismində öz yarımı tapmışam. Hətta deyə bilərəm ki, ona dəlicəsinə vurulmuşdum. İndi başa düşdün?

– Anası ilə də yatmısınız, eləmi? – deyə o, inadla soruşdu.

– Xeyr, - deyə o, qeyzləndi, - mən heç kimlə yatmamışam. Ümumiyyətlə, Marina Borisovnanın sənin ananın anası olduğunu bilmirdim və sənin nənənlə yarım əsrin yarısından əvvəl, onun MTN-də işlədiyi və gənc otuz dörd yaşlı qadın olduğu ərəfədə tanış olmuşam. Bizim təsadüfi görüşümüz ilə mənim sənin ananla bu hadisələrdən on iki il sonra yaranan münasibətim arasında heç bir əlaqə olmayıb. Onunla da biz tamamilə təsadüf nəticəsində tanış olmuşduq. Onun yanında rəfiqəsi, mənimsə yanımda dostum var idi. Sonra isə mən onun harada yaşadığını öyrəndim. Daha sonra onu restorana dəvət etdim. Sonra isə… - O, Veranın onun yanına mehmanxanaya gəlməsi barədə danışmaq istəmədi, əks təqdirdə, bənzərliklər nəzərə çarpardı. O, sadəcə, münasibətlə-rinin bu epizodunun üzərindən ötüb keçdi.

– Bəs nə üçün siz o vaxtlar onunla qalmadınız? – O, bütün həqiqəti aydınlaşdırmaq istəyirdi, bu onun üçün xüsusi maraq kəsb edirdi.

– Qala bilməzdim, - Müslüm dedi. – Bizdə müharibə gedirdi, şəhərdə dalbadal çevrilişlər baş verirdi, məni işdən qovmuşdular. Heç də hər şey sənin hazırda düşündüyün tək asan olmayıb.

– Bəs siz nə üçün məni buraya çağırmısınız?

– Mən sənə verdiyim sualların cavabını dəqiqləşdirmək istəyirdim. İndi isə de görüm, sən küçə qapısından içəriyə daxil olanda özünün keçmiş tanışlarından kiminləsə rastlaşmamısan ki?

– Xeyr. Əlbəttə, rastlaşmamışam. Rastlaşa da bilməzdim. Orada heç kim yox idi. Amma dayanın, hə, orada bir nəfər yuxarı qalxırdı. Birinci mərtəbədən. Birayaqlı dənizçi, onun əlində iki şüşə qatıq var idi. Ancaq o məni görmədi, mən isə onu gördüm.

– Bəs Viktoriya onun evinə getmişdimi?

– Əlbəttə. Dəfələrlə. O, zənnimcə, qəsdən şəhərin mərkəzində mənzil kirayələyirdi ki, ora müntəzəm olaraq tanış qızları dəvət etsin.

– Viktoriya orada olarkən, Famil ayrı bir adamı çağırırdımı?

– Bəzən hə, bəzən isə yox. O, bu mənada heç də əxlaqlı adam təsiri bağışlamırdı. Əgər sizi bu maraqlandırırsa, heç vaxt heç nədən utanmırdı. Dəqiq bilirəm ki, o, bir dəfə öz yataq otağını tanıdığı cütlüyə bir şərtlə vermişdi ki, onlara baxsın. Bax, belə də etmişdi. Bizim mühitdə bu, o qədər də əxlaqsız davranış hesab olunmur.

– Şübhə etmirəm, - Müslüm qəzəblə dedi. – Lakin sən kiməsə əvvəlcədən İzmaylovun yanına yollanacağını demişdinmi? Axı sən anandan savayı yenə də kiməsə bu barədə demisən?

– Bəli, - deyə Natalya başını yırğaladı, - nənəmə demişəm.

– Mən elə belə də güman edirdim, - deyə Müslüm münasibət göstərdi. – Bax, indi həqiqət bütünlüklə məlum oldu. Gəl elə bununla da söhbəti tamamlayaq. Gedək, mən səni maşına qədər ötürüm.

– Sizi daha heç nə maraqlandırmır?

– Hələ ki, yox.

– Bəs siz qatili necə tapmağı düşünürsünüz? – deyə o, səmimiyyətlə gülümsədi. – Siz onu bir neçə milyonluq şəhərlinin arasından axtarıb tapmalı olacaqsıız. Lakin sizdə heç nə alınmayacaq.

– Bu, mənim işimdir. Gedək, mən səni ötürəcəyimə söz vermişəm.

Natalya heyrət içində ayağa qalxdı. Müslümə nəzər yetirdi.

– Amma yenə də, sizin sirriniz nədədir? – deyə Natalya soruşdu. – Axı nə üçün onlar növbə ilə sizə aşiq olublar? Siz onlara nə deyirdiniz?

– Mən özümlə xüsusi ot gətirmişdim, - deyə Səfərov zarafat etdi, - və onu onların yeməyinə qatırdım.

– Heç də gülməli deyil. Məni də ötürməyə lüzum yoxdur. Mən balaca qız uşağı deyiləm. Xüdahafiz. Maşın məni küçədə, mehmanxana binasının düz yanında gözləyir. Hələlik, cənab xəfiyyə.

Natalya qapını arxasınca bərk çırpmaqla otağı tərk etdi. Müslüm tək qaldı. Bir qədər düşündükdən sonra bir ağ vərəq götürdü və orada sxem çəkməyə başladı. Sonra daha bir vərəqi əlinə aldı. Ayrı-ayrılıqda o, vərəqdə qeydlər edir, sonra isə üzərindən bir-bir xətt çəkirdi. Suallar sona çatdıqda isə o, Melentyevə zəng etməyi qərara aldı.

– Axşamınız xeyir, Vyaçeslav Yevgenyeviç. Bizim diplomatımızın qətlinin istintaqında bir yenilik varmı?

– Hələ ki, yoxdur. İşləyirik. Biz evin ətrafında quraşdırılmış bütün kameraları yoxlayırıq. Ancaq hələ ki, heç bir şübhəli subyekti aşkar etməmişik.

– Güman edirəm ki, mən sizə kömək edə bilərəm, - deyə Müslüm məlumat verdi.- Əgər sabah səhər siz bizim baş konsulluğa gəlməyə razılıq versəniz, mən sizə bu qətlin necə baş verdiyini və Familin kim tərəfindən qətlə yetirildiyini danışaram.

– Siz zarafat edirsiniz? – deyə Melentyev qulaqlarına inanmadı.

– Xeyr. Sabah səhər mən sizə hər şeyi danışacam.

– Bəlkə çıxardığınız nəticələrdən danışasınız?

– Hələ tezdir. Lakin mən sizdən bizim konsulluğa Natalya Frolova, onun anası Vera Dmitriyevna Radvolina və onun nənəsi – Marina Borisovnanı da dəvət etmənizi xahiş edirəm. Onların xidməti maşınının sürücüsü Lyoşanı da, həmçinin. Hələ ki, kifayət edər. Onların hamısının sabah baş konsulluqda toplanması lazımdır.

– Siz onların sizin konsulluğun ərazisində təhlükəsizliyinin təmin olunacağına zəmanət verirsinizmi?

– Sözsüz. Əgər siz hansısa bir konkret təhlükənin mövcud olduğunu düşünürsünüzsə, o halda, bir neçə milis zabitini də özünüzlə birlikdə ora gətirə bilərsiniz.

– Bu barədə düşünərəm, - deyə Melentyev quru tərzdə vəd etdi. – Və diqqətinizə çatdırım ki, mən eksperimentləri xoşlamıram. Əgər siz sabah konkret qatilə işarə etməsəniz və mənə qətl hadisəsinin necə baş verdiyini söyləməsəniz, sadəcə olaraq, sizinlə ünsiyyət saxlamayacağam. Mən vaxtımı belə əyləncələrə sərf edə bilmərəm.

– Razılaşdıq, - Səfərov dedi. – Yalnız bizi həmin şəxslərlə görüşdürün.

Sonra isə o, birbaşa telefonla Veraya zəng etdi.

– Sən yenə də bu nömrəyə zəng edirsən? – deyə Vera qəzəbləndi.

– Mən bizim diplomatımızın qətlinin istintaqını tamamlamışam, - deyə Müslüm yorğun tərzdə məlumat verdi. – Sabah səhər mən sizə onun necə qətlə yetirildiyini izah edəcəyəm. Bu gün axşam isə səninlə görüşməliyəm. Elə buna görə də zəng etdim.

– Sənin dediklərin həqiqətdir, yoxsa zarafat edirsən?

– Məgər belə şeylərlə zarafat etmək olar? Sənin qızın elə bu yaxında buranı tərk edib. Yeri gəlmişkən, dünən siz çox əbəs yerə özünüzü belə axmaq tərzdə aparmısınız. Sən də, elə anan da. O, hər şeyi eşidib. Siz elə ucadan qışqırmısınız ki, o, hər şeyi başa düşüb. Zənnimcə, bu, pedaqoji təlimlə ziddiyyət təşkil edir.

– Əlbəttə. Növbə ilə əvvəl ana, sonra isə bala ilə bir yataqda olmaq, sonra isə onların nəvəsini xilas etməyə səy göstərmək pedaqoji qanunlara uyğundur. Bu, sənin zənnincə, ədəb qaydalarına daha uyğundur, eləmi?

– Sənin yaxşı qızın var, lakin ona nəzarət etməsən, asanlıqla ağılsızlıq edə bilər. Bu, sizin qanınızdadır. Sənin ananın da, elə sənin də. Siz öz qüdrətiniz, nəzərə al, zəifliyiniz deyil, məhz qüdrətiniz nəticəsində özünüzü tənhalığa məhkum etmiş düşüncəsiz və azğın qadınlarsınız.

– Sən mənə bütün bunları bildirmək üçün zəng etmisən?

– Yox. Səninlə görüşmək üçün zəng etmişəm.

– Mən səninlə görüşmək istəmirəm.

– Yaxşı. Onda mən Natalyaya zəng edərəm. Deyəsən, o, mənimlə görüşməyə hazırdır.

– Dəli olmusan? – deyə Vera pıçıltı ilə soruşdu. – Bir gör sən məni nə ilə şantaj edirsən? Heç xəcalət çəkirsənmi? Belə müdhiş sözləri necə dilinə gətirə bilirsən?

– Mən heç də xəcalət çəkmirəm. Natalya yanımda oturub bunları aydınlaşdırmağa çalışırdı – axı mən onun anası və nənəsi kimi güclü qadınların nə sayaq xoşuna gəlməyə müvəffəq olmuşam.

– Mən onun sənin yanına gəlməyinə etiraz edirdim, anam isə təkid etdi. Sən Nataşaya nə demisən?

– Həqiqəti.

– Hansı həqiqəti?

– Sənin ananla bizim aramızda heç nəyin olmadığını. Yaşlı qadının özünə rəva gördüyü ötəri həvəs və şıltaqlıq olduğunu. Sənin o vaxt on altı yaşın var idi. Mən ona vicdanla etiraf etdim ki, bu, yalnız bir həvəs idi. Əsil məhəbbətlə isə mən bütün ömrüm boyu yalnız bir nəfəri sevmişəm. Səni.

– Elə belə də dedin?

– Sən ki bunun həqiqət olduğunu bilirsən. Mən hətta Nataşaya onu övladlığa götürmək istədiyimi belə dedim.

– Bircə bu çatmırdı. Ümidvaram ki, sənin ağlın qıza, mənim sənin yanına mehmanxanaya şəxsən özümün gəldiyimi danışmamağa çatıb. Bəlkə bunu da ona danışmısan?

– Ağlım çatıb. Əlbəttə, danışmamışam.

– Heç olmasa, buna görə çox sağ ol. Sənə nə lazımdır?

– Səninlə görüşmək. Mən yəqin ki, sabah geri qayıdacağam. Keçən dəfəkindən fərqli olaraq, mən hətta sənə əvvəlcədən xəbərdarlıq da edirəm. Yalnız səninlə görüşmək istəyirəm.

Vera susurdu.

– Allo, sən məni eşidirsən? – Müslüm soruşdu.

– Buna heç bir lüzum yoxdur, - deyə Vera nəhayət, dilləndi. – Uzun vaxt keçib. Bir çaya isə iki dəfə baş vurmağa dəyməz. Mən elə güman edirdim ki, sən bunu anlayırsan.

– Elə buna görə də, mən səni görməliyəm. Bəlkə də bu, bizim birlikdə baş vurmadığımız həmin çayın sahilində bir vidalaşma olacaq.

– Mənə isə o vaxt elə gəlirdi ki, biz səninlə həmin çaya artıq baş vurmuşuq, - deyə Vera etiraz etdi. – Bununla belə, bu, sxolastik və axmaq bir mübahisədir. Mən sadəcə olaraq, səninlə görüşmək istəmirəm. Zənnimcə, bu, çox yetərli bir səbəbdir.

– O halda, hər şey aydındır, - Müslüm razılaşdı. – Sabah bizim baş konsulluqda görüşərik.

– Ora da gəlməyəcəyəm, - deyə Vera tələsik etiraz etdi. – Sabah mənim bir yığın işim var. Bağışla, mən adətən, işlərimi bir neçə gün əvvəlcədən planlaşdırıram.

– Sənə göndəriş yollayacaqlar və sən gəlmək məcburiyyətində qalacaqsan, - deyə Müslüm etirazını bildirdi. – Gəlməsən, mən Melentyevə heç nəyi danışmayacağam və

sadəcə, buranı tərk etməklə kifayətlənməli olacağam. Nataşa isə şübhə altında qalacaq. Vəziyyətin bu şəkil alması daha çox sənin ürəyincə olacaq?

– Sən əməlli-başlı peşəkar şantajçıya çevrilmisən. Yox, bu, mənim ürəyimcə deyil. Sabah mən səni sonuncu dəfə görəcəyəm və sizin konsulluğa gələcəyəm. Yalnız sonuncu dəfə və bununla da biz münasibətlərmizə nöqtə qoyacağıq. Məni eşidirsənmi?

– Nöqtə qoyacağıq, - deyə Müslüm məyus halda təkrar etdi. – Mən güman edirdim ki, sən mənimlə görüşmək istəyərsən.

– Bizim başımıza gələn bütün bu əhvalatlardan sonramı? – Vera hiddətlə soruşdu. – Mənim anamın dostunun yarım əsrin yarısından əvvəl kim olduğunu aydınlaşdırdıqdan sonramı? Sən bütün bunlardan sonra ümumiyyətlə, mənim gözümə görünməyə cürət edirsən? Sənin nə vicdanın, nə də ki, abır-həyan var.

– Biz söhbətimizi bu uca notda tamamlayacağıq? – deyə Müslüm kədərli halda soruşdu.

Vera dəstəyi asdı. Müslüm isə telefonu masanın üzərinə qoydu. Vanna otağına keçdi. Sergeyə zəng edib, ona bir neçə sualla müraciət etmək lazımdır. Sabahkı çıxışa da hazırlaşmaq lazımdır. Hər şeyi də düzgün səviyyədə etmək lazımdır.

Müslüm vanna otağından çıxıb konsulluğa zəng etdi.

– Sergey, - Müslüm sakit səslə dedi, - təcili mənim yanıma gəlin. Mənim sizə bir neçə sualım olacaq. Sizə bildirməliyəm ki, sabah axşam Bakıya qayıdıram.

– Siz istintaqı bitirmək istəmirsiniz? – deyə Sergey soruşdu. – Olmaya, təslim olmağı qət etmisiniz?

– Mən onu əməli olaraq bitirmişəm. Son cizgiləri qalıb. Tez yanıma gəlin.

Müslüm telefonu masanın üzərinə qoydu və çarpayının üzərinə çökdü.

– Ümidvaram ki, yanılmamışam, - o, öz-özünə dedi.

## *On üçüncü fəsil*

«O, digər Zodiak bürclərindən bir çox şeyləri çəkib çıxarmış olacaq, lakin son nəticədə onların hamısı özlərini bədbəxt hiss edəcəklər, Meymun bürcünün altında anadan olanlar isə – məmnun qalmayacaqlar».

*(Şərq Ulduz falından)*

Onları səhər erkəndən bir yerə toplamaq mümkün olmadı və elə buna görə, görüşü günortaya keçirməli oldular. Əvvəlcə baş konsulluğa Vera Dmitriyevna qızı ilə birlikdə gəldi. O, baş konsulun iş otağına qalxdı və təmkinlə stulda əyləşdi. Bir qədər sonra isə Marina Borisovna gəldi. O, sənədlərini göstərərək, konsulun iş otağına keçdi və bu söhbətə aidiyyəti olmadığını vurğulayaraq, bir qədər kənarda əyləşdi. Sürücü Lyoşa da ehtiyatla otağa daxil olub küncdə oturdu. Müslüm Səfərovun təklifi ilə otağa Sergey, Albina və durmadan yerində qurcalanaraq, nəzərlərini saatdan çəkməyən balacaboy attaşeni də dəvət etdilər. Bir qədər sonra bu əhvalatın xitamını gözləyərək, stullarda əyləşən Vyaçeslav Yevgenyeviç Melentyevlə onun əməkdaşları da gəldilər. Onlar şübhə ilə ətraflarına boylanır və astadan söhbət edirdilər.

Nəhayət, otaqda Müslüm Səfərovun özü ilə baş konsul göründü.

Konsul ev sahibi kimi toplaşanları salamladıqdan sonra Bakıdan gələn qonağa söz verdi. Səfərov ona hər tərəfdən zillənən baxışları üzərində hiss edib ayağa qalxdı və söhbətə başladı.

– Mən ilk növbədə, Vyaçeslav Yevgenyeviç Melentyevlə onun əməkdaşlarından üzr istəyirəm. İş burasındadır ki, məni həqiqətən də, buraya Xarici İşlər Nazirliyi göndərib və burada heç bir səhv yoxdur. Ancaq mən öz başlıca ixtisasıma görə, bu nazirlikdə yox, respublika prokurorluğunda xüsusi cinayət işləri üzrə müstəntiq vəzifəsində işləyirəm.

O, bu kəlmələri tələffüz edərkən, Melentyev qaşqabağını salladı, attaşe sancılanmış adam kimi dartındı, Marina isə burada baş verənlərin ona heç bir aidiyyəti yoxmuş kimi, nəzərlərini pəncərəyə zillədi. Müslüm söhbətinə davam etdi.

– Məndən göstərilmiş istintaqda prosessual şəxs qismində çıxış etməməklə, həyata keçirməyə də ixtiyarım çatmadığı təhqiqatı aparmağı xahiş etmişlər. Mənim toplayacağım dəlillər də bu baxımdan hüquqi qüvvəyə malik olmayacaqdı. Eynən şahidlərin ifadəsi və ya mənim öz şəxsi müşahidələrim kimi. Lakin bu baxımdan bir balaca bəxtim gətirdi. İş burasındadır ki, mən əvvəllər bu füsunkar şəhərdə olmaq şərəfinə nail olmuşdum. İki dəfə burada yaşamışam. Səksəninci və doxsan ikinci ildə. Qəribə təsadüf nəticəsində, məhz bu cür, on iki ildən bir mən bu şəhərə gəlirdim və hər dəfə də mənimlə burada qəribə əhvalatlar baş verirdi.

Vera Müslümün sanki onların intim münasibətləri barədə söhbət açacağından ehtiyatlanaraq, başını yuxarı qaldırdı. Müslüm gülümsəyərək, söhbətinə davam etdi:

– Bir neçə gün bundan əvvəl öz mənzilində bizim diplomatımız Famil İzmaylov qətlə yetirilmişdir. Qatil onun nə pullarını, nə də qiymətli əşyalarını oğurlamışdı. Buradan isə belə birmənalı qənaətə gəlmək olardı ki, bu, heç də qarət məqsədilə törədilmiş qətl hadisəsi olmayıb. Məlum olduğu kimi, İzmaylov yaxınlıqda kameraların quraşdırıldığı Liqovsk prospektindəki evdə yaşayırdı. Lakin bu evin səciyyəvi xüsusiyyəti bundan ibarətdir ki, o, avtomobillərin də daxil olduğu girişli həyətə malikdir. Binanın küçə qapısından başqa arxa qapısı da var. Bütün bunlarla yanaşı, mənzil ikinci çıxışa malik deyildi və istənilən halda, mənzilə yalnız bir yolla, giriş qapısı vasitəsilə daxil olmaq mümkün idi. Mən qəsdən mənzilə qalxaraq, onu diqqətlə nəzərdən keçirmişdim. Oranın otaqları çox qəribə bir tərzdə yerləşmişdi, giriş qapısının sol cinahında mətbəx var idi, onun arxasında iş otağı, sağ cinahda qonaq otağı, onun arxasında isə yataq otağı yerləşmişdi. Yataq otağında isə iş otağına aparan yan qapı mövcud idi. Bununla da, bu mənzilin bütün otaqları mənim versiyama mühüm təsir göstərən iki tərəfə açılırdı.

– Başa düşmürəm, otaqların yerləşməsinin bizim diplomatın qətlinə nə dəxli? – deyə baş konsul narazı halda soruşdu. Onun Müslüm Səfərovun öz inkoqnitosunu qabartmasından, başlıcası isə qatili şəxsən özünün tapmaq istəməsindən xoşu gəlməmişdi. Belə bir hadisə onun təcrübəsində hələ bir dəfə də olsun baş verməmişdi.

– Beləliklə, bütün otaqlar iki tərəfə açılırdılar, - deyə Müslüm təkrar etdi, - və qətlin baş verdiyi gün oraya, sükan arxasında Alekseyin oturduğu anasının maşınında Natalya Frolova göründü.

Frolova İzmaylova öz gəlişi haqqında əvvəlcədən xəbardarlıq etməmişdi. Bu mənzilə tez-tez gələn öz qohumu və rəfiqəsi Viktoriyadan fərqli olaraq, Frolova abrına sığınaraq, buraya nadir hallarda gələrdi. O gün isə Natalya şəxsən Familə heç bir xəbərdarlıq etmədən gəlmişdi.

– Yox bir, bilməmişdik, əsilzadə – lord imiş, - deyə Vera qızına tərəf əyilərək, ucadan dedi, - ona hələ əvvəlcədən gəlişin haqqında xəbərdarlıq da etmək lazım imiş.

– Natalya Frolova İzmaylovun yaşadığı mərtəbəyə qalxıb, - deyə Müslüm sözünə davam etdi. – Natalya bir xeyli Familin qapısının zəngini basıb gözləmiş, nəhayət, İzmaylov qapını açmışdır. Bu fakta xüsusi olaraq diqqət yetirin. Zəng uzun müddət çalınıb. Görünür, Famil gecədən xeyli keçmiş bir vaxtda onu evində qəbul etməyə hazır deyilmiş. Lakin sonra o, qapını açır və mənzilin sahibinin davranışındakı bəzi qəribəliklər Frolovanın diqqətini çəkir. Əvvəla, Famil astadan və xırıltılı səslə danışırmış, bu, özlüyündə qəribə idi, çünki o, iş yerində özünü həmin gün əla hiss edibmiş və onda heç bir xəstəlik əlaməti də yox imiş. Lakin hər necə də olsa o, qapını açır, alçaq və xırıltılı səslə danışır və açıq-aşkar surətdə qonağının onun mənzilini tərk etməsini səbirsizliklə gözləyir.

Bu ərəfədə yataq otağının qapısı bağlı imiş. Frolova orada çox az müddət yubanır. O, elə əvvəlcədən həmsöhbəti tərəfindən düzgün anlaşılmır. Viktoriyanın ondan uşaq gözlədiyini Familə izah etməyə səy göstərən Natalya bu məsələnin onu qətiyyən narahat etmədiyinin şahidi olur və mənzili qaçaraq tərk edib, aşağı düşür, maşına - anasının yanına qayıdır.

– Yəqin siz onun anasının maşınına qayıtdığını nəzərdə tuturdunuz? – deyə Melentyev Müslümün sözünə düzəliş verdi.

– Xeyr, - deyə Müslüm etiraz etdi, - mən fikrimi düzgün ifadə etdim. O, aşağıya, onunla birlikdə binanın yanına gedən və həmin məqamda öz xidməti maşınında olan anasının yanına düşüb.

– Nə üçün sən belə deyirsən? – deyə Vera Dmitriyevna ucadan soruşdu. – Necə də ucuz və sarsaq qisas yoluna əl atırsan!

– Sus, Vera, - deyə anası onun sözünü yarımçıq kəsdi. – Əgər o, belə danışırsa, deməli, belə olması məsləhətdir. Gəl onun sözünü kəsməyək.

– Təşəkkür edirəm, - deyə Müslüm başını razılıq əlaməti ilə tərpətdi. – Beləliklə, maşında sürücü ilə iki qadın var imiş. Natalya Frolova və onun anası. Qızının pis vəziyyətdə aşağı düşdüyünün şahidi olan xanım Radvolina hiddətlənərək, yuxarı qalxmağı qərara alır. O, İzmaylovun mənzilinə qalxaraq, onun qapısının zəngini basır. Bu dəfə Famil qapını əvvəlkindən tez açır. Diqqətəlayiq haldır ki, o, dərhal gur səslə danışmağa başlayır və yataq otağının qapısını bağlamır. Radvolina hətta mərhumun yataq otağındakı səliqəsizliyə də diqqət yetirir. Yalnız bundan sonra Famil qapıya yaxınlaşıb qonaq otağı ilə yataq otağı arasındakı qapını örtür.

– Deməli, siz də onun mənzilinə qalxmısınız, Vera Dmitriyevna, - deyə Melentyev təəccübləndi. – Ancaq siz bu barədə mənə bir kəlmə də olsun deməmisiniz.

Vera Dmitriyevna fasilə verməyin lazım olduğunu qərara alıb susdu. Müslüm Səfərov isə söhbətinə davam etdi:

– O da İzmaylovun vicdanlı olmasına çalışır. Lakin hər şey nəticəsiz qalır. Bundan savayı, Famil bir neçə dəfə ucadan

bəyan edir ki, uşaq ümumiyyətlə, onun deyil və bununla da, xanım Radvolinanı qıcıqlandırır.

Vera Dmitriyevna bu şəxslə söhbəti tamamlamağın lazım olduğunu düşünür və mənzili tərk edərək, pillələri enir. Vera hətta onların İzmaylova baş çəkəcəkləri barədə məlumatın Natalya Frolovanın xəbərdarlıq etdiyi daha bir nəfərə məlum olduğundan şübhələnmirdi də. Bu şəxs isə onun nənəsi və Vera Dmitriyevnanın anası idi.

– Sən ona bizim ora gedəcəyimizi söyləmişdin? – deyə Vera Dmitriyevna qızına nəzər yetirib deyilənənlərə inanmayaraq soruşdu.

Natalya başını buladı, lakin bir kəlmə də olsun danışmadı.

– Beləliklə, xanım Radvolinanın oranı tərk etməsindən sonra mənzilə dərhal Marina Borisovna qalxmışdı. O, insanlarla ünsiyyət üzrə böyük təcrübəyə malikdir və lazım gəldikdə, izləmə kameralarının, eləcə də, gözdən yayınmağın vacib olduğu qonşuların yanından ötüb keçərək, binaya nəzərə çarpmaz bir tərzdə daxil olmaq iqtidarındadır. Əlbəttə, qonşular həyətdə dayanan meriyanın xidməti maşınına diqqət yetirmiş və onun nömrəsini yadda saxlamışdılar. Ancaq onlar bu maşında məhz kimin oturduğunu görməmişdilər. Orada isə nəinki Natalya Frolova, həm də onun anası var imiş.

– Bu, doğrudur? – deyə Melentyev sürücüyə nəzər yetirərək soruşdu.

Sürücü cavab vermədi, ancaq günahkarcasına başını aşağı saldı.

– Səni yalançı şahidlik etdiyinə görə, cinayət məsuliyyətinə cəlb edəcəklər, - deyə müstəntiq ucadan xəbərdarlıq etdi.

– İcazə verin, əvvəlcə söhbətimi tamamlayım, - Müslüm xahiş etdi. – Beləliklə, Vera Dmitriyevna binadan çıxdı və maşınına əyləşdi. Saatın əqrəbləri təqribən 10-un yarısı və ya 10-a yaxın vaxtı göstərirdi. Lakin bu məqamda binanın yaxınlığında daha bir yeni iştirakçı göründü. Bu, küçə qapısına arxa qapıdan girən, yuxarı qalxan və yenidən qapının zəngini basan Marina Borisovnadır. Və yenə də İzmaylov ona uzun müddət qapını açmır. Bu vaxt Marina Borisovna sanki onun kiminləsə, mobil telefonu ilə danışırmış kimi, ucadan qışqırdığını eşidir. Famil qapını açaraq, onu mənzilə buraxır. Yataq otağından nə isə lazım olanda, ora daxil ola bilmir, çünki otağın qapısı bağlı idi. Famil mətbəxə, sonra isə iş otağına keçərək, yataq otağına daxil olur və qapını açaraq, Marina Borisovnanın qarşısında artıq digər istiqamətdən peyda olur.

Marina Borisovna necə pis davrandığını ona izah etməyə cəhd göstərir. O, Familə Bakıdan gəlmiş və iyirmi dörd il bundan əvvəl tanış olduğu dostu barədə danışır. Lakin o, yenə də qadının gətirdiyi bütün dəllilərə etinasız yanaşır. Bu zaman Marina Borisovna Familin qəlbinə yol tapa bilmədiyini anlayır və mənzili tərk edir.

– Siz də onun yanına qalxmısınız? – deyə Melentyev qadından soruşdu. – Bu artıq mənzil yox, əsil keçid məntəqəsi imiş ki.

– İndi isə biz nəhayət, bu faciənin ən həlledici aktına keçirik, -deyə Səfərov davam etdi. – Beləliklə, Marina Borisovna mənzili tərk edir və bir neçə dəqiqədən sonra qətl hadisəsi baş verir. Qatil ona mətbəx bıçağı ilə zərbə endirir və mənzili tərk edir. Zavallı qurban bıçağı bədənindən çıxarmağa

müyəssər olur və qan itkisindən həlak olur. Faktlar məhz bu cürdür.

İndi isə gəlin bu hadisəni bir qədər fərqli tərəfdən nəzərdən keçirək. Heç bir xəbərdarlıq etmədən, ona baş çəkən Natalya Frolova ilk dəfə olaraq, Familin mənzilinə daxil olanda, Famil uzun müddət qapını açmırmış, açanda isə soyuqladığını bəhanə gətirərək, mənzilində olan digər şəxs tərəfindən dinlənilməsini istəmədiyindən, astadan danışmağa çalışır. Bəs bu şəxs kim olub?

Həmin şəxs kişi ola bilməzdi, belə ki, İzmaylov həmin qadının onun mümkün övladının olmasından xəbər tutmamasını istəyirmiş. Məhz elə bu səbəbdən də, o, səsini alçaldır və səsinin eşidilməməsi üçün kifayət qədər alçaq səslə danışmağa cəhd göstərir. Bu vaxt yataq otağına açılan qapı bağlı olub. Sonra isə Natalya mənzili tərk edir və onun əvəzinə mənzilə anası daxil olur. İzmaylov artıq yataq otağına keçməyə macal tapıb və qapı açıq qalmışdır. Bununla belə, yataq otağında səliqəsizlik hökm sürür, çarpayı yığışdırılmamış və Vera Dmitriyevna bu tör-töküntünü görməyə macal tapır. Və nəhayət, mənzilə Marina Borisovna daxil olur. O, bağırtı səsini eşidir, lakin bu, əl telefonu ilə danışan şəxsin yox, içəridə olan hansısa bir şəxslə mübahisə edən insanın çığırtısı idi. Famil elə ucadan və qəzəblə mübahisə edir, qapını çırparaq örtür, qapı arxasında olan qonağa isə elə gəlir ki, evdə kimsə atəş açıb.

– Bəli, - deyə Marina başını razılıq əlaməti ilə tərpətdi, - hər şey məhz bu cür olub.

– Famil yenidən Marina Borisovna ilə söhbət etmək istəmədiyini bildirir və qadından sabah ona baş çəkməsini xahiş edir. Bundan sonra onu içəriyə buraxır və qadın yataq

otağının qapısının bağlı olduğunu görür. Yenidən həmin otağa keçmək üçün Famil bütün otaqlardan keçərək, yataq otağına digər tərəfdən daxil olur.

Marina Borisovna evi tərk edir, Famil isə yenidən qatillə ikilikdə qalır. Lakin mənim bütün bu faciənin iştirakçıları ilə söhbət etdiyim günlər ərzində qatil biixtiyar özünü ələ verirdi. Mənə demişdilər ki, hər kəs azərbaycanlıya ərə getməyi arzulayırmış. Bu, açıq-aşkar surətdə hansısa bir söhbətin kontekstindən götürülmüş bir ibarə idi. Axı məhz Marina Borisovna Bakıdan gəlmiş bir dostunun olduğunu demişdi və qatil onun bu kəlmələrini eşitmişdi. Bundan savayı, mənimlə söhbət edərkən, qatil daha bir bağışlanmaz səhvə yol verdi. O dedi ki, Natalya Frolovanın çox pis irsi vərdişi olub. İki əhəmiyyətsiz kəlmə. Lakin Frolova öz rəfiqəsindən fərqli olaraq, demək olar ki, heç bir vaxt İzmaylovun evinə baş çəkməz, onun evində keçirilən əyləncə gecələrində iştirak etməzdi. Əgər qatil mənzildə olmayıb və Viktoriyanın uşağı haqda söhbətləri dinləməyibsə, o halda, pis irsi vərdiş barədə necə məlumat əldə edə bilərdi? Əgər qatil yaxınlıqda olubsa, o halda, o, nəinki Frolovanın, həmçinin, onun anası ilə nənəsinin də söhbətini dinləməli olub. Pis irsi vərdiş haqda həlledici ifadənin də mənbəyi məhz budur. Bundan savayı, qatil özü mənə Natalyanı bir o qədər də yaxşı tanımadağını və onun ümumiyyətlə, işvəkar olduğunu demişdi.

– Həmin qatil kimdir? – deyə Melentyev özünü saxlaya bilməyib qışqırdı. – Artıq onun kim olduğunu söyləyin.

– Mən buraya gələndə, baş konsulun burada iştirak edən əməkdaşından – Sergey Əliyevdən mənə həlak olanın

qısa xarakteristikasını verməsini xahiş etmişdim. O, bildirdi ki, Famil İzmaylov konsulluqda işləyən bütün əməkdaşların xoşuna gəlirdi. Hamının. Lakin demək olar ki, hamısı şəhərdən kənarda yaşayır, kargüzar qadın isə xəstə anasına qulluq etmək üçün məzuniyyətə çıxmalı olub. Lakin əməkdaşlardan birinin onu gecələr evinə buraxan bir rəhmdil rəfiqəsi var. Həmin əməkdaş baş konsulun katibəsi Albinadır. Mən dəqiqləşdirmişəm, onun belə bir rəfiqəsi yoxdur. İzmaylovun qətlindən dərhal sonra Albina yenidən öz evinə getməyə başlayıb.

Hamı Albinaya baxırdı. Onun dodaqları titrəyir və sakitləşə bilmirdi.

– Mənə Natalya Frolovanı tanımadığınızı, lakin onun pis irsi vərdişə malik olduğunu dəqiq bildiyinizi siz mənə söyləmişdiniz. Mənə Bakıdan dostlar qazanmağa çalışan kəslər barədə kəlməni də məhz siz söyləmişdiniz. Siz bu ifadəni Marina Borisovnanın dilindən eşitmişdiniz. Və nəhayət, xalanızın evinə qayıtmaq istəməyəndə, həmin mənzildə gecəni keçirən də məhz siz olmusunuz.

– Sizin heç bir dəliliniz yoxdur, - deyə Melentyev qışqırdı, - bütün bunlar yalnız sizin əsassız ehtimallarınızdır.

– Mənim artıq dəlilim var, - deyə Müslüm etiraz etdi. – Adamlarınızı onun xalasının evinə yollayın. O da təsdiq edər ki, həmin gün onun bacısı qızı evə çox gec qayıdıb və uzun müddət paltarlarını yuyub. Zənnimcə, biz onun geyimində qan ləkəsini aşkar etməyi də bacaracağıq. Lakin ən əsas məsələ, onun uşaq barədə xəbər tutduqdan sonra qəzəbini boğa bilməməsindədir. Ona elə gəlirdi ki, Famil Albinaya qarşı tamamilə fərqli münasibət bəsləməlidir. Görünür, həlak

olan da əvvəlcədən nəyi isə hiss edirmiş və hətta öz qısqanc rəfiqəsindən də qorxurmuş.

– Bu, doğrudur? – deyə Vyaçeslav Yevgenyeviç Albinadan soruşdu.

Albina susurdu. Ancaq bütün sifəti tir-tir əsirdi.

– Ondan adətən, xalasının evinə qayıtmadığı günlər harada gecələdiyini soruşun, - deyə Səfərov təklif etdi.

Müstəntiq Albinaya nəzər saldı. Ancaq bir kəlmə də olsun soruşmağa macal tapmadı.

– Bəli, - deyə o, var gücü ilə qışqırdı, - onu mən öldürmüşəm!!! Onun kimi yağ-bal içində bəslənmiş, zəngin bir oğlanı. Elə bilirdi ki, ona hər şeyi etmək olar. Birinin qarnına uşaq qoyub, digərini aldadıb, üçüncüsünü isə yatağa salıb. Onu mən, mən vurmuşam. Onu mən öldürmüşəm. Mən yataq otağında ayaq üstə dayanıb, hər şeyi eşidirdim. O, hamını aldadırdı, o, mənimlə evlənmək istəmirdi…

– «Təcili yardım» çağırın, - Səfərov baş konsula müraciət edib sakit səslə dedi. Attaşeyə həkim çağırmağa izn verdiyini başının işarəsi ilə bildirdi.

– Siz bunu necə müəyyən etdiniz? – deyə sarsılmış Melentyev soruşdu. – Siz həmin qatilin məhz Albina olduğunu necə hiss etdiniz?

– «Pis irsi vərdiş» haqda ibarədən, - deyə Müslüm izah etdi. – Belə bir söz birləşməsini yalnız əvvəlcə qız, sonra ana, daha sonra isə nənənin onu necə dilə tutmağa çalışdığını ardıcıl olaraq eşidən qadın işlətmiş ola bilərdi. Və sözsüz ki, onun prioritetlərini kəskin tərzdə dəyişdirməsi də diqqəti cəlb edirdi. Nə üçün o, İzmaylovun qətlindən əvvəl öz rəfiqəsinin evində tez-tez gecələyirmiş? Mən bütün təfərrüatları Sergeydən öyrəndim. Diplomatın vəfatından sonra isə o, bircə

dəfə də olsun tanışının evində qalmayıb. Onun sadəcə, qalası yeri olmayıb.

Hansısa bir əsəb sarsıntısı Albinanı silkələdi. Onun bu vəziyyətinə tab gətirə bilməyən Natalya zavallı qadına kömək etmək istədi. Onun ardınca isə digərləri də Albinaya kömək etməyə tələsdilər. Albina isə rabitəsiz kəlmələri qışqırmaqda davam edirdi.

– Siz haqlı çıxdınız, - sarsılmış müstəntiq Səfərova yaxınlaşaraq dedi. – Mən hətta bunun mümkün olacağını belə təsəvvürümə gətirməzdim. Bu, əsil möcüzədir.

– Xeyr. Sadəcə, mən bir-birinə tən gəlməyən bəzi detallara diqqət yetirdim. Qalanlar isə sadə məsələlər idi.

–

## *On dördüncü fəsil*

«Meymunun ömrünün birinci yarım hissəsi ona səadət gətirə bilər. İkinci yarım hissəsi – qızğın və iztirablı keçəcək, onun planları isə əksər hallarda alt-üst olacaq. Üçüncü yarım hissəsi isə mümkündür ki, sakit keçsin. Lakin o, tənha qocalığa məhkumdur. O, ailəsindən uzaqda, ola bilər ki, bədbəxt hadisə nəticəsində vəfat etsin».

*(Şərq Ulduz falından)*

Masa arxasında onların dördü də əyləşmişdilər. Bu qeyri-adi bir ailə naharı idi. Müslüm masanın başında oturmuşdu. Onun sağ tərəfində Vera Dmitriyevna, sol tərəfində Marina Borisovna, qarşısında isə Natalya əyləşmişdi. Onlar iri masanın ətrafında oturmuşdular və iki ofisiant onları yeni-yeni təamlara qonaq edirdi.

– Afərin sənə, - deyə Radvolina ucadan dilləndi. – Görünür, səni lazımi səviyyədə qiymətləndirməmişəm. Sanki sən heç bir iş görmürdün. Sadəcə, öz otağında, çarpayının üzərində oturub, nəyisə götür-qoy edirdin. Qapılar, çığırtılar və yubanmalar barədə hansısa ağlasığmaz suallar verirdin. Özün isə fəndgirliklə tələ qurub, kimin harada olduğunu aydınlaşdırmağa çalışırdın. Sonra isə qəfildən tələni örtdün və qatili yaxaladın.

– Mən heç vaxt qatilin Albina olacağını ağlıma belə gətirməzdim, - deyə Natalya etiraf etdi, - mənə o, mehriban və ciddi bir qız təsiri bağışlayırdı. Sən demə, daxilində iblislər var imiş.

– Onun vəziyyətini təsəvvürünüzə gətirin, - deyə Müslüm xatırlatdı. – Bir tərəfdən Famil Albinaya dəbdəbəli mənzilində qalmağa icazə verir və onun hüsn-rəğbətini qazanmağa layiq olduğunu zənn edir. O, artıq beynində gələcək üçün öz şəhərdənkənar evindən buraya necə köçəcəyinə, onunla necə yaşayacağına dair planlar qurur, ancaq bu məqamda Nataşa uşaq barədə ağlasığmaz bir xəbərlə gəlir. Əlbəttə, qız özünə nəzarəti əldən verməli idi. Yəqin ki, Famil bunu anlayır və elə bu səbəbdən söhbəti Albinanın eşitməməsi üçün astadan danışır. Lakin Albina artıq eşidilməsi lazım olan xəbəri eşitmişdi. Nataşa oranı tərk etdikdən sonra isə o, əsil isterikaya qapılaraq, qalmaqal yaradır. Elə bu məqamda Vera yuxarı qalxır. Ancaq İzmaylov qayıdanın Natalya olduğunu düşünür və tələsik qapını açır. Görünür, o, bu cür addım atmaqla növbəti qalmaqaldan yaxa qurtarmağa çalışırmış. Lakin Vera da həmin mənzili tərk edir və elə bu an ən xoşagəlməz hal baş verir. Familə Albina bir-birinin üzərinə qışqıraraq, qapıları bir- birinin üzünə çırpırlar.

Marina otağa qalxanda İzmaylov artıq elə bir gərgin vəziyyətdə olmuşdu ki, heç nəyi anlamaq iqtidarında deyildi. Albina naümid bir vəziyyətdə mətbəx bıçağını əlinə alır və onunla yüngülbeyin dostuna zərbə endirir. Sonra isə dərhal evi tərk edir. Famil bıçağı bədənindən çıxarmağa macal tapır, lakin böyük qan itkisindən həlak olur.

Albina yenə də şəhərdən kənarda olan evinə getmək məcburiyyətindədir. O, böyük bacarıqla öz hisslərini ört-basdır edir və baş verənlərə qarşı olan həqiqi münasibəti heç kimə demir. O, hətta həlak olmuş diplomatın ailəsinə başsağlığı da verir. Lakin Albinanın qəlbində əvvəlki kimi cəhənnəm bədxahlığı hökm sürməkdədir. Elə bu səbəbdən də, o, mənimlə söhbət vaxtı bir neçə cüzi səhvə yol verir. Axı o, peşəkar qatil deyil və hətta affekt vəziyyətində baş verən bu qətl hadisəsi onda əsəb sarsıntısı yaradır. O, hər dəqiqə baş verənlər barədə düşünür. Elə buna görə də, Albina Marinanın söhbətindən sitat gətirərək, ora dalbadal qız, ana və nənənin necə gəldiyini xatırlayaraq, qeyri-ixtiyari özünü ələ verir.

– Onun nə qədər əziyyət çəkdiyini düşünmək belə çətindir, - Natalya dalğın halda dedi. – Hazırda Albina xəstəxanadadır.

– Bizim üçün də asan olmayıb, - deyə Vera qızına xatırlatdı. – Müstəntiq bizə sənin yeganə şübhəli bilinən şəxs olduğunu bildirəndə, biz az qala dəli olacaqdıq. Mən hər dəfə eyni yuxu görürdüm, səni atın belində hansısa qafqazlılar aparır, sonra isə Qərb bordellərindən birinə satmağı qərara alırlar. Hər dəfə də mən yuxudan soyuq tər içində oyanır və yanına gələrək, sənin necə yatdığını yoxlayırdım.

– Əvvəlcədən cənab müstəntiqin səriştəsinə etibar etmək lazım idi, - deyə Marina yanında əyləşmiş Müslümə

işarə edərək qımışdı, - və onun geri çəkilmək və ya pis iş aparmaq iqtidarında olan bir insan olmadığını da anlamaq lazım idi.  O, əsil peşəkardır. Elə buna görə də, mən məhz onun təhqiqat aparmaq üçün buraya gəldiyini öyrənəndə sakitləşdim. Mən onun gec və ya tez bizim təqsirsizliyimizi sübuta yetirən dəlili tapacağına və əsil qatili ifşa edəcəyinə əmin idim.

– Sən onun barəsində məndən daha yaxşı fikirdə olmusan, - deyə Vera kinayə ilə dilləndi.

– Bəli, - deyə ana başını yellədi, - mən həqiqətən də, onun barəsində yaxşı fikirdə idim.

– Ona görə ki, o, səni atmayıb, məni isə atıb, - deyə Vera xatırlatdı, - elə buna görə də, mən ona inanmırdım. Sona qədər inanmırdım. O, bizim hamımızı qane edənə qədər.

– Sən nə vaxt Bakıya qayıdırsan? – deyə Marina soruşdu.

– Sabah səhər, - deyə Müslüm bildirdi.

– Sən yenə də subaysan? – deyə Marina soruşdu.

– Bəli. Sənin qızına bənzərini tapa bilmədim.

– Bu barədə əvvəl düşünmək lazım idi, - deyə Marina donquldandı, - hazırda onun qəlbini ələ almaq müşküldür. İndi onun əlinin altında çoxlu əməkdaş işləyir. Vera artıq vacib adamlardan biridir, özü də deputatdır.

– Hə, - deyə o, qəmgin bir tərzdə başını yırğaladı, - belə böyük vəzifəli məmurla həyatımı başa çatdıra bilmərəm.

– Ana, - deyə Vera narazı halda dilləndi, - bəlkə siz bu desertinizi tamamlayıb, bizə normal bir tərzdə danışmaq imkanını vermək üçün buranı tərk edəsiniz? Məgər sən mənim özümü sənin yanında onunla necə pis hiss etdiyimi

anlamırsan? Mənə hər dəfə elə gəlir ki, Müslüm səni mənimlə müqayisə edir.

– Bizi müqayisə etmək çətindir, - deyə ana etiraz etdi. – Mən yalnız nəvələrim və bütün yaxşı günlərin mənim üçün arxada qalması barədə düşünməyə borclu olan qoca bir qarıyam. Sən isə ömrünün baharını yaşayan qadınsan. Sənin cəmi qırx yaşın var. Sən hələ doğa, sevə, görüşə və nifrət edə bilərsən. Sənin həyatın hələ qabaqdadır.

– Əgər sən bizi təklikdə buraxıb getsən, biz bu məqamları da müzakirə etməyə macal taparıq, - deyə Vera pərt halda bildirdi.

– O halda, biz sizi tərk edirik, - deyə Marina stuldan qalxdı. – Bilmirəm sonda hansı qənaətə gələcəksiniz, amma sənin kimi bir kürəkəni yalnız arzulamaq olar. Həm də heç də hər kürəkən gənclikdə öz qaynanasını tovlamağı ilə qürrələnə bilməz.

– Ana! – deyə Vera qışqırdı.

– Nənə, - deyə Natalya qıpqırmızı qızardı, - nə danışırsan?

– Həqiqəti, - deyə o, sakit bir tərzdə cavab verdi. – O, elə gənc və güclü idi ki. Elə mən də gənc və güclü idim. Mənim o vaxt cəmi otuz dörd yaşım var idi. Onun isə iyirmi dörd yaşı var idi. Bizim necə bir görkəmdə olduğumuzu təsəvvürünüzə gətirə bilərsinizmi? Ola bilsin ki, bu, həm kişi, həm də qadın üçün ən qənaətbəxş yaş dövrüdür.

Marina Müslümə yaxınlaşıb onun alnından öpdü.

– Bu, sənin Natalyanın incidilməsinə yol vermədiyin üçündür, - deyə Marina bildirdi, - özün də onu incitmədin. Nəvəmə qarşı bu cür münasibətinə görə çox sağ ol.

Müslüm çiyinlərini çəkdi, lakin dillənmədi.

– Hələlik, - deyə Nataşa əlini ona uzatdı.

Müslüm qızın da əlini sıxdı.

– Bizim ailə əsil Avropa ailəsidir, - deyə Vera narazı tərzdə donquldandı, - sərbəst ədəb qaydaları. Kiminlə görüşəcəyini özün seçə bilərsən. Geniş diapozon – nənədən tutmuş nəvəyə qədər. Siz gedəcəksiniz, ya yox?

– Gedirik. – Marina nəvəsinin əlindən tutdu və onlar çıxış qapısına doğru getdilar.

– Necə olur-olsun, o, qocalıb, - Müslümün ürəyi yerindən oynadı.

Anası ilə qızı qapı arxasında yoxa çıxandan sonra Vera nəhayət, ona nəzər saldı.

– Sən bütün olub-keçənlər haqda nə düşünürsən?

– Bilmirəm. Tamamilə mümkünsüz və fantasmaqorik bir vəziyyətdir. Düz sözümdür, bilmirəm. Bircə onu dəqiq bilərəm ki, həmişə yalnız səni sevmişəm.

– Bəlkə elə buna görə məni uzun illər atdın?

– Aramızda hər şey hər dəfə başdan başlayır. Mən sənə necə sevdiyimi deyirəm. Sənsə mənim səni atdığımı xatırlayırsan. Mən sənə müharibə olduğunu başa salmağa çalışıram, sənsə bunun səbəb olmadığını söyləyirsən. Hər dəfə də eyni şey.

– Haqlısan, - deyə Vera razılaşdı, - və elə bu səbəbdən də, biz gələcək üçün planlar qurmamalıyıq. Bu, uyğun vəziyyət deyil, Müslüm. Biz artıq gənc deyilik. Bizim hər birimiz artıq həyatımızı qurmuşuq. O vaxtlar mən də səni bəyənirdim. Çox bəyənirdim. Lakin o dövr artıq geridə qaldı. İndi daha fərqli dövr və daha fərqli bir vaxtdır. Bunu sən də başa düşməyə məcbursan.

– Başa düşürəm.

– Qorxum odur ki, başa düşmürsən. Anam həmişə aramıza girəcək. Bizim bir-birimizə nə deyəcəyimizdən və özümüzü necə aparacağımızdan asılı olmayaraq. Bu, mümkün deyil, nalayiq hərəkətdir və nəhayət, ədəbsizlikdir. Bəs Natalya sənə necə münasibət bəsləyəcək? Anasının, yoxsa nənəsinin dostu kimi? Bəlkə atalığı kimi?

– Zənnimcə, sən hər şeyi mürəkkəbləşdirirsən. Sadəcə, bir dost kimi də qəbul edə bilərdi.

– Sadə heç nə olmur. Sənin artıq qırx səkkiz yaşın var, tezliklə təqaüdə çıxırsan. Sən bizim müştərək həyatımızı necə təsəvvür edirsən? Sənə səhərlər qayğanaq bişirib, əynimdə xalat, saçlarımda isə biqudi önündən ötüb keçirəm. Yalnız bu cür müəyyən ölçüyə sığan bir əyalət qadınının həyatı mənə görə deyil. Mən artıq mətbəxdə dayanaraq, hansısa bir məişət problemləri ilə məşğul olmağın, yemək hazırlamağın, ev yağışdırmağın, kiminsə pal-paltarlarını yumağın mənim üçün olmadığına vərdiş etmişəm. Mənim tamamilə fərqli bir həyat ritmim var, Müslüm. Sən bunu başa düşməlisən.

– Bu qədər sözə ehtiyac varmı? Mən artıq sənin yanımda olmayacağını və olmaq istəmədiyini başa düşdüm. Əsil reallıq da elə budur. Qalanlar isə – bər-bəzək və lüzumsuz sözlərdir. Hətta mənim iyirmi dörd il bundan əvvəl sənin ananla olan təsadüfi görüşüm belə sənin qərarına təsir etməməli idi. Lakin təsir etdi. Bir çox şeylərə təsir etdi…

– Deməli, qismət belə imiş, - deyə Vera acı-acı gülümsədi. – Deməli, hər şey belə də olmalı idi. Mən Radvolinə ərə gedib, onunla bu qədər yaşamalı, sonra isə dul qalmalı idim. Sənin taleyində isə boşanıb, tək qalmaq var imiş. Ömrünün sonuna qədər. Gəncliyimizdə necə xoşbəxt olduğumuzu xatırlamaqla arabir zəngləşib, görüşərik.

– Sən elə indi də gəncsən.

– Yox. Bunlar ümumi sözlərdir. Ürəyə rahatlıq gətirən, axarlı-baxarlı və nəzakətli sözlər. Mənim artıq qırx yaşım var. Qırx yaşım var, Müslüm. Həm də böyük qızım var. Qadın isə qırx yaşından sonra onun əvvəllər malik olduğu imkanları tədricən itirməyə başlayır. Biz bunu daha kəskin və güclü bir tərzdə hiss edirik. Labüd qocalığın get-gedə bizə yaxınlaşmasını.

Müslüm susurdu. Ağlı ilə Veranın haqlı olduğunu anlayırdı. Qadının həm özü, həm də onun əvəzinə qərar qəbul etdiyini təsəvvüründə canlandırırdı. Bu, yeganə düzgün qərar idi. Onlar həddən artıq müxtəlif adamlardır. Bir vaxt, fərqli bir vaxtda və dövrdə onlar bir-birinə yaxın, bir-birinin yanında olmuşdular, sanki taleyin özü onlara bu nadir şansı verərək, onların ittifaqını sınaqdan keçirməyi qərara almışdı. Lakin mərkəzdənqaçan qüvvələr onları müxtəlif istiqamətə ayırdı. Əslində, bunda heç kim təqsirkar deyildi. Nə müharibə, nə dövlətin süquta uğraması, nə də ki, onların şəxsi istəkləri və ya həvəsləri. Taleyin özü onları bir araya gətirmiş və bir-birindən ayırmışdı. Gileylənmək də ağılsızlıq idi. Bu, üzərində daşıması hər hansı bir insan üçün vacib olan və anadan olarkən, həmin insana bəxş edilən hansısa bir kod, cinsiyyət və ya dərinin rəngindən gileylənməyə bərabər bir hal idi. Hətta cinsiyyət və ya dərinin rənginin dəyişdirilməsi cəhdi müşayiət olunun bu kimi qeyri-təbii dəyişikliklər belə insanı dərhal xoşbəxt etməyə qadir deyil. Lakin nadir müstəsnalar da istisna olunmur. O, yenidən ürəyinin çırpındığını hiss etdi.

– Sən buraya növbəti dəfə gələndə, biz artıq səni nəticəmiz ilə qarşılayacağıq, - deyə Vera gülümsədi, - düz on iki ildən sonra. Sənin o vaxt cəmi altmış yaşın olacaq. Mənim

isə əlli iki. Biz hələ də gənc olacağıq və mən bizim Nataşanın dünyaya gətirdiyi oğlan və ya qız uşağını sənə göstərəcəyəm.

– Zənnincə, mən sizin şəhərə yalnız hər on iki ildən bir gəlməliyəm? - deyə Müslüm acı-acı gülümsədi.

– Sən özün üçün məhz bu cür tale seçmisən. Ya da tale özü səni seçib. Bilmirəm. Lakin üç dəfə dalbadal eyni təsadüf – bu hətta tale üçün də ifrat dərəcədə çoxdur. Üç Meymun ili. Növbəti Meymun ili iki min on altıncı ilə təsadüf edəcək.

– Deyilənə görə, Bakı on altıncı ilin Olimpiya oyunlarının məhz bizdə keçirilməsinə ərizə verəcək, - deyə Müslüm xatırladı. – Səkkizinci ildə onu Pekində, on ikinci ildə isə Londonda keçirəcəklər. Deməli, bizim Bakıda keçirilən Olimpiya oyunlarında görüşmək şansımız olacaq.

– Ya da sən yenə bizə gələcəksən. Ümidvaram ki, bu dəfə səbəb daha uğurlu olacaq.

– Siz Viktoriya ilə nə etməyi düşünürsünüz?

– Artıq bu barədə düşünmək gecdir. O, doğmalıdır. Onun oğlu olacaq. O, mənə xəlvəti deyib ki, uşağın adını Müslüm qoymaq istəyir. O, bu adı çox bəyənirdi.

– Lakin mənim şərəfimə deyil, Müslüm Maqomayevin şərəfinə olsun.

– Kim bilir, - deyə Vera gülümsədi, - çox istərdim ki, məni düzgün başa düşəsən. Xüsusilə də, bizim qarşılıqlı münasibətimizə dair məsələdə. Mən sənin buradan ürəyində ağır bir yüklə ayrılmamağını istəyirdim. Meymun ili – sənin üçün karmalı ildir, bunu heç vaxt unutma.

– Artıq heç vaxt unutmayacağam, - deyə o, söz verdi.

– Etdiyin hər şeyə görə də çox sağ ol, - deyə əlavə etdi. – Unutma ki, sənin Sankt-Peterburq meriyasında bir tanışın var. Bu, sənin düşündüyün qədər də pis deyil. Ən başlıcası –

gələn dəfə biz sənin belə bir mehmanxanada qalmağına şübhəsiz, icazə verməyəcəyik.

– Sözünü elə havadaca tutdum, - deyə Müslüm gülümsədi. Ürəyim baxmayaraq sancırdı.

Müslüm və Vera vidalaşdılar. Onlar qəribə tərzdə vidalaşırdılar, çox ehtiyatla qucaqlaşdılar, yaxın vaxtlarda dostlaşmış yad adamlar kimi. Yöndəmsiz tərzdə yanaqlarını çevirir, sanki sir-sifətlərinin tüpürcəklənəcəyindən çəkinirdilər. Ayrılmamış bir-birlərinin əllərini sıxdılar. Müslüm maşınına minib getdi. O, maşına doğru gedərkən, Vera başa düşdü ki, bundan sonra onu bir daha görməyəcək. «Onun geri çevriləcəyi təqdirdə, arxasınca qaçıb saxlayacağam, - Vera qəti qərara gəldi. – Geriyə çevriləcəyi təqdirdə…» Müslüm geri baxmadı. Avtomobilinə əyləşib getdi.

Bundan sonra Müslüm Sankt-Peterburqa qayıtmadı. Düz on iki il sonra özünün karmik Meymun ilində, ekskursiyaya getdiyi Macarıstanın kiçik bir şəhərində vəfat etdi. Onun cənazəsini Bakıya gətirib şəhər qəbiristanlığında valideynlərinin yanında dəfn etdilər. Deyilənə görə, qızı Müslümün dəfn mərasimində iştirak edə bilmədi. Onun Fransada kurortda istirahət etdiyi bildirilirdi. Bəlkə də bu, bir şayiə idi.

**Redaktoru:** Zeynəb Əliqızı, **055-642-88-72**

**Çingiz Abdullayev**

# Meymun ili

*(roman)*

**Çapa imzalanmışdır: 25.09.2011**
**Kağız formatı 64x108 $^{1}_{16}$**
**Çap vərəqi 12,5. Sifariş 36**
**Qiyməti müqavilə ilə**